ƏLİSAHİB ƏROĞUL

# AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASI

## (Bədii, tarixi publisistika)

Təknur Bakı – 2009

Redaktor: Nazim Tapdıqoğlu
Korrektor: Günel Asifqızı

Ə.51. ***Əlisahib ƏROĞUL,***
AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASI (bədii, tarixi publisistika), Bakı, «Təknur», 2009, səh.200

***Annotasiya:***

Kitabda erməni-daşnak faşizminin son bir əsrdə Azərbaycan türklərinə qarşı yürütdükləri soyqırımı və etnik təmizləmə siyasətinin terror şiddətindən, onun amansızlığından bəhs edən, sırası minləri asan konkret faktlar öz əksini tapır.

Kitab insanlığa qarşı yönəlmiş bu cinayətlərin dünya ictimaiyyətinin nəzər-diqqətinə çatdırılması üçün nəşr edilir. Müəllif bu kitabı ingilis, ispan, rus, alman, fransız və ərəb dillərinə çevirəcək və buna səy göstərəcək mütərcimlərə bəri başdan öz minnətdarlığını bildirir.

İSBN 978-9952-445-08-7

© «Təknur», 2009 Əlisahib ƏROĞUL

# QARABAĞ HARAYI!!!

Vətən oğlu, iki əsrdən artıqdır ki, Rus imperiyasının ağuşuna atılmış erməni-daşnak faşistləri varlığımıza qənim kəsilmişlər. Yaşamaq haqqımızı belə əlimizdən almışlar. Bizi - Azərbaycan türklərini erməni-daşnak faşizminin erməni adıyla ifadə olunan, erməni barbarlığının, erməni vandalizminin, erməni vəhşətinin və vəhşanəliyinin günahsız qurbanlarına çevirmişlər. Rus imperiyasının himayəsi və havadarlığı altında misli görünməmiş qəddarlıqlarla etnik təmizləmə siyasəti aparır, qətliamlar törədir, ulu əcdadlarımızın min illər boyu uyuduqları tarixi etnik torpaqlarımızı ilhaq edirlər. Bədnam dənizdən-dənizə erməni dövləti qurmaq arzularını həyata keçirirlər. Utopik, uydurma «böyük Ermənistan» xülyasını mərhələ-mərhələ gerçəkləşdirirlər.

Erməni-daşnak faşistləri ilkin olaraq açıq şəkildə 1905-1907-ci illərdə Azərbaycan türklərinin qətliamına fərman verdilər və milli-etnik münaqişə zəminində XX əsrin, həm də dünyanın ilk soyqırımı faciəsini törətdilər. Dişləri qana batdıqca şirnikdilər, ayrı-ayrı dövrlərdə tarixi şəraitə uyğun və məqsədyönlü şəkildə müxtəlif metod və üsullarla təzyiq, təhdid və təqiblərini səngitmək bilmədilər. Azərbaycanlıların qətliamının II mərhələsində - 1918-1920-ci illərdə soyqırım və etnik təmizləmə siyasətini daha da amansız şəkildə davam etdirdilər. Super güclərin dəstəyi ilə əcdadlarımızın Oğuz yurdunu - Qərbi Azərbaycanı qəsb etdilər. Ana şəhərimiz olan İrəvanı isə özlərinə paytaxt seçdilər. Total türk düşməni Stalinin saqqızını oğurlayaraq etnik təmizləmə siyasətinin III mərhələsində - 1948-1953-cü illərdə isə cinayətkarcasına Ermənistan SSR ərazisindən Azərbaycan türklərinin deportasiyasını həyata keçirdilər. 1988-1991-ci illərdə isə son olaraq daşnak terror qruplarının təzyiqləri, təxribatları və sui-qəsdləri ilə Azərbaycan türklərini etnik torpaqlarından - Qərbi Azərbaycandan son nəfərinədək çıxardılar, yurd-yuvalarından didərgin saldılar. Türksüz Ermənistan Respublikası yaratmağa müvəffəq oldular.

Bütün bunlarla kifayətlənməyən erməni-daşnak faşistləri günü bu gün də Azərbaycan torpaqlarını qəsb etmək, etnik təmizləmə və qətliam siyasətlərini davam etdirməkdən əl çəkmirlər. On altı ildən artıqdır ki, Vətənimizin doyünən ürəyi olan Qarabağ torpaqlarını işğal altında saxlayırlar. Bir milyondan çox soydaşımız çadır düşərgələrində, fin qəsəbələrində, yük vaqonlarında, mal-qara qışlaqlarında, yol kənarlarındakı torpaq qazmalarda, tikintisi yarımçıq qalmış ictimai binalarda, yataqxanalarda, uşaq bağçalarında və məktəblərdə ağır şəraitdə həyat tərzi keçirirlər. Hələ də «böyük Ermənistan» kabusu üstümüzə yeriməkdədir. Vətən təhlükədədir!

Bu gün Qarabağı geri qaytarmaq Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq, Azərbaycanda separatizmin kökünü kəsmək haqqımızı kimsə əlimizdən ala bilməz. «Qarabağsız Azərbaycan

yoxdur!» deyənlər haqq yolundadılar. Sarsılmaz Azərbaycan dövlətçiliyinin keşiyindədilər. Qarabağ uğrunda ədalətli mübarizəmiz öz həllini tapmayınca mənəvi yaralarımızın sağalacağından, fiziki şikəstliyimizin aradan qalxacağından hər hansı bir şəkildə danışmaq olmaz. Nə qədər erməni-daşnak faşizmi var, onun ideyalarını yaşadanlar mövcuddur, nə dinclik, nə sülh bizə qismət olmayacaqdır. Varlığımız təhlükə altında olacaq, zaman-zaman torpaqlarımız erməni-daşnak faşizminin təcavüzünə məruz qalacaqdır.

Vətən oğlu, Qarabağ bu gün bizim üçün Tanrı sınağı, qeyrət rəmzidir. Qarabağ bizim yaşam pasportumuzdur. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli mənlik, milli özünüdərk, olum-ölüm məsələsi, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin meyarı deməkdir. Qarabağı unutsan, həyatınla, varlığınla, bu gününlə, sabahınla vidalaşmalı olacaqsan. Bu gün səni məhv etməyi, varlığını tarix səhnəsindən silməyi qarşısına məqsəd qoymuş erməni-daşnak faşizmi ilə üz-üzəsən. Yurd-yuvanı, əcdadlarının uyuduğu torpağı müdafiə etmək, mənliyini qorumaq, yaşamaq və gələcəyini yaşatmaq üçün Qarabağ uğrunda mübarizə aparmağa məhkumsan. Bu mübarizə sənin yaşamaq haqqın, həyat seçimindir!

Qan yaddaşını oyat! Unutma ki, tarixdən ibrət dərsi götürməyənləri tarix özü cəzalandırır!

# AÇIQLAMA

Azərbaycanda erməni terrorunun tarixi, demək olar ki, ermənilərin və ya erməni elementlərinin, xoşagəlməz ünsürlərin bu torpağa qədəm qoyduqları, ayaq basdıqları günlərdən, VII-VIII əsrlərdən başlayır. Bununla onlar ilk iri terror aktlarını qəsbkarlıq zəminində xristianlığı qəbul etmiş alban türklərinə qarşı yönəltmişlər. Xilafətə quyruq bulayan erməni qriqorian kilsəsi mığrı türk tayfasından olan Böyük Alban hökmdarı Cavanşirin 681-ci ildə zəhərlənməsində, onun son varisi Şeruya və ona yaxın adamların şərə-böhtana salmaraq qətlə yetirilmələrində, daha doğrusu, ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan tərəfindən Xilafətin paytaxtı Şam şəhərinə aparılaraq orada 705-ci ildə edam edilmələrində xüsusi fəallıq göstərmişdir. IX əsrin istiqlaliyyət mücahidi, azadlıq aşiqi, Azərbaycanın xalq qəhrəmanı Babək və qardaşı Abdulla erməni xislətli Səhl ibn Sumbat və oğlu Müaviyə tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təslim edilmişlər. Onlar bu xəyanətdən bəhrələnmiş, Babəki ərəblərə sataraq çoxlu pul qazanmışlar. 838-ci il mart ayının 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edilmişdi. Qardaşı Abdulla isə eyni işgəncə ilə Bağdad şəhərində qətlə yetirilmişdi. Hətta XIII əsrdə özünü Xaçın knyazı elan edən Həsən Cəlalın son varisi də XVI əsrdə gəlmə ermənilər tərəfindən zəhərlənərək aradan götürülmüşdü. Bununla da dönmə ermənilərin son varisi kimi çrxış edən Xaçın məlikliyinin özündə belə rəhbərliyi gəlmə ermənilər öz əllərinə keçirmişlər.

Mən bu bölmədə XVI əsrdən başlayaraq ilk öncə Azərbaycan ərazisində ermənilərin törətdikləri terror aktlarının xronologiyasını verməyə çalışmışam. Əlbəttə, dünya arenasında ermənilər və erməni-daşnak terrorçuları müxtəlif adlar altında terror aktları törədir, həm də kifayət qədər ifşa olunmuşlar. O da aydındır ki, erməni terrorçularının və terror qrupların ümumi və fərdi terror aktları 1892-ci ildən başlayaraq siyasi məna kəsb edən bir hərəkata çevrilmişdir. Bu isə sözün əsl mənasında Daşnaksütyun partiyasının adıyla bağlıdır. Çünki Daşnaksütyun öz yaranışı ilə Armenak və Onçaq partiyalaranın arxa plana atdı. Daşnaksütyun partiyasının ən kəsərli silahı məhz bir ərazidə yaşadıqları qonşu xalqlara qarşı törədilən terror aktlarından faydalanmaq siyasətidir. Təkcə bir faktı göstərmək kifayətdir ki, erməni daşnak terrorçuları 1970-1980-ci illərdə türk səfirliklərinə və türklərə qarşı 220-dən çox terror aktı törətmişlər. Əllidən çox insan, o cümlədən 41 türk diplomatı qətlə yetirilmişdir. Onların ailə üzvləri də zərərçəkən insanlardan olmuşlar. Biz burada XIX-XX əsrlərdə erməni terrorçularının Türkiyə ərazisində və ya türk səfirliklərinə qarşı törədilən və həyata keçirilən terror aktları barədə məlumat verməyi qarşıya məqsəd qoymamışıq. Çünki Anadoluda və dünyanın bir sıra aparıcı ölkələrində erməni-daşnak faşistləri tərəfindən törədilən bu terror aktları barədə kifayət qədər deyilib və yazılıbdır. Əfsuslar olsun ki, ermənilərin və erməni-daşnak faşizminin Azərbaycanın tarixi-coğrafi ərazisində son iki əsrdə

mütəmadi və məqsədyönlü şəkildə törətdikləri həm fiziki, həm də mənəvi-ideoloji terror aktları kifayət qədər araşdırılmamış, sistemli şəkildə öyrənilməmişdir. Deyərdim ki, hətta günü bu gün də terror aksiyaları tarixi faktlar əsasında izlənməmiş, Azərbaycanın varlığına yönəlmiş qəsdləri müqabilində erməni-daşnak faşistlərinin cinayətləri yetərincə ifşa olunmamışdır. Halbuki ötən yüzilliklər ərzində ermənilər və erməni-daşnak faşistləri Azərbaycana və Azərbaycan türkünə qarşı xəyanət yolu tutduqlarını dönə-dönə nümayiş etdirmişlər. Yüz minlərlə Azərbaycan türkünü aman vermədən qətlə yetirmişlər, yurd-yuvalarından didərgin salmışlar. Əsas məqsədləri Azərbaycan türkünü məhv etməklə etnik təmizləmə siyasətlərini həyata keçirmək olmuşdur. Onlar bu istəklərini terror müharibələri ilə yerinə yetirmişlər. Azərbaycan torpağında öz dövlətlərini qurmağa çalışmış və son anda buna nail olmuşlar. Bu terror və ilhaq prosesini davam etdirməkdə hələ də israrlıdılar.

## AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASI

**01.** ***10 dekabr 1586-ci il:*** Səfəvi şahı Məhəmməd Xudabəndənin vəliəhdi Həmzə Mirzə erməni sui-qəsdi nəticəsində - dəlləyi, erməni Xudaverdinin əli ilə öldürülmüşdü. Bununla da şahın fars qızından olan oğlu, I Şah Abbas hakimiyyət başına keçmişdir. Beləliklə, ermənilərin Quzey Azərbaycan ərazilərinə köçmələrinə, xüsusi güzəştlər əldə etmələrinə, zaman-zaman vəzirlik səlahiyyətlərini özlərində saxlamalarına, ölkə iqtisadiyyatında idarəçiliyi öz əllərinə keçirmələrinə münbit şərait yaranmışdır. I Şah Abbas erməni monastrlarının təsis edilməsinə, monastrların və yepiskopların ciziyələrdən azad edilməsinə dair fərmanlar vermişdir. İşğal zamanı Osmanlı xidmətinə keçirdiklərinə görə Qarabağın otuz iki, Gəncəbasarın Qazax, Şəmsəddil oymaqlarını və elatlarını dönük elan edərək onları yurd-yuvalarından didərgin salmışdır. Qarabağdan və Şirvandan Mazandarana 5 min ailə sürgün etmiş, yerlərində isə Mazandarandan və ətraf ərazilərdən erməni icmalarını məqsədyönlü şəkildə onların boş qalmış yurd yerlərinə köçürmüşdür. 27 oktyabr 1620-ci il tarixli fərmanıylasa Kafan və Üçtəpə kəndlərini Kunkan adlı bir erməni nəfərinin mülkiyyətinə vermişdir; (Bundan başqa I Şah Abbas türk təməlli Səfəvilər dövlətinin fars mənşəli dövlətə çevrilməsində mühüm rol oynamışdır - Ə.Ə.).

**02.** ***1721-1734-cü illər:*** Erməni keşişləri rus çarlarını Qafqazı işğal etməyə həvəsləndirmək və tələsdirmək üçün təkcə məktublar yazmaqla, elçilər göndərməklə, xəyanət və satqınlıqlar etməklə kifayətlənmirdilər. Həm də qoşunla da kömək göstərəcəklərini vəd edirdilər. Onların fitvası və yardımı ilə Avan koxa adlı erməni ətrafına quldur dəstəsi yığıb Qarabağda at oynatmağa başlamışdır. Avan koxa vahimə yaratmaq üçün xüsusi qəddarlıqlar edirdi. Əlsiz, ayaqsız türkləri ələ keçirir, Bağrıqan dağındakı cinayət yuvasına aparır. Burada

dərilərindən çıxardığı zoğlarla onları ağacdan asaraq işgəncə verə-verə qətlə yetirirdi. Bu illərdə çoxsaylı terror aktları həyata keçirmişdi;

**03.** ***1750-1760-cı illər:*** Çelaberd və Gülüstan ermənilәri Dəli Mahrasa, Tülü Arzuman, Çalağan Yüzbaşı öz quldur dəstələri ilə ətraf kəndlərə həmlələr edir, dinc, əliyalın Azərbaycan türklərini ələ keçirir və qətlə yetirirdilər. Bununla onların havadarları Cənubi Qafqazın işğalı zamanı imperiya ordusuna yaxından köməklik edəcəklərini bildirir, rus çarlarının diqqətini özlərinə cəlb etmək istəyirdilər;

***04. 03 yanvar 1804-cü il:*** Erməni millətindən olan quldurbaşı Qriqor Manuçaryan özünün 500 nəfərlik dəstəsi ilə Gəncənin qaniçən çar generalı Sisianov tərəfindən işğal edilməsində yaxından iştirak etmiş, yüzlərlə dinc şəhər sakininin qətlə yetirilməsində öz nankorluqlarını və xəyanətlərini işə salmış və sübuta yetirmişlər. Təkcə bir faktı göstərmək kifayətdir ki, çar ordusunun əsgərləri erməni fitnəkarlığı ilə cümə məscidinə sığınmış 500 nəfər azərbaycanlını ləzgi adı altında qətlə yetirmişlər;

***05. 02 iyun 1806-cı il:*** Uzun müddət çar Rusiyasına casusluq etmiş Məlik Cümşüd Şahnazaryan hələ 1796-cı ildə Gürcüstana səfər etmiş, orada çara xidmət edəcəyi barədə müqaviləyə imza atmışdır. Məlik Cümşüd Şahnazaryanın xəyanətkar təhriki və bələdçiliyi ilə rus mayoru Lisanoviç öz dəstəsi ilə Xanbağında istirahət edən Qarabağ xanı İbrahimxəlil xanı ailə üzvləri və əyanları ilə birlikdə (cəmi 17 nəfər) yataqlarında ikən qətlə yetirmişdi. Bunun müqabilində parabeyin kimi tanınan mayor Lisanoviç sonralar general rütbəsinədək yüksəldilmişdi. Rusiyanın xeyrinə etdiyi xəyanətkar xidmətlərinə görə isə Məlik Cümşüd çar Pavel tərəfindən polkovnik rütbəsinə layiq görülmüş, Tiflis şəhərində mənzillə və 1400 manat məbləğində ömürlük dövlət təqaüdü ilə təmin edilmişdi;

***06. 1819-cu il:*** Çar Rusiyası tərəfindən işğal edilmiş ərazidə - müsəlman əyalətinin həmin dövrdə hərbi rəisi işləyən, türk qəddarı kimi ad çıxarmış erməni mənşəli çar generalı V.Mədətov tərəfindən Şəki xanı İsmayıl xan zəhərlənərək qətlə yetirilmişdir; Ümumiyyətlə, 2 may 1796-cı ildən 10 fevral 1828-ci ilədək çar Rusiyasının Azərbaycanda apardığı işğalçılıq müharibəsi əsasən ermənilərin - erməni keşiş və tacirlərinin, erməni mənşəli çar general və zabitlərinin satqınlıqları və xəyanətkarlıqları, bələdçilikləri və yol göstərmələrinin müşayiəti altında aparılmışdır. Azərbaycan türklərinin olmazın müsibət və bəlalara düçar olmasında, aborigen millətin dədə-baba yurdlarını tərk etmələrində, kütləvi qırğınlarının təşkilində nankor erməni muzdluları müstəsna rol oynamışlar. Erməni əlindən su içən, ermənipərəst rus generalları Sisianov, Bulqakov, Qudoviç, Yermolov, Paskeviç, Kotlyarovski və onlarca başqaları müsəlman əhaliyə qarşı güzəştin nə olduğunu bilməmişlər. Yeraltı, yerüstü sərvətlərlə bol olan Azərbaycan torpağını qanlı müharibələr meydanına çevirmişlər. Sisianovun Gəncədə, Bulqakovun Bakıda, Yermolovun Şəkidə, Paskeviçin İrəvanda, Kotlyarovskinin ən qədim türk qalası olan Mığnda

törətdiyi kütləvi qırğınların miqyası hələ də yaddaşlardan silinməmişdir. Onları məhz bu qırğınları törətməyə həvəsləndirən Nerses, Stefan, Danil, Arqutinski, Yefrem, İonesyan, Sərkis, Yeqiş, Karapet kimi erməni keşiş və tacirləri olmuşlar. Azərbaycan türkünün cəlladlarına çevrilmiş erməni mənşəli çar generalları Valerian və Mirzəcan Mədətovlar, Behbudov, Lazarev və Korqanovlar həmin dövrdə fürsət düşdükcə Azərbaycan xalqından amansızlıqla qisas almışlar. İkiüzlü siyasətləri, vəhşi və məkrli hərəkətləri ilə öz çirkin niyyətlərini həyata keçirmək üçün neçə-neçə eli, obanı, elatı qan içində boğmuşlar. Öz qəddarlıqları ilə bir-birindən seçilməyən erməni mənşəli çar generalları hansı vəzifədə və nə vaxt işləmələrindən asılı olmayaraq birmənalı şəkildə yerli əhalini barbarcasına, bacardıqca soyub-talayır, incidir, onları üz-üzə qoyur, onlarda qiyam əhvali-ruhiyyəsi yaradır, əhalini çar Rusiyasına qarşı qoyur və onların işğalçı qüvvələr tərəfindən məhv edilməsinə nail olurdular;

**07.** ***02 sentyabr 1826-cı il:*** Erməni mənşəli çar generalı V.Mədətov Şəmkirdə 2000 Azərbaycan türkünün qətlinə fərman vermişdir;

**08.** ***13 sentyabr 1826-cı il:*** Erməni mənşəli çar generalı V.Mədətov rus qoşunlarının ikinci dəfə Gəncəni zəbt etməsi zamanı Gəncədə 1500 Azərbaycan türkünün qətlə yetirilməsinə müvəffəq olmuşdur;

**09.** ***06 fevral 1828-ci il:*** Türk qanı içməyə hərislənən erməni mənşəli çar generalı V.Mədətov baş komandanın əmri və göstərişi olmadan Təbriz yaxınlığında özbaşınalıq edərək talanlar törətmiş, dinc əhaliyə qarşı silah işlədilməsinə yol vermiş, burada da özünü türk qatili tək göstərməkdən çəkinməmişdir;

**10.** ***20 may 1903-cü il:*** Daşnak terrorçuları Gümrüdə (Aleksandropolda) dinc türklərə rəğbət göstərdiyinə görə rus kahini Vasilyevi qətlə yetirmişlər;

**11.** ***17 avqust 1903-cü il:*** İrəvan dəmiryol stansiyasında cinayətlərə əl atan, dinc türklərə qarşı vəhşi hərəkətlər törədən erməniləri qanunlara riayət etməyə məcbur etdiyinə və çağırdığına görə daşnak terrorçuları rus millətindən olan Stepan Damkovu qətlə yetirmişlər;

**12.*****29 avqust 1903-cü il:*** Daşnak terrorçuları Gəncədəki erməni kilsəsinin çağırışı ilə II hissədəki türklər məhəlləsinə basqın etmiş, dükanları çapıb-talamış, sayı qeydə alınmayan dinc sakinləri qətlə yetirmişlər;

**13.*****05 sentyabr 1903-cü il:*** Daşnak terrorçuları Qars şəhərində işləyən rus məmuru, milliyyətcə Azərbaycan türkü olan Şərif Laçın-bəyovu qətlə yetirmişlər;

**14.*****13 oktyabr 1903-cü il:*** Milli ədavəti təbliğ etdiyinə görə Üçmüəzzin kilsəsinin fəaliyyətini nəzarətə götürmək istəyən general-adyutant, knyaz Q.S.Qalitsin üç daşnak terrorçusu tərəfindən izlənərək Tiflis şəhərində qətlə yetirilmişdir;

**15.** ***06 yanvar 1904-cü il:*** Daşnak terrorçuları erməni təxribatlarının qarşısını almağa cəhd göstərdiklərinə görə Yelizavetpol (Gəncə) quberniyasının vitse-qubernatoru Andreyevi və 15 məmurunu qətlə yetirmişlər;

**16.** ***15 avqust 1904-cü il:*** Azərbaycan türklərini yerli xalq saydığına, onların milli adət-ənənələrini öyrəndiyinə, tarixinə dair qeydlər apardığına, onlarla dostluq etdiyinə və xəstələrinə tibbi yardım göstərdiyinə görə İrəvan quberniyasının həkimi Urazov daşnak terrorçuları tərəfindən dəfələrlə hədələnmiş, lakin öz humanistliyindən əl çəkmədiyinə görə o, terrorçular tərəfindən qətlə yetirilmişdi;

**17.** ***1903-1904-cü illər:*** Tarixi araşdırmalar göstərir ki, daşnak terrorçusu Vazgenin rəhbərlik etdiyi terror qrupu bu illər ərzində Şuşa şəhərində və onun ətraf kəndlərində say hesabı ilə 500 nəfərdən çox Azərbaycan türkünü qətlə yetirmişdir;

**18.** ***02 fevral 1905-ci il:*** Daşnak terrorçuları Bakıda milli zəmində ilk terror aktı törədirlər. Mühafizəçi əsgər cildinə girmiş daşnak terrorçusu tərəfindən dustaq Aşurbəyov məhkəmə zalından çıxarılıb həbsxanaya aparılarkən yarı yolda qətlə yetirilir;

**19.*****06 fevral 1905-ci il:*** Daşnak terrorçuları Bakıda qarşıdurma yaratmaq məqsədi ilə Parapet bağında əliyalın şəhər sakini Ağarza Baba oğlunu və eyni zamanda şəhərin digər məhəllələrində 13 dinc sakini qətlə yetirirlər;

**20.*****6-10 fevral 1905-ci il:*** Daşnak terrorçuları Bakıda kütləvi qırğın törədərək, qadınlar, uşaqlar da daxil olmaqla 1000-dən çox Azərbaycan türkünü qətlə yetirirlər;

21.***01 may 1905-ci il:*** Daşnak terrorçuları Naxçıvanın Sıxmahmudlu yolunda Cəhri kəndindən olan üç Azərbaycan türkünü odlu atəşlə yaralayırlar;

**22.** ***03 may 1905-ci il:*** Naxçıvan qəzasının Tumbul kəndi daşnak terrorçularının basqınına məruz qalır, bir nəfəri qətlə yetirirlər;

**23.** ***10 may 1905-ci il:*** Daşnak terrorçuları Naxçıvan şəhərində qırğın törədərək 100 nəfər dinc sakini qətlə yetirirlər;

**24.** ***11 may 1905-ci il:*** Daşnak terrorçuları onların qanlı əməllərinə ortaq olmadığına görə soydaşları, Naxçıvan qəzasının Kültəpə kənd sakini Xaçaturu və ailə üzvlərini qətlə yetirərək qanlarını kəndin türk əhalisinin üstünə atırlar;

**25.** ***11 may 1905-ci il:*** Daşnak Həmzadın başçılıq etdiyi terror qrupu Daşaltı çayının sağ döşündəki dəyirmana basqın edir. Şuşa şəhər sakini dəyirmançı Xaspolatı, həyat yoldaşı Gülayəni qətlə yetirir, qıçlarından yapışaraq altıaylıq körpələri Məhəmmədi iki şaqqaya bölüb valideynlərinin üstünə atırlar;

**26.** ***13 may 1905-ci il:*** Daşnak terrorçuları İrəvan şəhərinin Qarsaçay bağçasına silahlı həmlə edirlər. Yüzlərlə Azərbaycan türkünü qətlə yetirirlər;

**27.** ***14 may 1905-ci il:*** Daşnak terrorçusu Dronun atdığı bombayla Bakı qubernatoru Nakaşidze və sürücüsü qətlə yetirilir; Ümumiyyətlə, 1905-1906-cı illər ərzində Bakı qubernatoru Nakaşidze, Yelizavetpol (Gəncə) quberniyasının

vitse-qubernatoru Andreyev başda olmaqla, qəza rəisləri Bequslovski, Şmerlinq, Naştanski, Pavlov, polismeyster Saxarov, pristav Şumakeviç, sərhəd mühafizəsi poikovniki Bıkov, jandarm rotmistrləri Appel, Burkatski vəzifə borclarını yerinə yetirmək istərkən, daha doğrusu, erməni-müsəlman qırğınının qarşısını almağa cəhd göstərdiklərinə görə daşnak terrorçularının sui-qəsdlərinə məruz qalırlar;

**28.** ***23 may 1905-ci il:*** Daşnak terror qrupları İrəvanda, Üçmüəzzində, Gümrüdə, Qırxbulaqda, Qazançıda, Kamanda sayı qeydə alınmayan qətliamlar törədir, yüzlərlə Azərbaycan türkünü qətlə yetirirlər;

**29.*24 may 1905-ci il:*** Daşnak terrorçuları İrəvanda türk evlərinə basqınlar edirlər. Silahsız beş kişini, dörd qadını və iki körpə uşağı öz ata-baba ocağında vəhşicəsinə qətlə yetirirlər;

**30.*02 iyun 1905-ci il:*** Daşnak terror qrupu İrəvanın Mənkus kəndinə basqın edir. Əliyalın kənd sakinlərini ev-eşiyindən didərgin salırlar. Ələ keçirdikləri 80 yaşlı əlil kənd sakinini təndir şişi ilə deşik-deşik edərək qətlə yetirirlər;

**31.*08 iyun 1905-ci il:*** Daşnak terror qrupu Əştərək bölgəsində Alagöz dağının cənub-şərq ətəyində yerləşən Uşu kəndinə basqın edirlər. Sağ qalan əhali ev-eşiyindən didərgin salınır. Kənd qarət olunur, evlər yandınlır;

**32.** ***09 iyun 1905-ci il:*** Daşnak terror qrupu Üçmüəzzin qəzasının Təkiyə kəndinə hücum etmiş, kənd canlı aləmdən təcrid edilmiş, məscidə sığınan əhali güllələbaran olunmuşdur. Terrorçular Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn oğlu Qazızadənin böyük imarətinə od vurub yandırmış, 200 cild Quranı və müqəddəs kitabları oda atmışlar. Qazı idarəsinə məxsus kitab və sənədlər məhv edilmişdir; Bunun ardınca Üçmüəzzin qəzasının 9 məşhur azərbaycanlılar yaşayan kəndlərində (Pərsi, Nəzrəvan, Kiçikkənd, Kötüklü, Qarabulaq, İrxu, Əngirsək və s.) qətliamlar törətmişlər;

**33.** ***10 iyun 1905-ci il:*** Daşnak terror birləşmələri Cəbrayıl qəzasının Veysəlli, Qacar, Çəmən, Arış, Qışlaq kəndlərinə basqın edirlər. Sağ qalan əhali ev-eşiyindən didərgin salmır. Kəndlər qarət olunur, evlər yandırılır;

**34.** ***10 iyun 1905-ci il:*** Daşnak terror birləşməsi Üçmüəzzin qəzasının Toros kəndinə basqın edir. 53 nəfəri qətlə yetirir, cəsədlərini yandırırlar. 255 ev və kəndin bütün ot tayalarına, taxıl zəmilərinə od vururlar;

**35.*13 iyun 1905-ci il:*** Daşnak terror qrupu Cəbrayıl qəzasının Divanalılar kəndini yandırır və dağıdır. Sayı qeydə alınmayan qətllər törədirlər;

**36.*17 iyun 1905-ci il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Veysəlli, Yağlıvənd, Dilağarda, Qacar kəndlərinə təkrar basqınlar edirlər;

**37.*31 iyun 1905-ci il:*** Tirjabad kəndində məskən salmış daşnak terror qrupu Qırxbulaq mahalının 20 evli Gözəcik kəndinə basqın edir. Kəndi qarət edir, evləri yandırırlar. Əhalini yurd-yuvasından didərgin salırlar. Girov götürdükləri Novruz Kazım oğlunu Tirjabad kəndinə gətirirlər. Kənd keşişi Ayrapet girovun başını kəsməklə özünə rahatlıq tapır;

**38.*01 iyul 1905-ci il:*** Daşnak terrorçuları İrəvan şəhərinin türk əhalisi arasında sayı qeydə alınmayan qətliamlar törədirlər;

**39. *01-03 iyul 1905-ci il:*** Daşnak terror qrupları Naxçıvan qəzasının 12 kəndində (Güllücə, Təzəkənd, Tutya, Kötüklü, Damagirmə, Kamallı və s.) sayı qeydə alınmayan qətliamlar törədir, həmin yaşayış məntəqələrini yerlə-yeksan edirlər;

**40. *05 iyul 1905-ci il:*** Daşnak terror qrupu Cəbrayıl qəzasının Məzrə kəndinə basqın edir. Camaat yaylağa köçdüyündən qışlaqda qalmış doqquz nəfər dinc sakindən altısını qətlə yetirir, bir nəfəri isə girov götürürlər. İki nəfər qaçıb aradan çıxa bilir. Bununla kifayətlənməyən daşnak terrorçuları kəndin yerləşdiyi qozlu dərədə partlayışlar törədirlər. Dərədəki nəhəng gövdəli qoz ağaclarını dinamitlər vasitəsi ilə partladır, kökündən yox edirlər;

**Qeyd:** Məzrə kəndini 1905-1907, 1918-1920-ci illərin soyqırımlarında yer üzündən silməyə nail ola bilməyən daşnaklar öz arzularına 1950-ci illərdə çatdılar. Sovet hakimiyyətində yüksək mövqe tutan bolşevik-daşnak qaragüruhçularının göstərişi əsasında kəndi Araz qırağına köçürdülər. Sonralar bir neçə ailə dədə-baba yurdlarına qayıtmağa müvəffəq oldu;

**41. *12 iyul 1905-ci il:*** Daşnak terrorçuları Əsgəran bazarına meyvə satmağa gedən 4 azərbaycanlını yolda qətlə yetirir, Əsgəran yolunu bağlayırlar. Azərbaycanlılar yaşayan məhəllələrə basqınlar edirlər. Bir neçə azərbaycanlını həyətində və bağında qətlə yetirirlər;

**42. *17 iyul 1905-ci il:*** Daşnak terrorçuları Şuşada azərbaycanlılar yaşayan evləri top atəşinə tuturlar. Evləri dağıdıb yandırırlar. Ardınca isə özləri azərbaycanlıların üzərinə hücuma keçirlər. 30-a yaxın Azərbaycan türkünü qətlə yetirirlər;

**43. *08 avqust 1905-ci il:*** Daşnak terrorçuları Cənubi Azərbaycandan gəlib Şuşa şəhərində binagüzarlıq edən, Realın məktəbin təmirində işləyən əliyalın 17 türk fəhləsini qətlə yetirirlər;

**44. *08 avqust 1905-ci il:*** Daşnak terrorçuları Şuşada Abbas bəyin evinə basqın edirlər. Abbas bəyi, qardaşını və üç qulluqçusunu qətlə yetirirlər;

**45. *08 avqust 1905-ci il:*** Vəng kəndində yuva qurmuş 300 nəfərdən ibarət daşnak terrorçuları Şuşadan Gəncəyə gedən atlı araba karvanına basqın edirlər. Karvanı talayır, çalvadarları öldürür, sayı qeydə alınmayan çoxlu sayda Azərbaycan türkünü qətlə yetirirlər;

**46. *16-21 avqust 1905-ci il:*** Daşnak terrorçuları tərəfindən Şuşa şəhərində 60 nəfər Azərbaycan türkü qətlə yetirilir. Köçərli, Xəlfəli məhəllələrində 18 ev yandırılır;

**47.*20 avqust 1905-ci il:*** Daşnak təxribatçıları Bakının Merkuri və Milyutinski küçələrindən keçən azərbaycanlılara atəş açırlar. Bununla da Bakıda milli qırğın, neft mədənlərində isə yanğınlar törədilir. Daşnak terror dəstələri Bakıda və ətraf yaşayış məntəqələrində çoxlu sayda Azərbaycan türkünü qətlə

yetirirlər. Kişilərin başlarını kəsir, qadınların qarınlarını yarır, qocalara, uşaqlara aman vermirlər. Cəsədlərin çoxunu dənizə atırlar;

**48.*21-26 avqust 1905-ci il:*** Daşnak terrorçuları Şuşa qəzasında ikinci dəfə türk qətliamına başlayırlar. Dörd kənd yerlə-yeksan edilir. Dinc, əliyalın əhalidən 100 nəfəri qətlə yetirirlər;

**49.*21 avqust 1905-ci il:*** Daşnak terrorçusu Bakıda 4 azərbaycanlını öldürür, 3 nəfəri isə yaralayır;

**50.22 avqust 1905-ci il:** Hərbi buraxıb vəkilliklə məşğul olan, İrəvan quberniyasında müsəlman əhalisinin hüquqlarını müdafiəyə qalxan Məmmədqulu bəy Kələntərli daşnakları ifşa etmək məqsədi ilə Fransaya getmək qərarına gəlir. O, yola düşərkən Batunı şəhərinin dəniz vağzalında daşnak terrorçusu tərəfindən arxadan güllələnərək qətlə yetirilir;

51.***25 avqust 1905-ci il:*** Daşnak terrorçuları Bakının Krasnovodsk və Suraxanı küçələrinin kəsişdiyi ərazidə təkrar qırğın törədirlər;

**52.*25 avqust 1905-ci il:*** 3 daşnak terrorçusu Bakı ziyalılarından Məhəmməd bəy Şəfi ağa oğlunu xəncərlə qətlə yetirirlər;

**53. *25 avqust 1905-ci il:*** Cavanşir qəzasının Qaladərəsi kəndində yuva qurmuş daşnak terrorçuları Əbdürrəhman bəy Kərim bəy oğlunun köçünə basqın edirlər. Bəy qətlə yetirilir, qoyun sürüləri, 55 baş qaramalı və digər əmlakı zəbt olunur;

**54.*25 avqust 1905-ci il:*** Qondarma daşnak generalı Hamazasp və əlaltısı A.Mikoyanın rəhbəri olduqları terror qruplaşması Cavanşir qəzasının Çıraxlı, Kəmərli, Hacıqərvənd və Pirxud kəndlərinə basqın edirlər. Yüz nəfər Azərbaycan türkü qətlə yetirilir. Kəndlərin əhalisi yurd-yuvalarından didərgin salınır;

**55.*26 avqust 1905-ci il:*** Daşnak terrorçuları Bakının Balaxanı küçəsində Fərid Əbdül Zeynal oğluna 25 güllə atəşi açırlar;

**56.*27 avqust 1905-ci il:*** Dolanlar kəndində məskən salmış daşnak-terror qruppu türk ovuna çıxırlar. Qonşu Dağtumas kəndinə binagüzarlığa gedən Qazanzəmi kənd sakini Şükür Məmməd oğlunu «Tumas-Ata» dağının gündoğan yamacında qətlə yetirirlər. Bu gün də həmin yer «Şükürvurulan» adlanır;

57.***03 oktyabr 1905-ci il:*** Daşnak terrorbaşı Hamazasp və Mikoyan öz terrorçu dəstəsi ilə Cavanşir qəzasının Sırxavənd və Əliağalı kəndinə basqın edir, əliyalın, dinc əhalini qılıncdan keçirirlər. Kəndlərin çala-çuxur aralıq yerləri qanla dolur. Yırtıcılar südəmər körpələri süngülərə keçirirlər, beşikləri ilə bir yerdə odlayırlar, onları analarının qucaqlarından alıb divarlara çırparaq para-para edirlər. Sayı qeydə alınmayan dəhşətli türk qətliamı törədirlər. Bu «qəhrəmanlığına» görə qaniçən türk cəlladına - Hamazaspa Daşnaksütyun partiyası general rütbəsi verir;

**58.*04 oktyabr 1905-ci il:*** Daşnak terrorçuları Cavanşir qəzasının Sırxavənd kənd sakinləri Abbasqulu və İman Həsən oğlu qardaşlarını meşədə

qətlə yetirib cəsədlərini yandırırlar. Kəsilmiş başlarını isə cinayət yerində əmanət qoyurlar;

**59.*01-23 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Armen, Kara Bağdasaryan, Tiqran Stepanyan və Durbaxın rəhbərlik etdiyi qaniçən terror qrupları Tiflisdə, Borçalıda sayı qeydə alınmayan dinc, əliyalın əhalini qətlə yetirir, Azərbaycan türklərinə qarşı qətliamlar törədirlər;

**60. *08 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Bəhmənli kənd sakinlərini - Abbas Həsən oğlu və başqalarını Dərəbağında amansızlıqla qətlə yetirirlər:

**61. *09 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Gəncənin Qoşaçinar ərazisində heç bir səbəb olmadan dinc şəhər sakinləri Əmiraslan Əlipaşa oğlunu, Cabbar Hüseyn oğlunu, Rza Cəbrayıl oğlunu və eləcə də Molla Cəlilli kəndinin bir neçə sakinini gülləbaran edirlər;

**62. *12 noyabr 1905-ci il:*** Daşnak terrorçusu Gəncədə Amos Perovun dəyirmanında dən üyüdən dinc şəhər sakini Kərbəlayı Fərəc Həsən oğlunu güllələyir;

**63. *13 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Gəncədə dinc şəhər sakini Məşədi Sadığı xəncərlə doğrayırlar;

**64. *18 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Gəncə şəhərinin 2-ci sahəsində Toğana kənd sakinləri Məşədi Əli Məmmədəli oğlunu və Mehralı Zeynal oğlunu qətlə yetirirlər;

**65.*20 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Gəncənin 2-ci sahəsində yaşayan Tağı bəy Hacı Məlikovu və Mikayıl Hacı Məlikovu, Hadi Tat Mustafa oğlunu, Mollacəlilli kənd sakinləri Güllü Aşır qızını və Əli Nağı oğlunu qətlə yetirirlər;

66.***21 noyabr 1905-ci il:*** Daşnak terror qrupları Tiflis şəhərində sayı qeydə alınmayan qətllər törədirlər. Yalnız bir meyitxanada 10 nəfər müsəlman cəsədi tapılmışdır. Ayrı-ayrı məscidlərə onlarca qətlə yetirilən müsəlman meyitləri daşınmışdır;

**67. *23 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Gəncəçayı yaxınlığında azərbaycanlılara həmlə edirlər. Qırğınlar törədirlər;

**68. *26 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Naxçıvan qəzasının Cəhri kəndində dörd türk ailəsini bütövlükdə məhv etmişlər;

**69.*26 noyabr 1905-ci il:*** Erməni-daşnak terror qrupları kazakların köməyindən istifadə edərək Naxçıvan şəhərinin mərkəzi bazarına basqın edirlər. Bazar tamamilə qarət olunub yandırılır. 85 dükan, 75 anbar və başqa tikililər məhv edilir;

**70.*27 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Cavanşir qəzasının Dəmirli kəndinə basqın edirlər. 8 nəfər dinc sakin öldürülür. Sağ qalan əhali ev-eşiyini tərk edir. Terrorçular kəndi oda qalayırlar;

**71.*28 noyabr 1905-ci il:*** Daşnak Sevan Tumanov öz terror qrupu ilə Qazax qəzasının Atalı kəndinə basqın təşkil edir. Kənd sakinlərindən Bəşir adlı

kişini və onun 15 qonşusunu qətlə yetirirlər. Onlara məxsus 800 baş mal-qaranı isə qarət edib aparırlar;

**72.** ***29 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Qazax qəzasının Əlibəyli, Tatlı, Əskipara kəndlərinə basqın edirlər. Tatlıda 2, Əskiparada 4 nəfər dinc kənd sakini qətlə yetirilir;

**73.** ***29 noyabr 1905-ci il:*** Daşnak terrorçuları Qazax qəzasının Yaradulla kəndinin taxıl daşıyan arabaçılarına basqın edirlər. 5 nəfəri öldürür, 9 nəfəri girov götürürlər. Bütün yükləri qarət edirlər;

**74.** ***29 noyabr 1905-ci il:*** Daşnak terror qrupları Qazax qəzasının Qaraqoyunlu dərəsində dəhşətli qırğın və qətliamlar törədirlər;

**75.** ***19 dekabr 1905-ci il:*** Movses Qirqoryanın, Karapet Ter-Osipovun, Ambarsum Koçarovun başçılıq etdiyi daşnak terror birləşmələri Xankəndinin azərbaycanlılar yaşayan məhəllələrindən birinə basqın edirlər. Evlər, dükanlar qarət edilir, qiyməti əşyalar oğurlanır. Yusif Xanalı oğlu, Əkbər Sadıq oğlu, Məhəmməd İbrahim oğlu, Hafizə Qara qızı, Sitarə Usub qızı, Sadıq Kərbəlayi Xanalı oğlu, Məşədi Zeynal, oğlanları Teymur, Firudin, Əsəd, Həbib Məşədi İsgəndər oğlu, Dostuxanım Məşədi Məhəmmədbağır qızı, Rəhim Ağaməmməd oğlu, Minə Qara qızı, Aftab Məşədi Zeynalabidin qızı qətlə yetirilir. Sonra da meyitlərə od vurulur;

**76.** ***26 dekabr 1905-ci il:*** Daşnak Abranı koxanın rəhbərlik etdiyi daşnak terrorçuları Cavanşir qəzasının Umudlu kənd camaatını hiylə işlədərək mühasirəyə alırlar. Umudlu adıyla tarixə düşən qətliam törədirlər. Uşaqlı, qadınlı 300 nəfəri qətlə yetirərək meyitlərini yandırırlar;

**77.** ***26 dekabr 1905-ci il:*** Daşnak terrorçuları Əsgəran qalasında azərbaycanlılara məxsus 60 furqonluq ərzaq karvanını ələ keçirirlər;

**78.** ***27 dekabr 1905-ci il:*** Daşnak terror qrupları Şuşa qəzasının Malıbəyli kəndinə basqın edirlər. Nəcəfqulu ağanın evini yandırırlar. Kənddə qətliam törədirlər. Qadın və uşaqları tikə-tikə doğrayırlar;

**79.** ***29 dekabr 1905-ci il:*** Daşnak terror dəstələri Dərələyəzin Hors kəndinə basqın edirlər. Kənd camaatının tən yarısını qətlə yetirirlər. Sağ qalan qismi isə Şərura qaçır;

**80.** ***22 yanvar 1906-cı il:*** Daşnak terror qrupu bu gün - «Qurban bayramı» günü Qazax qəzasının Qızılhacılı kəndinə basqın edir. Kəndi yandırır, qarət edir, 2 nəfəri qətlə yetirir, 1 qocanı, 2 həddi-buluğa çatmamış qızı anaları ilə birlikdə əsir götürürlər;

**81.** ***11 fevral 1906-cı il:*** Daşnak terror qrupları İrəvan mahalının 25 kəndinə basqın edirlər. Sayı qeydə alınmayan qətliamlar törədirlər. Həmin 25 kənd canlı aləmdən təcrid edilir;

**82.** ***08 iyun 1906-cı il:*** 40 nəfərlik daşnak terror qrupu suvarma kanalını təmizləməyə çıxmış Cavanşir qəzasının Xıdırlı, Qiyaslı, Şuxumaxlı kənd camaatını güllələbaran edir. 3 nəfər həlak olur, azərbaycanlılara məxsus 13 at güllələnir;

**83.** ***12 iyul 1906-cı il:*** Cəbrayıl qəzasının Xozaberd kəndində məskən salmış daşnak terrorçuları Topağac dağının ətəyində boyaq maddəsi hazırlamaq üçün ağac qabığı və bitki kökü tədarük edən Qazanzəmi kənd sakinləri - Siracəddin və Ziyəddin Abidin oğlu qardaşlarına hücum edirlər. Hər iki boyaqçı qardaşı girov götürürlər. Boyaqçı qardaşlara olmazın işgəncə verir, əzalarını doğrayaraq vəhşicəsinə qətlə yetirirlər;

**84.** ***14 iyul 1906-cı il:*** Daşnak terror qrupu Zəngəzurun Gələncik kəndinə basqın edirlər. 30 nəfər dinc kənd sakini qətlə yetirilir. Kəndsə yerlə-yeksan edilir;

**85.** ***29 iyul 1906-cı il:*** Daşnak terror qrupları Zəngəzur qəzasının Xələc, Saldaş, İnçəvar, Daşnov və Lov kəndlərinə həmlə edirlər. Sayı qeydə alınmayan qətliamlar törədirlər. Sağ qalan əhali yurd-yuvasını tərk edərək Qatar kəndinə pənah aparır;

**86.** ***29 iyul 1906-cı il:*** Daşnak terrorçuları Qafanın Karxana kəndinə basqın edirlər. Kənd canlı aləmdən təcrid edilir. Qətlə yetirilmiş Tahir Ordubadlının arvadı Pakizə və onun qızı Füruzə daxil olmaqla Qaçıb kənd ətrafındakı dağda gizlənən 30 qadın və uşağı da ələ keçirilərək tikə-tikə doğrayırlar. Həmçinin Zəngəzurun məşhur bəylərindən Qaraçəmənli Şəfiyar bəy aldadıcı dəvətlə Mədən bazarına çağrılaraq bağlar yaxınlığında, Həmzəli Şamil bəy isə Gorusun qaşında daşnak terrorçuları tərəfindən pusquya salınaraq vəhşicəsinə qətlə yetirilir;

**87.** ***01 avqust 1906-cı il:*** Daşnak terror qrupu Zəngəzurun Qatar kəndinə həmlə edir. 750 evdən və 3500 nəfərdən ibarət əhalisi olan kənd yerlə-yeksan edilir. Sayı qeydə alınmayan qətllər törədirlər. Sağ qalan əhali yurd-yuvasını tərk edərək Kəllədağ kəndinə sığınır;

**88.** ***01 avqust 1906-cı il:*** Daşnak terror qrupu Cavanşir qəzasının Paqravənd kəndinə basqın edir. 15 nəfər dinc sakini qətlə yetirirlər;

**89.** ***13 avqust 1906-cı il:*** Daşnak terror qrupları Zəngəzurun Oxçu, Şəbədək, Aralıq, Pirdavud, Atqız kəndlərinə basqın edirlər. Saqqarsu dağına çəkilmiş əliyalın kənd əhalisi mühasirəyə düşmüş, daşnaklar tərəfindən sayı qeydə alınmayan qətliam törədilmişdir. Təkcə iki qaya parçası arasından 62 qadın, bir palaz arasında kəsilmiş 15 uşaq başı tapılmışdır. Bu qadın və uşaqlara imdad istəyən 90 yaşlı, əli Quranlı el ağsaqqalı Həsən Əfəndi isə terrorçular tərəfindən tikə-tikə doğranmışdı;

**90.** ***15 avqust 1906-cı il:*** Daşnak terror birləşmələri ötən altı gün ərzində zəbt etdikləri Zəngəzurun Güllü, Yeməzli, Mollalar, Batuman, Zurul, Guman, İyilli, Səhalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq kəndlərində 200 nəfərdən çox azərbaycanlını qırmışlar;

**91.** ***17 avqust 1906-cı il:*** Daşnak Koryun terror qrupu Helenendorf (Göygöl) şəhərinin sakini alman Qurddan 30 min pul tələb edir. O, tələb olunan pulu vermədiyinə görə daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdir;

**92.** ***7 avqust 1911-ci il:*** Güney Azərbaycanının Məşrutə hərəkatının rəhbəri Səttərxan Sərdari-milli aldadılaraq Tehran şəhərinə aparılmış, burada şah rejimi tərəfindən muzdla ələ alınmış, İranda açıq fəaliyyət göstərən daşnak Yefim tərəfindən xaincəsinə zəhərli güllə ilə ayağından vurulur. Azərbaycan xalqının qəhraman oğlu daşnak terrorçusunun əli ilə yataq xəstəsinə çevrilir, 1914-cü ildə isə həyatını qeyb edir;

**93.** ***24 may 1914-cü il:*** Daşnak terror qrupu Cavanşir qəzasının Baş Güney kəndinə basqın edir. «Şirin su» adlanan dərədə terrorçular 9 nəfər dinc sakini güllələyirlər. Bununla ürəkləri soyumayan qan içənlər qətlə yetirdikləri türklərin başını kəsirlər;

**94.** ***01 dekabr 1917-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Kürdlər kəndinə basqın edir. Sayı qeydə alınmayan qətliam törədirlər. Kənd tamamilə dağıdılır;

**95.** ***05 dekabr 1917-ci il:*** Daşnak terrorçuları Zəngəzur qəzasının Ərəfsə kəndinə soxulurlar. Altı nəfər dinc sakin öldürülür. Əhali məcburən ev-eşiyini tərk edir. Terrorçular əhalinin əmlakını talan edirlər;

**96.** ***08 dekabr 1917-ci il:*** Daşnak terrorçuları Zəngəzurun İrəmis kəndinə basqın edirlər. Səkkiz nəfər dinc sakin qətlə yetirilir. Qalan əhali ev-eşiyindən didərgin salınır;

**97.** ***11 dekabr 1917-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Pöhrəli kəndinə basqın edirlər. Doqquz nəfər dinc sakin qətlə yetirilir, kənd oda, qalanır;

**98.** ***14 dekabr 1917-ci il:*** Daşnak terror qrupu Zəngəzurun Dulus kəndinə basqın edir, sayı qeydə alınmayan qətllər törədirlər;

**99.** ***14 dekabr 1917-ci il:*** Daşnak terror birləşmələri Qarsda qətliam törədirlər. Bu zaman ələ keçirdikləri Azərbaycanın tanınmış ziyalısı Murad bəy Xanmirzəyevi tikə-tikə doğramaqla həyatına qəsd edirlər;

**100.** ***15 dekabr 1917-ci il:*** Daşnak terror qrupu Şərqi Anadolunun azərbaycanlılar yaşayan Çamurlu kəndinə basqın edirlər. Bu zaman Qars vilayətində tanınan el adamı Şamil ağa daşnak terrorçularının əlinə keçməmələri, girov düşməmələri üçün əvvəlcə öz əli ilə arvadını və uşaqlarını öldürür. Bundan sonra özünü düşmənlərə təslim edir;

**101.** ***17 dekabr 1917-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Bəhrili kəndini dağıdırlar, doqquz nəfər dinc sakini qətlə yetirirlər;

**102.** ***29 dekabr 1917-ci il:*** Daşnak Yaponun başçılıq etdiyi birləşmiş terror qrupları Dərələyəzin Zeytə, Qabaxlı, Qurdqulax və Yengicə camaat qorunmaq üçün yığıldıqları Əmağu kəndinə basqın edirlər. İki min Azərbaycan türkünü qətlə yetirirlər. Daha doğrusu, əliyalın camaatı kəndin aşağı başındakı Arpa qayasından diri-diri uçuruma yuvarlayırlar;

**103.** ***31 dekabr 1917-ci il:*** Daşnak terror qrupu Vedibasarın Qaraxaç kəndinə basqın edir. Barışıq adıyla kənd camaatını bir yerə yığıb amansız qətliam hadisəsi törədirlər. Əhalinin bir qismini böyük bir dama yığıb, od vurub

yandırır, qalan qismini isə qılıncdan keçirirlər. Beləliklə, 500 nəfər dinc, əliyalın Azərbaycan türkünü məhv edirlər;

**104.** ***31 dekabr 1917-ci il:*** Zəngəzurun Xinzirək kəndində məskən salmış daşnak terror qruppu qonşu Əliquluuşağı kəndinin bayır-bacaqda təsərrüfat işəriylə məşğul olan kənd sakinlərindən 6 nəfərini qətlə yetirirlər. Behbud adlı kənd sakinini odun yığdığı yerdə ələ keçirib döyür, sonra isə kürəyinə qaynar samavar bağlayıb dağdan uçururlar;

**105.*****01-06 yanvar 1918-ci il:*** Daşnak terror qrupları Qətranlı (hazırda Türkiyə ərazisində) kəndinə və onım ətraf oymaqlarına basqınlar edirlər. Valideynləri qətlə yetirilmiş 1400 uşağı bir yerə toplayıb Qətranlı kəndinin mərkəzi meydanında diri-diri yandıraraq törətdikləri əməldən vəhşanə həzz alırlar;

**106.** ***06 yanvar 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzur qəzasının Qarakilsə kəndində türk qətliamı törədirlər. 165 dinc sakini amansızlıqla qətlə yetirirlər;

**107.** ***10 yanvar 1918-ci il:*** Daşnak terror qrupları Zəngəzurun Mülk kəndinə basqın edirlər. Kənd tamamilə yerlə-yeksan edilir, 150 nəfər dinc sakini qətlə yetirirlər;

**108.** ***11 yanvar 1918-ci il:*** Daşnak terror qrupları Zəngəzurun Qarakilsə kəndinə təkrar basqın edirlər. 49 nəfər dinc sakini qətlə yetirir, kəndi canlı aləmdən təcrid edirlər;

**109.** ***13 yanvar 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Pulkənd yaşayış məntəqəsinə basqın edir, 19 nəfər dinc sakini öldürür, əhalinin əmlakını talan edirlər;

**110.** ***17 yanvar 1918-ci il:*** Naxçıvanın Əznaburd kəndində yuva qurmuş daşnak terrorçuları azərbaycanlıların evlərinə hücum edir, 22 nəfər dinc, təhlükəsiz, əliyalın Azərbaycan türkünü qətlə yetirirlər;

**111.** ***25 yanvar 1918-ci il:*** Mülkədərəli Avşar və Cilanlı Markarın başçılıq etdiyi daşnak terror qrupu Cəbrayıl qəzasının Eyvatlı kəndinə basqın edir. Evləri talan edir, mal-qaranı sürüb aparırlar. Girov götürdükləri kənd sakini Hüseyn Allahverdi oğlunu Xələf dağının gündoğan üzündəki daşarmud ağacına sarıyıb bədənindən nişangah kimi istifadə edərək qətlə yetirirlər;

**112.** ***12 fevral 1918-ci il:*** (Rus zabiti Tverdoxlebovun məlumatı) Daşnak terror qrupu Ərzurum şəhərinin vağzalında terror aktı törədir. Türk olduqlarına görə 10 silahsız, dinc sakini güllələyirlər. Terrorçular bu qanlı aktın qarşısını almağa çalışan iki rus zabitini hədələyərək aradan çıxırlar;

**113.** ***08 mart 1918-ci il:*** Daşnak terrorçuları pusqu quraraq Naxçıvanın Nehrəm kəndinə basqın edir, üç nəfər dinc, əliyalın kənd sakini qətlə yetirirlər;

**114.** ***13 mart 1918-ci il:*** Daşnak terror qrupu Naxçıvan şəhərinin Zaviyə məhəlləsinə basqın edir, sayı qeydə alınmayan qətllər törədirlər;

**115.** ***15-20 mart 1918-c il:*** Bakıda türk qətliamına hazırlaşan daşnak terrorçuları silahdaşları V. Korqanyanın və S. Tiqranyanın qayınatası, neft

milyonçusu A. Mantaşevin sponsorluğu üə Mahacqaladan Bakıya gəmilərdə külli miqdarda silah-sursat gətirirlər;

**116.** ***16 mart 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvanda atışmanı davam etdirirlər. İki qadm, bir kişini qətlə yetirirlər;

**117.** ***17 mart 1918-ci il:*** Daşnak terror birləşmələri Urmiya şəhərini top atəşinə tuturlar. Atəşin ardınca şəhərə soxulurlar. ABŞ konsulu Sedin, Rus konsulu Nikitinin, habelə Fransa, İngiltərə və digər ölkələrdən olan dini missionerlərin gözləri qarşısında terrorçu qruplar bir gecədə 1500 Azərbaycan türkünü məhv edirlər. Şəhərdə talan, qarət, amansız vəhşiliklərlə kifayətlənməyən terrorçular Osmanlı qoşunları köməyə gələnədək 12000-ədək gins, əliyalın şəhər sakinini türk olduqlarına görə qətlə yetirirlər. Xarici diplomatlar və missionerlər erməni daşnak faşistlərinin bu vəhşətindən dəhşətə gəlirlər;

**118.** ***17-28 mart 1918-ci il:*** Qaniçən Dronun başçılıq etdiyi daşnak terror dəstələri İrəvan quberniyasının 24 azərbaycanlılar yaşayan kəndini yerlə-yeksan edirlər. Sayı qeydə alınmayan qətliamlar törədirlər;

**119.** ***1918-ci ilin 19 Ramazan günü:*** Daşnak terror birləşmələri Urmiya şəhərində qətliamı davam etdirirlər. «Yeddi Dəyirman» məhəlləsinə daxil olan terrorçular görkəmli alim, din xadimi Seyid Məhəmməd Xalxalini günorta namazı üstə səcdəyə gedərkən həmən başını kəsirlər. Bədənini tikə-tikə doğrayırlar;

**120.** ***18 mart-10 aprel 1918-ci il:*** Daşnak Stepan Lalayanın və T. Əmiryanın rəhbərlik etdikləri daşnak terror qrupları Şamaxı şəhərində qətliam törədirlər. Belə ki, şəhər məscidinin baş axundu Hacı Molla Ələkbəri gözlərini çıxararaq və ayrı-ayrı bədən üzvlərini kəsməklə qətlə yetirirlər. Cümə məscidinə yığılmış yüzlərlə insanı diri-diri yandırırlar. Şamaxının tanınmış ziyalısı, I Dövlət Dumasının deputatı Məhəmməd Tağı Əlizadənin başını kəsərək öz evindəcə qətlə yetirirlər. Habelə şəhər əyanlarından Hacı Baba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdülxaliq, Hacı Cəfərqulu Axund, Hacı Əbdülhüseyn Zeynalov, 3 qardaşı ilə birgə Hacı İsrafil Salamov, Ağa Əhməd Əhmədov, Hacı İsrafil Məmmədov, Mir İbrahim Qasımov, Eyyubağa Veyisov və arvadı, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürrəhim ağa Ağalarov, Məhyəddin Əfəndi Əfəndizadə, Zəkəriyyə Əfəndi, Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və arvadı, Mahmud Hacı Ağa oğlu, arvadı və oğlunu qətlə yetirirlər. Həmin günlərdə 1910-1917-ci illərdə Lahıc məktəbində müəllimlik etmiş vətənpərvər, millətsevər ziyalı Bədəl bəy Yolçuyevi isə dar ağacından asırlar. Nəvahə kəndində 2000 tikilini yandırırlar. Terrorçular qəfil basqınla qəzanın Qubalı kəndində 250 kişi, 150 qadın, 135 uşaq öldürürlər. Ümumilikdə isə Qaravəlli kəndində 40 kişi, 50 qadın, 30 uşaq; Qonaqkənddə 25 kişi, 5 qadın, 4 uşaq; Quşçu kəndində 192 kişi, 115 qadın, 25 uşaq; Ağabəyli kəndində 7 kişi, 3 qadın, 4 uşaq; Ərəm Qədim kəndində 200 kişi, 100 qadın, 78 uşaq; Diçatan kəndində 50 kişi, 60 qadın, 21 uşaq; Padarçöl qışlağında 80 kişi,

25 qadın, 15 uşaq; Baloğlan kəndində 250 kişi, 150 qadın, 135 uşaq vəhşicəsinə qətlə yetirilmişdir, işgəncə verərək öldürmüşlər. Daşnaklar tərəfindən südəmər körpələrin kütləvi şəkildə öldürülməsi dünya tarixində görünməmiş hal olmuşdur. Çoxunu da isə güllə sərf etmədən gah diri-diri tonqallara atmışlar, gah süngülərə keçirmişlər, gah da itləri onların üstünə qısqırdaraq «ov»lar düzəltməklə məhv etmişlər. 100-lərlə adamı yaralamışlar, şikəst etmişlər. Angəkəran kəndində 200 nəfərin qulaqlarını, burunlarını kəsib, gözlərini oyaraq xüsusi amansızlıqla öldürmüşlər. Təkcə Ağsu ərazisində bir dizə 5000 dinc sakini qətlə yetirmişlər;

**Qeyd:** Ümumiyyətlə, 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasının 58 kəndi dağıdılmış, şəhər də daxil olmaqla həmin qəzada 13 min Azərbaycan türkü qətlə yetirilmişdir;

**121.*20-21 mart 1918-ci il:*** Daşnak terror qrupları Novruz bayramı günlərində Qərbi Azərbaycanın Pəmbək kəndinə və Pəmbək qəzasının 9 yaşayış məntəqəsinə basqınlar etmişlər. Pəmbək kəndində yaşı 13-dən yuxarı 411 dinc sakini diri-diri yandırmışlar. Kəndlərdə üst-üstə 1000-dən çox Azərbaycan türkünü vəhşicəsinə öldürmüşlər. Təkcə Arqut kəndində 60 nəfər qətlə yetirilmiş, onlardan 12 nəfərin başı kəsilmişdir;

**122. *20-21 mart 1918-ci il:*** Daşnak terror qrupları Qərbi Azərbaycanın Gözəldərə kəndinə basqın etmişlər. 600 dinc kənd sakini qətlə yetirilmiş, evlər başdan-başa yandırılmışdır. Meşəyə qaçan bir dəstə qadın isə daşnak terrorçularına əsir düşməkdən qorxaraq özlərinə sui-qəsd etmişlər;

**123. *20-21 mart 1918-ci il:*** Daşnak terror qrupları Qarsın Zeyvə kəndinə (Türkiyə ərazisində) və onun ətraf oymaqlarına basqınlar edirlər. 8 kənddən əsir götürdükləri 2500 nəfər dinc sakini Zeyvə kəndinin mərkəzi meydanında işgəncələrə məruz qoyur və sonra isə hamısını bir nəfər kimi güllələyirlər;

**Qeyd:** 1915-1918-ci illərdə daşnak terror birləşmələri tərəfindən Şərqi Anadoluda 50.000 Azərbaycan türkünün qətlə yetirilməsi tarixi faktdır;

**124. *20 mart 1918-ci il:*** Daşnak terrorçusu T. Əmiryanın başçılıq etdiyi qrup məşhur «İsmailiyyə» binasına daxil olaraq memarlıq incisini od vurub yandırırlar;

**125. *22 mart 1918-ci il:*** Daşnak terror qrupu Ərəş qəzasının Ağdam-Qəbələ yolunun Ağtala hissəsində yolçulara həmlə edib yolçuları bir nəfər kimi qətlə yetirirlər. Sonra isə dərilərindən zoğ açaraq cəsədlərini ağaclardan asırlar;

**126. *23 mart 1918-ci il:*** Daşnak terror qrupu Qəbələ bölgəsinin civar oymağəna basqın edir. Terrorçular əhaliyə divan tuturlar. Xüsusilə uşaqlara qəddar üsullarla işgəncə verirlər. Onlarca uşağın gözlərini çıxararaq sapa düzürlər. Sonra isə onu boyunbağı kimi qətlə yetirdikləri qadınlardan birinin bozazına keçirirlər;

**127. *23 mart 1918-ci il:*** Mart qırğınları zamanı 850 nəfər Bakı qaçqını «Poseydon» gəmisi ilə Mahaçqalaya gəlir. Sonradan S.Şamyanın gizli yolla

göndərdiyi daşnak S.Lalayanın terror qrupu qaçqınların ardına düşərək onları izləyir. Daşnak terrorçuları tərəfindən qaçqınların 535 nəfəri Mahaçqala şəhərində vəhşicəsinə qətlə yetirilir;

**Qeyd:** Mart qırğınlarıyla bağlı bir çox terror aktlarının tarixləri köhnə təqvimlə verilir;

**128.** ***26 mart 1918-ci il:*** Daşnak S.Lalayanın başçılıq etdiyi terror qrupu Azərbaycan milyonçusu, tanınmış ziyalı Dadaşov Yusif ağa Hacı ağa oğlunun qarşısını kəsir. S.Lalayan tələb edir ki, sağ qalmaq istəyirsə onun qılıncının altından keçsin. Yusif ağa Hacı ağa oğlu cavabında deyir: «Mən türkəm. Türk ölər, ancaq harsın dığasının qılıncının altından keçməz». Terrorçular Yusif ağa Hacı ağa oğlunu qətlə yetirir, qarət edir, cəsədini isə itirirlər;

**129. 30 mart - 01 aprel 1918-ci il:** Bolşevik-daşnak qaragüruhunun rəhbərləri Şaumyanın, Avakyanın, Saakyanın, Korqanyanın və daşnak muzdlusu Petrovun rəhbərliyi altında daşnak terrorçuları və onların bolşevik əlaltıları Bakıda qətliam törətmişlər. Üç gün ərzində Bakı və onun ətraf kəndlərində 30 minə yaxın Azərbaycan türkü qətlə yetirilmişdir. Təzəpir məscidinə top atılmışdır. Türklərə məxsus mətbəələr, mətbu redaksiyalar, teatr binaları, məktəb və xəstəxanalar dağıdılmış və yandırılmışdır. İnsanları qətlə yetirərkən onların nə cinsinə, nə də yaşına baxmamışlar. Belə ki, Bakı şəhər sakini, 80 yaşlı Hacı Əmir Əliyevin evinə soxulan terrorçular onu da, 60 yaşlı arvadını da öldürmüşlər. Əliyevin gəlini 25 yaşlı qadını diri-diri divara mismarlamış, üç körpəsinin başını isə gözləri qabağında kəsmişlər;

**130.** ***31 mart 1918-ci il:*** Qatı daşnak, sonralar SSRİ-nin dövlət xadimlərindən biri olmuş A.Mikoyanın rəhbərlik etdiyi «Qırmızı qvardiya» adlı daşnak terror qrupu Bakının İçəri şəhərində yerləşən xəstəxanalara od vurub yandırmışdır. İki minədək xəstə yandırılaraq məhv edilmişdir. Qaçanları isə güllələbaran etmişlər;

**131.** ***31 aprel 1918-ci il:*** Daşnak terrorçuları Ərəş qəzasının Sarıhacalılı kəndində tarladan evlərinə qayıdan üç qadını oğurlayıb aparmışlar. Sonradan həmin qadınların döşləri kəsilmiş halda meyitləri tapılmışdı;

**132.*****03 aprel 1918-ci il:*** Daşnak terrorçuları Ərəşin Bağır dərəsində ələ keçirdikləri beş Azərbaycan türkünün bədənlərini süngü ilə dəlmə-deşik edə-edə qətlə yetiraıişlər;

**133.03 aprel 1918-ci il:** Qatarla Bakıdan Navahi stansiyasına gələn daşnak terror qrupu kəndə basqın etmişdi. 555 kişini, 260 qadını, 140 uşağı qətlə yetirən terrorçular stansiyadakı bütün tikililəri od vurub yandırmışlar;

**134.08 aprel - 20 may 1918-ci il:** Daşnakların qondarma generalı Hamazaspın, Nikolay Muradyanın və Venduntsın rəhbərlik etdiyi daşnaklardan ibarət terror birləşmələri Quba qəzasında 162 kəndi yandırıb-odlamış, dağıtmış, üç mərhələdə kütləvi qırğınlar törətmişlər. Qubada 16 min Azərbaycan türkü, ləzgilər və o cümlədən 3000 yəhudi millətinin nümayəndələrini al qanına

boyamışlar. Ətraf kəndlərlə birlikdə isə 19 min dinc, əliyalın qəza sakinləri məhv edilmişdir. Uşaqların gözlərindən muncuq zənciri - təsbehlər düzəldərək xüsusi qəddarlıqlar etmişlər. 10 qız daşnaklar tərəfindən zorlanmış, sonra isə doğranmışdır;

**135.*11 aprel 1918-ci il:*** Naxçıvanın Qaraxanbəyi kəndinə toplaşan daşnak terror qrupları Naxçıvan şəhərinə və ətraf kəndlərə basqın edirlər. Naxçıvan şəhərində iki nəfər qətlə yetirilir. Şəhər ətrafından dörd nəfər girov götürülür. Azərbaycanlılar yaşayan qonşu kəndlərdə isə 150 nəfər dinc, əliyalın sakin qətlə yetirilir. Sağ qalanlar yurd-yuvalarından didərgin salınır;

**136.*14 aprel 1918-ci il:*** Polkovnik Avetisovun başçılıq etdiyi daşnak terrorçuları Lənkəran qəzasında dörd min dinc, əliyalın əhalini qılıncdan keçirmişlər. Xüsusilə, Sütəmurtov, Musaküçə, Türkoba, Aşağı Nüvədi və s. kəndlərdə (ümumilikdə 40 yaşayış məntəqəsində) amansız qətliamlar törətmişlər;

**137.*15 aprel 1918-ci il:*** Daşnak terror qrupu Ərəşin Çomaqlı stansiyası yaxınlığında araba karvanına həmlə etmiş, 21 arabaçını qətlə yetirmiş, cəsədlərin gözlərini süngü ilə oymuşlar;

**138.*20 aprel 1918-ci il:*** Daşnak terrorçuları Ərəşin Ərəbki kəndinə basqın etmişlər. Səkkiz dinc sakini qətlə yetirmiş, cəsədlərin gözlərini süngü ilə çıxarmışlar;

**139. *21 aprel 1918-ci il:*** Daşnak terrorçuları Salyan qəzasının Tatarməhəllə və Kür-Qarabucaq kəndlərinə basqın edirlər. Hər iki kənddə qətliam törədirlər. Günü bu gün də Drovdağ ətəyində (Tatar məhəllə ərazisi) və Kür sahili boyunca (Kür-Qarabucaq ərazisi) torpaq aşırmaları və yuyulmaları zamanı toplu məzarların izləri aşkarlanır. Ümumiyyətlə, daşnak muzdlusu polkovnik İllarionoviçin rəhbərlik etdiyi daşnak terror qrupu Salyanda 12 yaşayış məntəqəsini dağıtmış, 2000 dinc sakini qətlə yetirmişdir;

**140. *23 aprel 1918-ci il:*** Naxçıvan qəzasının Qaraxanbəyli kəndində yuva qurmuş daşnak terrorçuları yaxın kəndlərin azərbaycanlılarına təkrar hücum edir, terror aktları törədirlər. Üç nəfər dinc sakin qətlə yetirilir;

**141. *24 aprel 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Arıqlı kəndinə soxulmuş, 25 dinc sakini qətlə yetirmiş, əhalinin əmlakını qarət etmişlər;

**142. *24 aprel 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvan qəzasının Xoşlu və Nehrəm kəndlərinə basqın edirlər. İki nəfər dinc sakini qətlə yetirir, bir nəfəri isə girov götürürlər;

**143. *25 aprel 1918-ci il:*** Daşnak terror qrupu Göyçə mahalının Subatan kəndinə basqın edir. 750 nəfər qətlə yetirilir. Qətlə yetirilənlərin 257-si uşaq və qadınlar olmuşdur;

**144. *25 aprel -10 may 1918-ci il:*** Daşnak terror qrupları Qərbi Azərbaycanın İlanlı, Qaraqaş, Dəryəcik, Təlməli və ətrafdakı kürdlər yaşayan

kəndlərə basqın etmişlər. Bir neçə min etnik türkü güllələmiş, əllərinə keçən etnik kürdləri ya diri-diri yandırmış, ya da şaqa-şaqqa doğramışlar;

**145.** ***25 aprel 1918-ci il:*** Erməni-daşnak terrorçuları Zəngəzurun Dəstəyirt kəndinə basqın edirlər. Sayı qeydə alınmayan qətllər törədirlər;

**146.** ***25 aprel 1918-ci il:*** Erməni-daşnak terrorçuları Ərəşin Savalan kəndinə basqın etmişlər. Yeddi nəfər atəşlə qətlə yetirilmiş, kənddən qaçmağa macal tapmayan qadın və uşaqların başlarını kəsərək öldürmüşlər;

**147.** ***29 aprel 1918-ci il:*** Daşnak terror birləşməsi Gümrüdən Ahılqalaya qaçqın daşıyan 500 arabalıq karvana qəflətən basqın etmişlər. 3000 qadın, kişi, qoca və uşağın hamısı azğın terrorçular tərəfindən qətlə yetirilmişdir;

**148.** ***29 aprel 1918-ci il:*** Hamazaspın başçılıq etdiyi daşnak terror birləşmələri Quba qəzasının Şıxlar kəndinə basqın edirlər. Əhali güllələbaran edilir. 40-dan çox uşağı dəmir yolu stansiyasındakı Xan çinarların budaqlarından asırlar;

**149.** ***30 aprel 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Arakilis kəndinə basqın edir. 25 nəfər dinc, əliyalın Azərbaycan türkü qətlə yetirilir;

**150.** ***30 aprel 1918-ci il:*** Qondarma daşnak generalı Hamazaspın, Nikolay Muradyanın və Vendutsin başçılıq etdiyi daşnak terror birləşmələri Xaçmaza basqın edirlər. Əhali kütləvi şəkildə güllələbaran edilir. 246 nəfər qətlə yetirilir. Onlardan 200 nəfərin əl-qolunu bağlayaraq relslər boyu düzürlər, sonra isə üstlərindən zirehli qatar keçirirlər. Əhalinin var-dövlətini talan edirlər;

**151.** ***01 may 1918-ci il:*** Hamazaspın başçılıq etdiyi daşnak terror birləşməsi Quba şəhərinə basqın edir. Qaniçənlər Qubanı qan dənizində boğurlar. 2000-dən artıq şəhər sakini qətlə yetirilir. Kərbəlayı Məmməd Tağının 14 nəfərlik ailəsini gözü qabağında doğrayırlar, sonra isə özünü öldürürlər. Məhəmməd Rəsul oğlunun qarnını xəncərlə cırırlar, arvadının və 3 uşağının başını kəsərək 5 nəfərik ailəni məhv edirlər. Hacı Dadaşbala Qasım oğlunu, arvadı Məşədi Bibixanımı və oğlu Abdulqasımı öz evindəcə evlə birlikdə yandırırlar. Kərbəlayi Abuzəri və iki azyaşlı qızlarını - Hökümə və Bəstini doğrayırlar, arvadının isə döşlərini kəsməklə qətlə yetirirlər. Məşədi Qəmbər Molla Məhəmmədsaleh oğlunu, arvadını və 4 azyaşlı uşağını işgəncə verməklə öldürürlər. Molla Şahbaz ailəsi ilə, usta Məmmədrəsul Bayram oğlu öz oğluyla, Məşədi Musa Zeynal oğlu, Məşədi Əli Məşədi Feyzulla oğlu, Kərbəlayi Dadaş Bağır oğlu, Cabbar Məmmədəli oğlu, Sahibə adlı qadın, Səfərəli Məşədi Talıb oğlu işgəncələr verilməklə qətlə yetirilir. 100-dən çox qadın və qızın namusuna təcavüz edirlər. Günü bu günlər Quba şəhərində və onun ətraf ərazilərində aşkar edilən toplu məzarlar erməni-daşnak faşizminin qəddarlığını əks etdirən maddi sübutlardır;

**152.** ***01-10 may 1918-ci il:*** Daşnak terrorçusu Artyom Avenosovun başçılıq etdiyi silahlı birləşmə Xaçmazdan Qubayadək bütün yol boyunca yaşayan dinc əhaliyə qanlı divan tutur, qətlə yetirilən azərbaycanlıların meyitlərini iki-iki, beş-beş tələm-tələsik bir qəbrə gömürdürlər, qalan meyitləri

isə yol kənarındakı qanovlara tökürlər. Qaçmağa çalışan uşaqları təqib edərək tutur, gah süngülərin ucuna keçirir, gah da xəncərlə vurub öldürürlər;

**153.** ***01 may 1918-ci il:*** Daşnak terror qrupu Şörəyel mahalının Böyük və Kiçik Şiştəpə, habelə Düzkənd obalarına basqın edərək uşaq və qadınlar olmaqla 1600 nəfər dinc sakini qətlə yetirmişdir;

**154.** ***01 may 1918-ci il:*** Daşnak terror birləşməsi Ərəşin Axşam və Dzaxlı kəndlərinə basqın etmişdir. Terrorçular Axşam kəndində doqquz qadın və on azyaşlı uşağı qətlə yetirmişlər. Dzaxlı kənd sakininin bədəninə 17 süngü yarası vurmuşlar;

**155.** ***02 may 1918-ci il:*** Daşnak generalı Silikyanın başçılıq etdiyi terror qrupu Zod kənd sakini, Göyçə mahalında ad-san sahibi Səməd ağanı qətlə yetirir;

**156.** ***04 may 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvan qəzasının Bənənyar və Qızılca kəndlərinə basqın edərək birinci kənddə bir, ikincidə isə iki nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**157.** ***07 may 1918-ci il:*** Cəbrayıl qəzasının Köhnə Tağ kəndində məskən salmış daşnak terror qrupu xırdavat alveri ilə binagüzarlıq edən Dağtumas kənd sakinləri Eyvaz İbrahimoğlu və Məhəmməd Cəfərqulu oğluna Mirzəli kovu deyilən ərazidə basqın edirlər. Hər iki silahsız sakini qətlə yetirir, atlarını və əmlaklarını qarət edirlər;

**158.** ***11 may 1918-ci il:*** Daşnak terrorçuları Ağdam-Qəbələ yolunun Ağtala dərəsində karvana basqın etmişlər. 20 nəfər arabaçı qətlə yetirilmişdir;

**159.** ***19 may 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvanın Badamlı kəndinə basqın edir, üç nəfər Azərbaycan türkünü qətlə yetirir, 18 baş qaramalı sürüb aparırlar;

**160.** ***21 may 1918-ci il:*** Daşnak terror qrupları Naxçıvan qəzasının Dərəzəmin və Noraşen kəndlərinə basqın edir, bir atlı kişini və bir qadını girov qismində aparırlar;

**161.** ***24 may 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvan şəhərinin ətraf kəndlərinə basqınlar edir, iki nəfəri öldürür, bir qadın və üç kişini yaralayırlar. 100 baş mal-qara aparırlar;

**162.** ***25 may 1918-ci il:*** Daşnak terror qruplaşması Zəngəzur qəzasının Şnif kəndinə basqın edib kəndi dağıdır. 95 nəfəri qətlə yetirirlər;

**163.** ***25 may 1918-ci il:*** Daşnak terror qrupu Ərəş qəzasının Kürto kəndinə təkrar basqın edir, 67 Azərbaycan türkünü qətlə yetirirlər. Qadın və uşaqları bıçaqlayıb meyitlərini arxa tullayırlar. Bir çoxunu isə diri-diri divara mismarlayıb öldürürlər;

**164.** ***26 may 1918-ci il:*** Daşnak terrorçuları Naxçıvan şəhərinin kənarında iki dinc sakini qətlə yetirirlər;

**165.** ***27 may 1918-ci il:*** Naxçıvan qəzasının Qaraxanbəyli kəndində yuva qurmuş daşnak terror qrupları Çeşməbasar və Qızılca kəndlərinə basqın

edirlər. Altı nəfər Azərbaycan türkü qətlə yetirilir, iki nəfər girov götürülür. Girovların hər ikisi sonradan qətlə yetirilir;

**166.** ***01-12 iyun 1918-ci il:*** S.Lalayanın və T.Əmiryanın başçılıq etdiyi daşnak terror qrupları Hacıqabul-Kürdəmir, Göyçay ərazilərinə soxulurlar. Yeddi min əliyalın, təhlükəsiz, dinc sakini qətlə yetirirlər;

**167.** ***04 iyun 1918-ci il:*** Daşnak terrorçuları Qubada təxribat törədərək doqquz nəfəri girov götürürlər. Girovlardan beş nəfərini xüsusi qəddarlıqla qətlə yetirirlər;

**168.** ***08 iyun 1918-ci il:*** Daşnak terror qrupları Zəngəzurun Şıxlı kəndinə basqın edirlər. 95 nəfər Azərbaycan türkünü qətlə yetirirlər. Kənd tamamilə dağıdılır;

**169.** ***10 iyun 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Zabazadur kəndinin müsəlmanlar yaşayan məhəlləsinə basqın edirlər. Sayı qeydə alınmayan qətliam törədir, əhalini yurd-yuvasından birkərəmlik didərgin salırlar;

**170.** ***11 iyun 1918-ci il:*** Gəncədə yuva salmış daşnak terror qrupu 15 nəfər süvarini, Milli Ordu əsgərini girov götürərək tikə-tikə doğrayırlar;

**171.** ***11-20 iyun 1918-ci il:*** Göyçay ərazisinə daxil olan daşnak terror qruplaşmaları Cəngi kəndində 5 mülkü yandırır, burun-qulaqlarını kəsərək, kəllə sümüklərini əzərək 20 nəfəri; Qaravəlli kəndində 30 evi yandırır, 2 nəfəri; Qarabucaq kəndində 121 evə od vurur, 7 nəfəri; Ərəb-Mehdibəy kəndində 84 mülkü yandırır, 83 nəfəri qəddarcasına qətlə yetirirlər. Mustafalı, Sadalı kəndlərini talan edirlər;

**172.** ***14 iyun 1918-ci il:*** Daşnak terror birləşmələri Xoy şəhərini mühasirəyə alıb top atəşinə tuturlar. Evləri dağıdıb qarət etdikdən sonra yandırırlar. Şəhərin dinc və məsum əhalisini al qanına boyayırlar. 30 min Azərbaycan türkünü qətlə yetirirlər. Daşnakların məqsədi şəhəri türklədən təmizləyərək burada erməni dövləti yaratmaq olmuşdur;

**173.** ***19 iyun 1918-ci il:*** Daşnak terrorçuları Ağdaş-Qəbələ yolunda Baxşəli adlı Azərbaycan türkünü ailəsi ilə birlikdə məhv etmişlər. Terrorçular Baxşəlini xüsusi qəddarlıqla, dərisindən zoğ açıb diri-diri ağacdan asaraq qətlə yetirmişlər;

**174.** ***20 iyun 1918-çi il:*** Nuxa yolunda daşnak terrorçuları biçindən qayıdan 23 nəfəri qətlə yetirmişlər;

**175.** ***21 iyun 1918-ci il:*** Erməni-daşnak terror birləşmələri Nuxa qəzasının Ağdam-Hacılı yolunda karvana basqın etmişlər. Terrorçular tərəfindən 60 nəfər qətlə yetirilmiş, 200 arabalıq əmlak talan edilmişdir;

**176.** ***30 iyun 1918-ci il - 01 dekabr 1917-ci il:*** Erməni-daşnak terror birləşmələri İrəvan quberniyasının azərbaycanlılar yaşayan 200 kəndinə həmə etmişlər. Kəndlər dağıdılmış, yaşayış məntəqələrinin əliyalın dinc sakinlərinə amansız işgəncələr verərək qəddarlıqla qətlə yetirilmişlər. Dağlara qaçan əhalinin çoxunu don vurmuş və ya acından ölmüşlər. İrəvan, Üçmüəzzin, Şərur

qəzalarından 100 min insan od-ocağından didərgin salınmışdır. Sayı qeydə alınmayan on minlərlə Azərbaycan türkü qətlə yetirilmişdİr;

**177.** ***14 iyul 1918-ci il:*** İnsan cəlladı adını almış daşnak generalı Andronikin başçılıq etdiyi daşnak terror birləşmələri Araz çayını keçərək Culfanın Yaycı kəndini iki tərəfdən top atəşinə tuturlar. Kənd əhalisini Araz çayı sahilində qılıncdan keçirirlər. Araz çayı qana boyanır. 2500 dinc kənd sakinini amansızcasına qırırlar;

**Qeyd:** Bu türk qanı içən daşnak cəlladı hətta öz soydaşlarına qarşı da amansızlıq etməsiylə ad çıxarmışdı. Onun tələblərini yerinə yetirməyən və terror qruplarına qoşulmayan erməni gənclərini bir nəfər kimi dara çəkdirirdi. Məqsədi qalanları qorxudmaq, onları Azərbaycan türklərinə qarşı cinayətlər törətməyə zorakılıqla cəlb etmək idi.

**178.** ***17 iyul 1918-ci il:*** Daşnak terror birləşmələri Naxçıvanın Sirab kəndinə basqın edirlər. Kənd əhalisini Hacı Kərim, Hacı Qəmbər məscidlərinə yığıb binalarla birgə yandırırlar. Güllə izləri günü bu gün də Hacı Kərim məscidinin qapılarında qalmaqdadır. Canlarını salamat qurtarmaq üçün qaçıb Daşqala, Daştəpə, Şorsu adlanan sahələrdə gizlənmiş əhalini mühasirəyə alan daşnaklar onları kütləvi şəkildə qətlə yetirirlər;

**179.20 iyul 1918-ci il:** Naxçıvanın Vayxır kəndinə həmlə edən daşnak terrorçuları ələ keçən dinc sakinləri qətlə yetirirlər. Ancaq qaçaraq Sulu dərəyə, Yel suyu adlanan zağaya dolan kənd sakinləri qətliamdan can qurtara bilirlər;

**180.*22 iyul 1918-ci il:*** Naxçıvanın Cəhri kəndinə basqın edən daşnak terrorçuları namaz vaxtı ibadət edən kənd əhalisini kəndin 4 məscidində ibadət etdikləri yerdəcə qırırlar. Qaçan-qaçır;

**181.** ***25 iyul 1918-ci il:*** Çəmənli və Oğlanqala kəndlərində cəmləşən daşnak terror birləşmələri Şərur bölgəsinin Sədərək, Axura, Həmzəli, Mahmudlu, Birəli, Avarı, Qozluca, Çivə, Yuxarı və Aşağı Yaycı, Zeyla, Dəmirçi kəndlərində amansız qırğınlar törədirlər. Birəli kəndində Xədicə adlı qızdan başqa salamat kimsə qalmır. Avarı kəndində 300 nəfəri diri-diri yandırırlar. Çivə kəndində isə 200 nəfəri kəndin məscidinə yığıb od vururlar. Qozluca kəndini topa tuturlar. Ümumiyyətlə, bu bölgədə Azərbaycan türklərinin kütləvi qırğınları Kazım Qara Bəkir Paşanın bu bölgəyə daxil omasınadək davam etdirilir;

**182.** ***01 avqust 1918-ci il:*** Daşnak terrorçuları tərəfindən Zəngəzur qəzasının Yaqublu kəndi yerlə-yeksan edilir, 28 nəfər dinc sakin qətlə yetirilir;

**183.** ***03 avqust 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzur qəzasının Şəki kəndində qətliam törədir, 95 nəfər dinc sakini qətlə yetirirlər. Körpə uşaqların iki parça etdikləri meyitlərini girəcəkdəki yolun ağzına düzürlər;

**184.** ***07 avqust 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzur qəzasının Qızılcıq kəndinə soxulmuş, 27 nəfər dinc sakini amansız vəhşiliklə qətlə yetirmişlər;

**185.** ***12 avqust 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzurun Ağudi kəndinin 96 nəfər dinc sakinini öldürmüş, əhalinin əmlakını qarət etmişlər. Qulaməli Şəkər oğlunun ayağını topuqdan kəsmiş, sonra da qanı axa-axa onu yeriməyə məcbur etmişlər;

**186.** ***17 avqust 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzur qəzasının Vağudi kəndində insan əxlaqına sığmayan heyvani qətliam törətmişlər. 400 nəfər kənd sakinini sığındıqları kənd məscidində diri-diri yandırmışlar. Qədimə Tahir qızının döşünü kəsərək körpə balasının ağzına tıxamışlar. Nisə Aman qızı, Sona Cəfərqulu qızı daxil olmaqla 15 qızı təhqir edərək qətlə yetirmişlər. Gülbəsti Qasım qızının isə döşlərini kəsib bel sümüyündən asmışlar;

**187.** ***17-30 avqust 1918-ci il:*** Daşnak terror qrupları Üçmüəzzin, Sürməli, İrəvan, Yeni Bəyazit qəzalarında qətliamlar törətmişlər. 50 kənd talan edilib dağıdılmış, sayı qeydə alınmayan çoxsaylı qətl aktları yerinə yetirmişlər. Erməni daşnak terror qruplarının bu vəhşilikləri hətta Ermənistan parlamentinin üzvlərini belə sarsıtmışdır. Bu barədə onlar əvvəlcə susa bilməmişlər, lakin sonra deputat korpusunu nəzarətdə saxlayan «Daşnaksütyun» partiyasının terror qrupu onları susmağa məcbur etmişdir;

**Qeyd:** 31 avqust 1918-ci il tarixdə keçirilən Beynəlxalq məhkəmədə ermənilər ötən bir il ərzində 400 min Azərbaycan türkünü, 120 min gürcünü, 22 min ləzgini, 15 min kürdü qətlə yetirdiklərini etiraf etmişlər. Lakin tarixin sonrakı gedişi göstərdi ki, Ermənistan hökumətinin bəyanatı konyuktur-riyakar xarakter daşıyır;

**188.** ***1918-1914-cü illər:*** Tayqulaq Andronikin komandan olduğu daşnak terror birləşmələri Güney Azərbaycanının Urmiya, Salmas, Xoy, Dilman, Maku, Həmədan və qismən də Təbriz şəhərlərində və ətraf kəndlərdə türk qətliamları törətmişlər. Təkcə Xoy şəhərində 30 min, Urmiyada 12 min, Makuda 10 min Azərbaycan türkünü qətlə yetirmişlər. Urmiya gölü ilə Van gölü arasındakı bütün yaşayış məntəqələrini yerlə-yeksan etmişlər. Oda qalamışlar. Bölgəni xarabazarlığa çevirmişlər. Kütləvi qətliamlarda təqribən 150 mindən çox Azərbaycan türkünü qətlə yetirmişlər;

**Qeyd:** Bəzi müəlliflər tərəfindən bu rəqəm 250 min civarında göstərilir.

**189.*03 sentyabr 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzur qəzasının Sisian kəndinin 60 nəfər dinc sakinini türk olduqlarına görə qətlə yetirirlər;

**190.** ***12 sentyabr 1918-ci il:*** Qatı daşnak terrorçusu Tayqulaq Andronikin rəhbərliyi altında təpədən dırnağadək silahlanmış daşnak terror birləşmələri Zəngəzurun Rut, Dərəbas, Ərikli, Şükür, Məlikli, İrlik, Pəhlili, Xotanan kəndlərinə basqın edirlər. Kəndlər tamamilə dağıdılır və yandırılıb yerlə-yeksan edilir. 500 kişi, qadın, uşaq amansızlıqla qətlə yetirilir;

**191.** ***19 sentyabr 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzurun Bağırbəyli kəndinə basqın edir. Kənd tamamilə dağıdılır, ələ keçirdikləri yeddi nəfər dinc, əliyalın sakini bir evə doldurub evlə birgə diri-diri yandırırlar. Elə

həmin gün Zəngəzurun Məlikli kəndində yuva qurmuş daşnak terror qrupu Əngəvəlit güneyi adlanan yerdə Dərələyəzdəki yaylaq yurdlarından arana qayıdan Mərcanlı elatının köçünə basqın edir. Səməd Allahverdi oğlu, Ağahəsən Fərzalı oğlu və başqa yaylaqçılar da daxil olmaqla 7 nəfəri qətlə yetirirlər.

**192.** ***23 sentyabr 1918-ci il:*** Andronikin başçılıq etdiyi daşnak terror birləşməsi Zəngəzurun Tat kəndinə soxulur. Daşnaklar burada ən dəhşətli vəhşiliklərindən birinə imza atırlar. Əhalinin bir hissəsini böyük kahalara dolduraraq ağzında gərmədən ocaqlar çatırlar. Əhalini tüstüdə boğub, odda yandırırlar. Girov götürdüklərinin qalan hissəsini isə patrona qənaət etmək məqsədi ilə daha vəhşi üsullara əl atmaqla məhv edirlər. Adamların başlarını daşların üstə qoyaraq gürzlərlə əzirlər. Cəsədlərini isə Zabux çayına atırlar. Qadın və qızların saçlarını kəsərək özlərinə çatı toxudurlar. Sonra isə onlara ağlasığmaz işgəncələr verərək çılpaq halda həmin çatılar vasitəsilə ağaclardan asırlar. Ətraf kəndlərdə vahimə yaratmaq üçün isə 70 uşağın qarnına süngü soxaraq keçdikləri ərazilərdə nişan daşları sayaq yol kənarlarına düzürlər;

**193.** ***28 sentyabr 1918-ci il:*** Zəngəzurun Dornu kəndində məskən salmış gəlmə ermənilərin «ağsaqqalları» təhlükəsizliklərini təmin etmək adıyla azərbaycanlıları aldadaraq kənddən kənara çıxarmış, daşnak terror qrupunun mühasirəsinə salmışlar. Daşnaklar Dornunun azərbaycanlı əhalisini böyükdən kiçiyə qılıncdan keçirmişlər. Sayı qeydə alınmayan türk qətliamı törətmişlər;

**194.** ***10 oktyabr 1918-ci il:*** Gorusda at oynadan daşnak terrorçuları Zəngəzurun Balahəsənli (Qubadlı rayonu) kəndinə basqın edirlər. Kəndi yerlə-yeksan edən terrorçular əllərinə keçən dinc kənd sakinlərini qətlə yetirir, diri-diri oda atırlar. Ev-eşiyindən didərgin düşmüş əhalinin az bir qismi ancaq bir neçə ildən sonra yurd-yuvasına qayıda bilir;

**195.** ***15 oktyabr 1918-ci il:*** Xinzirəkdə fəaliyyət göstərən daşnak terror qrupu Yazı düzündə payızlıq taxıl səpini ilə məşğul olan Zəngəzurun Əliquluuşağı kəndinin əkinçilərini güllələbaran edirlər. Kənd ağsaqqalı Alı Cəfər oğlu başda olmaqla 23 nəfəri qətlə yetirirlər;

**196.** ***24 noyabr 1918-ci il:*** Daşnak terror qrupu Yeni Bəyazit qəzasının Toxluca kəndini bombalayıb dağıdırlar. Sağ qalan kənd əhalisi yurd-yuvasını biryolluq tərk edir. Ələ keçirdikləri kənd sakini İbrahim Hüseyn oğlunun gözlərini çıxarıb buraxırlar;

**197.** ***26 noyabr 1918-ci il:*** Daşnak terror qrupları Mığın bölgəsinin Lehvaz kəndində 70, Teybədə 75, Mülkdə 30, Güldə 10, Bənövşənuşda 5, Tağalifdə 25,1 Yartanazurda 100, II Vartanazurda 65 ev dağıtmış, 200 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər. Lehvaz kəndinin sakini Kərbəlayi Mehdinin başını kəsib yolun ortasında iri bir daşın üstə qoymuşlar; Lök kəndində qaçıb canlarını xilas edə bilməyən qocalar, qadınlar və uşaqları güllələyib dərədən axan çaya tökmüşlər;

**198.** ***01 dekabr 1918-ci il:*** Polkovnik Doluxanovun başçılıq etdiyi daşnak terror qrupu Vedibasarın Şahablı kəndinə basqın etmişdi. Bütün kişiləri

qılıncdan keçirmiş, uşaqları təndirə atmışlar. Səkkiz seçmə qadını isə girov götürmüşlər;

**199.** ***02 dekabr 1918-ci il:*** Polkovnik Doluxanovun rəhbərlik etdiyi, Van və Sasun ermənilərindən təşkil olunmuş daşnak terror birləşmələri Vedibasarın Qaraxaç, Qadılı, Şidli, Xalisə, Avşar, Cadqıran, Kiçik Vedi kəndlərinə basqın etmişlər. On kənddə sayı qeydə alınmayan qətliamlar törətmişlər. 300 qadını əsir götürmüşlər;

**200.** ***02 dekabr 1918-ci il:*** Cavanşir qəzasının Mehmana kəndində məskən salmış daşnak terrorçuları kənddə yaşayan azərbaycanlıların evlərini mühasirəyə almış, onları tərksilah etmişlər. Üç nəfəri isə qətlə yetirmişlər. Kəndi azərbaycanlılardan bütünlüklə təmizləmişlər;

**201.** ***02 dekabr 1918-ci il:*** Mülkədərə kəndində məskən salmış daşnak terrorçuları Cəbrayıl qəzasının Məzrə, Məlikli, Tatar kəndlərinə basqın etmişlər. Məzrə kəndində altı nəfər qətlə yetirilmiş, Məlikli, Tatar kəndlərində iki qadın ağır güllə yarası almışdı. Hər üç kənd talan edilmişdir;

**202.** ***02 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Cilan erməni kəndinə diləyə gəlmiş Həsən İmamverdi oğlunu qətlə yetirirlər;

**203.** ***02 dekabr 1918-ci il:*** Cəbrayıl qəzasının Köhnə Tağ kəndində məskən salmış daşnak terror qrupu Xanağabulağı kənd sakini Allahqulu Mahmud oğlunu otlağa qoyun çıxardığı yerdə qətlə yetirmişlər.

**204.** ***03 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Axullu kəndinə basqın edirlər. Kənd sakinlərindən iki kişi, üç qadın, bir uşaq qətlə yetirilir;

**205.** ***03 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Hoğa kəndinə basqın etmişlər. Azğınlar Əsəd ağa Cavanşir oğlunu, qızı İradə Bəyimi, qardaşı qızı Fatimə Bəyimi, ev qulluqçusu İncə İbad qızını, nökərləri Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu, Vəli Kəlbəlayi Ələsgər oğlunu xəncərlə doğramışlar. Sonra isə əmlakını qarət edib evinə od vurmuşlar. Əlavə olaraq kənddə üç nəfər dinc sakini qətlə yetirmişlər;

**206.** ***05 dekabr 1918-ci il:*** Daşnak terror qrupu Vedinin Dəhnəz kəndinə basqın etmişdir. Kənd yerlə-yeksan edilmiş, 150 nəfər dinc sakin amansızlıqla qətlə yetirilmişdir;

**207.** ***11 dekabr 1918-ci il:*** Daşnak terror qrupu Şuşa yaxınlığından keçən poçt yolunu kəsir. Poçtu dağıdır, soyğunçuluq edir, poçtda işləyən azərbaycanlıları qətlə yetirirlər;

**208.** ***14 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Qaladərəsi və ətrafındakı azərbaycanlılar yaşayan digər kəndlərə basqın edirlər. Qala dərəsi Kəndinin azərbaycanlı əhalisini bütövlükdə qətlə yetirirlər;

**209.** ***18 dekabr 1918-ci il:*** Daşnak terror birləşməsi Cəbrayıl qəzasının Sirik kəndinə soxulub əliyalın, dinc əhalini güllələbaran etmişdir. Daşnaklar 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirmiş, evlərə od vurub yandırmışlar.

**Qeyd:** Ümumiyyətlə, 1918-ci ilin sentyabrından 1919-cu ilin sentyabr ayınadək daşnak terror qrupları Qarabağın Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında 150 türk kəndini dağıtmış, 13050 nəfər türkü qətlə yetirmişlər;

**210.** ***19 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzurun, Nüvədi kəndinə basqın edərək qətliam törətmişlər. Yataq xəstəsi olan Əsəd bəy Abbasovun sinəsinə süngü sancmışlar. Kənddən çıxıb qaçmaq istəyən qadın və uşaqların ələ keçəninin başlarını kəsmişlər;

**211.** ***20 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Qarçıvan, Deştahad, Fərəcan kəndlərinə basqın edirlər. Həmin kəndlərdə 115 nəfər Azərbaycan türkünü arvadlı-uşaqlı qətlə yetirirlər;

**212.** ***29 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Qaraçimən və Xaştab kəndlərinə basqın etmişlər. Qaraçimən kəndində yeddi, Xaştab kəndində isə bir nəfər dinc sakin qətlə yetirilmişdir;

**213.** ***30 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Pilimyanin və Nişanyanın başçılığı altında Basarkeçər və onun ətraf kəndlərinə basqın etmişlər. Həmin kəndlərdə sayı qeydə alınmayan qətllər törətmişlər, 1300 baş davarı sürüb aparmışlar;

**214.** ***30 dekabr 1918-ci il:*** Daşnak terror qrupu Zəngəzurun Bollaraçür kəndinə basqın edir. Bir nəfər dinc sakin qətlə yetirilir, iki nəfər isə güllə yarası alır;

**215.** ***31 dekabr 1918-ci il:*** Qarakənddə məskən salmış daşnak terrorçuları Ağdam-Qaryagin telefon xəttini sıradan çıxarır, iki nəfər zərbaycan türkünü qətlə yetirirlər;

**216.** ***31 dekabr 1918-ci il:*** Daşnak terrorçuları Cavanşir qəzasının Qarapirim kəndinə basqın edirlər. Cəmşidbəy Vəlibəyovun 1350 baş qoyun sürüsünü və at ilxısını qarət edib aparırlar;

**217.** ***31 dekabr 1918-ci il:*** Cavanşir qəzasının Dovşanlı kəndində məskən salmış daşnak terrorçuları kənddəki 135 azərbaycanlı evini mühasirəyə alaraq onları tərksilah etmiş, bundan sonra mal-qaralarını və ev əşyalarını qarət etməyə başlamışlar. Ev-eşiyindən didərgin düşən qaçqınlar sonralar Boyəhmədli, Kəngərli, Tarnaut kəndlərinə sığınıb qalmışlar;

**218.** ***01 yanvar 1919-cu il:*** Qarakənddə məskən salmış daşnak terror qrupu Ağdam-Qaryagin yolunda biçarə qaçqınlara basqın etmişdir. Sayı qeydə alınmayan qətliamlar törətmişlər;

**219.** ***03 yanvar 1919-cu il:*** Daşnak terrorçuları Zəngəzurun Qatar kəndinə basqın etmişlər. Kənd əhalisinin yurd-yuvasından didərgin salmışlar. Sayı qeydə alınmayan qətliam törətmişlər. Məşədi Qələndər kişini camaatın gözü qabağında üstünə neft töküb diri-diri yandırmışlar. Kərbəlayi Allahverdinin isə başını kəsərək qətlə yetirmişlər;

**220.** ***06 yanvar 1919-cu il:*** Andronikin daşnak terror qrupu Zəngəzurun Rəzdərə, Əsgərli və Vəlili kəndlərinə basqın etmiş, kəndlər yerlə-

yeksan edilmiş, həmlədən qaçıb canını qurtara bilməyən əhali yaşından və cinsindən asılı olmayaraq bütünlüklə məhv edilmişdir;

**Qeyd:** Ümumiyyətlə, dekabr 1917-ci ildən 1918-ci ilin sentyabrınadək Tayqulaq Andronik, Dro, Nijde başda olmaqla daşnak terror qrupları tərəfindən Zəngəzurun 115 kəndi yerlə-yeksan olunmuş, 2276 qadın, 2196 uşaq daxil olmaqla 10068 nəfər Azərbaycan türkü məhv edilmiş, sağ qalan əhali ellikcə yurd-yuvasından didərgin salınmışdır;

**221.** ***08 yanvar 1919-cu il:*** Daşnak terror qrupları Zəngəzur qəzasının Quşçulu, Hacılar, Ərkötü, Ağsallı, Sağarcalan, Açaquz, Oxçu kəndlərinə basqın etmişlər. Sayı qeydə alınmayan qətllər törətmişlər;

**222.** ***24 yanvar 1919-cu il:*** Göyçə mahalının Çamırlı kəndinə basqın edən daşnak terrorçuları dörd kişinin başını, altı qadının döşlərini kəsərək on nəfər dinc sakini vəhşicəsinə qətlə yetirmişlər;

**223.** ***28 yanvar 1919-cu il:*** Daşnak terror qrupu Göyçə mahalının Zağalı kəndinə basqın edir. Terrorçular tərəfindən 25 Azərbaycan türkü qətlə yetirilir, kənd tamamilə dağıdılır. Öldürülənlər arasında qadınlar və uşaqlar da olmuşdur. Daha doğrusu, terrorçular Daşnaksütyunun «şəraitdən asılı olmayaraq türkləri məhv etmək» tezisini Zağalıda həyata keçirmişlər;

**224.** ***30 yanvar 1919-cu il:*** Daşnak terror birləşmələri Kəvərmahalının Bığlı, Əfəndi, Hacı, Muğan, Əyrivəng, Ağzıbir kəndlərinə soxulmuş, əhalini kəndlərdən didərgin salmışlar, Təqiblər nəticəsində əhali yayda belə başı qarla örtülü olan Ağmanqan dağının yuxanlarında mühasirədə saxlanılmış, üç min nəfər dinc sakin şaxtadan donaraq məhv olmuşdur. Hücum zamanı ələ keçirdikləri Əfəndi kənd sakini İbrahim Hacıhüseyn oğlunun gözlərini çıxarmış, sonra da diri-diri yandırmışlar;

**225.** ***02 fevral 1919-cu il:*** Daşnak terrorçuları Pilimyan və Hişanyanın başçılıq etdikləri daşnak terror qrupları Göyçə gölü tərəfdən sərhəddi keçərək Gəncə quberniyasının Qızıl Vəng, Subasan, Şahab və digər kəndlərini təkrar yandırıb yaxmış, dağıtmış, əhalisini bütövlükdə məhv etmişlər. Qadınları öldürməmişdən öncə zorlamışlar, uşaqları isə diri-diri təndirlərə atmışlar;

**226.** ***03 fevral 1919-cu il:*** Ağdərədə məskən salmış 30 nəfərlik daşnak terror qruplaşması Dusurun və Buvanın başçılığı altında azərbaycanlılar yaşayan ətraf kəndlərə basqınlar edərək mal-qara sürülərini çəkib aparmaqla məşğul olmuşlar;

**227.** ***05 fevral 1919-cu il:*** Daşnak terror qrupları Göyçə mahalının Daşkənd oymağına basqın edirlər, 21 Azərbaycan türkünü qətlə yetirirlər. Daşkənd oymağından olan el sənətkarı Aşıq Nəcəf daş-naklar tərəfindən girov götürülür. Onu 2 gün ac-susuz çalıb-oxumağa məcbur edirlər. Sonra isə Aşıq Nəcəf Çaxırlı kəndi ilə Basarkeçər kəndləri arasındakı Kültəpə adlanan yerdə ağır işgəncə ilə qətlə yetirilir. Belə ki, kürəyinə qaynar samovar bağlayaraq onu küləyin əks istiqamətində qaçmağa məcbur edirlər;

**228.** ***05 fevral 1919-cu il:*** Daşnak terror qrupu Göyçənin Şorça kəndinə basqın etmişlər. Kənddəki bütün kişilər qılıncdan keçirilmiş, uşaqları isə təndirlərə atmışlar. 8 seçmə qadını isə kənddən aparıb 20 gün saxlamışlar, şərəflərinə toxunduqdan sonra buraxmışlar;

**229.** ***06 fevral 1919-cu il:*** Daşnak terror qrupu Göyçə mahalının azərbaycanlılar yaşayan Nəriman kəndinə basqın etmişdir. 29 kişi, 10 qadın, 12 uşaq işgəncələr verilməklə qətlə yetirilmiş, cəsədləri eybəcər hala salınmışdır. Gözləri çıxarılmış, qulaqları kəsilmişdir. 37 evə od vurub yandırmışlar.

**230.** ***07 fevral 1919-cu il:*** Daşnak terror qrupu Göyçənin Kələnti kəndinə soxulmuşdur. 15 kişi, 3 qadın və 5 uşaq öldürülmüş, meyitləri eybəcər hala salınmışdır;

**231.** ***İlaxır çərşənbə 1919-cu il:*** Polkovnik Hələbyanın başçılıq etdiyi daşnak terror qrupu Göyçə mahalının Şişqaya kəndində xüsusi qəddarlıq aktı törədir, 640 nəfər dinc, əliyalın kənd sakinini alovlandırıb ətrafında dövrə vurdurduqları tonqala atıb yandırmışlar;

**232.** ***20-21 mart 1919-cu il:*** Daşnak terror qrupları İrəvan mahalının Qaraxac, Qadılı, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şağanlı kəndlərinə təkrar soxulurlar. Əhaliyə qarşı vəhşiliklər törədirlər. Kişilərə divan tutur, qətlə yetirir, qadınları əsir götürürlər;

**233.** ***20-21 mart 1919-cu il:*** Daşnak terror birləşmələri Naxçıvan bölgəsinə təkrar hücuma başlayırlar. Qarşılarına çıxan bir neçə kəndi demək olar ki, yer üzündən silirlər;

**234.** ***23-24 mart 1919-cu il:*** Daşnak terror qrupları Göyçə mahalının Kiçik Məzrə və Hüseynquluağalı kəndlərinə həmlə edirlər. Kiçik Məzrədə 90, Hüseynquluağalı da isə 30 nəfəri türk olduqlarına görə qətlə yetirirlər;

**235.** ***06 aprel 1919-cu il:*** Daşnak terror qrupu 18 evdən ibarət Qarabağın Cavanşir kəndinə basqın edir. Terrorçular tərəfindən 25 kişi, 20 qadın və 10 uşaq qətlə yetirilir. Demək olar ki, bir nəfər belə kənd sakini sağ qalmır;

**236.** ***12 aprel 1919-cu il:*** Daşnak terror birləşməsi Qərbi Azərbaycanın Mucu kəndinə basqın edir. Bir gündə 150 kişi, 55 qadın və 25 uşağı qətlə yetirirlər. Uşaqların gözlərini çıxarır, sonra isə tonqala atırlar;

**237.** ***13 aprel 1919-cu il:*** Daşnak terror qrupu Qərbi Azərbaycanın Haşman kəndinə basqın edir. 70 evli bu kənddə 60 kişini, 40 qadını və 20 uşağı qətlə yetirirlər. Cəsədlərini eybəcər hala salırlar;

**238.** ***13 aprel 1919-cu il:*** Tayqulaq Andronikin başçılıq etdiyi daşnak terror qrupları Göyçə mahalının 22 kəndinə, İnəkdağ və ətraf kəndlərə basqın etmiş, əhalisini yurd-yuvasından didərgin salmışlar. Söyüdlü aşırımından Kəlbəcər üzə aşmağa can atan 400 ailə qara, çovğuna düşərək Sümüktökülən dərədə kütləvi şəkildə donvurmadan məhv olmuşlar;

**239.** ***19 iyun 1919-cu il:*** Şuşanın Xanbağı kəndinə basqın edən daşnak terrorçuları iki nəfər günahsız Azərbaycan türkünü qətlə yetirmişlər.

**240.*4 iyul 1919-cu il:*** Daşnak terrorçusu Sasenin başçılıq etdiyi terror qrupları Böyük Vediyə basqın edirlər. Sayı qeydə alınmayan çoxsaylı İnsan tələfatına səbəb olan terror aktları törədirlər;

**241.*16 iyul 1919-cu il:*** Daşnak terrorçuları Böyük Vedi kəndinə ikinci dəfə basqın edirlər. Sayı qeydə alınmayan qətllər törədirlər;

**242.** ***25 iyul 1919-cu il:*** Daşnak terrorçuları Gümrü şəhərində sayı qeydə alınmayan qətllər törədirlər;

**243.** ***29-30 iyul 1919-cu il:*** Daşnak terror qrupları Gərnibasarın Xaştab, Ağbaşyamaclar, Qocansura. Hacı Qurbanlar, Atgöz, Dəhla, Qurqərqə kəndlərinə basqın edirlər. Həmin kəndlərdə 300 ev dağıdılır, 58 qadın və uşaq vəhşiliklə qətlə yetirilir;

**244.** ***15 avqust 1919-cu il:*** Daşnak terrorçuları Naxçıvan qəzasında üç kəndli ailəsini tamamən məhv edirlər;

**245.*15 avqust 1919-cu il:*** Ərzurumda terror aktı törədən daşnaklar çox sayda qadınlar, uşaqlar, qocalar daxil olmaqla şəhərin 426 dinc sakinini, əsasən Azərbaycan türklərini diri-diri yandırırlar;

**246.*28 avqust 1919-cu il:*** Daşnak terrorçuları Vedibasarın Şahablı kəndində amansız türk qətliamı törətmişlər. Kənddə bütün kişiləri qırırlar, uşaqları təndirlərə atırlar. Qadınları qılıncdan keçirirlər. Namuslarına təcavüz etmək üçün gözəgəlimli on səkkiz qadını isə özləri ilə aparırlar;

**247.*19 sentyabr 1919-cu il:*** Daşnak terrorçuları Cəbrayıl qəzasının Əfəndilər kəndi ərazisində terror aktı törədirlər. Üç çobanı öldürərək (birinin başını kəsirlər) mal-qara sürüsünü çəkib aparırlar;

**248.*20-25 noyabr 1919-cu il:*** Daşnak terrorçusu Dronun rəhbərlik etdiyi daşnak terror qrupları Sürməlidə 60, Zəngəzurda 40 kəndi yerlə-yeksan edirlər. Həmin kəndlərin sağ qalan əhalisi isti ocaqlarından, dədə-baba yurdlarından bir nəfər kimi didərgin salınırlar;

**249.*03 dekabr 1919-cu il:*** Daşnak terror qrupları Zəngəzurun Çaylı, Əsədli və Oxçu kəndlərinə təkrar basqın edirlər. 900 dinc sakin qətlə yetirilir. 400 qadın və uşağın sığındıqları məscidi bombalayıb dağıdırlar. Qadın və uşaqları tikə-tikə doğrayırlar;

**250.*05 dekabr 1919-cu il:*** Daşnak terror qrupları Vedibasarın 10 kəndinə kütləvi şəkildə basqınlar edirlər. Sayı qeydə alınmayan xeyli adam qətlə yetirilir, 100 qadın əsir aparılır;

**251.*08 dekabr 1919-cu il:*** Daşnak terror qrupu Cəbrayıl qəzasının Arış kəndinə basqın edir. Əhalini atəşə tutub qoyun sürülərini çəkib aparırlar;

**252.*19 dekabr 1919-cu il:*** Daşnak terrorçuları daşnakların sərt təqiblərindən xilas olmaq üçün İrəvanda təşkil edilmiş «Müdafleyi-məzluman» qrupunun üzvü Hüseynağa Şahtaxtinskini qətlə yetirirlər;

**253.*20 dekabr 1919-cu il:*** Daşnak terror qrupu Zəngibasarın Kolanı kəndinə basqın edir. Sayı qeydə alınmayan qətl hadisəsi törədirlər. Kənd əhalisi yurd-yuvasından birkərənlik didərgin salınır;

**254.** ***20 dekabr 1919-cu il:*** Daşnak terror qrupları Cəbrayıl qəzasının Aşıq Məlikli, Tatar və Şıxlar kəndlərinə basqın edirlər. 10 evi yağmalayır və yandırırlar. Mal-qaranı sürüb aparırlar. 2 qadın və 6 kişi güllə yarası alır;

**255.*****21 dekabr 1919-cu il:*** Daşnak terror qrupu Zəngibasarın Qarğabazar kəndinə basqın edirlər. Kənd tamamilə dağıdılır, evlər yerlə-yeksan edilir. Sayı qeydə alınmayan qətllər törədirlər;

**256.*****22 dekabr 1919-cu il:*** Daşnak terror qrupları Uluxanlı kəndini top atəşinə tuturlar. Əhalinin bir qismi kənddə həlak olur. Qaçqın düşənlərin bir qismi yolda terrorçular tərəfindən güllənbaran edilərək qətlə yetirilir. Bir qismi isə Arazda boğulur. Bununla, erməni daşnak hökuməti tərəfindən Zəngibasar mahalında Azərbaycan türklərinin etnik təmizləmə əməliyyatına kütləvilik xarakteri verilir;

**257.*****25 dekabr 1919-cu il:*** Daşnak terror qrupları Üçmüəzzin mahalının Əkərək kəndinə basqın edirlər. Səkkiz nəfər qətlə yetirilir. Beş nəfər güllə yarası alır. Kəndin əhalisi bütünlüklə yurd-yuvasından didərgin salınır;

**258.*****01 yanvar 1920-ci il:*** Daşnak terror qrupu Üçmüəzzin mahalının Əxis kəndinə basqın edir. Sayı qeydə alınmayan qətllər törədirlər. Kənd əhli yurd-yuvasından didərgin salınır;

**259.** ***03 yanvar 1920-ci il:*** Daşnak terrorçuları Zəngəzurun Saldaş kəndinə həmlə edirlər. Bir nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**259.** ***03 yanvar 1920-ci il:*** Gorusda yerləşən daşnak terror birləşməsi Zəngəzurun Əliquluuşağı kəndinə basqın edir. Ölən və yaralananlar olur. Əhali doğma od-ocağından didərgin salınır. Kənd sakinləri yurd yerlərinə ancaq 1920-ci ilin aprel-may aylarında qayıda bilirlər;

**260.** ***06 yanvar 1920-ci il:*** Daşnak terror qruplaşması Dərələyəzin Bilək kəndinə basqın edir, 50 kişi, 50 qadın və 25 uşaq qətlə yetirilir. Kənd tamamilə dağıdılır;

**261.** ***06 yanvar 1920-ci il:*** Daşnak terror qrupu Şörəyel mahalının Düzkəndinə basqın edir. 86 nəfər dinc sakin qətlə yetirilir;

**262.** ***16 yanvar 1920-ci il:*** Daşnak terror birləşməsi Dərələyəzin Çivə kəndini bombalayır. Kəndin 4 dinc sakini həlak olur;

**264.** ***18 yanvar 1920-ci il:*** Daşnak terrorçuları Böyük Vedi-Dəvəli yolunu bağlayırlar. Yol adamlarına qanlı divan tuturlar. Sayı qeydə alınmayan çox saylı qətllər törədirlər;

**265.** ***20 yanvar 1920-ci il:*** Daşnak terror birləşmələri Zəngəzur qəzasının Qaladərəsi - Xocahan arasında yerləşən azərbaycanlılar yaşayan kəndlərə kütləvi həmlələr təşkil edirlər. Evləri yandırır, soyğunçuluqla məşğul olurlar. Sayı qeydə alınmayan qətl hadisələri törədirlər. 3-cü sahənin bütün kəndlərini dağıdırlar;

**266.** ***22 yanvar 1920-ci il:*** Daşnak terror qrupu Böyük Vediyə taxıl almağa gəlmiş Ordubad sakinlərinə basqın edirlər. Üç nəfəri qətlə yetirir, taxıl yüklü bir at və 21 uzunqulağı qənimət kimi ələ keçirirlər;

**267.** ***23 yanvar 1920-ci il:*** Daşnak terror qrupu Dərələyəz mahalının Ərkəz kəndinə hücum etmiş, beş nəfəri qətlə yetirmiş, üç qadını girov götürmüşlər. 600 baş qoyunu qənimət kimi sürüb aparmışlar;

**268.** ***23 yanvar 1920-ci il:*** Daşnak terrorçuları Şərur mahalının Kərimqulubəyməzə kəndinə həmlə etmişlər. İki nəfər qətlə yetirilmiş, üç nəfər isə güllə yarası almışdır;

**269.** ***24 yanvar 1920-ci il:*** Daşnak terror qrupu Əştərək bölgəsinin Savan kəndini top atəşinə tutur. Həlak olanların sayı qeydə alınmır. Kənd əhalisi yurd-yuvalarından tamamən didərgin düşür;

**270.** ***30 yanvar 1920-ci il:*** Daşnak terrorçuları Uluxanlı dəmiryol stansiyasında azərbaycanlı qaçqınları daşıyan qatara hücum edirlər. Bir nəfər qətlə yetirilir, 12 nəfər girov götürülür, 85 nəfər isə qarət olunur;

**271.** ***01 fevral 1920-ci il:*** Daşnak terror qrupları Sörəyelin Carcur kəndinə basqın edirlər. 2150 nəfər dinc sakin qətlə yetirilir. Əsl türk qətliamı törədilir;

**272.** ***06 fevral 1920-ci il:*** Daşnak terror qrupları Gümrü şəhərində təkrar terror aktları törədirlər. 500 nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**273.** ***06-07 fevral 1920-ci il:*** Daşnak terrorçuları qəflətən Cəbrayıl qəzasının Qarğabazar kəndinə basqın edir, 26 uşaq, 34 qadın, 13 kişi olmaqla 73 Azərbaycan türkünü qətlə yetirirlər. 38 kişi, 15 qadın olmaqla 53 nəfəri girov götürürlər;

**274.** ***10 fevral 1920-ci il:*** Daşnak terror birləşmələri Gəncə qəzasının 9-cu sahəsinə daxil olan Şişqaya, Sadarağac və Hacı Qəriblər kəndlərinə basqın edirlər. Kəndlərdə əhalinin çox hissəsi qətlə yetirilir, sağ qalanlar isə ev-eşiyindən didərgin düşürlər. Qaçqınlardan 30 nəfər isə donvurmadan həlak olur;

**275.** ***24 fevral 1920-ci il:*** Zaruşat tərəfdən hücuma keçən daşnak terror qruplaşmaları Düzkəndin Şurakəni kəndini tamamilə dağıdırlar. Bütün kişiləri qılıncdan keçirirlər;

**276.** ***22 mart 1920-ci il:*** Daşnak terror qrupları Şörəyel mahalının ayrı-ayrı kəndlərinə təkrar basqınlar təşkil edirlər. 2000 azərbaycan türkünü qətlə yetirirlər;

**277.** ***22 mart 1920-ci il:*** Novruz bayramı ərəfəsində 200 nəfərlik daşnak terror qruplaşması Şuşa şəhərinə yeridilir. Şuşada yaşayan ermənilər də onlara qoşulurlar. Həmin gün şəhərin azərbaycanlılar yaşayan hissələrinə başdan-başa basqınlar edirlər. Bayrama başı qarışan əhali xeyli itki verir;

**278.** ***23 mart 1920-ci il:*** Daşnak terrorçuları qəflətən Xankəndindəki Azərbaycan ordu hissələrinə hücum edib şəxsi heyətdən üç nəfəri qətlə yetirirlər;

**279.** ***05-06 aprel 1920-ci il:*** Daşnak generalı Bağdasarovun rəhbərliyi altında daşnak terror birləşməsi Qazax mahalının Yaradulla, Qaraçan, Çaxmanlı kəndlərinə basqın edir. Hər üç kənddə qətliam törədirlər. Əhalinin çox hissəsini qırırlar;

**280.** ***06 aprel 1920-ci il:*** Daşnak terrorçuları Gümrü şəhərində və ətraf kəndlərdə təkrar qətliamlar törədirlər. 1500-dən artıq Azərbaycan türkünü qətlə yetirirlər;

**281.** ***09 aprel 1920-ci il:*** Daşnak generalı Dronun başçılıq etdiyi daşnak terror birləşmələri Qazax qəzasının Əskipara, Yuxarı Əskipara, Fərəhli, Xeyrimli, Bağanis-Ayrım, Quşçu-Ayrım kəndlərinə basqın edirlər. Kəndlər yandırılır, qətliam törədilir, o cümlədən yüzlərcə uşaq və qadın vəhşicəsinə qətlə yetirilir;

**282.** ***27 aprel 1920-ci il:*** Gecə AXC-nin hökumət başçısı olmuş Nəsibbəy Yusifbəyli daşnak muzdlusu tərəfindən qətlə yetirilir, cəsədi naməlum şəraitdə yox edilir;

**283.** ***25 may 1920-ci il:*** Daşnak terror qruplaşmaları bolşeviklərin 28-ci atıcı diviziyasının əsgərlərinə qoşularaq Gəncədə sovet işğalına qarşı üsyan edən əhalini kütləvi şəkildə qətlə yetirirlər. 12 min insan qanı Gəncənin küçələrini al rəngə boyayır. Bu dəhşətli hadisədən qeyzə gələn əhali günü bu gün də may ayında toy şənliyi etmir;

**284.** ***May-iyun 1920-ci il:*** Daşnak terror qruplaşmaları Vedibasar mahalının Qaraxac, Heyranlı, Ağasıbəyli kəndlərində təkrar-təkrar sayı qeydə alınmayan kütləvi terror aktları törədir, əhalini türk soyqırımına məruz qoyurlar.

**Qeyd (1):** Ümumiyyətlə, fevral 1917 - noyabr 1920-ci illər ərzində Tayqulaq Andronik, Dro, Nijde kimi türkə qənim kəsilmiş daşnakların qaniçən generallarının başçılığı altında daşnak terror qrup və birləşmələri tərəfindən 1) İrəvan, Çuxursəd mahalının 199 kəndi dağıdılmış, 132 min azərbaycanlı türkü qətlə yetirilmişdir; 2) Üçmüəzzin qəzasının 60 kəndi dağıdılmış, 35784 nəfər qətlə yetirilmişdir; 3) Yeni Bəyazit qəzasının 84 kəndi dağıdılmış, 75000 nəfər (15 min ailə) qətlə yetirilmişdir; 4) Göyçə mahalının 22 kəndi yerlə-yeksan edilmiş, 22 min nəfər qətlə yetirilmişdir, 5) Sürməli mahalında 96 kənd dağıdılmış, 57254 Azərbaycan türkü qətlə yetirilmişdir Beləliklə, İrəvan quberniyasındakı 1301 Azərbaycan kəndindən 959-u dağıdılmış, 322038 nəfərdən çox Azərbaycan türkü məhv edilmişdir. Bu qətliam illərində Qərbi Azərbaycanın Mədinə, Mollalı, Çamırlı, Alçalı, Aşağı Gözəldərə, Yuxarı Gözəldərə, Əfəndi, Bığlı, Abdal Əsəd, Qışlaq, Qul Alı, Küsəcik, Kərəmkənd, Kolaqıran, Qoça, Qaya, Aşağı Zoğlu, Kiçik Qaraqoyunlu və Əsədli kimi onlarca yaşayış məntəqələrinin adı yer üzündən silinmişdir. Ördəkli, Hacı Muğan, Ağzıbir, Ağqala, Əyri Vəng, Nərədüzü, Başkənd, Dəliqardaş, Yarpızlı, Kəvər, Qızıl Vəng, Tüstülü, Çaxırlı, Qırxbulaq, Gödək Bulaq, Basarkeçər, Aşağı və Yuxarı Zağalı, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Qanlı, Çubuqlu, Təkağac, Sivri və s. kimi azərbaycanlılar yaşayan kəndlərə gəlmə ermənilər yerləşdirilmiş və sonralar isə bu kəndlərin minillikləri aşan türk mənşəli qədim adları da erməniləşdirilmişdir;

**Qeyd (2):** Ümumiyyətlə, 1828-ci ildən 1920-ci ilədək Qərbi Azərbaycanda (indiki qondarma Ermənistan Respublikasının ərazisində) 738

tarixi türk-müsəlman kəndindən azərbaycanlılar didərgin salınmış və həmin kəndlər erməniləşdirilərək xristian yaşayış əntəqələrinə çevrilmişdir;

**285.** ***12 may 1920-ci il:*** Erməni şahidlərinin uydurma ifadələri əsasında bolşevik cildinə girmiş daşnak müstəntiqi M.Safixanyanın saxta ittihamları və təhriki ilə Gəncənin general-qubernaloru Xudadat bəy Rəfibəyli Bakıda güllələnmiş, cəsədi dənizə atılmışdır.

**286. 15 may 1920-ci il:** Gümrü (Aleksandropol) şəhərində vilayətin qeyri-erməni əhalisini, xüsusilə rusları daşnak terror qruplarının qətliamlarından qorumaq üçün Rusiya hökumətinə müraciət etdiyinə görə rus milli şurasının sədri Rossler daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**287.** ***29 may 1920-ci il:*** Bakının sabiq general-qubernatoru Murad Gəray oğlu ÇK-nın baş müstəntiqi, bolşevik cildinə girmiş daşnak Adamyan tərəfindən istintaqa cəlb edilmiş, günahı sübuta yetirilmədən onun təhriki ilə elə həmin gün gecə saat $2^{00}$-da güllələnmişdir;

**288.** ***19 iyun 1920-ci il:*** AXC-nin baş naziri Fətəli xan Xoyski Tiflis şəhərinin İrəvan meydanındakı teatr binasının yanında daşnak terrorçuları Aram Yerkayan və Misaq Qriqoryan tərəfindən qətlə yetirilmişdir;

**289.** ***02 iyul 1920-ci il:*** Daşnak terror qrupları Zəngibasarın ayrı-ayrı kəndlərində kütləvi terror aktları törətmişlər. 1500 nəfər dinc, əliyalın Azərbaycan türkünü qətlə yetirmişlər;

**290.** ***19 iyul 1920-ci il:*** AXC-nin qurucularından biri Həsənbəy Ağayev Tiflis şəhərində daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**291.** ***02 sentyabr 1920-ci il:*** Daşnak terror birləşmələrinin İrəvanda, Şərur-Dərələyəzdə törətdikləri terror aktlarından, qətliamlardan can qurtarıb Türkiyəyə qaçmaq istəyən bu bölgələrin 1500 nəfərədək qaçqın dəstəsi Arazın qolu sayılan gur axınlı Olta çayını keçmək istərkən sıralarından 650 nəfəri itirmişlər. Binəsiblər çayda boğularaq tələf olmuşdur;

**292.** ***03 sentyabr 1920-ci il:*** Daşnak terror qruplaşması Şörəyel mahalının Düzkənd yaşayış məntəqəsinə təkrar basqın edir. 120 nəfər dinc sakin qətlə yetirilir;

**293.** ***15 noyabr 1920-ci il:*** Daşnak terrorçuları İrəvan şəhərində aborigen əhalinin sayını azaltmaq üçün sayı qeydə alınmayan türk qətlləri törədirlər;

**294.** ***15 dekabr 1920-ci il:*** Daşnak terrorçuları aborigen əhalinin sıxlığını seyrəltmək üçün Şörəyelin kəndlərində sayı qeydə alınmayan çoxsaylı türk qətliamları törədirlər;

**295.** ***19 dekabr 1920-ci il:*** Daşnak terror birləşmələri Zəngəzurun Əliquluuşağı - Fərəcan cəbhə xətti boyunca azərbaycanlılar yaşayan kəndlərə kütləvi basqınlar edirlər. 26 kənd yerlə-yeksan edilir. Erməni-daşnak faşistlərinin vəhşiliklərinin həddi-hüdudu olmur. Sayı qeydə alınmayan qətl hadisələri törədirlər, əhali yer-yurdundan didərgin salınır;

**296.** ***22 dekabr 1920-ci il:*** Daşnak terror qrupları İrəvan şəhərində təkrar qətliamlar törədir, 192 nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**Qeyd:** «Pravda» qəzetinin 29.11.1935-ci il tarixli sayında yazılır ki hakimiyyətdə olduqları 30 ay ərzində daşnaklar 489 min adamı (Azərbaycan türkünü - Ə.Ə.) qətlə yetirmişlər;

**297.** ***Yanvar-dekabr 1920-ci il:*** Daşnak terror qrup və birləşmələri ötən bir il ərzində Naxçıvan qəzasının kəndlərində başdan-başa kütləvi terror aktları törədir, 11715 Azərbaycan türkünü qətlə yetirirlər;

**298.** ***14 fevral 1921-ci il:*** Konsert vermək üçün Ağdamdan ermənilər yaşayan Darnavaz kəndinə gedən altı nəfər həvəskar aktyor yolda daşnak Ağacan Ayriyanın başçılıq etdiyi terrorçular tərəfindən qətlə yetirilmişdi;

**299. 19 fevral 1921-ci il:** Daşnak terrorçuları Zəngibasarda terror aktları törədirlər. 18 nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**300.** ***08 mart 1921-ci il:*** Hadrut rayonunun Domu kəndindən olan, qatı türk düşməni, Qaragen Nijdenin ordusunda xidmət etmiş daşnak terrorçusu Tevon Cavadov (Stepanyan) beynəlmiləlçiliyi təbliğ etdiyinə görə soydaşı Şimavon Davityanı şaqqalayıb qətlə yetirmişdi. Bununla ürəyi soyumayan qatı daşnak başkəsəni sonra mərhumun anasını oğlunun parçalanmış meyiti ətrafında əl çalıb oynamağa məcbur etmişdir;

**301.** ***18 mart 1921-ci il:*** AXC-nin DİN işləmiş Behbud ağa Cavanşir İstanbul şəhərində, «Pera Palas» oteli qarşısında daşnak terrorçusu Misaq Terlaqyan tərəfindən arxadan atılan odlu atəşlə qətlə yetirilmişdir;

**302.** ***19 mart 1921-ci il:*** Daşnak terrorçuları Naxçıvan şəhərində 12 nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**303.** ***22 mart 1921-ci il:*** Daşnak terrorçuları Qərbi Azərbaycanın Arpaçay qəsəbəsində (indiki Axuryan) terror aktı törətmişlər. Qəsəbənin 148 nəfər dinc türk sakinini məhv etmişlər;

**304.** ***Yanvar 1921 - dekabr 1921-ci il:*** Daşnak terror qrupları Qərbi Azərbaycanın Baş Qarakilsə bölgəsində ötən bir il ərzində saysız-hesabsız qətliamlar törədirlər. Nə çox nə az 6000 nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**Qeyd:** 28 aprel 1920-ci ildən 21 avqust 1921-ci llədək daşnak terror birləşmələri Qərbi Azərbaycanda 48.000 Azərbaycan türkünü qətlə yetirmələri bu gün danılmaz faktdır.

**305.*****25 aprel 1922-ci il:*** Daşnak terrorçusu, əslən Qarabağdan olan Zaren Məlik-Şahnazaryan Tiflis şəhərində «gənc türklərdən» Camal paşanı və onun bir köməkçisini qətlə yetirmişdir;

**306.** ***22 avqust 1922-ci il:*** Naxçıvanda erməni şahidlərinin yalan ifadələri əsasında .1919-cu ilin baharında AXC-nin əleyhinə Qarabağda qiyam qaldıran daşnak generalı Dro Kananyanın və Dəli Qazarın terror qruplarını darmadağın edilməsi əməliyyatına rəhbərlik etmiş general-mayor Həbib bəy Yusif oğlu Səlimov bolşevik-daşnak qaragüruhçuları tərəfindən güllələnmişdir;

**307.** ***1920-1930-cu illər:*** Bolşevik cildinə girmiş daşnak bolşevikləri Qərbi Azərbaycanın aborigen əhalisi olan Azərbaycan türklərindən nə az, nə çox, 100000 nəfəri repressiyaya məruz qoyurlar;

**308.** ***19 mart 1925-ci il:*** Daşnak-bolşevik terrorunun qurbanlarından biri də Azərbaycanın böyük oğlu, dövlət xadimi, yazıçı-publisist Nəriman Nərimanov olmuşdur. Artıq bu gün danılmaz faktdır ki, antitürk siyasətinin daşıyıcılarından biri, erməni yeznəsi Orcenikidzenin milliyyətcə erməni olan sürücüsü tərəfindən nahar süfrəsində çayına zəhər qatılan Nəriman Nərimanov daşnak peşəkarlığı ilə qətlə yetirilmişdir;

**309.** ***24 aprel 1931-ci il:*** Daşnak terrorçuları Qərbi-Azərbaycanda ad çıxarmış Qaçaq Bəhramı öldürməklə ürəkərini soyutmurlar. Nəşini atın üstünə bağlayıb kənd-kənd gəzdirirlər. Sonra isə cəsədi tut ağacına bağlayıb donuzlara yem edirlər;

**310.** ***22 mart 1932-ci il:*** 1917-1920-ci illərdə daşnak terroruna qarşı mübarizə aparmış el qəhrəmanı Abbasqulu bəy Şadlınski daşnak muzdlusu tərəfindən qətlə yetirilmişdir;

**Qeyd:** Bu dövrdə bolşevik cildinə girmiş daşnaklar mütəmadi olaraq Azərbaycan türkünə qarşı yaranmış imkan və şəraitdən asılı olaraq hiylə və xəyanətkar xislətlərindən lazımınca istifadə edərək öz çirkin niyyətlərini həyata keçirməkdən əsla çəkinməmişlər. Belə ki, daşnak A. Mikoyanın şər və böhtanı ilə Çingiz İldırım həbs edilmiş, onun fitnəsi ilə həbsxana şəraitində qətlə yetirilmişdir.

**311.** ***26 iyul 1937-05 fevral 1938-ci il:*** Azərbaycan SSR XDİK BS idarəsinin 3-cü dərəcəli dövlət təhlükəsizlik kommissarı maskası altda gizlənmiş, daşnak Yuvilyan Davidoviç Sumbatov fürsəti əldən verməyərək Stalin irticasından "bəhrələnmiş", tərkibinin 90-95 %-i türk, həm də görkəmli ziyalılar olan 3159 nəfər Azərbaycan vətəndaşının güllələnməsi əmrinə imza atmışdır. Belə ki, onun əmri ilə 26.VII.1937-ci ildə 47 nəfər, 27.VII.1937-ci ildə 53 n., 29.VII.1937-ci üdə 79 n., 02.VIII.1937-ci ildə 16 n. 08.VIII.1937-ci ildə 29 n., 19.VIII.1937-ci ildə 49 n., 21.VIII.1937-ci ildə 7 n., 27.VIII.1937-ci ildə 148 n., 28.VIII.1937-ci ildə 25 n., 01.IX.1937-ci ildə 193 n., 09.IX. 1937-ci ildə 185 n., 16.IX.1937-ci ildə 427 n., 21.IX.1937-ci ildə 42 n., 25.IX.1937-ci ildə 96 n., 27.IX.1937-ci ildə 16 n., 28.IX.1937-ci ildə 41 n., 11. X.1937-ci ildə 51 n., 12.X.1937-ci ildə 46 n., 29.X.1937-ci ildə 263 n., 21.XI.1937-ci ildə 113 n., 27.XI.1937-ci ildə 50 n., 29.XI.1937-ci ildə 151 n., 16.XII.1937-ci ildə 365 n., 04.01.1938-ci ildə 50 n., 06.01.1938-ci ildə 47 n., 08.01.1938-ci ildə 49 n., 09.01.1938-ci ildə 45 n., 14.01.1938-ci ildə 238 n., 05.02.1938-ci ildə 238 nəfər Azərbaycan vətəndaşı güllələnmişdir;

**312.** ***1937-1938-ci illər:*** Bolşevik maskası taxmış daşnak A.Mikoyanın dezinformasiyası nəticəsində - guya Qərbi Azərbaycan türkləri Türkiyə Respublikasına köçmək istəyirlər - Stalin irticası tərəfindən Türkiyə ilə həmsərhəd Vedibasar, Zəngibasar, Gərnibasar, Qəmərli, Şörəyel, Sərdarabad,

Ağbaba və s. mahallardan 50000 Azərbaycan türkü Ermənistan SSR-dən Qazaxıstana sürgün edilmişdir;

**313.** ***24 yanvar 1945-ci il:*** İki dəfə Sovet İttifaqı Qəhrəmanı, Böyük Vətən müharibəsinin əfsanəvi sərkərdəsi, tank qoşunları qvardiya general-mayoru Həzi Əhməd oğlu Aslanovun müəmmalı ölümündə erməni mənşəli Sovet İtifaqı Marşalı, daşnak İvan Baqramyanın əli olması barədə o zamanlar yayılan şayiələr bu gün öz ünvanını tapmaqdadır;

**314.** ***23 dekabr 1947-ci il:*** Qondarma daşnak generalı Hamazaspın qərargah rəisi olmuş, qatı daşnak, analoqu olmayan hiyləgər A.Mikoyanın təşəbbüsü ilə SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar qəbul etmişdi. Qərara əsasən 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlının doğma yurdlarından köçürülməsi nəzərdə tutulmuşdur. Beləliklə, bu ad altında azərbaycanlıların Qərbi Azərbaycandan deportasiya edilməsinin əsası qoyulmuşdur;

**315.** 1948-1953-cü illər: Bolşevik-daşnak qaragüruhunun hök^ mdar olduğu SSRİ hökuməti, daha doğrusu, Stalin-Mikoyarl Tevosyan üçlüyü tərəfmdən xaricdən gələn crmənilərin Ermənistanda yerləşdirilməsi adı altında Ermənistan SSR vətəndaşı olan 150 mil Qərbi Azərbaycan türkünün insan hüquqları cinayətkarcasına tapdanmışdır. Həmin insanlar milli mənsubiyyətlərinə görə deportasiya olunmuş, erməni-daşnak faşizminin növbəti etnik təmizləmə siyasəti nin günahsız qurbanlarına çevrilmişlər. Azərbaycan SSR-in Kür-Araz ovalığına - heç bir yaşayış şəraiti olmayan və yaradılmayan əraziləri köçürülən binəsiblərin 1/5-i (30 min) aclıq və xəstəlik nəticəsində təla olmuşdur;

**316.** ***24 aprel 1965-ci il:*** Şuşa şəhərində Azərbaycan tcleviziyasının ötürücü qülləsini partlatmağa cəhd göstərən daşnak terrorçusu cinayət başında yaxalanmışdır;

**317.** ***03 iyul 1967-ci il:*** Daşnak terrorçuları Xankəndi (Stepanakert) şəhərinin mərkəzi parkında, vilayət DİI-nin 20-30 metrliyində postsovet məkanında ağıla gəlməz terror aktı törətmişlər. Erməni məkri ilə şərlənib tutulan Xocavənd (Martuni) rayonunun Qaradağlı kənd sakinləri Ərşad müəllim və onun qohumları Ələmşadla Zöhrabın cinayəti tam olaraq sübuta yetirilməmişdir. Məhkəmə qərarı ilə saxta ittihamlar əsasında Ərşad müəllimə 11 il iş kəsilmiş, lakin Ələmşadla Zöhrab bəraət almışlar. Məhkumlar məhkəmə zalından çıxarılan zaman terrorçular onların üstünə hücum etmişlər. Çoxsaylı bıçaq zərbələri ilə Ərşadın başını kəsmiş, digər iki qohumunu qətlə yetirmişlər. Bununla kifayətlənməyən terrorçular hər üç cəsədin üstünə benzin tökərək od vurub yandırmışlar;

**318.** ***07 iyun 1968-ci il:*** Daşnak terrorçuları İrəvan şəhərinin Kiyevyan küçəsindəki 1b binasının 15-ci mənzilində yaşayan, erməni

saxtakarlığını ifşa edən tarix bilicisi İsrafil Məmmədovu məhv etmək məqsədi ilə partlayış törətmişlər. Azərbaycan türkü İ.Məmmədov və ailəsi xoş təsadüf nəticəsində sağ qalmışlar;

**319.** ***28 avqust 1969-cu il:*** Daşnak terrorçusu Xankəndi şəhərində Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən keçirilən müəllimlərin zona müşavirəsi iştirakçılarının qaldığı «Qarabağ» otelinin qarşısında əl qumbarası partladır. Üç azərbaycanlı müəllim ağır qəlpə yarası alır. Qumbara partladanın şəxsiyyəti məlum olsa da, onun haqqında cinayət işi qaldırılmır;

**320.** ***1970-ci illərin əvvəli:*** Bakı şəhərinin memarlıq incilərindən olan Azərbaycan Dövlət Opera və Balet Teatrının binası daşnak terrorçusu tərəfindən yandırılır;

**321.** ***1970-ci illərin ortaları:*** «Daşnak yolu çıxılmaz yoldur» - dediklərinə və Daşnaksütyunun məkrli tədbirlərinə qatılmadıqlarına görə daşnak terrorçuları Xocavənd (Martuni) rayonunun Çartaz kəndindəki «Kommunizm» kolxozunun sədri S.Adamyanın evinə basqın edir, gecəyarı onu evində qətlə yetirirlər. Xocavənd (Hadrut) rayonunun Dolanlar kəndindəki S.Şaumyan adına kolxozun sədri Yura Telli oğlunu isə Hadrut ərazisində maşın qəzasına salaraq məhv edirlər;

**322.** ***1970-ci illərin sonu:*** Xankəndində xalq hakimi qiyafəsinə girmiş daşnak ünsürü Razmik Sarkisyan əlinə girəvə düşdükcə türk millətindən olan məhkumlara öz amansızlığını göstərməkdən əsla çəkinməmişdir. Belə ki, özünü deteka polkovniki kimi qələmə verən, daşnak manyakı Z.Balayanın qayınanası Marqo Marutyanın yaxın rəfiqəsi Eteri (əsl adı Aşxan) adlı qadın tez-tez məşhur müğənni Şahmalı Kürdoğlunun maşınından istifadə edərək səfərlərə çıxar, ticarət, iaşə müəssisələrinin, ayrı-ayrı təşkilatların rəhbərlərinə hədə gələr, qorxuzaraq dələduzluq yolu ilə rüşvət alarmış. Növbəti səfərlərin birində dələduz qadın yaxalanır. Şahmalı Kürdoğlu da qadınla birgə cinayət məsuliyyətinə cəlb olunur. Ramiz Sərkisyanın hakimlik etdiyi məhkəmə kollegiyası cinayətkar qadına cəmi 4 il, Şahmalı Kürdoğluna isə 14 il iş kəsir. Cəzasının müəyyən hissəsini çəkib qurtaran müğəninin sonrakı taleyi acı sonluqla başa çatır. 1990-cı illərdə onun Ağdamdakı evi daşnak terrorçularının qrad raketinə tuş gəlir. Özü və kiçik yaşlı oğlu qəlpə yarasından həlak olur;

**323.** ***1980-ci illərin əvvəli:*** Bakı şəhərinin Yasamal yaşayış massivində daşnak terrorçusunun əliylə təbii qaz xəttində partlayış törədilir. Terror aktı çoxsaylı insan tələfatı ilə nəticələnir;

**324.** ***24 yanvar 1981-ci il:*** İrəvanda nəşr edilən «Sovet Ermənistanı» qəzetinin redaktoru Məhərrəm Bayramov erməni millətçilərinin antitürk hərəkətlərini ifşa etməyə səy göstərdiyinə görə daşnak terrorçuları tərəfindən məhv edilir;

**325.** ***24 aprel 1983-cü il:*** Daşnak terror qrupları təxribatlar törədirlər. Qondarma «genosid» gününü bəhanə edərək Masis (Zəngibasar) rayonu ərazisində, Uluxanlıya və digər azərbaycanlılar yaşayan kəndlərə basqınlar

edirlər. Kənd qəbiristanlıqlarını dağıdırlar. Əliyalın, müdafiəsiz əhali Türkiyə-SSRİ sərhədlərindəki zastavalara sığınmaq məcburiyyətində qalırlar;

**326.** ***1983-cü ilin sonları:*** Daşnak terrorçuları öz fahişəliyi ilə tanınan erməni qadınını-öz soydaşlarını naməlum şəraitdə qətlə yetirərək qanını Şuşa rayonunun Kosalar kənd sakinlərinin üstə atırlar. Xalq hakimi Razmik Sarkisyanın sədrlik etdiyi məhkəmə heyətinin hökmü ilə heç bir dəlil-sübut əldə etmədən şərlənən gənclərdən Həsənov Namiq güllələnmə, Həsənov Əlövsət və Əliyev Fuad isə 13 il müddətində həbs cəzasına məhkum edilirlər.

**Qeyd:** Ümumiyyətlə, 1980-ci illərdə Xocalı kənd sakinləri Usubov Kamran Hüseyn oğlu, Əhmədov Eldar Nayıb oğlu, Ağdam rayonunun Bağbanlar kənd sakini İsfəndiyarov Hümbət Əsgər oğlu, Ağdərə (Mardakert) şəhər sakini Şərifov Kamal Çoban oğlu və onlarca başqaları DQMV-nin R.Sərkisyan kimi daşnak xislətli xalq hakimləri tərəfindən günahsız yerə həbs cəzalarına məhkum edilirlər;

**327.** ***08 senryabr 1984-cü il:*** Daşnak terrorçusu Vartanyan Henri Surenoviç tərəfindən Bakı şəhər sərnişindaşıma nəqliyyatı müəssisəsinə məxsus 106 saylı marşrut avtobusuna partlayıcı paket qoyulur. Partlayış nəticəsində şəhər sakini Fatimə Famil qızı Surxayzadə faciəli şəkildə həlak olur, dörd nəfər sərnişin isə ağır bədən xəsarəti alır. Tapılaraq məsuliyyətə cəlb olunan terrorçu Moskvanın təzyiqi altında, guya psixi xəstədir adı altında Ukrayna SSR-ə müalicə kursuna ezam edilir, oradan isə azadlığa buraxılır;

**328.** ***1984-cü ilin ortaları:*** Daşnaklar tərəfindən cızılmış plan üzrə DQMV-də həyətyanı sahələri qaytanlanmış kitaba salınmayan azərbaycanlılar yaşayan Pirəməkli kəndinin varlığı yer üzündən silinir. Kəndin yeri buldozerə verilir. Guya fərdiyyətçiliyə yol verdiklərinə görə kənd sakinlərinin mal-qarası əllərindən alınır. Təxribatın təşkilatçılarından kimsə məsuliyyətə cəlb edilmir;

**329.** ***1985-ci ilin payızı:*** Xankəndindəki Lenin adına orta məktəbin direktoru Yuri Nersesyan Xocalı şəhərində azərbaycanlı uşağının ölümü ilə nəticələnən yol-nəqliyyat qəzası törədir. Lakin Yuri Nersesyan Daşnaksütyun partiyasının üzvü olduğundan ona «gözün üstə qaşın var» deyən tapılmır;

**330.** ***25 yanvar 1988-ci il:*** Qafan rayon partiya komitəsinin birinci katibi, kommunist cildinə girmiş qatı daşnak Mkrtıçyanın rəhbərliyi altında daşnak terrorçuları Qafan və Kecalan şəhərlərində açıq şəkildə azərbaycanlı ailələrinin üzərinə həmləyə keçirlər. Evlər dağıdılır, ev sahibləri döyülür, söyülür, təhqir edilərək şəhərdən qovulurlar. 2000 Azərbaycan türkü isti od-ocağından qaçqın düşür. Qaçqınların bir qismi Azərbaycanın ətraf rayonlarına, əsas qismi isə Sumqayıt şəhərinə pənah gətirirlər;

**331.** ***19 fevral 1988-ci il:*** Daşnak terror qrupu türkün ana şəhəri olan İrəvanda zaman-zaman yandırıb məhv etdikləri 9 cümə məscidindən sonuncusunu, şəhərin bəzəyi olan və memarlıq abidəsi kimi qorunub saxlanan Göy cümə məscidini yandırırlar;

**332.** ***22 fevral 1988-ci il:*** Daşnak terrorçuları tərəfindən Əsgəranda dinc yürüş iştirakçılarından iki gənc - Bəxtiyar Quliyev və Əli Hacıyev Əsgəran rayon DİŞ-nin daşnak terrorçusu olan əməkdaşları tərəfindən güllələnir. 19 nəfər müxtəlif dərəcəli güllə yarası alır. İstintaq ışini Moskva öz əlinə alsa da, orada yox edilir. Cinayət məsuliyyətinə kimsə cəlb edilmir;

**333.** ***23 fevral 1988-ci il:*** Daşnak terror qrupları Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıları ata-baba yurdlarından qovmaq üçün əvvəlcədən hazırladıqları mənfur planlarını - «etnik təmizləmə» siyasətlərini həyata keçirməyə başlayırlar. Birinci həmlədə cəzasız qalan terrorçular Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə şiddətli və kütləvi şəkildə basqınlar etdilər. 4000 əliyalın, dinc Azərbaycan türkünü döyüb təhqir edərək, onları silah gücünə doğma yurd-yuvalarından qovurlar. Qaçqınlar demək olar ki, bütünlüklə Sumqayıt şəhərinə və onun ətraf kəndlərinə üz tuturlar;

**334.** ***28 fevral 1988-ci il:*** Erməni-daşnak faşistləri əvvəlcədən hazırladıqları plan əsasında fitnəkarlıq məqsədi ilə Sumqayıtda təxribat aktı törədirlər. Daşnak terrorçusu Eduart Qriqoryanın və onun əlaltıları Ohanyanın, daşnak muzdluları Samoylovun, Pavlovskinin təhriki ilə çoxsaylı mitinq iştirakçılarını etizaza gətirərək dinc yürüşlərini iğtişaş həddinə çatdırırlar. Daşnak terrorçuları öz soydaşlarına təcavüz edirlər. 26 erməni və 6 azərbaycanlı qətlə yetirilir, 40 nəfər yaralanır, 200 mənzil talan edilir, 444 nəfər saxlanılır;

**Qeyd:** Təəssüflər olsun ki, günü bu gün də erməni-daşnak faşistlərinin Sumqayıtda törətdikləri fitnəkarlıq aksiyası gerçək mahiyyəti ilə parlament səviyyəsində müzakirəyə çıxarılmamış, hələ də bu terror aktı beynəlxalq aləmdə özünün əsl hüquqi-siyasi qiymətini almamışdır;

**335.** ***10 mart 1988-ci il:*** Daşnak terror qrupu Zəngibasarın Mehmandar kəndinə basqın edir. Evini tərk etmək istəməyən beş nəfər əliyalın kənd sakini qətlə yetirilir. Elə həmin gün daşnak terrorçuları İrəvan ətrafında 10 nəfəri türk olduqlarına görə qətlə yetirirlər;

**336.** ***25 mart 1988-ci il:*** Daşnak terrorçuları tərəfindən Vedibasarın el ağsaqqalı, məşhur övliya Seyid Ağabal ağa amansızcasına qətlə yetirilir. Həmin günlər Ararat rayonu ərazisində azərbaycanlılara məxsus 100-dən artıq ev yandırılır;

**337.** ***08 aprel 1988-ci il:*** 5 daşnak terrorçusu «Jiquli» maşınında Sarvanlar (Zəngibasar) kəndinə girib camaatdan kəndi boşaltmağı tələb edir. Qəti etiraz cavabı alan terrorçular maşını camaatın üstə sürərək üç nəfərə ağır bədən xəsarəti yetirirlər;

**338.** ***03 may 1988-ci il:*** DQMV-nin Tuğ kəndində yuva qurmuş daşnak terrorçuları yerli hökumət binası üstə Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaş törədirlər. Daxili qoşun hissələri qan tökülməsinin qarşısını alır;

**339.** ***11 may 1988-ci il:*** Daşnak terror birləşməsi Vedibasarın Şirazlı kəndinə basqın edir. 2 nəfər öldürülür, 80 nəfərə xəsarət yetirilir 8 ev yandırılır,

64 ev dağıdılır, 330 ailənin əmlakı talan edilir, kənd adamları Türkiyə sərhəddinə yığılır. 4 ay çadırlarda yaşamaq məcburiyyətində qalırlar;

**340.** ***11 may 1988-ci il:*** Daşnak terrorçuları tərəfindən İrəvanda M.Əzizbəyovun abidəsi uçurulur. M.F.Axundov adına şəhər orta məktəbinə, C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrına hücumlar edilir. Həmin gündən hər iki müəssisənin fəaliyyəti dayandırılır;

**341.** ***13 may 1988-ci il:*** Daşnak terrorçuları Xankəndinin azərbaycanlılar yaşayan məhəlləsinə basqın edirlər. 6 nəfərə ağır bədən xəsarəti yetirirlər;

**342.** ***16 may 1988-ci il:*** Daşnak terrorçuları Xankəndindəki pedaqoji instituta basqın edirlər, azərbaycanlı tələbələri institutdan qovub çıxarırlar;

**343.** ***23 may 1988-ci il:*** Vedibasarın azərbaycanlılar yaşayan kəndlərinə daşnak terror qruplarının basqınları ara vermir. Aydın olur ki, Ermənistan SSR-in hakimiyyət orqanlarının azərbaycanlı didərginlərin doğma yurd-yuvalarına qayıtdıqdan sonra təhlükəsizliklərini təmin edəcəkləri haqda verdikləri vədlər boş sözlərdən ibarətdir. Hadisələrin gedişi göstərir ki, əslində, terror qruplarının başında və arxasında özlərinin durduqları və dayandıqları şərtlənir;

**344.** ***11 iyun 1988-ci il:*** Krasnodardan gəlmiş daşnak terrorçusu Aleksandr Ağabekyan Bakı şəhərinin Varovski qəsəbəsində polis serjantı Fazil İsmayılovu qətlə yetirir. Göz altına alınmış terrorçu gizli əllərin köməyi ilə deyil, xəyanəti vasitəsi ilə ölkədən qaçırılır;

**345.** ***15 iyun 1988-ci il:*** Daşnak terror birləşmələri Masis rayonunda 40 azərbaycanlı evinə od vurub yandırırlar. 1 saat ərzində 480 ailə doğma ocağından didərgin salınır;

**346.*****19-20 iyun 1988-ci il:*** Zəngibasarın Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndinə hücum edən daşnak terror qrupları fiziki güc tətbiq edərək əhalini döyüb söyür, əmlaklarını talan edirlər. Dinc, əliyalın, təhlükəsiz əhali Türkiyə sərhəddinə qaçmağa məcbur edir. Demək olar ki, od-ocağından didərgin salınan 10 mindən çox azərbaycanlı SSRİ-Türkiyə sərhədinə toplanır. 20 nəfərdən çox Azərbaycan türkü bu münaqişə zamanı ağır bədən xəsarəti alır.

**347.** ***04-05 iyul 1988-ci il:*** Daşnak terror qrupları İrəvanın «Zvartnos» təyyarə limanını ələ keçirirlər, onlarla hərbiçi yaralanır, uçuşların dayandırılması nəticəsində blokadaya alınmış aerovağzalın yüzlərlə sərnişini təhqir və məhrumiyyətlərə dözməli olurlar;

**348.** ***21 iyul 1988-ci il:*** Daşnak terrorçuları Kalinino qəsəbəsində qəssab işləyən Qaraboğaz Məhəmmədi heç bir səbəb olmadan, ancaq türk olduğuna görə qətlə yetirirlər;

**349.** ***01 avqust 1988-ci il:*** Şuşa-Ağdam yolunda sərnişin avtobusu daşnak təxribatçıları tərəfindən daş-qalaq edilir;

**350.** ***28 avqust 1988-ci il:*** Daş və dəmir parçaları ilə silahlanmış daşnak təxribatçıları pusqu quraraq Şuşa-Ağdam yolunda hərəkət edən və sərnişinləri azərbaycanlılardan ibarət 9 avtobusa hücum təşkil edirlər. 18 adam müxtəlif dərəcəli xəsarət alır. 3 nəfər sərnişin - Ə.Fərzəriyev, B.Saidler, S.Kərimov ağır yara aldıqlarına görə Ağdam xəsətəxanasına yerləşdirilirlər;

**351.** ***03 sentyabr 1988-ci il:*** Daşnak terrorçuları Xankəndinin azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsinə həmlə edirlər. Ov tüfənglərindən kəndi atəşə tuturlar. Küçələrdə «Azərbaycanlılar! Sizə Ərsak torpağında yer yoxdur!» sözləri yazılmış vərəqələr yayırlar;

**352.** ***05 sentyabr 1988-ci il:*** Xankəndində möhkəmlənən daşnak terrorçuları Kərkicahan qəsəbəsini pulemyot və avtomatlardan atəşə tuturlar;

**353.** ***12 sentyabr 1988-ci il:*** Azğınlaşmış 3000 nəfərlik daşnak təxribat qrupu Xankəndində vilayət prokurorluğuna basqın edərək həbs olunmuş daşnak terrorçularının azadlığa buraxılmasını tələb edirlər;

**354.** ***18 sentyabr 1988-ci il:*** Xankəndində yuva salmış daşnak terror qrupu Xocalıya basqın edir, bir nəfər qətlə yetirilir, iyirmi beş nəfər isə güllə yarası alır;

**355.** ***18-23 sentyabr 1988-ci il:*** Daşnak terror qrupları Xankəndi şəhərində Azərbaycan türkləri üzərinə açıq və kütləvi basqınlara keçirlər. Azərbaycanlılar yaşayan məhəllələrə hücumlar edir, fərdi evlərdə, mülklərdə, ictimai binalardakı mənzillərdə yanğınlar törədir, əhalini daşa basır, atəş açır, sakinlər arasında vahimə yaradır, onları ev-eşiyindən didərgin salırlar. 18 sentyabrda 40 mülk, 19 sentyabrda 44 azərbaycanlı evi yandırılıb külə döndərilir. Bu minvalla şəhərin 16 mininlik azərbaycan əhalisi döyülərək, söyülərək, təhqir edilərək şəhərdən qovulur. Onların adları 1989-cu ildə əhalinin siyahıya alınmasına daxil edilmir. Adları şəhər qeydiyyatından biryolluq silinir;

**356.** ***12 noyabr 1988-ci il:*** Hamamlı (Spitak) rayonunun daşnak xislətli kommunist rəhbərləri - raykomun birinci katibi N.Muradyan, RİK-in sədri F.Abuçyan, polis rəisi V.Sərkisyan, prokuror Araksiyan, xalq hakimi V.Sərkisyan, rayonun baş həkimi R.Bağdasaryan başda olmaqla və onların fitvası ilə daşnak terror qrupları evlərini, yer-yurdlarını tərk etmək üçün azərbaycanlılara dözülməzlik şəraiti yaratmağa çalışır və buna müvəffəq olurlar. Onlarca uşaq itkin düşür, oğurlanır. Aramsız işgəncələrə dözməyən 36 nəfər Azərbaycan türkü həyatını bilavasitə bu səbəbdən qeyb edir;

**357.** ***15 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Şuşanın gözü sayılan, tarixi Topxana meşəsini od vurub yandırır, ağacları buldozerlərin ağzına verib köçlü-köməcli dağıdır, ekoloji talan törədirlər;

**358.** ***17 noyabr 1988-ci il:*** Daşnak terrorçusu tərəfindən Xocavənd rayonunun Tuğ kənd sakini Teyyub Süleymanov vəhşicəsinə qətlə yetirilir;

**359.** ***17 noyabr 1988-ci il:*** Daşnak terror qrupu rus hərbiçilərini ələ alaraq onlarla birgə camaatın gözün qırmaq üçün Füzulinin Qacar kəndinə basqın təşkil edirlər;

**360.** ***19 noyabr 1988-ci il:*** Daşnak terror qrupları Vedibasarın Yersax kəndinə basqın edirlər. Xeyli sayda dinc kənd sakinlərinə bədən xəsarəti yetirirlər. Yaralıları Naxçıvana aparan maşınlar gülləbaran edilir. Bir həftə ərzində Vedibasardan 24 min azərbaycanlı yurd-yuvasından qovulur, isti ocağından didərgin salınır;

**361.** ***20 noyabr 1988-ci il:*** Daşnak terror qruplarının təzyiqlərinə davam gətirməyən Masis rayonunun azərbaycanlı əhalisi məcburiyyət qarşısında SSRİ-Türkiyə sərhəddində yerləşən Rəncbər kəndinə sığınırlar;

**362.** ***20 noyabr 1988-ci il:*** Daşnak terror qrupu tərəfindən Ermənistan SSR Sisian rayonunun Şəki kənd sakinləri - 1914-cü il təvəllüdlü Sadıqova Xəlisə Əmrullah qızı və 1922-ci il təvəllüdlü Namazova Şahnisə Əziz qızı kənddən qaçqın salınırlar. Ağbirçək qadınların hər ikisi yolda çovğuna düşür, məşəqqətli havada donub həlak olurlar;

**363.** ***24 noyabr 1988-ci il:*** Daşnak terror qrupları Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kimi Ermənistan SSR ilə sərhəd kəndlərinə həmlə edirlər. Eyvazlı kəndi tamamilə yandırılır;

**364.** ***25 noyabr 1988-ci il:*** Kalinino rayonunun 87 yaşlı sakini, BV müharibəsinin əlili Məhəmməd Sadıqov isti ocağını tərk etmədiyinə görə daşnak terrorçuları tərəfindən vəhşicəsinə qətlə yetirilir;

**365.*****25 noyabr 1988-ci il:*** Amasiya rayonunun Əzizbəyov kənd sakini, Böyük Vətən müharibəsi iştirakçısı və əlili, 75 yaşlı Abdulla Aydınov rayon mərkəzində söyüş və təhqirlərə cavab qaytararkən daşnak terrorçusu tərəfindən qanına qəltan edilir;

**366.** ***25 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Aldərə, Leyvaz, Vartanizor, Maralzəmi kəndlərinə basqınlar edirlər. Həmin gün adı çəkilən kəndlərin əhalisi dədə-baba yurtlarını tərk etmək məcburiyyətində qalırlar;

**367.** ***26 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Sevan rayonunun Çubuqlu kəndində Nəsrəddin və Həbib Əliyevlərin şəxsi minik maşınlarını - «Jiquli» avtomobilini əllərindən alıb əzir, parça-parça edirlər. Özlərini isə vəhşicəsinə döyüb ölümcül hala salırlar;

**368.** ***27 noyabr 1988-ci il:*** Kirovakan şəhərində at oynadan daşnak terror qrupları Quqark rayonunun Vartana kəndinə soxulurlar. Daşnak Qazanstyan Samvelin terror qrupu Bayramov Qaranı (evindən çıxmadığına görə) vəhşicəsinə qətlə yetirir. Lyova və Lendrum Xaçaturyan qardaşları Hüseynova Leylini əzab verməklə qətlə yetirirlər. Vanesyan Samvelin terror qrupu İsgəndərov Mehralını, arvadı Xanımı və oğlu - 17 yaşlı Alimi öldürməzdən öncə ələ salırlar. İlk əvvəl Xanımı soyunduraraq ərinin gözləri qarşısında lüt-üryan rəqs etməyə məcbur edirlər. Bundan sonra hər üçünü parça-parça doğrayırlar. Qriqori Çavuşyanla Hamlet Qasparyanın terror qrupu 1924-cü il təvəllüdlü Əliyev Abdullanı işgəncələr verməklə öldürürlər. Evlərini tərk etmədiklərinə görə Məmmədov Süleymanı Yosmedyan Surenin, Ahyev Əhmədi isə Vazgenin terror qrupu qətlə yetirir. Terrorçu Zehranyan Suren Əliyeva

Fatmanı «Niva» markalı minik maşınının təkərləri altına salıb əzir. Beləliklə, kənd əhalisini ölümlə təhdit edərək doğma ev-eşiyini tərk etməyə məcbur edirlər. Ümumilikdə 14 nəfər kənd sakini qətlə yetirilir, 13 nəfər isə itkin düşür;

**369.** ***27 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Masis rayonunun Mehmandar, Sarvanlar və Zəhmət kəndlərinə basqın edirlər. 5 nəfər, o cümlədən 10 yaşlı qız uşağı, 60 yaşlı qadın və 3 yeniyetmə gənc qətlə yetirilir;

**370.** ***27 noyabr - 7 dekabr 1988-ci il:*** Daşnak terror qrupları son məqsədə çatmaq, Qərbi Azərbaycanda türksüz Ermənistan terror dövləti yaratmaq üçün ayrı-ayrı bölgələrin şəhər və kəndlərinə kütləvi basqınlar edirlər. Aşağıda göstərilən sayaq çoxsaylı insan tələfatı ilə nəticələnən sayı yüzləri aşan terror aktları törədirlər: Allahverdi (Tumanyan) rayonunda 4 nəfər, Amasiyada 13 nəfər (5 qadın, 1 uşaq), Axtada (Razdan) 3 nəfər (1 qadın), Baranada (Noyemberyan) 3 nəfər (1 uşaq), Basarkeçərdə (Vardenis) 44 nəfər (8 qadın, 4 uşaq), Böyük Qarakilsədə (Quqark) 23 nəfər (6 qadın, 1 uşaq), Vedidə (Ararat) 6 nəfər (1 qadın), Kalininoda 12 nəfər (5 qadın), Qarakilsədə (Sisian) 5 nəfər (4 qadın), Qafanda 7 nəfər (3 qadın, 1 uşaq), Zəngibasarda (Masis) 22 nəfər (4 qadın, 3 uşaq), Karvansarayda (İcevan) 7 nəfər (1 qadm), Keşişkənddə (Yeğeqnadzor) 2 nəfər, Gorusda 2 nəfər, Mığrıda (Meqri) 1 nəfər, Soylanda (Vayk) 15 nəfər (4 qadın, 2 uşaq), Hamamlıda (Spitak) 15 nəfər (5 qadın, 1 uşaq), Çəmbərəkdə (Krasnoselski) 18 nəfər (7 qadın, 2 uşaq), Calaloğluda (Stepanovan) 8 nəfər (2 qadın) günahsız, əliyalın, köməksiz, evini tərk etmək istəməyən dinc və təhlükəsiz azərbaycanlılar müxtəlif cür vəhşiliklərlə qətlə yetirilirlər. Şəhid düşənlərdən 41 nəfər döyülməklə öldürülür, 2 nəfərin başı kəsilir, 11 nəfər diri-diri yandırılır, 1 nəfər asılır, 3 nəfər doğranır, 29 nəfər maşınların təkəri altına atılır, 1 nəfər toka verilir, 16 nəfər isə güllələnir. Ümumiyyətlə, qətlə yetirilən 216 nəfərin 57-si qadın, 23-ü isə uşaq olmuşdu. Bu amansız qətl hadisələrini törədənlərin böyük bir qisminin şəxsiyyəti məlum olsa da, onlardan heç biri nə İrəvanın, nə də Moskvanın hüquq mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilməmişlər;

**371.** ***28 noyabr 1988-ci il:*** Zəngibasar mahalının Qarıqışlaq kəndinin 22 yaşlı sakini Müşfıq Tağıyev köçünü Azərbaycana gətirərkən Çubuqlu kəndi yaxınlığında daşnak terrorçularının basqınına məruz qalır. Özü xüsusi qəddarlıqla qətlə yetirilərək cəsədi tanınmaz hala salınır. Əmlakı isə talan edilir;

**372.** ***28 noyabr 1988-ci il:*** Amasiya rayonunun Əzizbəyov kənd sakini, Böyük Vətən müharibəsi iştirakçısı və əlili Paşa Kərimov köçünü Gəncə şəhərinə apararkən Spitak rayonu ərazisində daşnak terrorçularının hücumuna məruz qalr, əmlakı əlindən alınır, özü isə ölümcül hala düşənədək döyülür;

**373.** ***28 noyabr 1988-ci il:*** Daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edirlər. Nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfər döyülərək, işgəncə verilməklə qətlə yetirilir. Sağ qalanlar Gədəbəyə, Kəlbəcərə adlamaq

üçün Sarınər, Urumbasar gədiklərindən aşmalı olurlar. Qarda-çovğunda borana, şaxtaya düşən qaçqınların 12 nəfəri donvurmadan tələf olur;

**374.** ***28 noyabr 1988-ci il:*** Zəngibasar mahalının Yuxarı Necili kənd sakini Mehdiyev Sabir və oğlu daşnak terrorçularının təcavüzünə məruz qalırlar. Hər ikisi vəhşicəsinə döyülmə nəticəsində xəstəxanaya düşürlər. Daşnak xislətli şəfqət bacıları tərəfindən Mehdiyev Sabir qətlə yetirilir, oğlu isə şikəst edilir. Polis forması geyinmiş daşnaklar onun sol qulağını kəsirlər;

**375.** ***29 noyabr 1988-ci il:*** Daşnak terror qruplarının təzyiq və təcavüzlərinə davam gətirməyən Basarkeçərin Aşağı və Yuxarı Şorca, Qayabaşı, Qoşabulaq, Subatan, Zağalı, Sarı Yaqub, Qaraqoyunlu, Nəriman, Ağkilsə, Zərkənd, İnəkdağı kəndlərinin əhalisi 44 nəfər itki verərək qarlı dağlar aşıb Kəlbəcər rayonu ərazisinə qaçmalı olurlar. Bir çox yaşlı nəslin nümayəndələri, uşaq və qadınlar isə qarlı-çovğunlu havada donvurmadan həyatlarını qeyb edirlər;

**376.** ***30 noyabr 1988-ci il:*** Daşnak terrorçuları malakanlar yaşayan Lermontov kəndində qaçıb gizlənən, Calaloğlu (Stepanavan) rayonunun Qarqar kənd sakini Bəsti Mustafayevanın yerini müəyyən edib, 20 min manat pulunu, qızıl əşyalarını qarət edirlər. Özünü isə üstünə neft töküb od vuraraq diri-diri yandırırlar;

**377.** ***30 noyabr 1988-ci il:*** Daşnak terror qruplaşması Quqark (Ermənistan SSR) rayonunun Gözəldərə kəndinə basqın edir. 21 nəfər, o cümlədən 6 qadın, 3 körpə qətlə yetirilir. Kənd canlı aləmdən təcrid edilir;

**378.** ***30 noyabr 1988-ci il:*** Daşnak terror qrupu Allahverdi (Tumanyan) rayonunun Ayrım kəndinə basqın edir. Evlərini tərk etmədiklərinə görə kənd sakinlərindən Haqverdiyev Haqverdi və Əliyev Abbası döyərək qətlə yetirirlər. Kənd əhli məcburi şəkildə doğma yurdlarından didərgin salınır;

**379.*****30 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Hamamlı rayonunun Saral kəndindən Həmzəcimən kəndinə yollanan qaçqın dəstəsinə basqın edirlər. 18 nəfər qətlə yetirilir, Balacayev Mövsümün 8 nəfərlik ailəsi tamamilə məhv edilir. 7 nəfər isə ağır bədən xəsarəti alır;

**380.** ***30 noyabr 1988-ci il:*** Sevan şəhərində yerləşən respublika ruhi xəstəxanasındakı azərbaycanlı xəstələrə rəhmi gəlməyən daşnak terrorçuları 22 nəfər Azərbaycan türkünü su ilə doldurulmuş quyuya ataraq boğub qətlə yetirirlər;

**381.** ***30 noyabr 1988-ci il:*** Daşnak terrorçuları Vedibasarın Xalisə kəndinə basqın edirlər. 1908-ci il təvəllüdlü İsmayılova Gülgəz Məmməd qızını və bu kəndə sığınmış Şidli kənd sakini 1893-cü il təvəllüdlü Əliyev Məhəmməd Nəsrulla oğlunu qətlə yetirirlər;

**382.** ***01 dekabr 1988-ci il:*** Daşnak Asatyan Benikin başçılıq etdiyi terror qruplaşması Quqark rayonunun Vartana kəndindən didərgin salınmış 240 nəfər uşaq, qadın və yaşlı adamlardan ibarət dəstəni qarlı dağlarda təkrar pusquya salır. Terrorçular 100 nəfərdən çox Azərbaycan türkünü güllələbaran

edirlər. Ələ keçirdikləri 13 nəfər dinc sakini işgəncələrlə qətlə yetirib cəsədlərini yandırırlar;

**383.** ***01 dekabr 1988-ci il:*** Daşnak terrorçusu ermənilərin fitnəkarlıqlarını, alçaq hərəkətlərini aşkarlamağa səy göstərdiyinə görə DQMV-nin baş prokuroru Vasilenkonun həyatına sui-qəsd edirlər. Vasilenko təsadüf nəticəsində canını ölümdən qurtarır;

**384.** ***01 dekabr 1988-ci il:*** Daşnak terrorçuları Masis rayonunun Zəngilər kəndində naməlum şəkildə ələ keçirdikləri Şərif Südeyf oğlunu amansız isgəncələrlə qətlə yetirirlər;

**385.** ***02 dekabr 1988-ci il:*** Daşnak terror qrupları Amasiya rayonunun ayrı-ayrı kəndlərinə basqın edirlər. Evlərini tərk etmək istəmədiklərinə görə Güllücə kənd sakini Əli Əliyevi vəhşicəsinə döyürlər. Əzizbəyov kəndində Həsənov Mühidi işgəncə ilə qətlə yetirir, Haqverdiyev Babəki asır, Heydər Seyidovu və Fərman Həsənovu isə vəhşicəsinə döyürlər. Çaxmaq kənd sakinləri Elbəyi və Roza Süleymanovları, Amasiya qəsəbə sakini Musayev Məmmədi işgəncə verməklə öldürürlər. Güllücə kənd sakinlərindən Rüstəmov Nəbini maşının təkərləri altına atır, Məmmədov Bayraməlini isə vəhşicəsinə döyməklə qətlə yetirirlər. Daşkörpü kəndindən Bəhlul Abbasovu, Mağaracıq kəndindən Dursun Məmmədovla Niftalı Əliyevi, Çaybasar kəndindən Güləhməd Vəliyevi vəhşicəsinə döyərək onlara ağır bədən xəsarəti yetirirlər. Qaçqın düşənlərdən altı nəfər isə qarlı-çovğunlu havada borana düşüb donvurmadan tələf olur;

**Qeyd:** Sparion Xaçaturyan, Azad Hovhanisyan, Sergey və Surik Arakelyan qardaşları, Samuel Mkrtıçyan, Lena Tonoyan, Lyova Sarkeyan kimi daşnakların rəhbərlik etdiyi terror qrupları tərəfindən Amasiyada azərbaycanlılar yaşayan 22 kənd tatamilə boşaldılır, 18 min əhali doğma od-ocaqlarından didərgin salınır. Məscidlər, seyid və övliyaların axirət evi olan günbəz və türbələrə od vurulub yandırılır, kənd qəbiristanları yerlə-yeksan edilir;

**386.** ***02 dekabr 1988-ci il:*** Daşnak terrorçuları Gorus şəhərinin yeganə azərbaycanlı sakini Cavanşir Rüstəm oğlunu döyməklə qətlə yetirirlər;

**387.** ***03 dekabr 1988-ci il:*** Daşnak terrorçuları Dilcanda Sarıyev Vahidi Azərbaycan türkü olduğuna görə ağır işgəncələr verərək öldürürlər;

**388.** ***05 dekabr 1988-ci il:*** Daşnak terror qrupu heç bir insani əxlaqa, bəşəri davranışa sığmayan terror aktı törədir. Hamamlı (Spiktak) şəhərində türk millətinə mənsub olduqlarına görə 17 azyaşlı uşağı iri diametrli boruya (uzunluğu 20 m, diametri 1,5 m) dolduraraq başlarına dəmir lövhələr qaynaq edib uçurumdan yuvarlayırlar. Məsum körpələri diri-diri, vəhşanə tərzdə məhv edirlər. Ümumiyyətlə, bu cür vəhşi üsulla daşnak terrorçuları tərəfindən 5-12 yaş arasında 87 uşaq qətlə yetirilir;

**389.** ***05 dekabr 1988-ci il:*** Qərbi Azərbaycan türkü Gündüz Canmirzə oğlu Xalıqov daşnak terrorçusu tərəfindən qətlə yetirilir;

**390.** ***05 dekabr 1988-ci il:*** Daşnak terror birləşmələri XX əsrdə nəhayət, Şörəyelin qədim türk oymağı - Gözəldərə kəndinin azərbaycanlılar

yaşayan son evlərini yerlə-yeksan edirlər. Azərbaycan tarixinə Azəri Xatını - Gözəldərə kəndinin adı yazılır;

**391.** ***10 dekabr 1988-ci il:*** Daşnak terrorçuları Türkiyəyə məxsus olduğunu güman edərək Belqrad-Ankara-İrəvan marşrutu ilə Ermənistana - zəlzələ rayonuna uçan Yuqoslaviya təyyarəsini «qəzaya» uğradırlar. Altı nəfər ekipaj üzvü həlak olur;

**392.** ***11 dekabr 1988-ci il:*** Bakıdan Leninakana, zəlzələ rayonuna köməyə uçan İl-76 təyyarəsi daşnak terrorçuları tərəfindən qəzaya uğradılır. 69 sərnişindən yalnız bir nəfər Babayev Fəxrəddin təsadüf nəticəsində sağ qalır. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olur. Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilir. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınır. Təsadüfən sağ qalmış Fəxrəddin Babayev İrəvan xəstəxanasına aparılsa da, «ermənilər
arasında yaralı türkə yer yoxdu» deyən daşnak xislətli erməni həkimləri onu müalicət və müayinə etməkdən boyun qaçırırlar;

**393.** ***12 yanvar 1989-cu il:*** Daşnak terrorçuları Goranboy rayonunun Todan kəndinə basqın edirlər. Dörd nəfər əliyalın, dinc kənd sakinini qətlə yetirirlər;

**394.** ***15 yanvar 1989-cu il:*** Daşnak terrorçuları Goranboy rayonunun Todan kəndinə ikinci dəfə basqın edirlər. Bu dəfə iki nəfər əhyalın, dinc kənd sakinini qətlə yetirirlər;

**395.** ***16 yanvar 1989-cu il:*** Daşnak terrorçuları Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. Bir nəfər kənd sakini qətlə yetirilir;

**396.*****20 yanvar 1989-cu il:*** Daşnak terror qrupu Naxçıvan MSSR-in Sədərək qəsəbəsinə basqın edir. 10 nəfər qəsəbə sakini (o cümlədən üç uşaq) vəhşicəsinə qətlə yetirilir;

**397.** ***25 fevral 1989-cu il:*** Mığrıda yuva qurmuş daşnak terror qrupu Astazur stansiyasına basqın edir. Burada azərbaycanlı balalarının təhsil aldığı ibtidai məktəbin fəaliyyətini dayandırırlar. 42 şagird və müəllim zor gücünə məktəbdən qovulur. Stansiyanın azərbaycanlı əhalisi ev-eşiyindən didərgin salınır;

**398.** ***02 aprel 1989-cu il:*** Əsgəran rayon mərkəzində məskən salmış daşnak terror qrupu Daşbulaq kəndinə basqın edir. Azərbaycanlılar yaşayan üç ev partladılır, 8 ev yandırılır. Kəndin azərbaycanlı əhalisi ev-eşiyindən didərgin salınır. Şəxsi əmlaklarından məhrum edilirlər;

**399.** ***10 may 1989-cu il:*** Daşnak terrorçuları Qazax rayonunun Bağanis-Ayrım, Bərxudarlı və Naxçıvanın bütün sərhəd kəndlərini top və minamyotlardan atəşə tuturlar. Xeyli yaşayış evi dağıdılır, yaralanan və ölənlər olur;

**400.** ***11 may 1989-cu il:*** Daşnak terrorçuları Qubadlı rayonunun sərhəd kəndlərini atəşə tuturlar, bir nəfər mülki şəxs ağır güllə yarası alır;

**401.** ***19 may 1989-cu il:*** Daşnak terror qrupu Naxçıvan MSSR-in Yaycı kəndinə basqın edir. Bir nəfər kənd sakini qətlə yetirilir;

**402.** ***07 iyun 1989-cu il:*** Mardekert rayon mərkəzində məskən salmış daşnak terror birləşməsi Xatınbəyli kəndinin bağ sahəsində sovxoz fəhləsi kimi kənd salmış və Gəncxana adlanan yaşayş məntəqəsindəki 22 Azərbaycan ailəsinin üzərinə basqın təşkil edir. Fəhlələrin əmlakı, mal-qarası yandırılır, talan edilir. Yaşayış evləri dağıdılır, 121 nəfər azərbaycanlı ev-eşiyindən didərgin salınır. Kənd sakinlərindən Fazil Qaybalıyev, Məstan Gəncəliyev, Ramiz Quliyev, Şiraslan Ağayev əsir götürülür;

**403.** ***09 iyun 1989-cu il:*** Hamamlıya sığorta pulu almağa gedən Qursa kəndindən olan dinc sakin Rəhim Daşdəmirov daşnak terrorçuları Sergey Poqosyanla Sergey Mədətyanın hücumuna məruz qalır. O, armatur çubuqla döyülərək qəddarcasına qətlə yetirilir;

**404.** ***25 iyun 1989-cu il:*** Bakı şəhər sakini Nəbiyev Əli Məhəmməd oğlu Kərkicahan kəndində yaşayan qardaşıgilə gedərkən yolda daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**405.** ***07 iyul 1989-cu il:*** Daşnak terror qrupu Kərkicahan qəsəbəsinə həmlə edir. Daxili qoşunların qəsəbədə yerləşən hərbi hissəsi bu basqının qabağını alır. Lakin kəndin bir çox evləri hərbiçilərin gözü qabağında yandınlır;

**406.** ***11 iyul 1989-cu il:*** V.X.Xaçaturovun başçılıq etdiyi beş daşnak terrorçusu Şuşadan evlərinə qayıdan Kərkicahan qəsəbəsinin dinc sakinləri Əli Nəbiyev, Orduxan Səfərov və Natiq Salahovun qabağını kəsərək onları diri tutmaq istəyirlər. Natiq Salahov güllə yarası alsa da, qaçıb aradan çıxa bilir. Terrorçular girov götürdükləri Əli Nəbiyevlə Orduxan Səfərovu soyunduraraq hər ikisini ağaca sarıyırlar. Onların sinələrini ülgücləyir, yara yerlərinə odlu siqarlar basırlar. Müxtəlif işgəncələr verdikdən sonra onları meşin kimi nişangaha qoyurlar. Əli Nəbiyevin ürəyindən, Orduxan Səfərovun başından ataraq qətlə yetirirlər. Bütün bunlarla ürəkləri soyumayan qansızlar mərhumların gözlərini çıxararaq cəsədlərini yaxınlıqdakı çamurlu gölməçəyə tullayırlar;

**407.*11 iyul 1989-cu il:*** Daşnak terror qrupu Ağdərə ərazisində yolu partladaraq Tərtərdən Kəlbəcərə gedən maşın karvanının qabağını kəsir. Karvan gülləbaran edilir, 8 nəfər qətlə yetirilir, xeyli sərnişin ağır güllə yarası alır;

**408.*14 iyul 1989-cu il:*** Kəlbəcər rayon DİŞ-nin əməkdaşları tərəfindən həbs edilən 11 daşnak terrorçusu Moskvanın təzyiqi ilə geri qaytarılır. Ermənilərə satılan rus hərbiçiləri vertolyotla terrorçuları gətirmək üçün Kəlbəcərə uçurlar. Xəyanətkarlar vertolyotu əvvəlcədən nəzərdə tutulmuş yerə deyil, qəsdən uşaqların futbol oynadıqları stadiona endirirlər. Bu zaman stadionda futbol oynayan uşaqlardan 8-ni vertolyotun pəri bicir. Qətlə yetirilən uşaqların ən kiçiyi olan Valehov Anar Qardaşxan oğlu 6 yaşda, ən böyüyü Xəlilov Bəxtiyar Rəhim oğlu isə 15 yaşda olur. Azərin 7, Rasimin 8, Sahibin, Çahidin 11, Səxavətin, Natiqin 14 yaşda ömürlərinə son qoyulur. Bu terror aktı

ilə bağlı heç bir istintaq işi aparılmır. Əksinə, rus hərbiçiləri daşnak quldurlarını Xankəndinə gətirərək burada onları azadlığa buraxırlar;

**409.** ***15 iyul 1989-cu il:*** Daşnak terrorçuları hələ də doğma ocağını tərk etmək istəməyən Xankəndi şəhər sakini Eyvaz Allahverdiyevin evinə bomba atırlar. Partlayış nəticəsində itki olmasa da, dörd avtomobil ciddi zədələnir;

**410.** ***24 iyul 1989-cu il:*** Daşnak terrorçuları Kərçivan-Mığrı xəmiryolunun 347-ci kilometrliyində xəttə mina qoyurlar. 1000 nəfər sərnişini olan qatar vaxtından 15 dəqiqə gecikdiyinə görə xoşbəxtlikdən partlayış terrorçuların gözlədiyi nəticəni vermir;

**411.** ***01 avqust 1989-cu il:*** Ermənistan SSR Ararat rayonunda yuva qurmuş daşnak terrorçuları Şərur rayonunun Kərki kəndinə basqın edirlər. Kənd evlərinin bir çoxu yandırılıb dağıdılır;

**412.** ***06 avqust 1989 - cu il:*** Əsgəranın Meşəli kəndində məskunlaşmış, əslən Laçın rayonunun Fərraş kəndindən olan, Vətənin qeyrətli, vətənpərvər övladı Miryusif Orucov Əsgəran rayon DİS-də məskən salmış, şöbənin cinayət axtarışı üzrə əməliyyat müvəkkili işləyən daşnak Qərib Arutyunyanın rəhbərlik etdiyi qrup tərəfindən cinayətkarcasına qətlə yetirilir. Mərhumun meyiti ancaq 30 saat keçəndən sonra sahiblərinə qaytarılır. Miryusif Orucovun cəsədi 8 avqust 1989-cu ildə doğma kəndində - Laçın rayonunun Fərraş kənd qəbiristanlığında torpağa tapşırılır. Kifayət qədər şahid və sübutların olmasına baxmayaraq qatillər cəzasız buraxılır;

**413.** ***06 avqust 1989-cu il:*** Daşnak terrorçuları Əsgəran rayonunun Meşəli kəndində 5 dinc sakini qətlə yetirirlər;

**414.** ***08 avqust 1989-cu il:*** Bakıdan gələn yük qatarı Kərçivanda daşnak terrorçularının basqınına məruz qalır. Şərur şəhər sakini Sədi Nəsirov, Qaraxanbəyli kəndindən Mirkamal Seyidov ağır güllə yarası alırlar;

**415.** ***11 avqust 1989-cu il:*** Daşnak terrorçuları Əsgəran rayonunun Daşbulaq kəndində hələ dağıdılmamış azərbaycanlı evinə bomba atırlar. Bir azərbaycanlı ailəsi evsiz-eşiksiz qalır;

**416.** ***12 avqust 1989-cu il:*** Bərdə rayonunun Kətərparaq kənd sakini Mehrəliyev Məhi Əşrəf oğlu Laçından, qohumları evindən qayıdarkən Laçın-Bakı yolunun 7-ci km-də Qaladərəsi kəndində yuva salmış daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**417.** ***13 avqust 1989-cu il:*** Daşnak terrorçuları tərəfindən Ağdam-Əsgəran dəmiryol platforması və Şuşa şəhərinin su kəməri partladılır;

**418.** ***17 avqust 1989-cu il:*** Şuşa-Ağdam marşrut avtobusu daşnak terrorçularının basqınına məruz qalır. Altı nəfər sərnişin ağır dərəcəli bədən xəsarəti alır;

**419.** ***18 avqust 1989-cu il:*** Laçın rayonunun Cicimli kənd sakini Məmmədov Mehdi Rüstəm oğlu təsərrüfat işindən qayıdarkən kəndin 1 km-liyində pusquda durmuş daşnak terrorçusu tərəfindən qətlə yetirilir;

**420.*23 avqust 1989-cu il:*** Ağdərədə yuva salmış daşnak terrorçuları rayon sakini Soltan Ağayevi vəhşicəsinə qətlə yetirir, «Niva» markalı şəxsi minik maşınını isə xurd-xəşil edirlər;

**421. *28 avqust 1989-cu il:*** Şuşadan Ağdam istiqamətində hərəkət edən 9 avtobus və bir yük maşını daşnak terrorçularının hücumuna məruz qalır, 12 nəfər dinc sərnişin müxtəlif dərəcəli xəsarət alır;

**422. *10 sentyabr 1989-cu il:*** Daşnak terrorçusu tərəfindən Qubadlı rayonunun Seytas kənd sakini Heydərov İbrahim Xansuvar oğlu təsərrüfat işi görərkən Məzrə düzü adlanan sahədə vəhşicəsinə qətlə yetirilir;

**423. *15 sentyabr 1989-cu il:*** Daşnak terrorçusu pusqu qurararaq Gorus rayonunun Ağbulaq kənd sakini Bərxudar Əsgərovu öz toy günündə evinə dönərkən qətlə yetirir;

**424. *16 sentyabr 1989-cu il:*** Daşnak terrorçusu tərəfindən Tiflis-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusuna saat mexanizmi ilə təciz edilən partlayıcı qoyulur. Avtobus yola salındıqdan 6 saat sonra Yevlax stansiyasında partlayır, 5 nəfər həlak olur, 27 nəfər ağır bədən xəsarəti alır. Həlak olanlar arasında 2 qadın və beş yaşlı Azər Musayev adlı uşaq da olmuşdur;

**425. *18 sentyabr 1989-cu il:*** Daşnak terror qrupu Ağdam rayonunun Qiyaslı kəndinə basqın edir. 2 nəfər dinc kənd sakini qətlə yetirilir, 4 nəfər isə güllə yarası alır;

**426. *05 oktyabr 1989-cu il:*** Səhər saat $8^{00}$ radələrində Kərkicahan qəsəbə sakinləri - 11 yaşlı Nadir İbrahimov və 9 yaşlı qardaşı Nicat həyətdə oynayarkən daşnak terrorçusunun silahlı basqınına məruz qalırlar. Hər iki qardaş baş nahiyəsindən güllə yarası alır;

**427. *07 oktyabr 1989-cu il:*** Daşnak terrorçusu Abramyan Artur Artaşoviç Şuşa şəhərini Ağdam şosse yolu ilə birləşdirən Xəlfəliçay üzərindəki Ağa körpüsünü partladır. Terrorçu həbs olunur. Mühakimə edilərək 15 il müddətinə azadlıqdan məhrum edilsə də, sonralar əsir və girovlarla dəyişdirilir;

**428. *10 oktyabr 1989-cu il:*** Daşnak terrorçuları Qaladərəsi kəndində bir Azərbaycan türkünü - Laçın rayonunun Kalafalıq kənd sakini Sadıqov Rza Cəlal oğlunu şəxsi minik maşınında odlu silahla qətlə yetirirlər;

**429. *10 oktyabr 1989-cu il:*** Daşnak terrorçuları Şuşanın Turşsu kəndinə həmlə edirlər. 14 yaşlı Kamil Axundov güllə atəşi ilə qətlə yetirilir;

**430. *02 noyabr 1989-cu il:*** Martuni şəhərində qərar tutmuş daşnak terrorçuları şəhərin azərbaycanlılar yaşayan və «Rus məhəlləsi» adlanan hissəsinə basqın edirlər. Məhəllənin 490 nəfərlik azərbaycanlı əhalisi ev-eşiyindən didərgin salınır və şəxsi əmlaklarından məhrum edilir;

**431.*06 noyabr 1989-cu il:*** Daşnak terrorçuları tərəfindən Qarqar çayı üzərindəki körpü dağıdılır, Ağdam-Şuşa yolundakı körpü isə partladılır. Şuşa ilə nəqliyyat əlaqəsi tam kəsilir;

**432. *07 noyabr 1989-cu il:*** Mardakert rayonunun Dovşanlı kəndində yuva quran daşnak terror qrupu kəndin azərbaycanlılar yaşayan 12 evinə basqın

edirlər. Kəndin azərbaycanlı əhalisini yarım saat ərzində bir nəfər kimi ev-eşiyindən didərgin salırlar, şəxsi əmlaklarından məhrum edirlər;

**433.** ***08 noyabr 1989-cu il:*** Daşnak terrorçuları 1920-ci ildə mühasirəyə düşən ermənilərə neft, çörək, taxıl çatdıran M.Əliyev, M.Məmmədov və S.Şəkibəyov kimi kommunarların şərəfinə ucaldılmış, üstünə «Duz-çörək güllələnmir» yazılmış «Zaqafqaziya xalqlarının dostluq abidəsi»ni partladırlar. Partlayış zamanı keşiş Stepan Davutyan, icevanlı Aşot Məlikbekyan həlak olur, volqoqradlı Andrey Kozlitin qəlpə yarası alır;

**434.*09 noyabr 1989-cu il:*** Daşnak terrorçuları tərəfindən Laçın-Cağazur avtomobil yolunda basdırılmış minayla Laçın rayon tikinti idarəsinə məxsus «Zil-130» markalı maşın partladılır, dörd nəfər yaralanır;

**435.*14 noyabr 1989-cu il:*** Daşnak terrorçuları tərəfindən Qubadlı rayonunun Seytas kəndinin nabatçıları güllələbaran edilir. Babaşov İnqilab Oruc oğlu qətlə yetirilir. Əliyev Xəyyam isə ağır güllə yarası alır;

**436.** ***15 noyabr 1989-cu il:*** Əsgəran rayon sakini Şirinov Şirin Səməd oğlu Meşəli kəndi yaxınlığındakı Meydan deyilən sahədə daşnak terrorçuları tərəfindən güllələnir. Hayatını xilas etmək mümkün olmur, aldığı ağır güllə yarasından xəstəxanada keçinir;

**437.** ***17 noyabr 1989-cu il:*** Daşnak terrorçuları tərəfindən Tuğ kənd məktəbinin 9-cu sinif şagirdi Teyyub Süleymanov məktəbin həyətində qətlə yetirilir;

**438.** ***20 noyabr 1989-cu il:*** Daşnak terrorçuları Kərkicahan-Şuşa yolunu iki yerdən partladıb dağıdırlar;

**439.** ***26 noyabr 1989-cu il:*** Daşnak terrorçuları Mığrı rayonunun Nüvədi kəndinə həmlə edirlər. Qarşıdurmada 10 nəfər dinc sakin güllə yarası alır;

**440.** ***28 noyabr 1989-cu il:*** Daşnak terrorçuları Qubadlı rayonunun Davudlu və Novlu kəndləri arasındakı körpüdə sovxoz direktorunu gəzdirən maşına həmlə edirlər. Sovxoz direktoru Ələkbərov Qaçay Məcid oğlu və sürücüsü Hümbətəliyev Telman Rüstəm oğlunu qətlə yetirirlər. Novlu kənd Sovetinin sədri Mehdiyev Mehdi Qasım oğlunu isə girov götürürlər. Onun meyiti bir neçə aydan sonra Sisian rayonu ərazisində tapılır;

**441.** ***07 dekabr 1989-cu il:*** Daşnak terrorçuları Martuni rayonunun Qaradağlı kənd sakini Tofiq Məmmədovun evini top mərmisi ilə partladırlar, 17 nəfərlik ailə isti ocağından məhrum olur;

**442.** ***20 dekabr 1989-cu il:*** Daşnak terrorçuları Kərkicahan kəndinə həmlə edirlər. Nəticədə İslam İdris oğlu və Füzuli Rəhim oğlu güllə yarası alırlar;

**443.** ***23 dekabr 1989-cu il:*** Məmməd Vəliyevin idarə etdiyi «UAZ-469» markalı 93-93 AQR dövlət nişanlı maşın Göygölün Çaykənd yaşyış məntəqəsində məskən salmış daşnak terrorçularının yolda bastırdıqları minaya

düşür. Partlayış nəticəsində özü ilə yanaşı 4 nəfər - 5 dinc sakin ağır qəlpə yarası və yanıqdan xəsarət alır;

**444.** ***01 yanvar 1990-cı il:*** Ağdam - Şuşa yolu ilə hərəkət edən avtobuslar daşnak təxribatçıları tərəfindən daşa basılır;

**445.** ***02 yanvar 1990-cı il:*** Ağdamdan Şuşaya gedən 5 sərnişin avtobusu daşnak terrorçularının hücumuna məruz qalır. 25 nəfər xəsarət alır. 3 maşın yandırılır, sərnişinlər qarət olunur;

**446.*****03 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Əsgəranın Cəmilli kəndinə basqın edir. Dinc kənd sakini Yunis Abbasov yaralanır;

**447.*****03 yanvar 1990-cı il:*** Daşnak terrorçuları Xankəndində hərbi xidmətdə olan azərbaycanlı zabit leytenant Əzizovu girov götürürlər;

**448.** ***03 yanvar 1990-cı il:*** Daşnak terrorçuları Kərəmli kəndinin (Ağdərə) çobanı Əşrəf Cəfərovu girov götürürlər. Otardığı qoyun sürüsünü də özləri ilə çəkib aparırlar;

**449.*****04 yanvar 1990-cı il:*** Daşnak terrorçusu Sərkisyan Qraçik Qriqoryeviçin başçılıq etdiyi qrup Əsgəran-Ağdam şosse yolundakı dəmir-beton körpünü partladır;

**450.*****05 yanvar 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Şuşaya su verən boru kəməri təkrar partladılır;

**451.*****06 yanvar 1990-cı il:*** Daşnak terrorçusu tərəfindən Ağdam şəhər avtovağzalının binasında partlayış törədilir. İki nəfər - avtovağzalın kassiri Fuad Nağıyev və sürücü Fariz Ağayev həlak olur, iki nəfər isə qəlpə yarası alır;

**452.*****07 yanvar 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Xocalıya gedən dəmiryol xətti təkrar partladılır;

**453.*****07 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Kərkicahan qəsəbəsinə basqın edir;

**454.** ***11 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Xocalı şəhəri-yardım aparan Quba rayonunun maşın karvanına Əsgəran yaxınlığında basqın edir;

**455.** ***12 yanvar, 1990-cı il:*** Daşnak terrorçularını İrəvandan Azərbaycan ərazisinə; (gətirən üç vertolyot Xanlar rayonunun Quşçular kəndinin yaxınlığında yerə enir. Müasir silahlarla təchiz olunmuş terrorçular vertolyotlardan düşməklə kəndə soxulurlar. Qadınlara, uşaqlara, qocalara fərq qoymadan onlarla dinc kənd sakinlərini güllələbaran edirlər;

**456.*****12 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Goranboy rayonunun Todan kəndinə basqın edir. Kənddən yeddi nəfər girov götürülür. Girov götürülənlərdən Yadigar, Bəxtiyar, Abbasqulu və Əliqara adlı gənclər vəhşicəsinə öldürülür;

**457.*****13 yanvar 1990-cı il:*** Daşnak muzdlusu Bakıda terror aktı törədir. 2 Azərbaycan türkünü qətlə yetirir. Bununla da Bakıda müxtəlif talanların həyata keçirilməsinə start verilir.

**458.** ***13 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Goranboyun Todan kəndinin fermasına basqın edir. Fermada işləyən ata və oğulu girov götürür, bir nəfəri isə odlu silahla yaralayırlar;

**459.*****14 yanvar 1990-cı il:*** Bakıdan Naxçıvana gedən qatar Ermənistan SSR-in Mığrı rayonu ərazisində daşnak terrorçuları tərəfindən basqına məruz qalır.

**460.** ***14 yanvar 1990-cı il:*** Daşnak terrorçuları vertolyotla Göygöl (Xanlar) rayonunun Aşıqlar kəndinə həmlə edirlər. Bir nəfər qətlə yetirilir, xeyli adam yaralanır;

**461.*****14 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Gəncənin Hacıkənd qəsəbəsinə basqın edirlər. Kənd sakinlərindən Vəliyev Nemət Əli oğlu, Səbuhi Hacıyev, Hüseynov Ələkbər Söyün oğlu qətlə yetirilir;

**462.** ***14 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Hadrut rayonunun Tığ kəndinə basqın edir. Kəndin keşiyini çəkən rus hərbiçilərindən biri qətlə yetirilir;

**463.** ***15 yanvar 1990-cı il:*** Laçın rayonunun Hacılar kənd sakini Abduləzimov Allahverdi Fərman oğlu «Pirin yanı» deyilən sahədə qoyun növbəsində olarkən daşnak terrorçuları tərəfindən qətlə yetirilir. Nobatçı yoldaşı Əhmədov isə aldığı güllə yarasından həmişəlik əlil qalır. Terrorçular qoyun sürüsünü çəkib aparırlar;

**464.** ***15 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Goranboy rayonunun Todan kəndinə basqın edir. Kənd sakinlərindən Nəsibov Bayram İsmayıl oğlu, Kosayev Yusif Zabit oğlu qətlə yetirilir;

**465.** ***15 yanvar 1990-cı il:*** Xankəndi şəhərində yuva qurmuş daşnak terror qrupu Kərkicahan qəsəbəsinə basqın edir. 3 nəfər qəsəbə sakini düşmən gülləsinin qurbanı olur;

**466.** ***16 yanvar 1990-cı il:*** Daşnak terror qrupu Goranboyun Şəfəq kəndinə basqın edir. 1 nəfər dinc sakin qətlə yetirilir;

**467.*****18 yanvar 1990-cı il:*** Ermənistan SSR-in Ararat rayonunda yuva qurmuş daşnak terror qrupu Naxçıvanın Kərki kəndinə son dəfə basqın edir. Əliyalın, dinc əhali erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilirlər;

**468.*****19 yanvar 1990-cı il:*** Daşnak terrorçuları Sədərək qəsəbəsini mərmi atəşinə tuturlar. Məhərrəm Seyidov, Etibar Əhmədov, Mirhəşim Seyidov, Məhəmməd Məmmədov, İdris Məmmədov, Abbasəli Nəzərəliyev, Nəsirovlar ailəsinin iki körpəsi - 7 yaşlı Elvin və 51 yaşlı Malik qəlpə yarasından həlak olurlar;

**469.** ***20 yanvar 1990-cı il:*** Ermənipərəst Qorbaçovun fərmanı ilə Bakıya sırasında 600 nəfər erməni əsgər və zabiti olan və tərkibinə 180 daşnak terrorçusu daxil edilən ordu yeridilir. 171 nəfər dinc sakin qətlə yetirilir, beş nəfər itkin düşür. 800 nəfər güllə yarası alır. 100-ə yaxın müxtəlif markalı

avtomaşın tankların altına salınır, şəhər gülləbaran edilir. Şəhər təsərrüfatına 5 milyard rus rublu dəyərində maddi ziyan vurulduğu qeydə alınır;

**470.** ***20 yanvar 1990-cı il:*** Daşnak terrorçuları Naxçıvanın Sədərək qəsəəbəsini təkrar atəşə tuturlar. Kənd sakinlərindən Zeynalov Vəli Məmməd oğlu, Həsənov Cəfər Əli oğlu düşmən gülləsinin qurbanı olurlar;

**471.** ***23 yanvar 1990-cı il:*** Daşnak terror qrupu tərəfindən Ağdam-Kəlbəcər elektrik hava xətti Ağdərə-Mardaket rayonu ərazisində partladılır. Bununla da Kəlbəcər rayonu elektrik enerjisindən məhrum edilir;

**472.** ***26 yanvar 1990-cı il:*** Tərkibinə erməni daşnak terrorçuları daxil edilmiş rus ordusu Lənkəran şəhərinə yeridilir. Şəhər sakinlərindən Baxşıyev Salman Babaxan oğlu, Abdullayev Tariyel Hacıbala oğlu, Məmmədov Şahin Zahid oğlu, Bədəlov Rövşən Seyfulla oğlu, Məmmədov Rahim Vəliağa oğlu, Məmmədov Vaqif Məhəmməd oğlu vəhşicəsinə qətlə yetirilir;

**473.** ***26 yanvar 1990-cı il:*** Tərkibində erməni daşnak ünsürləri olan rus ordusu Neftçala şəhərinə yeridilir. Şəhər sakinlərindən Ağahüseynov Nurəddin Aslan oğlu, Cəfərov Əbülfəz Böyükağa oğlu qətlə yetirilir;

**474.** ***30 yanvar 1990-cı il:*** Daşnak terror qrupları Gədəbəy rayonunun Sınıx bölgəsinə soxulurlar. Bölgənin əliyalın, dinc sakinləri 1936-cı il təvəllüdlü Xələfov Əsgəri, 1938-ci il təvəllüdlü Zeynalov Arifi, 1946-cı il təvəllüdlü Niftalıyev Fərhadı, 1953-cü il təvəllüdlü Hüseynov İbrahimi, 1957-ci il təvəllüdlü Qurbanov Əkbəri, 1961-ci il təvəllüdlü Vəliyev Məhərrəmi vəhşicəsinə qətlə yetirirlər. El ağsaqqalı, Güllü kənd sakini Cəfərov Hüseyni girov götürürlər;

**475.** ***13 fevral 1990-cı il:*** Daşnak Armen Mixayloviç Avanesyanın başçılıq etdiyi terror qrupu Yevlax-Laçın avtomagistralının 105-ci km-də Şuşa-Bakı istiqamətində hərəkət edən avtobusu partladır. Nəticədə iki sərnişin həlak olur, 13 nəfər qəlpə yarası alır. Terror-çular isə cəzasız qalır;

**476.** ***21 fevral 1990-cı il:*** Xankəndi şəhərindəki asvalt zavodunun hasan arxasında gizlənmiş daşnak terrorçusu buradan keçən və içərisində 32 nəfər azərbaycanlı sərnişin olan Şuşa-Ağdam avtobuşuna qumbara atrr. Sərnişinlər arasında olan Şuşa həbsxanasının əməkdaşı Səyyad Həsənov cəld tərpənərək qumbaranı avtobusun içərisindən götürüb bayıra atrr. Güclü partlayış baş versə də xoşbəxtlikdən xəsarət alan olmur;

**477.** ***27 fevral 1990-cı il:*** Gorusda məskən salmış daşnak terror qrupu Laçının Aşağı və Yuxan Cicimli kəndlərini fasilələrlə avtomat və pulemyotlardan atəşə tuturlar;

**478.** ***10 mart 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Gürcüstan SSR Marneuli rayonunun Sadaxlı kənd sakini oğurlanır. Bu günə qədər soydaşımızdan heç bir məlumat yoxdur;

**479.** ***18 mart 1990-cı il:*** Daşnak terror qrupu Mığrı ərazisində Bakı-Naxçıvan yük qatarına basqın edir, Zəngilan rayon sakinləri – maşinist

Allahverdiyev İsmayıl İbiş oğlunu qəddarcasına döyür, maşinist köməkçisi Qurbanov Elxan Ağamalı oğlunun isə başını kəsərək qətlə yetirirlər;

**480.** ***22 mart 1990-cı il:*** Daşnak terrorçuları Qazax rayonunun Aşağı Əskipara kəndinə həmlə edirlər. Məmmədov Məhəmməd ağır güllə yarası alır;

**481.** ***24 mart 1990-cı il:*** Ohanes Bəyləryanın başçılıq etdiyi «Xaç gəzdirənlər» daşnak terror qrupu Qazax rayonunun Ermənistan SSR ilə həmsərhəd kəndi Bağanis-Ayrıma basqın edir. 600 nəfər əhalisi olan 100 evlik kənd yerlə-yeksan edilir. 1913-cü il təvəllüdlü kənd sakini Əliyev Dadaş Bayram oğlu, həyat yoldaşı, 1921-ci il təvəllüdlü Bəkizar Qulu qızı, qızları - 1956-cı il təvəllüdlü Havvaxanım, 1963-cü il təvəllüdlü Aliyə və ikiaylıq nəvəsi Hafizi ailənin iki mərtəbəli evində diri-diri yandırırlar. Ələ diri keçirdikləri kənd sakini, 1941-ci il təvəllüdlü Məmmədov Alməmməd Gülməmməd oğlunun əl-ayağını sarıyaraq həyətindəcə üstə atdıqları alovlanan ot tayasında yandırırlar. Qaçıb canını qurtarmağa çalışan Ənvər Əsgərovu və Məcid Əhmədovu yerlərindəcə güllələyirlər. Polis baş leytenantı Zirəddin Əliyev isə yaralanır;

**482.** ***28 mart 1990-cı il:*** Daşnak terrorçuları Naxçıvanın Gərməçataq kəndinə həmlə edirlər. 38 yaşlı Vəli Zeynalov həlak olur;

**483.** ***29 mart 1990-cı il:*** Daşnak terrorçularının atəşi altında qalan Sədərəkdə 12 yaşlı qız uşağı ağır güllə yarası alır;

**484.** ***02 aprel 1990-cı il:*** Daşnak terrorçuları Gürcüstan SSR vətəndaşlarından, azərbaycanlı olduqlarına görə 2 nəfəri qətlə yetirirlər;

**485.** ***05 aprel 1990-cı il:*** Tərtər-Kəlbəcər marşrutu ilə hərəkət edən sərnişin avtobusunu daşnak terrorçuları gülləbaran edirlər. Nəticədə Bağlıpəyə kəndinin sakini Aslan Xıdırov qətlə yetirilir, iki sərnişin isə ağır güllə yarası alır;

**486.** ***10 aprel 1990-cı il:*** Daşnak terrorçusu Laçın rayonunun Sadınlar kənd sakini İbrahimov Cavanşir Sarı oğlunu «Meşə başı» deyilən sahədə təsərrüfat işi gördüyü yerdə qətlə yetirir;

**487.** ***30 aprel 1990-cı il:*** Gürcüstanın Qasımlı kəndinin bir sakini və onun Azərbaycandan gəlmiş qonağı daşnak terrorçuları tərəfindən oğurlanır;

**488.** ***15-16 may 1990-cı il:*** Daşnak terrorçuları Tuğ kəndini dalbadal avtomat və pulemyotlardan atəşə tuturlar, kənd sakini A.İsmayılov ağır güllə yarası alır;

**489.** ***19 may 1990-cı il:*** Naxçıvanın Yaycı kənd sakini Qasımov Tağı Qasım oğlu daşnak terrorçuları tərəfindən vəhşicəsinə qətlə yetirilir;

**490.** ***23 may 1990-cı il:*** Daşnak terror qrupu Gədəbəyin Qaravəlli kəndinə basqın edir. Kəndin keşiyində duran hərbiçi Vadim Poyarkov düşmən gülləsinin qurbanı olur;

**491.*****24 may 1990-cı il:*** Daşnak terrorçuları Xankəndi şəhərində keşik çəkən hərbiçiləri atəşə tuturlar. V.Kirillov adlı hərbiçi qətlə yetirilir, dörd nəfər hərbici isə ağır güllə yarası alır;

**492.** ***26 may 1990-cı il:*** Daşnak terrorçuları Qazax rayonunun Ermənistanla həmsərhəd Əskipara kəndinin uşaq bağçasını raket atəşiylə dağıdırlar;

**493.** ***26 may 1990-cı il:*** Kəlbəcərdən Bərdəyə gedən avtomobil karvanı Ağdərə ərazisində daşnak təxribatçıları tərəfindən daş-qalaq edilir. Nəticədə xeyli adam bədən xəsarəti alır, maşınlara ciddi zərər vururlar;

**494.** ***27 may 1990-cı il:*** Daşnak terrorçuları Göygöl rayonunun Oktyabr kənd sakini T.İbrahimovu girov götürürlər;

**495.** ***27-31 may 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Şahbuz rayonunun Gərməçataq, Babək və Culfa rayonlarının Ermənistanla həmsərhəd kəndləri atəşə tutulur, ölən və yaralananlar olur;

**496.*****29 may 1990-cı il:*** Dinc rayon sakini A.Qurbanovun idarə etdiyi maşın Ağdam-Vəng yolunun Ağdərə ərazisində daşnak terrorçularının basdırdığı minaya düşür;

**497.** ***30 may 1990-cı il:*** Ağdam-Şuşa xətti ilə hərəkət edən 17 maşın Əsgəran ərazisində daşnak təxribatçıları tərəfindən daş-qalaq edilir. Xeyli adam bədən xəsarəti alır;

**498.** ***02 iyun 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Əsgəran rayonunun Badara-Daşbulaq kəndləri arasındakı keçid yolu partladılır;

**499.*****08 iyun 1990-cı il:*** Azərbaycan vətəndaşları K.Bayramov və Ç.Mustafayev QAZ-24 avtomobilində Gürcüstana gedərkən Marneuli ərazisində beş daşnak terrorçusu tərəfindən girov götürülərək Ermənistana aparılır. Burada onları vəhşicəsinə döydükdən sonra K.Bayramovu buraxırlar. Ç.Mustafayevi qaytarmaq üçün isə 100 min rus rublu məbləğində təzminat istəyirlər;

**500.*****08 iyun 1990-cı il:*** Şuşa-Mingəçevir avtobus marşrutunun sürücüsü F.Salahov Xankəndi ərazisində daşnak terrorçuları tərəfindən vəhşicəsinə döyülür, Laçın-Şuşa marşrutunun sürücüsü A. Abbasov isə güllə yarası alır;

**501.** ***09 iyun 1990-cı il:*** Daşnak terrorçuları Şahbuz rayonundakı C.Cabbarlı adına sovxozun çobanlarına hücum edərək 90, Kəlbəcərin Söyüdlü yaylağında çobanlara hücum edərək 747 baş davarı sürüb aparırlar;

**502.** ***11 iyun 1990-cı il:*** Daşnak terror qrupu Kəlbəcərin Yellicə kəndinin çobanlarına basqın edir. B.Cəbrayılov və oğlanları Eldar, Ələkbər ağır güllə yarası alırlar. Eldarın həyatını xilas etmək mümkün olmur. Terrorçular 600 baş qoyunu və 20 baş mal-qaranı çəkib aparırlar;

**503.*****13 iyun 1990-cı il:*** Şuşalı sürücülər N.Muxtarov və A.Quliyevin avtomobilləri Əsgəran və Xankəndi ərazisində daşnak təxribatçıları tərəfindən daş-qalaq edilir. Hər iki sürücü ağır bədən xəsarəti alır, maşınları isə yararsız hala salınır;

**504.** ***14 iyun 1990-cı il:*** Daşnak terror qrupu Əsgəran rayonunun Meşəli kəndindən qayıdan maşınlara basqın edir, sıravi əsgər R.Koretski, Xocalı sakinləri V.Ağalarov və M.Həmidov güllə yarası alırlar;

**505.** ***21 iyun 1990-cı il:*** Daşnak terrorçuları Laçın rayonunun Köhnəkənd sakinləri - ata Səlimov Kamal Bəşir oğlunu və 14 yaşlı oğlu Elçini naxır otardıqları «Seyidlər» adlanan otlaq sahəsində qətlə yetirirlər. Atanın gözləri çıxarılır, dili kəsilir, oğlunun kəllə nahiyəsi süngü ilə deşilir;

**506.** ***21 iyun 1990-cı il:*** Daşnak terrorçuları Şuşa şəhərində ezamiyyətdə olan E.Əliyevi girov götürürlər. Həyat yoldaşına göndərdikləri məktubda bildirirlər ki, əriniz ancaq aprel ayında həbs olunmuş daşnak terrorçusu V.Musaelyanla dəyişmək yolu ilə azad oluna bilər;

**507.** ***23 iyun 1990-cı il:*** Daşnak terrorçuları Gədəbəyin Hacılar kəndinə hücum edərək 31 baş mal-qaranı sürüb aparırlar;

**508.** ***24 iyun 1990-cı il:*** Daşnak terror qrupu Kəlbəcərin «Tağıdərəsi» və «Üçtəpə» yaylaqlarına basqın edirlər. Ağcabədi rayonunun N.Nərimanov adına və Ş.Qurbanov adına kolxozlarına məxsus 2000 baş qoyunu, 13 baş mal-qaranı və dörd atı qənimət kimi aparırlar;

**509.** ***26 iyun 1990-cı il:*** Daşnak terrorçuları Gədəbəyin Göyəli kəndinə basqın edirlər. Dinc sakinlərdən İ.Nuriyev, M.Nağıyev və İ.Orucov qətlə yetirilir. İ.İsmayılov itkin düşür. İ.Muradov ağır güllə yarası alır;

**510.** ***06 iyul 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Xocavənd (Hadrut) rayonunun Müşfiqabad kənd sakini M.Hacıyev qətlə yetirilir;

**511.** ***11 iyul 1990-cı il:*** Daşnak terrorçusu Aşot Misaqoviçin başçılıq etdiyi qrup Tərtərdən Kəlbəcərə mülki yük və sərnişin aparan avtomobil karvanına Ağdərə rayonunun Getavan və Çərəkdar kəndləri arasındakı «Otaq qaya» adlanan yerdə basqın edir. Üç nəfər (bir qadın - Çimnaz İsmayılova) qətlə yetirilir; 29 nəfər isə ağır güllə yarası alır;

**512.** ***12 iyul 1990-cı il:*** Daşnak terrorçuları Laçın rayonunun Minkəndinin «Quşxana» kövşəninə basqın edirlər. 2060 baş davan sürüb aparırlar;

**513.** ***15 iyul 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən dəfələrlə hədələnən (milli ədavətin əleyhidarı olduğuna görə) Xankəndi təyyarə limanının rəisi Yevgeniya İşxanyanın evinə bomba atılır. Qadın qətlə yetirilir, əri isə ağır qəlpə yarası alır;

**514.** ***15 iyul 1990-cı il:*** Şahbuz rayonunun Şada kənd sakini R.Rüstəmov daşnak terrorçuları tərəfindən girov götürülür;

**515.** ***17 iyul 1990-cı il:*** Daşnak terror qrupu Laçının Ağanis kəndinə hücum edir. Kənd sakini Ş.Xəlilov ayağından güllə yarası alır;

**516.** ***21 iyul 1990-cı il:*** Daşnak terror qrupu Qubadlı rayonunun Tarovlu kəndinə basqın edir. 22 yaşlı kənd sakini Şirzad Həsənov qətlə yetirilir. Sovxozun direktoru Nümayiş Mehdiyev və daha bir nəfər qonşu kənd sakini ağır xəsarət alır;

**517.** ***26 iyul 1990-cı il:*** Daşnak terrorçuları Vedinin Yeni Həyat kəndinin sakini Süleymanov Şamo Əli oğlunun Əyircə yaylağındakı yurd yerinə basqın edirlər. 74 yaşlı Şamo Süleymanov, həyat yoldaşı

70 yaşlı Seyran Yusifovanı və köməkçiləri 62 yaşlı Gözəl Həsənovanı qətlə yetirirlər. Hər üç cəsədin üstünə benzin töküb odlayırlar. Əmlakını, mal-pulunu qarət edirlər;

**518.*31 iyul 1990-cı il:*** Azərbaycandan Gürcüstana qonaq qismində gedən iki Şəmkir sakini daşnak terrorçuları tərəfindən Şulaverdə təcavüzə məruz qalır. Onlardan biri qətlə yetirilir, ikincisi isə girov qismində Ermənistana aparılır;

**519.*02 avqust 1990-cı il:*** Daşnak terror qruplaşması İrəvanda hərbi hissə anbarına basqın edirlər. 165 ədəd reaktiv oqnemyot və onun 102 ədəd başlığını, 675 ədəd siqnal raketini ələ keçirirlər;

**520.*03 avqust 1990-cı il:*** Mığrının Kərcivan dəmiryol stansiyasında Bakı-Noraşen sərnişin qatarı daşnak təxribatçıları tərəfindən daş-qalaq edilir. Sərnişinlərdən A.Ağayeva ağır bədən xəsarəti alır;

**521.*03 avqust 1990-cı il:*** Gürcüstan SSR Marneuli rayonunun Ahlı kənd sakini daşnak terrorçusu tərəfindən avtomat silahla qətlə yetirilir;

**522.*09 avqust 1990-cı il:*** Daşnak terrorçuları Kəlbəcərin Söyüdlü yaylağına basqın edir, 279 baş mal-qaranı sürüb aparırlar;

**523.*10 avqust 1990-cı il:*** Tiflis-Ağdam marşurutu ilə hərəkət edən sərnişin avtobusu daşnak terrorçusu A.Avanesyan və M.Tateyosyan tərəfindən partladılır. 20 nəfər həlak olur, 30 nəfər yaralanır.

**524.*10 avqust 1990-cı il:*** Daşnak terrorçuları Əsgəran rayonunun Kosalar kəndinə gedən maşın dəstəsinə Xankəndi ərazisində basqın edirlər. 15 maşını sıradan çıxarırlar. Xeyli adam bədən xəsarəti alır;

**525.*10 avqust 1990-cı il:*** Daşnak terror qrupu tərəfindən «Şəmkir-Gəncə» avtomobil yolunda «Laz» markalı 43-80 AQF dövlət nömrə nişanlı sərnişin avtobusu partladılır. 17 nəfər həlak olur, 26 nəfər yaralanır;

**526.*10 avqust 1990-cı il:*** 8 nəfərlik daşnak terror qrupu Tovuz rayonunun Göyəbaxan kəndinin kövşəninə basqın edirlər. Iki nəfəri girov götürüb, 279 baş mal-qaranı sürüb aparırlar;

**527.*11 avqust 1990-cı il:*** Daşnak terrorçuları Kəlbəcərin Alalar kəndinə basqın edir, 45 baş mal-qaranı sürüb aparırlar;

**528.*14 avqust 1990-cı il:*** Daşnak terrorçuları Şuşa-Ağdam avtobusunu daş-qalaq edirlər. Sürücü M.Əliyev baş nayihəsindən ağır xəsarət alır;

**529.*16 avqust 1990-cı il:*** Daşnak terrorçuları Füzuli şəhəri ilə Dövlətyarlı kəndini birləşdirən Köndələn çayı üzərindəki körpünü partladırlar;

**530.*17 avqust 1990-cı il:*** Daşnak terrorçusu Armen Mixayloviç Avanesyanın başçılıq etdiyi terror qrupu Tiflis-Ağdam istiqamətində hərəkət edən sərnişin avtobusunu ikinci dəfə partlatmaq istərkən cinayət başında yaxalanırlar. Armen Mixayloviç Avanesyan və Mixail Mixayloviç Tatevosov cinayət məsuliyyətinə cəlb olunur, cinayətin 3-cü iştirakçısı Vaçaqan Roçikoviç

Ovanesyan barəsində axtarış elan edilir. 1992-ci ilin mayında keçirilən məhkəmə iclasının qərarı ilə A.M.Avanesyan ölüm, M.M.Tatevosov 15 illik həbs cəzasına məhkum edilirlər. Elə həmin ayda M.Tatevosov, sonra isə A. Avanesyan girovlarla dəyişdirilir;

**531.*17 avqust 1990-cı il:*** Qazax rayonunun Yuxarı Əskipara kəndi daşnak terrorçularının həmləsinə məruz qalır. Kənd sakinlərindən F.Mehdiyev qətlə yetirilir, V.Həsənov, N.Eminov yaralanırlar;

**532.*19 avqust 1990-cı il:*** Daşnak terrorçuları Əskipara-Qazax marşrutu ilə işləyən sərnişin avtobusuna həmlə edirlər. İki dinc sakin qətlə yetirilir. Polis əməkdaşı Ş.Çobanov və polis kapitanı A.Məmmədov həlak olur. İki polis əməkdaşı və iki mülki şəxs güllə yarası alır;

**533.*21 avqust 1990-cı il:*** Həmin gün Qazax rayonu ərazisində daha üç nəfər - Qəhrəmanova Səhər Müslüm qızı, hərbi qulluqçu Lipatov Aleksandr Vladimiroviç və Əliyev İldırım Müzəffər oğlu daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**534.*22 avqust 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən Ağdam şəhərinin girəcəyində, Qarqarçay üstündəki körpü səhər saat 7-yə 5 dəqiqə qalmış partladılır. Təxribat saat mexanizmi üzərində qurulmuş güclü dağıdıcı gücə malik partladıcı maddə vasitəsi ilə həyata keçirilir;

**535.*24 avqust 1990-cı il:*** Kəlbəcər rayonunun Alalar kənd sakini B.Ramazanov daşnak terrorçuları tərəfindən girov götürülür;

**536.*24 avqust 1990-cı il:*** Daşnak terrorçuları Xankəndi ərazisində R.Ələkbərovun idarə etdiyi QAZ-24 markalı maşının yolunu kəsərək onu ailə üzvləri ilə birlikdə yerə düşürürlər. Bütöv bir ailəni qaz balonu vasitəsi ilə boğmağa cəhd göstərirlər. Huşunu itirmiş ata və körpələri özlərini hadisə yerinə vaxtında çatdıran daxili qoşun əsgərlərinin köməyi ilə ölümün pəncəsindən xilas olurlar;

**537.*25 avqust 1990-cı il:*** Daşnakların «Amaras» adlandırdıqları terror qrupu Şuşanın Göytəpə yaşayış məntəqəsinə basqın edirlər. Valideynləri qətlə yetirilən və evləri yandırılan 5 yaşlı Elçin Allahverdiyev yetim və evsiz qalır;

**538.*28 avqust 1990-cı il:*** Daşnak terrorçusu Şəmkir avtovağzalında sərnişin yığmağa dayanmış avtobusda partlayış törədir. Nəticədə ağır dərəcədə yanğın almış Elnora Məhərrəmova görmə qabiliyyətini itirir. Hər iki gözdən kor olur;

**539.*05 sentyabr 1990-cı il:*** Ağdərə rayonunun Çıldıran kəndində yuva qurmuş daşnak terror qrupu qonşu Güneypəyə kəndinə basqın edir. Nəticədə 13 yaşlı kənd sakini G.Novruzov ağır bədən xəsarəti alır;

**540.*07 sentyabr 1990-cı il:*** Gorus rayonunun Xazanvar kəndində yuva qurmuş daşnak terrorçuları Laçın rayonunun Hacılar kəndinə və Qaydulaq örüşünə basqın edərək 156 baş mal-qaranı sürüb aparırlar;

**541.*08 sentyabr 1990-cı il:*** Laçın rayonunun Köhnəkənd sovetliyinin mərkəzi malikanəsindən yük maşınlarında Alcana kəndinə gedən üç qardaşdan

Elman və Xanoğlan Süleyman oğlu Süleymanov qardaşları daşnak terrorçuları tərəfindən atılan güllə atəşləri ilə qətlə yetirilirlər. Üçüncü qardaş Elxan Süleymanov isə ağır bədən xəsarəti alır;

**542.*09 sentyabr 1990-cı il:*** Daşnak terrorçuları Xankəndində Sahib İmanovu əsir götürməyə çalışırlar. Məqsədlərinə nail olmasalar da, onu yaralayırlar. Yaralı özünü şəhər xəstəxanasına çatdırsa da, daşnak xislətli erməni həkimləri ona ilk tibbi yardım göstərməkdən imtina edirlər.

**543.*09 sentyabr 1990-cı il:*** Daşnak terrorçuları səhər saat 11 radələrində Ağcabədidən Martini rayonunun Xocavənd kəndinə gedən 89-38 AQD nömrəli avtobusa basqın edirlər. 20 sərnişindən 6 nəfəri ağır xəsarət alır;

**544.**10 ***sentyabr 1990-cı il:*** Martuni rayonunda yuva salmış daşnak terrorçuları qrup halında rayon DİŞ-nə başqın edərək şöbənin rəis müavini M.Bəylərovu, əməliyyat müvəkkili A.Məmmədovu və polis serjantı F.Mirzəyevi girov götürürlər;

**545.*10 sentyabr 1990-cı il:*** Daşnak terrorçuları uzun müddət Ağdərə Rayon Partiya Komitəsinin II katibi işləmiş Arif Əliyevi və sürücüsü Bayram Misirovu girov götürürlər. A. Əliyevin qızıl dişlərini sökür, 12 gün işgəncə altında saxlayırlar. Onu və sürücüsünü göz altına alınmış daşnak terrorçuları ilə dəyişirlər;

**546.*11 sentyabr 1990-cı il:*** Xocavənd rayonunda məskən salmış daşnak terrorçuları Əmirallar kəndinə basqın edirlər. Odlu silahlardan açdıqları atəşlə kənd sovetinin sədrinə, onun 15 yaşlı oğlu Vüqara, 14 yaşlı Həsi Əhmədova və iki qadına (Fatma Şahbazova, Əzizə Mehdiyeva) bədən xəsarəti yetirirlər;

**547.*12 sentyabr 1990-cı il:*** Daşnakların təxribat qrupu Əsgəran rayonu ərazisində Xocalıya gedən sərnişin avtobusunu daş-qalaq edərək 5 nəfər sərnişinə ağır bədən xəsarəti yetirirlər. Dişi qana batmış terrorçular Ağdamdan Şuşaya gedən 50-71 AQT nömrəli avtobusu da sıradan çıxarırlar. 8 nəfər sərnişin ağır xəsarət alır;

**548.*13 sentyabr 1990-cı il:*** Əsgəran şəhərində məskən salmış daşnak terrorçuları Məhərrəmov soyadlı Azərbaycan türkünü vəhşicəsinə döyürlər. Sonra isə terrorçular Ağdam-Şuşa sərnişin avtobusuna yenidən basqın edərək bir neçə sərnişinə ağır bədən xəsarəti yetirirlər;

**549.*13 sentyabr 1990-cı il:*** Axşam saat $6^{00}$ radələrində Ağdam rayonunun Qurdlar kənd sakinləri Mehbalı və Hümbət Əliyev qardaşları 95-46 AJQ nömrəli şəxsi maşında Füzuli rayonuna gedərkən avtomagistralın Pirağabulaq deyilən hissəsində Martunidə yuva salmış daşnak terror qrupunun avtomat atəşinə məruz qalırlar. Mehbalı Əliyev yerindəcə həlak olur;

**550.*14 sentyabr 1990-cı il:*** Əsgəran rayon DİŞ-nin daşnak xislətli əməkdaşları Fərrux və Ağbulaq kəndlərində yuva qurmuş daşnak terrorçuları ilə

birləşərək Ağdam rayonunun Cinli və Abdal Gülablı kəndlərini aramsız güllə yağışı altında saxlayırlar;

**551.***15sentyabr 1990-cı il:* Daşnak terrorçusu tərəfindən Xankəndi şəhərində DQMV-nin radio-televiziya mərkəzi partladılır. İmkan və şərait olmasına baxmayaraq terrorçunun şəxsiyyəti müəyyən edilmir;

**552.***17 sentyabr 1990-cı il:* Axşam saat 10 $^{00}$ radələrində Xocavənd (Hadrut) rayonunun Tuğ kənd sakini Mirbala Süleymanov özünə məxsus «Niva» markalı minik maşını ilə evinə gedərkən Füzuli-Tuğ yolunun 14-cü km-də daşnak terrorçularının basqınına məruz qalır. Özünə xəsarət yetirən terrorçular maşınını qaçırırlar;

**553.***24 sentyabr 1990-cı il:* Saat 19$^{00}$ radələrində Respublika prokurorunun müavini N. P. Pustovit, SSRİ Baş prokurorunun yanında mühüm işlər üzrə müstəntiq E. İ. Çermşev, DQMV prokurorunun müavini B.O. Bayramov, DQMV prokurorunun baş köməkçisi Ş. A. Məmmədovun oturduğu və hərbi qulluqçu P.S. Sabitskinin idarə etdiyi «QAZ-31» markalı, 07-70 AQA dövlət nömrə nişanlı xidmət avtomobili Xankəndi-Şuşa magistralında, Zərin bağı adlanan daş karxanasından Şuşaya qalxan yolun birinci döngəsində daşnak terror qrupu tərəfindən avtomat silahlardan atəşə tutulur;

**554.***26 sentyabr 1990-cı il:* Mardakert rayonun ərazisində yuva salmış daşnak terror qrupu Manikli kəndinə hücum edirlər. Onlar kənd əhalisindən bir neçə nəfəri əsir tutmaq istəsələr də məqsədlərinə nail ola bilməmişlər. Lakin camaata məxsus qoyun sürüsünü özləri ilə sürüb aparmışlar;

**555.***02 oktyabr 1990-cı il:* Daşnak terrorçuları Kərkicahan kəndində törətdikləri bomba partlayışı nəticəsində birinci sinif şagirdi Eyvaz Abbasov həlak olmuş, qardaşı Əvəz Abbasov isə yaralanmışdır;

**556.***03 oktyabr 1990-cı il:* Daşnak terrorçuları Kəlbəcər rayonunun Qılınclı kənd sakini Elbrus Rəsulovu Daşkəsən ərazisində girov götürərək Ermənistana aparmışlar;

**557.***05 oktyabr 1990-cı il:* Qafan şəhərində yuva salmış daşnak terrorçuları Zəngilan şəhər sakinlərindən üç nəfəri girov götürmüşlər;

**558.***10 oktyabr 1990-cı il:* Daşnak terrorçuları Gədəbəy rayonunun Rəsullu kəndinə basqın edərək 89 baş mal-qaranı sürüb aparmışlar;

**559.***13 oktyabr 1990-cı il:* Daşnak terrorçuları Laçın rayonunun Malbinəsi kəndinə həmlə edirlər. 80 yaşlı kənd sakini Cəfərov və onun iki nəvəsi ağır qəlpə yarası alır;

**560.***15 oktyabr 1990-cı il:* Daşnak terrorçuları «Simferopol-Bakı» sərnişin qatarında partlayış törədirlər. Qatar qəzaya uğrayır, 11 nəfər ağır bədən xəsarəti alır;

**561.***21 oktyabr 1990-cı il:* Laçın rayonunun Ağanis kənd sakini Məhərrəmov Təvəkkül Adil oğlu Qaladərəsi kəndinə sığınmış daşnak terrorçuları tərəfindən kəndin kənarında qətlə yetirilir. Kənd camaatına məxsus 500 baş qoyun isə sürülüb aparılır;

**562.*22 oktyabr 1990-cı il:*** Şuşadan Ağdama sərnişin aparan «U AZ» markalı minik maşını daşnak terrorçuları tərəfindən ələ keçirilmişdir. Bir qadın, 12 yaşlı oğlu və 23 yaşlı sürücü girov götürülmüşdür;

**563.*03 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Laçm rayonunun Zabux kəndinə basqın edir. Kənd sakiniərindən 3 nəfər qətlə yetirilir;

**564.*14 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Cəbrayıl rayonunun Söyüdlü kənd sakini Məcid Allahverdiyevi kəndin meşə ərazisində mal-qara otararkən girov götürürlər;

**565.*15 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Ağdamdan Şuşa istiqamətində gedən «QAZ-24» markalı maşına həmlə edirlər. Sürücü Rasim Xasay oğlu Məmmədov bıçaqlanaraq qətlə yetirilir, sərnişin Q.Cümşüdov vəhşicəsinə döyülür, maşının ehtiyat hissələri dağıdılır və oğurlanır;

**566.*18 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Şuşanın Göytala kəndinə basqın edirlər. Nəticədə V.Bayramov güllə yarası alır;

**567.*19 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Xankəndində vilayət prokurorluğunun baş müstəntiqi Siyasət Alıyevi işlədiyi binanın qabağında tutaraq üstünə bıçaq çəkirlər. Müstəntiq bir neçə bıçaq yarası ilə ağır vəziyyətdə xəstəxanaya düşür;

**568.*20 noyabr 1990-cı il:*** Sumqayıt şəhər sakini Şahlar Cəlil oğlu Nəcəfov Laçın rayonunun Zabux kəndinə tikinti materialı apararkən daşnak terrorçuları tərəfindən qətlə yetirilir. Sərnişin Etibar Məmmədov isə ağır güllə yarası alır;

**569.*20 noyabr 1990-cı il:*** Daşnak terror qrupu Tərtər-Kəlbəcər yolunda avtomobil karvanına basqın edir. Nəticədə 2 nəfər həlak olur;

**570.*21 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Quşçular kəndinin müdafiəsində dayanan polis işçilərinin yerləşdiyi məntəqəni atəşə tuturlar;

**571.*21 noyabr 1990-cı il:*** Laçın rayonunun Seyidlər kənd sakini Elxan Kərim oğlu Məmmədov kəndlərinə gedərkən yolda basqına məruz qalır, daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**572.*21 noyabr 1990-cı il:*** Hadrud rayonunda məskən salmış daşnak terrorçuları Cəbrayılın Qışlaq kəndini avtomat və punemyotlardan atəşə tuturlar. Kənd müdafiəçilərindən bir nəfər güllə yarası alır;

**573.*22 noyabr 1990-cı il:*** Daşnak terrorçuları saat $9^{00}$ radələrində qəflətən Kərkicahan qəsəbəsinə basqın edir, qəsəbə sakini Həsənov Tofiq Bəylər oğlunu qətlə yetirirlər. Mərhumun meyiti tanınmaz hala salınır. Əfqan Novruz oğlu Tanrıverdiyev isə atışma zamanı yaralandır;

**574.*24 noyabr 1990-cı il:*** Daşnak terrorçuları tərəfindən X.Hüseynovun idarə etdiyi «QAZ-53» markalı maşın Xankəndi-Xocavənd yolunda güllələbaran edilir. Qaradağlı kənd sakini X.Hüseynov və iki mülki şəxs, A. Səfixanov və Vahid Alıxanlı qətlə yetirilir;

**575.*25 noyabr 1990-cı il:*** Daşnak terrorçuları Gürcüstan SSR ərazisində azərbaycanlılar yaşayan kəndlərə işləyən marşrut avtobusunu partladırlar. Nəticədə Gürcüstan vətəndaşı olan 20 nəfər azərbaycanlı mülki şəxs həlak olur;

**576.*26-27 noyabr 1990-cı il:*** Martunidə yuva qurmuş daşnak terror qrupları Xocavənd, Qaradağlı kəndlərini və Martuni şəhərinin azərbaycanlılar yaşayan "Rus Tağı" məhəlləsini qumbaraatan və avtomatlardan atəşə tuturlar. Şəhər sakini Bidad Əliyevin və Xocavənd kənd sakini Nadir Nəzərovun evi yandınlır;

**577.*29 noyabr 1990-cı il:*** Xocalı təyyarə limanına növbə çəkməyə polis işçilərini aparan avtobus daşnak terrorçularının basqınına məruz qalır. Bir polis işçisi həlak olur, 16 nəfər əməkdaş isə güllə yarası alır;

**578.*29 noyabr 1990-cı il:*** 16 yaşlı Xocalı sakini Xanoğlan Şahməmmədov daşnak terrorçuları tərəfindən qoyun otardığı yerdən girov götürülür;

**579.*1990-cı il, noyabrın 29-dan 30-na keçən gecə:*** Xocavənd (Hadrut) rayonunun Tuğ kəndi ərazisində aparılan tikinti işlərini dayandırmaq üçün daşnak terrorçuları vaqonların altına 6 kq-dan artıq çəkisi olan partlayıcı maddə qoyurlar;

**580.*30 noyabr 1990-cı il:*** Çaykəndinə sığınmış daşnak terrorçuları tərəfindən Göygöl rayon sakinləri Məmmədəli Əhmədov, Sənan Ağayarov, Raqub Rzayev, Şərif Məmmədov, Sərhəddin Əliyev, Rafıq Məmmədov qətlə yetirilirlər;

**581.*30 noyabr 1990-cı il:*** Göygöl (Xanlar) rayonunun Martunaşen erməni kəndinə sülh danışığına gedən ictimaiyyət nümayəndələri kəndə sığınmış daşnak terrorçuları tərəfindən atəşlə qarşılanır. Səkkiz nəfərlik elçinin dördü qətlə yetirilir, iki nəfəri yaralanır, iki nəfər isə girov götürülür. Girov götürülənlərdən biri sonradan işgəncə ilə qətlə yetirilir;

**582.*30 noyabr 1990-cı il:*** Daşnak terrorçuları polis işçilərini Şuşaya aparan avtobusa Ağa körpüsündə basqın edirlər. Körpu partladılır. Polis serjantları R.Yusifov, A.Xıdırov və İ.Yaqubov ağır yaralanır. 4 nəfər polis əməkdaşı isə yüngül zədə alır. Sürücü R. Cəfərovun idarə etdiyi 96-90 AQD nömrəli avtobus tam yararsız hala salınır;

**583.*02 dekabr 1990-cı il:*** Göygöl rayonunun Çaykəndi və Kamo kəndlərində məskən salmış daşnak terrorçuları ətraf kəndlərə basqınlar edərək 11 Azərbaycan türkünü qətlə yetirirlər;

**584. *02 dekabr 1990-cı il:*** Şuşa şəhərini içməli su ilə təmin edən Daşaltı kəndi yaxınlığındakı su anbarı daşnak terrorçuları tərəfindən partladılır;

**585.*02 dekabr 1990-cı il:*** Müxətər və Şüşükənddə yuva qurmuş daşnak terror qrupu avtomat və pulemyotlardan Şuşa şəhərini aramsız atəşə tutur. Şuşa rayon mərkəzi xəstəxanasına və Qaya başı deyilən əraziyə yaxın yaşayış evlərinə ciddi zərər yetirirlər;

**586.*03 dekabr 1990-cı il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Yuxarı Məzrə kəndinə basqın edir, əliyalın, dinc kənd sakinlərindən Quliyev Aydın Poladxan oğlu, Rəhimov Mətləb Əvəz oğlu qətlə yetirilir, iki nəfər isə güllə yarası alır;

**587.*03 dekabr 1990-cı il:*** Daşnak terror qrupu Şuşa şəhərinin Göytala kəndinə 3 top mərmisi atırlar;

**588.** ***03 dekabr 1990-cı il:*** Saat $16^{00}$ radələrində QAZ-53 markalı avtobus Xocalıdan Ağdama gedərkən Əsgəranda yuva salmış daşnak terrorçuları tərəfindən daş-qalaq edilir. Sürücü İlqar Novruzov alın nayihəsindən ağır yaralanır;

**589.** ***03 dekabr 1990-cı il:*** Xocavənd (Hadrud) rayonunda möhkəmlənən daşnak terror qrupları Cəbrayılın Sirik və Doşulu kəndlərini atəşə tuturlar;

**590.*04 dekabr 1990-cı il:*** Əsgəranda məskən salmış daşnak terrorçuları 20 maşından ibarət Şuşaya yük aparan karvana basqın edirlər. 12 sürücüyə ağır bədən xəsarəti yetirirlər;

**591.*05 dekabr 1990-cı il:*** Xankəndində idarə və müəssisələrin Azərbaycan dilində yazılmış bütün ünvan lövhələri daşnak terrorçuları tərəfindən qoparılıb atılır, 92-41 AQA markalı maşının azərbaycanlı sürücüsü döyülür, maşın isə qaçırılır;

**592.*06 dekabr 1990-cı il:*** Daşnak terrorçuları Tərtər rayonunun Sarov kəndinin fermasına həmlə edirlər. Çoban Q. Bayramov ağır güllə yarası alır;

**593.*06 dekabr 1990-cı il:*** Daşnak terrorçuları Ağdamın Abdal-Gülablı kəndini atəşə tuturlar. Əsgəran rayonunun ərazisindən keçən yolu gündüz açsalar da, axşam yenidən bağlayırlar;

**594.** ***08 dekabr 1990-cı il:*** Bu yaxınlaradək azərbaycanlılar yaşayan Həsənabad və Pirəməki yataqları daşnak terrorçuları tərəfindən tamamilə boşaldılmış və buraya erməni əhalisi köçürülmüşdür. Burada yuva qurmuş daşnak terrorçuları saat $15^{00}$ radələrində Şuşa rayonunun Quşçular kəndini avtomat silahlardan atəşə tuturlar. Terrorçular kəndin yaxınlığında qoyun otaran uşaqları girov götürməyə və qoyunları aparmağa cəhd göstərirlər;

**595.*12 dekabr 1990-cı il:*** Ağdam-Şuşa marşrutu ilə hərəkət edən avtobus Xankəndi ərazisində daşnak terrorçularının həmləsinə məruz qalır. 1964-cü il təvəllüdlü sərnişin A.Mehrəliyev ağır güllə yarası alır;

**596.** ***12 dekabr 1990-cı il:*** Saat $14^{30}$ radələrində Ağdamdan Şuşaya gedən 13-58 AQYA nömrə nişanlı avtobus Xan bağı yaxınlığında daşnak terrorçuları tərəfindən gülləyə tutulur. Avtobusun sərnişini, Meşəli kənd sakini Əli Mürsəl oğlu Mehrəliyev ağır güllə yarası alır;

**597.** ***13 dekabr 1990-cı il:*** Səhər saat $4^{00}$ radələrində daşnak terrorçuları Şuşaya gələn içməli su kəmərini Nəbilər kəndi ətrafındakı Nasovnaya stansiyasının yaxınlığında partladırlar;

**598.** ***14 dekabr 1990-cı il:*** Ağdərə rayonunun Umudlu kəndinə tikinti materialı aparan 6 maşından ibarət karvan daşnak terrorçularının təcavüzünə məruz qalır. Sürücülərdən A.Məmmədov həlak olur, mühafizəçi D.Şakirov və sürücü S.Əmirov yaralanır;

**599.** ***15 dekabr 1990-cı il:*** Şuşa rayonunun Cəmilli kənd sakinərinin oturduğu «ZİL-130» markalı yük maşını Kosalar kəndinə gedərkən «İstisu» adlanan ərazidə daşnak terrorçuları - «Napaleon» ləqəbli Ayriyan Arkadi Abramoviç və Babayan Samvel Andronikoviçin qrupu tərəfindən atəşə tutulur. Üç nəfər - polis baş leytenantı M.Cəbrayılov, mühafizə şöbəsinin əməkdaşı A.Əliyev, kənd sakini, XI sinif şagirdi Ə. Cavadov həlak olur, beş nəfər ağır güllə yarası alır. Hər iki terrorçu cinayət məsuliyyətinə cəlb olunur, 19 iyun 1992-ci il tarixli məhkəmə qərarı ilə onlar ölüm cəzasına məhkum edilirlər. Lakin bir ay sonra hər ikisi əsir və girovlarla dəyişdirilir. Sonralar daşnak terrorçusu S.Babayan 1993-1999-cu illərdə qondarma DQ Respublikasının müdafiə naziri olmuşdur;

**600.** ***15 dekabr 1990-cı il:*** Daşnak terrorçuları Ağdərə rayonunun Sırxavənd kəndinə həmlə edirlər. 18 yaşlı kənd sakini A.Həsənov güllə yarası alır;

**601.*****15 dekabr 1990-cı il:*** Saat $20^{40}$ radələrində DQMV üzrə Respublika Təşkilat Komitəsinin üzvləri Aqil Rəhimovun və Rəhman Rəhmanovun oturduqları Əmrallar kənd XDS İcraiyyə Komitəsinin sədri Həsən Rəhmənova məxsus A 92-16 AZ nömrəli «Jiquli» maşını Martunidən Ağdama gedərkən Qarakənddə yuva qurmuş daşnak terrorçularının avtomat atəşlərinə məruz qalır;

**602.*****17 dekabr 1990-cı il:*** Şərur rayonunda pusqu quran daşnak terrorçuları 23 yaşlı polis işçisi F.Əliyevi və mülki şəxs İ.Hacıyevi vəhşicəsinə qətlə yetirirlər. Dinc sakin F.Abdullayev güllə yarası alır;

**603.*****18 dekabr 1990-cı il:*** Daşnak terrorçuları Daşkəsən rayonunun Lenin adına sovxozun otlaq sahəsinə basqın edirlər. *21* yaşlı R. İsmayılovu girov götürərək 500 başlıq qoyun sürüsünü də çəkib özləri ilə aparırlar;

**604.*****25 dekabr 1990-cı il:*** Saat $15^{30}$ radələrində Şuşa rayonunun Quşçular kəndindən geri qayıdan inşaatçıları daşıyan və sürücüləri Vaqif Əhmədov və Kərəm Şirəliyev olan 34-50 AQP və 25-63 AQM "KAMAZ" avtomaşınları Xankəndi şəhərinin girəcəyində daşnak terror qrupunun basqınına məruz qalır. İş icraçısı Möhübbət Quliyev və digər bir sərnişin ağır güllə yarası alır. 25-63 AQM nömrə nişanlı «KAMAZ» markalı maşın tamamilə sıradan çıxır;

**605.** ***09 yanvar 1991-ci il:*** Xocavəndin Qaradağlı kəndinə gedən «UAZ-469» markalı 53-55 AQT dövlət nişanlı minik maşını daşnak terrorçuları tərəfindən güllələbaran edilir. Qaradağlı kənd sakini Soltan Bayramov yerindəcə həlak olur, sürücü N.Səmədov isə ağır güllə yarası alır;

**606.** ***09 yanvar 1991-ci il:*** Daşnak Arno Mixayıloviç Mkrtıçyanın rəhbərlik etdiyi terror qrupu tərəfindən Laçın-Şuşa yolunun 5-ci km-də «Molodyoj Azerbaydjana» qəzetinin müxbiri Salatın Əsgərova və Sovet ordusunun 3 zabitinin oturduğu avtomobil gülləbaran edilir. 4 nəfər həlak olur. Terrorçular ələ keçir və mühakimə edilirlər. Terrorçulardan Mkrtıçyan A.M., Arustamyan Q.M., Zakaryan A.A., Sərkisyan M.S., Osipyan Y.R. 15 il, Qriqoryan Q.S. isə 5 il müddətinə azadlıqdan məhrum edilir. Lakin terrorçular 1996-cı il may ayının 8-də birtərəfli qaydada Ermənistana təhvil verilirlər;

**607.** ***15 yanvar 1991-ci il:*** Malıbəylidən Ağdama xəstə aparan təcili yardım maşını Əsgəran ərazisində daşnak təxribat qrupu tərəfindən daş-qalaq edilir. Nəticədə ağır yataq xəstəsi təkrar kəllə nahiyəsindən daş yarası alır;

**608.** ***16 yanvar 1991-ci il:*** Arandan Malıbəyliyə saman (qaba yem) daşıyan üç yük maşını Əsgəran şəhərində daşnaklar tərəfindən «daş» yağışına tutulur. Nəticədə Malıbəyli kənd sakinlərindən - sürücü Şakir Xanlarov, sovxoz fəhlələri Şiraslan Nəcəfov və Bəkir Əmiraslanov bədən xəsarəti alır;

**609.** ***19 yanvar 1991-ci il:*** Baqmanyan Akop Qavruşoviç, Baqmanyan Samvel Qavruşoviç və Antonyan Artuş Qriqoryeviçdən ibarət daşnak terror qrupu tərəfindən DQMV Dİİ-nin rəisi işləyən general-mayor V. Kovolyovun həyatına sui-qəsd cəhdi edilir. Lakin o, xoş təsadüf nəticəsində sağ qalır;

**610.** ***21 yanvar 1991-ci il:*** Martuni şəhərində yuva qurmuş daşnak terror qrupu şəhərin Azəri məhəlləsini odlu silahlardan atəşə tutur;

**611.** ***20 yanvar 1991-ci il:*** Şuşa rayonunun Onverst kəndində məskən salmış daşnak terror qrupu Laçın-Şuşa yolunu bağlayır. Bu gündən etibarən Laçından Şuşaya 49 km-lik yol əvəzinə nəqliyyat vasitələri Araz-Həkəri çayları boyunca 400 km məsafə qət edir;

**612.** ***25-26 yanvar 1991-ci il:*** Daşnak təxribatçıları tərəfindən yanvarın 25-də Ağdam-Şuşa marşrutu ilə hərəkət edən sərnişin avtobusu, yanvarın 26-da isə Şuşadakı 124 saylı SMD-yə məxsus «ZİL-130» markalı 98-17 AQO dövlət nömrəsi olan yük maşını Əsgəran şəhərində daş-qalaq edilir. Yük maşını aşırılaraq yandırılır. Sürücüsü Tahir Əhmədov təsadüf nəticəsində həyatın xilas edə bilir;

**613.** ***28 yanvar 1991-ci il:*** Daşnak terror qrupu tərəfindən Martuni rayonunun Xocavənd kəndi atəşə tutulur. Öz həyətində çörək bişirən Fənər Nəzərova qətlə yetirilir. Kənd sakinlərindən Cəllad Şirin oğlu Əhmədov və 12 yaşlı İ. Məmmədov isə ağır güllə yarası alır;

**614.** ***31 yanvar 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdam-Şuşa yolunda Malıbəyli kənd sakini Telman Salmanovun idarə etdiyi M. Əzizbəyov adına sovxoza məxsus QAZ-66 markalı 51-77 AQT nömrəli maşın partladılır;

**615.** ***07 fevral 1991-ci il:*** Daşnak terrorçuları Ağdam-Ağdərə avtomobil yolundan keçən avtomaşını güllələbaran edirlər. Nəticədə 1 nəfər yaralanır;

**616.** ***08 fevral 1991-ci il:*** Daşnak terrorçuları axşam saat $9^{00}$ radələrində Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə basqın edirlər. Kənd sakini, «Sosializm» kolxozunun sürücüsü Qəzənfər Əliyev ağır güllə yarası alır;

**617.** ***17 fevral 1991-ci il:*** Qaladərəsi kəndində yuva qurmuş daşnak terrorçuları Şuşa rayonunun Göytala kəndini avtomat və pulemyotlardan atəşə tuturlar;

**618.*****20 fevral 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Laçın-Yevlax yolunun 106-cı km-də, ermənilərə məxsus Zərin bağı adlanan daş karxanasının döngəsində «KAMAZ-5511» markalı 25-31 AQT nömrəli avtomaşın partladılır. Sürücü Allahverdiyev İlham Baxşeyiş oğlu və yaxın qohumu Qocayev Güman Əvəz oğlu faciəli şəkildə həlak olurlar;

619.***20 fevral 1991-ci il:*** Saat $17^{00}$ radələrində Respublika Təşkilat Komitəsinin müşavirəsindən evə qayıdan DQMV Dİİ-nin istintaq şöbəsinin rəis müavini Aydın Əzizovım «UAZ» markalı 10-16 AQD nömrəli xidməti minik maşını daşnak terrorçularının basqınına məruz qalır. Maşını müşayiət edən sıravi əsgər Valeri Qorkuşa ağır bədən xəsarəti alır;

**620.*****21 fevral 1991-ci il:*** Daşnak terrorçusu tərəfindən Ağdam şəhərinin avtovağzalında partlayış törədilir. Cinayətin izini itirmək üçün partlayışın qazdan törəndiyini elan edən hökumət nümayəndələri unudurlar ki, həmin gün şəhərdə qaz olmayıb, daha doğrusu, qaz 3 gün əvvəl kəsilib;

**621.*****24 fevral 1991-ci il:*** Laçın-Yevlax yolunun 101-ci km-də Şuşa Avtonəqliyyat İB-yinə məxsus «PAZ» markalı, 64-90 AQF dövlət nişanlı sərnişin avtobusu daşnak terrorçuları tərəfindən partladılır. Avtobus tamamilə sıradan çıxır. Sərnişinlərdən 7 nəfər ağır bədən xəsarəti alır və xəstəxanaya düşür;

**622.*****25 fevral 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Abdal-Gülablı kəndi yaxınlığında sürücü Məhəmmədiyyə Mehdiyevi və Ağdam rayon DİŞ-nin əməkdaşı Qorxmaz Muradovu maşınla birgə girov götürürlər. Q. Muradovu vəhşicəsinə qətlə yetirirlər;

**623.*****25 fevral 1991-ci il:*** Daşnak terror qrupu Əsgəran rayonunun Cəmilli kəndinə basqın edir, 14 yaşlı Elşən Sadıqovu qətlə yetirirlər;

**624.*****27 fevral 1991-ci il:*** Xocavənd (Martuni) rayonunun Qağarza və Borovatumb kəndlərində məskən salmış daşnak terrorçuları gecə saat $01^{30}$ radələrindən başlayaraq 2 saat müddətində Qaradağlı kəndini atəş altında saxlayırlar;

**625.*****28 fevral 1991-ci il:*** Daşnak terrorçuları Laçın rayonunun Aşağı və Yuxarı Cicimli kəndlərini avtomat silahlardan atəşə tuturlar;

**626.*****28 fevral - 01 mart 1991-ci il:*** Gorusda (Ermənistan SSR) məskən salmış daşnak terror birləşmələri tərəfindən Laçın rayonunun Cağazır, Malpəyə,

Ağoğlan kəndləri və Qayğı qəsəbəsi intensiv surətdə avtomat silahlardan güllə yağışına və top atəşlərinə tutulur;

627. ***02 mart 1991-ci il:*** Daşnak terror qrupu tərəfindən Martuni rayonunun Xocavənd kəndi atəşə tutulur, kənd sakini Haqverdi Şəfi oğlu Yusifov qətlə yetirilir;

**628.** ***04 mart 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Nəbilərdən Şuşaya gələn içməli su kəməri Daşaltı yaxınlığında yenidən partladılır;

**629.** ***05 mart 1991-ci il:*** Yeğsahoğ kəndində məskən salmış daşnak terrorçuları növbəti çərşənbə alovu qalayan Şuşa rayonunun Göytala camaatını pulemyot və avtomatlardan atəşə tuturlar;

**630.** ***07 mart 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə (Mardakert) rayonunun Umudlu kəndindəki heyvandarlıq fermasının yaxınlığında güclü partlayış törədirlər. Kənd sakini, 3 uşaq atası Y.Axundov 7 qəlpə yarası alır. Onun atası Mayıl kişi və kənd sakini Pənah Cəbrayılov da ağır yaralanırlar;

**631.** ***09 mart 1991-ci il:*** Xankəndində yuva qurmuş daşnak terrorçular tərəfindən Bakı-Şuşa reysini yerinə yetirən 56-57 AQT nömrəli «İkarus» avtobusu daş-qalaq edilir. Həm də güllə yağışına tutulur;

**632.** ***09 mart 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Qaradağlı kəndinin fermasına basqın edir. İki ferma işçisi - 5 uşaq atası Zülfüqar Hüseynov və Ələkbər Quliyev qətlə yetirilir;

**633.** ***11 mart 1991-ci il:*** Qazançı kəndində yuva salmış daşnak terrorçuları Ağdamdan Ağdərə (Mardakert) rayonunun Kərəmli kəndinə uçan, tanınma nişanı Mİ-8-24572 olan vertolyotu atəşə tuturlar. Vertolyot ciddi zədə alır, gövdəsi üç yerdən deşilir;

**634.** ***13 mart 1991-ci il:*** Əsgəran rayonunun Daşbulaq kəndində məskən salmış daşnak terror qrupu Xocalı şəhərinə basqın edirlər;

**635.** ***13 mart 1991-ci il:*** Əsgəran şəhərinə toplaşmış daşnak təxribatçıları saat $ll^{00}$ radələrində Ağdamdan Şuşaya gedən maşın karvanını daş yağışına tuturlar. 40-a yaxın müxtəlif markalı maşınlara külli miqdarda maddi ziyan dəyir. Sürücülərdən və sərnişinlərdən yaralananlar olur;

**636.** ***14 mart 1991-ci il:*** Daşnak terror qrupu Ağdam-Şuşa marşrutu ilə işləyən Elman Paşayevin idarə etdiyi 73-53 AQYA nömrəli sərnişin avtobusunu Əsgəran rayonu ərazisində gülləbaran edir. Nəticədə üç sərnişin - Şuşa şəhər sakini 20 yaşlı İsrafil İnqilab oğlu Quliyev, Kosalar kənd sakini Cəllad Bayramov və Ağdam rayonu Əhmədavar kənd sakini Yəhya kişi həlak olur, 4 nəfər sərnişin isə ağır güllə yarası alır;

**637.** ***15 mart 1991-ci il:*** Şüşükənd, Müxətər, Daşaltı kəndlərində özlərinə isti yuva tapmış daşnak terrorçuları Şuşa şəhərini avtomat və pulemyotlardan aramsız şəkildə atəşə tuturlar;

**638.** ***20 mart 1991-ci il:*** Daşnak terrorçuları Martuni rayonunun Xocavənd və Qaradağlı kəndlərini minaatanlardan və avtomat silahlardan atəşə

tuturlar. Nəticədə İnqilab Hüseynovun, Məmməd Şükürovun evləri partladılır, vahimədən 3 yaşlı Elçinin dili tutulur;

**639.** ***22 mart 1991-ci il:*** Onverts kəndində yuva qurmuş daşnak terrorçuları Şuşaya gedən 67-14AXB nömrəli «UAZ» markalı maşını avtomat silahlardan atəşə tuturlar. Sərnişinlərdən Maya Vəliyeva həlak olur, 3 nəfər sərnişin isə ağır güllə yarası alırlar;

**640.** ***25 mart 1991-ci il:*** Saat $17^{30}$ radələrində Şuşa rayon DİŞ-nə məxsus «UAZ» markalı maşın Şuşa-Laçın yolunda Onverts kəndinə sığınmış daşnak terrorçuları tərəfindən atəşə tutulur. Xoşbəxtlikdən xəsarət alan olmur;

**641.** ***26 mart 1991-ci il:*** Saat $16^{00}$ radələrində Qaradərəsi kəndində yuva qurmuş daşnak terrorçuları Şuşa rayonunun Göytala kəndini iri çaplı silahlardan atəşə tuturlar;

**642.** ***28 mart 1991-ci il:*** Cəbrayıl rayonunun İsaxdı kəndindən Xocavənd rayonunun Dolanlar kəndi istiqamətində hərəkət edən «KAM AZ» markalı yük maşını daşnak terrorçularının yola basdırdıqları minaya düşür. İki mülki şəxs həlak olur, bir nəfər isə qəlpə yarası alır;

**643.*****01 aprel 1991-ci il:*** Gecə saat $3^{00}$ radələrində Əsgəran rayonunun Daşbulaq kəndinə sığınmış 10 nəfərlik daşnak terror qrupu Xocalı şəhərinə basqın edir. Basqın zamanı terrorçular raketlərdən, qranatomyotlardan və avtomat silahlardan istifadə edirlər. Qəsəbə sakinləri Xanalı Xanalıyevin, Halməmməd Umarovun, Eldar İsmayılovun evləri gülləbaran nəticəsində dağıdılır;

**644.** ***03 aprel 1991-ci il:*** Azərbaycan xalq deputatlarından bir qrupunun - Tamerlan Qarayev, Aydın Məmmədov, Ramiz Fətəliyev və digər rəsmi şəxslərin oturduğu vertolyot Şuşa rayonunun Göytala kəndinə enərkən Yeğsahoğ kəndinə sığınmış daşnak terrorçuları tərəfindən atəşə tutulur. Sərnişinlərdən bir qismi yaralanır. Vertolyot isə yerə enməklə tamamilə yanıb sıradan çıxır;

**645.** ***07 aprel 1991-ci il:*** Daşnak terrorçuları Qubadlı rayonunun Yuxarı Çibikli kəndinə basqın edirlər. Kənd sakinlərindən Hüseynov Şahin İlyas oğlu, Nəzərov Qərib Qulam oğlu və Oleq adlı rus zabiti qətlə yetirilir, iki nəfər güllə atəşi ilə ağır yaralanır;

**646.** ***08 aprel 1991-ci il:*** Daşnak terrorçularından S.Baqmanyan, A.Baqmanyan, A.Antonyan, K.Akopyan və K.Yegiyandan ibarət terror qrupu SSRİ DİN DQ-nın Zaqafqaziya və Şimali Qafqaz üzrə idarəsinin rəis müavini polkovnik V.Blaxotini vaxtı ilə DQMV fövqəladə rayonunun komendantı işləmiş, daşnak terrorunun əleyhidarı olmuş general-mayor M.V. Safonov hesab edərək (onlar bir-birinə oşxayır, həm də Rostov şəhərində qonşu mənzillərdə yaşayırlar) qətlə yetirirlər. Terrorçular ələ keçərkən özlərini Qarabağda və xarici erməni icmalarında fəaliyyət göstərən «Amaras» elmi-xeyriyyə təşkilatının üzvləri kimi qələmə verməyə çalışırlar;

**Qeyd:** Rus generalı Roxlin RF-nın Dövlət Dumasında Rusiyanın təmənnasız olaraq Ermənistana 1 milyard dollarlıq müasir döyüş silahları verməsi ilə bağlı bəyanat yaymasından və erməni-rus hərbiçilərinin əleyhinə ittiham səsləndirilməsindən bir ay sonra daşnak peşəkarlığı ilə Moskva altındakı bağ evində qətlə yetirilir. ABŞ-ın şotlan mənşəli hüquqşünası və erməni tarixinin mahir bilicisi Səmyuel A. Uimz Erməni fitnəkarlığını dünyaya faş edən «Ermənistan -terrorçu «xristian» ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları» kitabını nəşr etdirdikdən 1 ay sonra müəmmalı şəkildə həyatını qeyb edir.

**647.*09 aprel 1991-ci il:*** Saat $22^{30}$ radələrində Şuşa rayonunun Daşaltı kəndində yerləşdirilmiş Daxili Qoşunların mühafizə əsgərləri həmin kəndə sığınmış daşnak terrorçuları tərəfindən atəşə məruz qalırlar;

**648. *10 aprel 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Xankəndi şəhərindəki «Qonaq evi» adlanan bina güllləbaran edilir. Nəticədə Daxili Qoşunların əsgəri V. Kuznetsov ağır güllə yarası alır;

**649. *11 aprel 1991-ci il:*** Əsgəran rayonunun Meşəli kəndi daşnak terrorçuları tərəfindən top mərmiləri və raketlərlə atəşə tutulur. Nəticədə bir ev partladılır, bir çox evlərə və mal-qara tövlələrinə ciddi zərər dəyir. Həmin günlərdə istifadəyə verilən yeni məktəb binası da zədələnir;

**650.*11 aprel 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdamdan Şuşaya sərnişin aparan mülki vertolyot Şuşa səmasında vurulur və yerə enməklə partlayır. Xoşbəxtlikdən insan tələfatı olmur;

**651. *12 aprel 1991-ci il:*** Daşnak terror qrupu Göygölün Quşçu kəndinə həmlə edir. Kənd müdafiəçisi Məmmədov Aytəkin İsrayıl oğlu həlak olur;

**652.*12 aprel 1991-ci il:*** Daşnak terrorçuları doludağıdan toplarla, minaatan və qumbaraatanlarla, ən müasir avtomat silahlarla Xocalı şəhərini atəşə tuturlar. Bir ev dağıdılır, biri yandırılır. Bir çox yaşayış yerlərinə və təsərrüfat xarakterli binalara ciddi zədələr dəyir;

**653.*13 aprel 1991-ci il:*** $21^{45}$ radələrində Ağdərə rayonunun Umudlu kəndindəki fermaya basqın edən daşnak terrorçuları rus hərbiçiləri tərəfindən geri otuzdurulur;

**654. *14 aprel 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Rostov şəhərinin girəcəyində Simferopol-Bakı qatarında partlayış törədilir. Xoşbəxtlikdən bu dəfə xəsarət alan olmayır;

**655. *14 aprel 1991-ci il:*** Daşnak terrorçuları Martuni şəhərinin azərbaycanlılar yaşayan Rus Tağı məhəlləsinə qumbaraatandan və avtomat silahlardan atəş açırlar. Nəticədə Qurban Əliyevin və Hidayət Quliyevin evi dağıdılır, Səfər Şahbazovun həyətindən keçən qaz borusu partladılır;

**656. *15 aprel 1991-ci il:*** Daşnak terrorçuları Əsgəran rayonunun Meşəli kəndindən qayıdan vilayət TK-nin işçi komissiyasının üzvlərini və hərbiçiləri Badara kəndi yaxınlığında atəşə tuturlar. Elə həmin gün Xocavənd

(Martuni) rayonunun Muşkabat kəndi yaxınlığında isə Nemət Heydər oğlu Şərifovu odlu silahla baş nahiyəsindən yaralayırlar. Xocavənd kəndini isə aramsız olaraq mina və qumbaraatanlarla, avtomat silahlara gülləbaran edirlər;

**657.*16 aprel 1991-ci il:*** Səhər saat $10^{00}$ radələrində Pirəbədi bulağı yaxınlığında Füzuli rayon avtonəqliyyat müəssisəsinə məxsus 93-69 AQV dövlət nişanlı taksi maşını daşnak terrorçuları tərəfindən gülləbaran edilir. Füzuli rayon sakinləri İbrahimov Adil İntiqam oğlu və İsmayılov Mübariz İnqilab oğlu qətlə yetirilir, digər iki sərnişin - Ağdam şəhər sakinləri Çingiz Axundov və Nazim adlı şəxs ağır güllə yarası alırlar;

**658.** ***16 aprel 1991-ci il:*** Daşnak terror qrupları tərəfindən Xocavənd (Martuni) rayonunun azərbaycanlılar yaşayan Xocavənd, Qaradağlı, Əmirallar, Muğanlı kəndləri atəşə tutulur. Ayrı-ayrı kəndlərdə üç ev partladılır. Qarakənd döngəsində bir nəfər Azərbaycan türkü qətlə yetirilir. Xocavənd rayonunun Kenxurd kəndində anadan olan qatı türk düşməni, insanlıq simasını itirmiş daşnak manyakı Z.Balayan bu terror aktlarında bilavasitə iştirak edir;

**659.** ***16 aprel 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Zeyvə və Tapqaraqoyunlu kəndlərini atəşə tuturlar. Sonra isə Zeyvə kəndinə basqın edirlər. Əzizbəyov adına kolxozun 3 sıravi kolxozçusu təsərrüfat sahəsində vəhşicəsinə qətlə yetirilir;

**660.** ***17 aprel 1991-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərini avtomat və pulemyotlarla yanaşı, həm də top mərmiləri və raketlərlə intensiv şəkildə atəşə tuturlar. Şəhərin komnikasiya xətləri sıradan çıxarılır. Şəhər sakinlərindən Allahverdi Kərimovun, Adışirin Məmmədovun evi dağıdılır. Əli Abbasovun, Naib Babayevin, Səyyaf Muradovun yaşayış evlərinə ciddi xətər yetirilir. Şəhərdəki sağlamlıq mərkəzinin tədris korpusu zədələnir;

**661.** ***18 aprel 1991-ci il:*** Daşnak terrorçusu Sərkisyan Qrarik Qriqoryeviçin başçılıq etdiyi qrup tərəfindən 3 polis əməkdaşı Ağoğlan məbədi yaxınlığında qətlə yetirilir. Şəxsiyyətləri məlum olsa da terrorçular cəzasız qalır;

**663.** ***18 aprel 1991-ci il:*** Daşnak terror qrupu axşam saat $7^{00}$ radələrində Füzuli rayonunun Yuxarı Divanallar kəndindəki posta basqın edir. Hadisə nəticəsində «Təcili yardım» maşınının sürücüsü Ağayev Əlvan Ərşad oğlu, sahə müvəkkili, polis leytenantı Hümbətov Namiq Həsən oğlu, hərbi qulluqçu İmayev Ainur Raşitoviç həlak olur. Polis serjantı İsmayılov Çingiz Ərşad oğlu, hərbi qulluqçu Şelmenkov İqor Vladimiroviç ağır bədən xəsarəti alırlar;

**664.** ***19 aprel 1991-ci il:*** Daşnak terrorçuları Şuşadan Ağdama gedən maşın karvanını Ağa körpüsünün yaxınlığında partladırlar. Sürücü Mirzəevin idarə etdiyi 99-67 AQD, Qədir Əmirovun idarə etdiyi 96-20 AQYA nömrəli avtobuslar, Həsən Quliyevin idarə etdiyi 96-79 AQV nömrəli «UAZ» markalı maşın ciddi zədəyə məruz qalır. Allahverdi Cümşüdovun şəxsi maşını sıradan tam çıxır, özü isə ağır qəlpə yarası alır;

**665.** ***19 aprel 1991-ci il:*** Mehdikəndə sığınmış daşnak terror qrupu axşam saat $10^{00}$ radələrində Xocalı şəhərinin Universitet adlanan məhəlləsini avtomat və minamyotlardan güclü və aramsız şəkildə atəşə tutur. Xocalıdakı tərəvəzçilik-südçülük sovxozunun direktoru Mətləb Yusifova isə ov tüfəngindən atəş açılır;

**666.** ***20 aprel 1991-ci il:*** Daşnak terrorçusunun gizli şəkildə maşına qoyduğu partlayıcı qurğunun işə düşməsi nəticəsində Xankəndi yaxınlığında partlayış baş verir. İlham Baxşeyiş oğlu Allahverdiyev faciəli surətdə həlak olur;

**667.** ***22 aprel 1991-ci il:*** Harov kəndində məskən salan daşnak terrorçuları Xocalı sovxozunun mal-qara fermasına basqın edirlər;

**668.** ***23 aprel 1991-ci il:*** Ermənistan SSR-in Gorus şəhərində at oynadan daşnak terrorçuları səhər saat $8^{45}$-də Qubadlı rayonunun Əyin kəndindəki pansionatı partladırlar. Hadisə yerinə gələn əməliyyat qrupu avtomat və pulemyotlardan atəşə tutulur;

**669.** ***23 aprel 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən səhər saat $4^{00}$ radələrindən Şuşa şəhəri top və raket atəşinə tutulur. Yuxarı Gövhərağa məscidinin damı və 22 ev dağıdılır. Dörd nəfər dinc sakin ağır qəlpə yarası alır;

**670.** ***25 aprel 1991-ci il:*** Daşnak terrorçuları saat $16^{00}$ radələrində Ağdərənin Umudlu kəndinə basqın edirlər. 5 uşaq atası, kənd mədəniyyət evinin direktoru Məcid Niftalıyev ağır güllə yarası alır;

**671.** ***26 aprel 1991-ci il:*** Daşnak terrorçusu qəflətən meşə massivində qarşısına çıxan Xocalı şəhər sakini, silahsız İbrahim Məmmədovu yaxalayır və yaxın məsafədən atdığı tapanca atəşi ilə onu yaralayır;

**672.** ***26 aprel 1991-ci il:*** Goranboy rayonunun erməni kəndlərində vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Xametov Azər, Rəhimxanov Səlimxan daşnak terrorçuları tərəfindən qətlə yetirilirlər. Elə həmin gün rayonun Gürzallar kəndindən daha bir dinc sakin öldürülür, bir nəfər isə yaralanır;

**673.** ***27 aprel 1991-ci il:*** Daşnak terror qrupu Qubadlı rayonunun Məzrə kəndinə basqın edir. Əhalisi yurd-yuvasından didərgin salınır, kənd tamamilə yandırılır;

**674.** ***30 aprel 1991-ci il:*** Göygöl rayonunun Çaykəndinə sığınmış daşnak terror qrupu tərəfindən SSRİ DİN DQ-nın 13 hərbi qulluqçusu və bir mülki şəxs girov götürülür;

**674.** ***01 may 1991-ci il:*** Xocavənd (Hadrut) rayonunun Tuğ kənd sakini İslam Vəliyevin idarə etdiyi «UAZ» markalı 30-78 AQD nömrəli maşın Füzuli-Tuğ magistralının 14-cü km-liyində daşnak terror qrupu tərəfindən partladılır. Nəticədə İslam Vəliyev, onun əmisi oğlu, XI sinif şagirdi Ələmşad Vəliyev həlak olur. Bir nəfər sərnişin isə ağır qəlpə yarası alır;

**675.** ***02 may 1991-ci il:*** Ermənistan SSR-in Gorus və Kafan şəhərlərində sığınacaq tapmış daşnak terror qrupları Laçının Cağazur, Qubadlının Əliquluuşağı, Qudanlı, Əyin və Saldaş kəndlərini avtomat silahlardan və «Alazan» tipli raketlərdən atəşə tuturlar;

**676.** ***03 may 1991-ci il:*** Topla silahlanmış daşnak terrorçuları Ermənistan SSR-in Şəmsəddil rayonu ərazisindən Qazax şəhərini mərmi atəşinə tuturlar. Nəticədə İsmayılovlar ailəsinin evi dağıdılır, ailə başçıları - ər və arvad həlak olur, oğul və gəlinləri yaralanır;

**677.** ***06 may 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə rayonunun Umudlu kənd sakini Nigar Mustafayevanın ucqarda yerləşən evini talan edir və dağıdırlar;

**678.** ***09 may 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Azərbaycan SSR-nin Qarabağ üzrə təşkilat komitəsinin sədri V.Polyaniçkonun həyatına sui-qəsd edilməsinə cəhd göstərilir. Lakin qəsd baş tutmur;

**679.** ***16 may 1991-ci il:*** Daşnak terrorçusu Xocavənd (Martuni) rayonunun Xocavənd kəndində vəzifə borcunu yerinə yetirən sahə müvəkkili, kiçik polis leytenantı Köçəri Məmmədovun həyatına sui-qəsd edir. Bir polis əməkdaşı isə baş nayihəsindən ağır güllə yarası alır;

**680.** ***20 may 1991-ci il:*** Zəylik və Hatek kəndlərində yuva qurmuş daşnak terrorçuları Mardakertin Umudlu kəndinə basqın edirlər. Kolxozun ot tayaları, mal-qara və toyuq damları yandırılır, xeyli sayda qaramalı tələf edilir. Kənd sakinlərindən Seyidağa Nağıyevin, Zərbəli Hümbətovun, Xəqani Qasımovun evi dağıdılır;

**681.** ***20 may 1991-ci il:*** Şuşa rayonunun Turşsu kənd sakini, 70 yaşlı Məstan Həsənov daşnak terrorçuları tərəfindən oğurlanır;

**682.** ***27 may 1991-ci il:*** Martuni rayonunun Çartaz kəndinə sığınmış daşnak terrorçular Füzuli rayonunun Yuxarı Veysəlli kəndini avtomat silahlardan atəşə tuturlar.

**683.** ***29 may 1991-ci il:*** Şuşadan Ağdama gedən maşın karvanı Ağa körpüsü ilə Zərin bağı arasında daşnak terror qrupu tərəfindən partladılır. Bir avtobus tamamilə yararsız hala düşür, sərnişinlərinin bir neçəsi ciddi qəlpə yarası alır. Avtobusun yaxınlığında olan digər avtobus və bir «Jiquli» markalı minik maşını da ciddi zədələnir;

**684.** ***30 may 1991-ci il:*** Daşnak terrorçuları Dağıstanın Xasavyurt dəmiryol dayanacağının yaxınlığında Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarını partladırlar. Nəticədə 12 nəfər 7-si qadın) həlak olur, 22 nəfər yaralanır;

**685.** ***30 may 1991-ci il:*** Daşnak terror qrupu Ağdamın Əliağalı əndinə basqın edir, 2 dinc sakin - Məmməd Hüseynov və Alı Hacıyev ağır güllə yarası alır, üç nəfəri - azyaşlı Elşən Talıbovu, Elman və Nuru Cəfərov qardaşlarını isə girov götürürlər;

**686.** ***04 iyun 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə (Mardekert) rayonunun Kərəmli kəndinin mal-qara fermasına basqın edirlər. 70 başdan çox qaramalı sürüb aparırlar;

**687.** ***06 iyun 1991-ci il:*** Gorus istiqamətindən Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə doğru uçan vertolyotdan daşnak terrorçuları avtomat

silahlarla kəndi atəşə tuturlar. Bir nəfər dinc kənd sakini - Nağıyev Aydın Nadir oğlu qətlə yetirilir;

**688.** ***09 iyun 1991-ci il:*** Daşnak terror qrupu Tərtərin Qapanlı kəndinə basqın edir. İki dinc kənd sakini - E. Həsənov və oğlu Ə. Həsənov qətlə yetirilir. İki nəfər isə güllə yarası alır;

**689.** ***09 iyun 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Zamzur kəndinə basqın edir. Bir polis əməkdaşı güllə yarası alır;

**690.** ***10 iyun 1991-ci il:*** Daşnak terrorçuları Tovuz rayonunun Ağdam kəndində yerləşən zastavaya həmlə edirlər. Bir hərbi qulluqçu güllə yarası ilə hospitala düşür;

**691.** ***12 iyun 1991-ci il:*** Xənəzək kəndində yuva qurmuş daşnak terrorçuları Əsgəran rayonunun Cəmilli kəndini avtomat və pulemyotlardan iki saat atəş altında saxlayırlar;

**692.** ***19 iyun 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən «Yevlax-Laçın» yolunun 106-cı km-ində 5459 saylı hərbi hissəyə məxsus «UAZ-469» markalı avtomaşın partladılır. Üç hərbiçi həlak olur, üç nəfər isə ağır qəlpə yarası alır;

**693.** ***19 iyun 1991-ci il:*** Daşnak terrorçuları Şuşa-Xankəndi yolunda hərbi minik maşınına həmlə edirlər. Bir hərbi qulluqçu - SSRİ DİN DQ mayoru Xomiç həlak olur, digəri isə ağır güllə yarası alır;

**694.** ***21 iyun 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə (Mardapert) rayonunun Çərəkdar kəndi yaxınlığında Baş Güney kənd sakini Maarif Həsənovu qətlə yetirirlər;

**695.** ***22 iyun 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə rayonunun Sırxavənd kəndinin qoyun sürüsünə basqın edirlər. 30 baş qoyun güllələnir. 200 baş qoyunu isə sürüb aparırlar. Bir dinc sakini, çobanı isə qətlə yetirirlər;

**696.** ***25 iyun 1991-ci il:*** Daşnak terrorçuları Ağdərənin «Mahal yurdu» yaylağında M.F.Axundov adına sovxozun çobanını qətlə yetirirlər. Qoyun sürüsünü aparmağa cəhd göstərirlər;

**697.** ***26 iyun 1991-ci il:*** Daşnak terrorçuları Murovdağa gedən yolda yaylaqçılara basqın edirlər. Ağdərə rayonunun İmarət Qərvənd kənd sakinlərindən biri qətlə yetirilir, digəri isə ağır güllə yarası alır;

**698.** ***28 iyun 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Qaradağlı kəndinin qaramal fermasına basqın edirlər. Altı nəfər mala baxanı - Tohid Məmmədovu, Bəkir Tağıyevi, ana-bala Qaragöz və İltifat Şirinovları, Məxmər və Səbiqə Hüseynovaları qətlə yetirirlər. Sonra isə meyitləri yandırırlar. 3 nəfər kənd sakini - Mənzər Tağıyeva və oğlu Talıb, Güları Hüseynova ağır yaralanır. 130

baş iribuynuzlu mal-qaranı sürüb aparırlar;

**699.** ***30 iyun 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd (Hadrut) rayonunun Şəhriyar kəndinə basqın edirlər. Axşam çağı işdən qayıdan kənd sakinlərindən iki nəfəri qətlə yetirirlər, dörd nəfəri isə girov götürürlər;

**700.** ***30 iyun 1991-ci il:*** Daşnak terrorçuları Temirtau (Dağıstan MSSR) dayanacağı yaxınlığında Bakı istiqamətində hərəkət edən sərnişin qatarında partlayış törədirlər. Nəticədə 16 nəfər həlak olur, 20 nəfər yaralanır;

**701.*****04 iyul 1991-ci il:*** Ağdərə rayonunun Umudlu kəndinin 70 yaşlı sakini daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**702.** ***04 iyul 1991-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Qacar kəndinə basqın edirlər. Bir nəfər dinc sakin güllə yarası alır;

**703.** ***06 iyul 1991-ci il:*** Goranboy rayonunun ermənilər yaşayan kəndlərinə sığınmış daşnak terrorçuları vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Vahid İbrahimov, İlqar Əliyev və Məhərrəm Süleymanovu qətlə yetirirlər;

**704.** ***07 iyul 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında 31-85 AQU dövlət nişanlı maşın atəşə tutulur, dörd nəfər - Sırxavənd kənd sakinləri İmanov Novruz, oğlu Mahal, Həsənov Qəzənfər və oğlu Vaqif qətlə yetirilir, sonra isə mərhumların cəsədləri yandırılır;

**705.*****15 iyul 1991-ci il:*** Daşnak terror qrupu Goranboy rayonunun erməni kəndlərində pasport rejimini yoxlayan polis bölməsinə həmlə edir. İki polis işçisi güllə yarası alır;

**706.** ***17 iyul 1991-ci il:*** Saat $18^{00}$ radələrində Kəlbəcərin Xanımdərəsi və Zor kəndləri daşnak terrorçuları tərəfindən atəşə tutulur, iki polis nəfəri qətlə yetirilir, iki əməkdaş isə yaralanır. Həmin gün rayonun Aşağı Ayrım kəndinə basqın edən terrorçular bir nəfəri girov götürürlər. 20 baş qaramalı sürüb aparırlar;

**707.*****20 iyul 1991-ci il:*** Daşnak terrorçuları Zəngilan rayonunun Ağbənd kəndinə basqın edirlər. Ölən və yaralananların olduğu qeydə alınır;

**708.** ***20 iyul 1991 -ci il:*** Daşnak terrorçuları Goranboyda polis postuna hücum edirlər. Nəticədə 1 nəfər həlak olur, 7 əməkdaş yaralanır;

**709.*****21 iyul 1991-ci il:*** Axşam saat $18^{00}$ radələrində Laçın rayonunun Əriməz dağı ətrafı yaylaqlarındakı yurd yerləri «Tiqran Mets» adlı daşnak terror dəstələrinin təcavüzünə məruz qalır. Doqquz nəfər qətlə yetirilir, bir nəfər yaralanır, bir nəfər itkin düşür, 20 alaçıq yandırılır. 13 min baş qoyun, 29 baş qaramal, 27 baş at terrorçular tərəfindən aparılır;

**710.** ***23 iyul 1991 -ci il:*** Daşnak terror birləşmələri Əsgəran rayonunun Cəmilli kəndinə həmlə edirlər. Kənd qarət olunur, evlər yerlə-yeksan edilir, 28 nəfər qətlə yetirilir. Kənd əhalisi daşnakların etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilir;

**711.*****23 iyul 1991-ci il:*** Daşnak terrorçuları Quruçay sahilində, Xocavənd (Hadrut) rayonunun Tuğ kəndindən 3 km aralıda xidməti maşınlarının toz-torpağını təmizləyən polis əməkdaşlarına həmlə edirlər. 23 yaşlı Oqtay Hüseynovu və 22 yaşlı Amil Yusifovu güllələyir, sonra isə cəsədlərini doğrayırlar;

**712.** ***27 iyul 1991-ci il:*** Aterk, Zəylik, Drambon kəndlərinə sığınmış daşnak terrorçuları Ağdərənin Umudlu kəndini avtomatlardan, pulemyotlardan və «Alazan» tipli raketlərdən 4 saat aramsız atəşə tuturlar. Nəticədə 17 yaşlı Rauf Abbasov yaralanır, müharibə veteranı Əli Kərimovun, Zülfü və İnqilab Qasımovların evlərinə ciddi zədələr yetirilir;

**713.*29 iyul 1991-ci il:*** Hadrut qəsəbəsində məskən salan daşnak terror qrupu Xocavəndin Şəhriyar kolxozunda kənd təsərrüfat işləri ilə məşğul olan iki Azərbaycan türkünü qətlə yetirirlər;

**714.** ***30 iyul 1991-ci il:*** Xocavənd (Hadrut) rayonunun Yenikənd, Dolanlar, Ağcakənd, Banazur kəndləri daşnak terrorçuları tərəfindən aramsız olaraq müxtəlif növ silahlardan atəşə tutulur;

**715.** ***31 iyul 1991-ci il:*** Səhər tezdən Mahaçqala yaxınlığında Moskva-Bakı sərnişin qatarında erməni terrorçuları tərəfindən partlayış törədilir. Nəticədə 15 nəfər həlak olur, 18 sərnişin isə ağır xəsarət alır;

**716.*31 iyul 1991-ci il:*** Daşnak terrorçuları Ağdərənin Umudlu kəndinə həmlə edirlər. Bir nəfər mülkü şəxs yaralanır;

**717.*31 iyul 1991-ci il:*** Daşnak terror qrupu Ağdərə ərazisində SSRİ DİN DO-nın hərbi qulluqçularını aparan maşına basqın edirlər. Nəticədə dörd hərbi qulluqçu və Perm şəhərindən gəlmiş jurnalist güllə yarası alır;

**718.*02 avqust 1991-ci il:*** Əsgəranın Badara kəndi yaxınlığında daşnak terrorçuları təcili yardım maşınını gülləbaran edirlər. Nəticədə Meşəli kənd sakinləri Ramiz Kazunov iki ayağından, Adəm İsgəndərov isə yuxarı bədən nayihəsindən ağır güllə yarası alır;

**719.*02 avqust 1991-ci il:*** Daşnak terror qrupu Qaraçinar kəndi yaxınlığında «Jiquli» maşınını saxlayır və Goranboyda qohumları evinə gedən dörd nəfər Gəncə sakinini girov götürürlər. Terrorçular girovlardan birini buraxaraq digər üç girovu qaytarmaq üçün 90 min rus rublu tələb edirlər;

**720.*02 avqust 1991-ci il:*** Daşnak terror qrupu tərəfindən Xocavənd rayonunun Dolanlar kəndində «QAZ-53» markalı avtomaşın partladılır. Nəticədə dörd nəfər - Vəliyev Möhübbət Bəbiş oğlu, Cuvarov Ləlif Səməd oğlu, 5 uşaq atası Daşdəmirov Eyyub İsmayıl oğlu və rayfon məişət kombinatının sürücüsü həlak olur, səkkiz nəfər yaralanır;

**721.*04 avqust 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə (Mardakert) rayonunun Narınclar kəndinin fermasına basqın edirlər. Çoban girov götürülür, 900 baş qoyunu isə sürüb aparırlar;

**722.*06 avqust 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Laçın rayonunun Qarıqışlaq kənd məktəbi atəşə tutulur. Nəticədə bir nəfər güllə yarası alır;

**723.** ***06 avqust 1991-ci il:*** Xocavənd rayonunun Dolanlar kəndində iki mülki şəxs daşnak terrorçularının basdırdığı minaya düşür. Hər ikisi həlak olur. Yaralananların olduğu bildirilir;

**724.** ***08 avqust 1991-ci il:*** Qərbi Azərbaycanın türklər yaşayan sonuncu kəndi Nüvədinin mühafizəsində duran Sovet ordu hissələri kəndi tərk edir. Bununla bahəm daşnak terror qruplaşmaları tərəfindən kənd mühasirəyə alınır, evlər aramsız atəşə tutulur. Kəndin əliyalın, müdafiəsiz qalan 1000 nəfərlik dinc sakini dədə-baba yurdlarını məcburiyyət qarşısında tərk etməli olurlar;

**Qeyd:** Bununla 25 yanvar 1988-ci ildən 8 avqust 1991-ci ilədək daşnak terror qrupları və birləşmələri ermənipərəst M.Qorbaçovun başçılıq etdiyi SSRİ hökuməti rəhbərlərinin, bədnam Sovet ordusunun və xristian dünyasının himayəsi altında Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) etnik təmizləmə - «Türksüz Ermənistan» və Azərbaycan türklərinin soyqırımı siyasətini son həddə çatdırırlar. 460 nəfər qətlə yetirilir, 1154 nəfər yaralanır, yüzlərcə adama işgəncələr verilir. Azərbaycanlılar yaşayan 185 kənd yerlə-yeksan edilir. 265 min Azərbaycan türkü öz dədə-baba yurdlarından didərgin salınır. Qaçqın düşən əhalinin 20 milyard dollarlıq (ABŞ $) əmlakı, 8 min kv.km torpaq sahəsi Ermənistan Respublikasının ərazisində qalır. Qaçqınlardan 231400 nəfəri Azərbaycan respublikasının, 33600 nəfəri isə postsovet məkanındakı (MDB) ölkələrin ərazilərində özlərinə sığınacaq tapırlar. Ümumiyyətlə, ötən yüzilliyin başlanğıcından başlamış və bu günümüzədək davam edən bu proseslər nəticəsində Qərbi Azərbaycanda yaşayan 1 milyon Azərbaycan türkündən bu günkü törəmə Ermənistan Respublikasında bir nəfəri belə yaşamır. Daha doğrusu, Oğuz yurdunun aborigen türk əhalisi erməni-daşnak faşizminin azərbaycanlıların soyqırımı və etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilirlər;

**725.** ***10 avqust 1991-ci il:*** İki daşnak terrorçusu Xankəndi şəhərinə DQMV partiya komitəsinin sabiq şöbə müdiri Valeri Qirqoryanı (Azərbaycan Respublikasının prezidenti A. Mütəllimovla görüşdə iştirak etdiyinə və Qarabağ probleminin siyasi yolla həllinə tərəfdar çıxdığına görə qətlə yetirir;

**726.** ***10 avqust 1991-ci il:*** Daşnak terror qrupu Culfa rayonunun Dəmirli yaylağına basqın edir. «Qələbə» kolxozunun çobanı öldürülür. 1050 baş davar sürülüb aparılır;

**727.** ***11 avqust 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Ağcakəndində yerləşən polis postuna həmlə edir. Polis kiçik serjantı Məmınədov Əmir İbrahim oğlu güllə yarası alırlar;

**728.** ***11 avqust 1991-ci il:*** Cəbrayıl DİŞ-nin əməkdaşlarını daşıyan «UAZ-469» markalı maşın daşnak terrorçularının Zamzur kəndi ərazisində basdırdıqları minaya düşür. Partlayış nəticəsində sürücü - mülki şəxs Şöhrət Məmmədov, polis baş leytenantı Elman Hüseynov, polis nəfərləri Nadir Verdiyev, Fərhad Həsənov, Nadir Mustafayev müxtəlif dərəcəli xəsarətlər alır;

**729.** ***12 avqust 1991-ci il:*** Basarkeçərdə yuva qurmuş daşnak terror qrupu Kəlbəcərin Sarıyel yaylağına basqın edir. Mühafizəçilərdən - polis starşinası A. Ələkbərov həlak olur. Polis əməkdaşlarından İ. Qurbanov və İ. Cəfərov güllə yarası alırlar;

**730.***13 avqust 1991-ci il:* Daşnak terror qrupu tərəfindən bir-birinin ardınca 10 hərbi quluqçu ilə bir zirehli transportyor və 22 hərbi quluqçu ilə 2 avtomaşın Ağdərə rayonunun Aterk kəndi ətrafında girov götürülür. Terrorçular bir gün əvvəl tərksilah edilən terrorçu silahdaşları İ. Petrosyanın və Şuşa həbsxanasında saxlanılan daha 4 daşnak terrorçunun azad olunması tələbini irəli sürürlər;

**731.** *14 avqust 1991-ci il:* Hadrut qəsəbəsində məskən salan daşnak terror qrupu Xocavəndin Zamzur kəndi ərazisində qaba yem tədarükündən qayıdan kolxoz əməkçilərinə basqın edir. Kənd sovetinin katibi İbrahimov Arzuman Pənah oğlu, sürücü Dünyamalıyev İmran Cavanşir oğlu və sıravi kolxozçu Aydın Məmınədov qətlə yetirilir;

**732.***15 avqust 1991-ci il:* Daşnak terrorçuları DQMV Respublika Təşkilat Komitəsinin sədri V.Polyaniçkonun həyatına sui-qəsd etməyə ikinci dəfə cəhd göstərirlər. Respublika Təşkilat Komitəsinin üzvlərinə, o cümlədən V.P. Polyaniçkoya, M.İ. Radayevə, V.H. Məmınədova, Y.M. Nəsirova xidmət edən "UAZ-469" markalı avtomaşının yan şüşəsinə qumbara atırlar. Atılan qumbara partlayışı nəticəsində UAZ-469 maşınında iki nəfər - təşkilat komitəsinin məsul işçisi Y.Ş. Salahov və sürücü Z.Q. Vəliyev qəlpə yarası alır. Nəhayət, V.P. Polyaniçko sonralar Şimali Osetiyada şəxsiyyətləri müəyyən edilməyən terrorçuların hədəfinə keçir və həyatını itirir;

**733.***18 avqust 1991-ci il:* Goranboy rayonunun Buzluq kəndinə sığınmış daşnak terrorçuları vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Hüseyn Mehdiyev, Akif Abdullayev və Eldar Babayevi qətlə yetirirlər. 2 nəfər yaralanır, 3 nəfər girov götürülür;

**734.***18 avqust 1991-ci il:* Xocavənd (Hadrut) rayonunun Böyük Tağlar kəndinin sakini, sovxoz direktoru işləyən Qurgen Ayriyan, Azərbaycan SSR qanunlarına tabe olduğunu bildirdiyi üçün daşnak terrorçuları onun özünü və ailəsini öldürəcəkləri ilə hədələyirlər. Məhz həmin gün terrorçular tərəfindən xidmətində olan «Niva» markalı minik maşını oğurlanır. Qardaşının evi isə güllələbaran edilir;

**735.***21 avqust 1991-ci il:* Daşnak terrorçuları Qazax rayonu ərazisinə basqın təşkil edirlər. Azərbaycan türkü olduqları üçün üç mülki şəxsi qətlə yetirirlər;

**736.***21 avqust 1991-ci il:* Cəbrayıl polisinin əməkdaşlarını posta aparan avtobus Şayaq yolunda daşnak terrorçularının basdırdığı minaya düşür. Sürücü - mülki şəxs Şamil Heydər oğlu Əhmədov həlak olur. Polis baş leytenantı Şamil Şərif oğlu Əhmədov, polis serjantı Camal Məmmədov və sıravi Rövşən Xəlilov ağır qəlpə yarası alır;

**737.***22 avqust 1991-ci il:* Daşnak terror qruplaşması Qazax rayonunun Bağanis-Ayrım kəndinə basqın edir. Kənd tamamilə dağıdılır, əhali yurd-yuvasından didərgin salınır;

**738.*23 avqust 1991-ci il:*** Şuşa-Cəmilli istiqamətində hərəkət edən marşrut avtobusu daşnak terrorçuları tərəfindən gülləbaran edilir. 4 nəfər sərnişin - Vaqif Sadıqov, Natiq Salahov, 5 yaşlı Maya Abdullayeva, 94 yaşlı Göyüş Cavadov qətlə yetirilir, 15 sərnişin güllə yarası alır;

**739.*27 avqust 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Rus Borisi kəndinə həmlə edirlər. Üç naxırçını döyüb ölümcül hala salır, mal-qaranı sürüb aparırlar;

**740.*28 avqust 1991-ci il:*** Mehdikənd, Bozdağ, Kətik kəndlərində məskən salan daşnak terror qrupları Xocalı şəhərini avtomat, pulemyot və raketlərdən atəşə tuturlar. Nəticədə Qulu Aslanovun ot tayası yandırılır, Vaqif Behbudovun həyət darvazası yerlə-yeksan edilir, təzə istifadəyə verilmiş məktəb binasına, mağazaya və bir sıra evlərə zərər dəyir. Şəhərin baş qaz kəməri partladılır;

**741.*28 avqust 1991-ci il:*** Şuşa şəhər sakinləri Yaqub Muradov və Müdafət Hüseynov daşnak terrorçuları trəfindən girov götürülür;

**742.*29 avqust 1991-ci il:*** Daşnak terrorçuları Füzuli-Martuni şosse yolunda içərisində yeddi sərnişin olan avtomaşını ələ keçirib Xocavənd rayon mərkəzinə aparırlar. Girovların əvəzində onlar Şuşa həbsxanasında saxlanan iki daşnak terrorçusunun azadlığa buraxılmasını tələb edirlər;

**743.*29 avqust 1991-ci il:*** Daşnak terrorçuları Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. Bir mülki şəxs qətlə yetirilir, üç nəfər isə güllə yarası alır;

**744.*30 avqust 1991-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Aşağı Veysəlli kəndinə həmlə edirlər. Təsərrüfat sahəsində ot komalayan altı nəfər mülki şəxsi girov götürürlər;

**745. *05 sentyabr 1991-ci il:*** Gorus rayonunda yuva qurmuş daşnak terrorçuları Qubadlının Novlu kəndindən bir mülki şəxsi girov götürürlər;

**746.*06 sentyabr 1991-ci il:*** Daşnak terror qrupu Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. Nəticədə iki polis əməkdaşı güllə yarası alır;

**747.*07 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Tuğ kəndində iki mülki şəxsi - Vahid Nəcəfovu və İbiş Məmmədovu həyətyanı sahələrində işlərkən qətlə yetirirlər;

**748.*07 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Xankəndinə gedən sərnişin avtobusuna basqın edirlər. Üç nəfər qətlə yetirilir, dörd nəfər yaralanır;

**749.*08 sentyabr 1991-ci il:*** Martunidə yuva qurmuş daşnak terrorçuları - V. Xaçaturan, S. Yeremyan, S. Çalyan və A. Arustamyandan ibarət qrup Ağdam-Xocavənd və Ağdam-Qaradağlı marşrutunda hərəkət edən avtobuslara basqın edirlər. Qaradağlı kəndinə gedən avtobusda 5 nəfər (4-ü qadın) mülki şəxs qətlə yetirilir, Ağdam-Xocavənd avtobusunda dörd nəfər qətlə yetirilir, 20 nəfər sərnişin isə güllə yarası alır;

**750.*10 sentyabr 1991-ci il:*** Mehdikənd və Noraguh kəndlərində məskən salan daşnak terrorçuları Xocalı şəhərini iriçaplı pulemyotlardan,

qumbaraatatanlardan, avtomat silahlardan və raketlərdən atəşə tuturlar. Şəhər sakini Muradov Zahid Lətif oğlu evlərinin həyətinə düşən raket mərmisindən həlak olur, qardaşı Mail isə ağır yaralanır. Üç qardaş - Gəray, Azay, Xasay Məmmədovlar, Məhəmməd Mahmudov və 12 yaşlı Aynurə Bəşirova, 7 yaşlı Emin Cəfərov müxtəlif dərəcəli qəlpə yaraları alırlar;

**751.*10 sentyabr 1991-ci il:*** Ordubad rayonunun yaylaqlarına basqın edən daşnak terrorçuları iki çobanı girov götürür, 1250 baş davarı sürüb aparırlar;

**752.*10 sentyabr 1991-ci il:*** Ağdam rayonu ərazisinə basqın edən daşnak terror qrupu 900 baş qoyun və çoxlu sayda iribuynuzlu mal-qaranı sürüb aparırlar;

**753.*11 sentyabr 1991-ci il:*** Şahbuz rayonunun Yuxarı Remeşin kəndinə basqın edən daşnak terrorçuları 850 baş davarı sürüb aparırlar;

**754.*14 sentyabr 1991-ci il:*** Daşnak terror birləşmələri Goranboy rayonunun Buzluq və Baş Qışlaq kəndlərinə basqın edirlər. Dörd polis əməkdaşı, on mülki şəxs qətlə yetirilir. Üç polis əməkdaşı və bir mülki şəxs yaralanır. Üç polis əməkdaşı itkin düşür;

**755.*14 sentyabr 1991-ci il:*** Xocavənd rayonunun Zamzur polis bölməsinin rəisi Zahid Əhmədov və sürücüsü Əsgər Veysəlov xidməti maşında daşnak terrorçularının Zamzur yolu üstə basdırdıqları tank əleyhinə minaya düşürlər və hər iki polis əməkdaşı həlak olur;

**756.*15 sentyabr 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Zamzur kəndinə basqın edir. Polis serjantı Pəhlivan Məmmədov ağır güllə yarası alır;

**757.*16 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Şəfəq və Zeyvə kəndlərinə basqın edirlər. 1 nəfər dinc sakin yaralanır;

**758.*17 sentyabr 1991-ci il:*** Xocavəndin Günəşli kəndi yaxınlığındakı meşədə pusqu quran daşnak terrorçusu çoban F.Rüstəmovu girov götürmək istərkən odlu silahla onu yaralayır;

**759.*17 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Şəfəq kəndi ərazisində «MAZ» markalı maşını atəşə tuturlar. Sürücü aldığı yaradan yerindəcə həlak olur;

**760.*23 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Todan kəndinin polis postunu atəşə tuturlar. 1 polis əməkdaşı yaralanır;

**761.*24 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Abdal-Gülablı kəndi yaxınlığında «UAZ-469» markalı maşını atəşə tuturlar. 1 nəfər həlak olur, 1 nəfər yaralanır;

**762.*30 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavəndin Salakətin kəndinə basqın edirlər. Kəndin 303 nəfərlik azərbaycanlı əhalisi yurd-yuvalarından didərgin salınır;

**763.***23 sentyabr 1991-ci il:* Daşnak terrorçuları tərəfindən Əsgəranın Ağbulaq kəndində polis işçilərini daşıyan maşın atəşə tutulur. Sürücü qətlə yetirilir. Bir polis əməkdaşı isə ağır güllə yarası alır;

**764.***24 sentyabr 1991-ci il:* Daşnak terrorçuları Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın edirlər. Bir nəfər kənd sakini yandırılaraq qətlə yetirilir, 1200 sakin isə meşələrə qaçmaq məcburiyyətində qalır, kənd yerlə-yeksan edilir;

**765.***24 sentyabr 1991-ci il:* Daşnak terrorçuları Əsgəran rayonunun Ağbulaq kəndindəki posta basqın edirlər. Polis əməkdaşlarından Fazil Mehdiyev qətlə yetirilir, Qarayev soyadlı polis əməkdaşı isə ağır güllə yarası alır;

**766.***25 sentyabr 199l-ci il:* Daşnak terrorçuları Kərkicahan qəsəbəsinə basqın edirlər. Qəsəbə sakinlərindən bir nəfər həlak olur, doqquz nəfər isə ağır bədən xəsarəti alır;

**767.***25 sentyabr 1991-ci il:* Ağdam-Xocalı sərnişin avtobusu daşnak terrorçuları tərəfindən Əsgəran ərazisində saxlanılır. Sürücü və 15 sərnişin vəhşicəsinə döyülür. Avtobus isə aşırılıb əzmələnir, daşlanır, yararsız hala salınır;

**768.***25 sentyabr 1991-ci il:* «Azəpkəndsutikinti» trestinin təsərrüfat hesablı Şuşa sahəsinə məxsus «KAMAZ» markalı maşın Xankəndi ərazisində daşnak terrorçuları tərəfindən atəşə tutulur. Sürücü Qurban Zeynalov ağır güllə yarası alır;

**769.***26 sentyabr 1991-ci il:* Daşnak terrorçuları tərəfindən yol polisinin əməkdaşları Əli Vəliyev və Natiq Əhmədov Əsgəran rayonunun çıxacağındakı kiçik elektrik yarımstansiyasının yaxınlığında qətlə yetirilirlər;

**770.** ***26 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları raket atəşi ilə Şuşa şəhər sakini Füzuli Fərhadovu qətlə yetirirlər. 9 nəfər dinc şəhər sakini ağır yaralanır;

**771.***26 sentyabr 1991-ci il:* Daşnak terrorçuları «Yevlax-Laçın» yolunda avtomaşın partladırlar. İki nəfər həlak olur, 14 nəfər yaralanır;

**772.***26 sentyabr 1991-ci il:* Xocavənd (Martuni) rayonunun Qaradağlı kəndi daşnak terrorçuları tərəfindən atəşə tutulur. Polis əməkdaşı Röyət Mütalib oğlu Quliyev yaralanır;

**773.***27 sentyabr 1991-ci il:* Daşnak terrorçuları Goranboy rayonunun Sarısu kəndinə həmlə edirlər. Bir uşaq yaralanır, dörd ev dağıdılır;

**774.***27 sentyabr 1991-ci il:* Daşnak terrorçuları Topxanadan Şuşanı atəşə tuturlar və ardınca şəhər ətrafına həmlə edirlər. Bir nəfər həlak olur, altı nəfər yaralanır, bir nəfər isə girov götürülür;

**775.** ***28 sentyabr 1991-ci il:*** Ağdamlı qadın qəbir üstə gedərkən daşnak terrorçusunun snayper gülləsi ilə qətlə yetirilir;

**776.** ***28 sentyabr 1991-ci il:*** Qarakənddə məskən salan daşnak terrorçuları Xocavəndi mühafizə edən hərbiçilərə basqın edirlər. Nəticədə

proporşik Fomin Vladimir Vasilyeviç ağır güllə yarası, sürücü Panteleyev Serqey İvanoviç isə yüngül bədən xəsarəti alır;

**777.*29 sentyabr 1991-ci il:*** Xocavənd rayonunun Muğanlı kənd sakini Atlıxan İsmayılov Qarakənddə məskən salmış daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**778.** ***29 sentyabr 1991-ci il:*** Xocavənd rayonunun Müşgavad kəndi yaxınlığında daşnak terrorçuları hərbiçilərə basqın edirlər. Nəticədə 4 nəfər hərbiçi, o cümlədən Xocavənd rayonunun komendantı yaralanır;

**779.** ***29 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Şəfəq kəndinə basqın edirlər. İki polis əməkdaşı qətlə yetirilir, beş polis əməkdaşı isə ağır güllə yarası alır;

**780.*29 sentyabr 1991-ci il:*** Daşnak terrorçusu tərəfindən mülki şəxs - Həsənov soyadlı Kərkicahan qəsəbə sakini qətlə yetirilir;

**781.*30 sentyabr 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Ağcakənd yaşayış məntəqəsində yerləşən polis postuna həmlə edir. Üç polis əməkdaşı - polis leytenantı Yəhya Ağayev, polis nəfərləri Əlövsət Məmmədov, Pənah İsmayılov və bir mülki şəxs güllə yarası alır;

**782.*30 sentyabr 1991-ci il:*** Daşnak terrorçuları Şahbuz rayonunun Biçənək kəndinə basqın edirlər. Teleradio ötürücüsü dağıdılır, iki nəfər kənd sakini isə girov götürülür;

**783.*01 oktyabr 1991-ci il:*** Pirəməki heyvandarlıq kompleksində və Harov kəndində məskən salan daşnak terrorçuları Şuşa rayonunun Quşçular kəndinə silahlı basqın edirlər. Kənd camaatının 19 baş mal-qarasını sürüb aparırlar;

**784.** ***03 oktyabr 1991 -ci il:*** Daşnak terror qrupu Xocavənd rayonu ərazisində rus hərbi qulluqçularına məxsus UAZ-469 markalı avtomobili güllələbaran edirlər. İki hərbi qulluqçu həlak olur, ikisi yaralanır;

**785.*04 oktyabr 1991-cı il:*** Daşnak terrorçuları Kərkicahan qəsəbəsinə bitişik ermənilər yaşayan Xankəndi şəhərinin məhəllələrindən qəsəbəni qısa bir müddətdə atəşə tuturlar. Qəsəbə sakini Zülfüqar İbrahimov ağır xəsarət alır;

**786.*06 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli kəndinə basqın edirlər. Bir nəfər dinc sakin qətlə yetirilir, bir nəfər isə yaralanır;

**787.*06 oktyabr 1991-ci il:*** Səhər saat $6^{00}$ radələrində Avdır, Asiri, Təkir kəndlərində özlərinə isti yuva tapmış daşnak terrorçuları Ağdamın Abdal-Gülablı kəndini müasir silahlarla atəşə tuturlar. Terrorçular Xocavənd rayon hərbi komendanlığına məxsus BTR-dən də istifadə edirlər. İki nəfər kənd sakini ağır yara alır. Böyük bir meşə sahəsi yanıb kül olur;

**788.*07 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Qaradağlı və Əmirallar kəndlərini avtomat silahlardan və raketlərdən atəşə tuturlar. Yaşayış evləri dağıntılara məruz qalır. Qaradağlı kənd sakini Məmməd Mustafayev və Əmirallar kənd sakini Abuzor Mustafayev ağır güllə yarası alır;

**789.** ***08 oktyabr 1991-ci il:*** Axşam sat $22^{30}$ radələrində Horagyuğ kəndinə toplaşan daşnak terrorçuları Xocalı şəhərini aramsız olaraq avtomat silahlardan atəşə tuturlar. Nəticədə Xocalı şəhər DİŞ-nin polis nəfəri Vaqif Yusif oğlu Behbudov həlak olur;

**790.** ***09 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboyun Şəfəq və Zeyvə kəndlərini atəşə tuturlar. Nəticədə 1 mülki şəxs həlak olur, 2 nəfər isə yaralanır;

**791.** ***09 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Xankəndi istiqamətindən Kərkicahan qəsəbəsini atəşə tuturlar. Bir nəfər dinc sakin, qəsəbəyə qonaq gəlmiş Əliyev Nadir Qaçay oğlu həlak olur;

**792.** ***12 oktyabr 1991-ci il:*** Daşnak terrorçular tərəfindən Goranboyun Todan kəndi atəşə tutulur. 1 nəfər həlak olur, 12 nəfər yaralanır;

**793.** ***16 oktyabr 1991-ci il:*** Daşnak terror qrupu Ağdərənin İmarət Qərvənd kəndinə basqın edir. Kənd başdan-başa oda qalanır. Onlarla dinc kənd sakini qətlə yetirilir;

**794.** ***16 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavəndin Tuğ kəndində bir nəfər dinc sakini qətlə yetirirlər. Polis əməkdaşı E.Cəfərov isə ağır güllə yarası alır;

**795.** ***17 oktyabr 1991-ci il:*** Daşnak terror qrupu Qazax rayonunun I Şıxlar kəndinə basqın edir. Əkin sahəsində işləyən DT-75 markalı traktor və sürücü girov götürülür;

**796.** ***17 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdərə yaylağında çobanlara basqın edirlər. Nəticədə bir çoban - Baş Güney kənd sakini Q.Abdullayev qətlə yetirilir, digəri yaralanır. Qoyun sürülərini isə çəkib aparırlar;

**797.** ***19 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında «UAZ» markalı avtomaşın güllələbaran edilir, iki nəfər - sürücü Nazim Bəşirov, sərnişinlərdən Yelmar Cəfərov həlak olur, bir nəfər - Allahverdi Həsənov isə üç yerindən güllə yarası alır;

**798.** ***19 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşanın Quşçular kəndini atəşə tuturlar. Bir nəfər - dinc kənd sakini Vəzir Teymurov güllə yarası alır;

**799.** ***20 oktyabr 1991-ci il:*** Şüşükənd və Müxətər kəndlərinə sığınmış terrorçular Şuşa şəhər sakini İnqilab Səfərovu kövşəndə atəşə tuturlar. İnqilab Səfərov güllə yarası alır. Ona məxsus 5 baş qoyun isə terrorçular tərəfindən qarət olunur;

**800.** ***20 oktyabr 1991-ci il:*** Əsgəran rayonunun Fərrux kəndində məskən salan daşnak terrorçuları Ağdam rayonunun Xaçındərbənd kəndinə basqın edirlər. Nəticədə kənd sakinləri - meşə gözətçiləri işləyən Rəşid Quliyev və Rahib Cümşüdov güllə yarası alır;

**801.** ***21 oktyabr 1991-ci il:*** Çıldıran və Mehmana kəndlərində lövbər salan daşnak terrorçuları Ağdərənin Baş Güney kəndinə basqın edirlər. Nəticədə dinc kənd sakinlərindən - Həmzə Ələkbərov qətlə yetirilir, Müzəffər Nəsibov isə ağır güllə yarası alır;

**802.** ***21 oktyabr 1991-ci il:*** Daşnak terror qrupu Ağdamın Xaçındərbənd kəndinə basqın edir. 2 naxırçı yaralanır, çoxlu sayda mal-qara qarət edilir;

**803.*22 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Füzuli rayonunun Yuxarı Veysəlli kəndindən bir nəfər dinc sakin girov götürülür;

**804.*23 oktyabr 1991-ci il:*** Ağdamdan Şuşaya gedən avtomobil daşnak terrorçuları tərəfindən atəşə tutulur. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**805.*24 oktyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Cinli kəndini atəşə tuturlar. Yevlax-Laçın avtomobil yolunun «Zərin bağı» adlanan hissəsində avtomobil saxlanır. Sürücü girov götürülür;

**806.*27 oktyabr 1991-ci il:*** Saat $18^{00}$ radələrində Xocavənd rayonunun Xocavənd kəndi daşnak terrorçuları tərəfindən güclü atəşə tutulur. Nəticədə kənd sakinləri - Rübabə Novruzova, Yusif və İlyas Paşayevlər ağır güllə yarası alır. Sürücü İsmixan Misiroğlu Allahverdiyev girov götürülür.

**807.*28 oktyabr 1991-ci il:*** Xocavənd rayonunun Qaradağlı kəndi ermənilər yaşayan Kənxurd, Müşgabad və Qağarza kəndlərində sığınacaq tapmış daşnak terrorçuları tərəfindən 5 saat atəş altında saxlanır;

**808.*29 oktyabr 1991-ci il:*** Xocavənd rayonunun Xocavənd kəndi Qərvin qəsəbəsində məskən salmış daşnak terrorçuları tərəfindən raket və top atəşinə tutulur. Kənd sakini İsfəndiyar Məmmədovun evi dağıdılır;

**809.*29 oktyabr 1991-ci il:*** Yevlaxdan Xocalıya uçan AN-12 təyyarəsi Əsgəran rayonunun Kərmirsar-Xanabad səmasında daşnak terror qruplaşması tərəfindən vurulub yerə salınır. Təyyarədəki yeddi ekipaj üzvü: Əsəd Əsədov, Hikmət Muradov, Ceyhun Rəhimov, Əhmədağa Baxşıyev, Yunis Misirov, Azad Sadıqov və Sabir Rəcəbov qətlə yetirilir. Sonra isə mərhumların cəsədləri yandırılır;

**810.*30 oktyabr 1991-ci il:*** Daşnak terror qrupları Xocavənd rayonunun Sələkətin kəndlərində zorakılıq aktları törədirlər. Kənd işğala məruz qalır. Sələkətin kəndi ikinci dəfə canlı aləmdən təcrid olunur;

**811.*30 oktyabr 1991-ci il:*** Əsgəran rayonunun Naxçıvanik kənd sakinlərinin - «Təhlükəsizliyimizi təmin edin, yəni saqqallıları (daşnak terrorçularını) kənddən çıxarın. Biz Azərbaycan hökumətinin qanunlarına əməl etməyə hazırıq» müraciətini mərkəzə təqdim et-məyə aparan Ağdam şəhər

sakini, millət vəkili Eldar Teymur oğlu Bağırov Bakı şəhərində daşnak muzdlusu tərəfindən qətlə yetirilir;

**812.*30 oktyabr 1991-ci il:*** Xocavənd rayonunun Xocavənd və Əmirallar kəndləri daşnak terrorçuları tərəfindən müxtəlif növ iriçaplı silahlardan və raketlərdən atəşə tutulur. Xocavənd kənd sakinləri ev-eşiyini tərk etmək məcburiyyətində qalırlar. Əmirallar kəndində yaşayış evlərinə və orta məktəb binasına ciddi ziyan dəyir. Məktəbin anbarına od düşür. Anbardakı 30 min manat dəyərində avadanlıq və tədris vəsaiti yanıb külə dönür;

**813. *30 oktyabr 1991-ci il:*** Daşnak terror birləşmələri Xocavənd (Hadrut) rayonunun Tuğ kəndini hədəfə götürürlər, kəndə Xatın dağı çəkilir. 230 -dan artq ev yandırılır. Kəndin azərbaycanlı əhalisi bir nəfər kimi kənddən didərgin salınır;

**814.*03 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Arış kəndinə basqın edirlər. Kənd sakini Mehman Hüseynovu və polis əməkdaşları İlqar İbrahimovu, Nadir Qardaşovu girov götürürlər;

**815.*05 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşa rayonunun Nəbilər kəndinə basqın edirlər. Nəticədə kənd sakini Vahid Qara oğlu Sevindikov qətlə yetirilir. Polis əməkdaş Elxan Fərhad oğlu Ələkbərov ağır güllə yarası alır;

**816. *05 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli və Aşağı Əskipara kəndlərinə həmlə edirlər. Aşağı Əskipara kəndinin iki dinc sakini qətlə yetirilir, dörd nəfər isə yaralanır;

**817. *06 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Yuxarı Əskipara kəndinə həmlə edirlər. Nəticədə bir dinc sakini qətlə yetirirlər;

**818. *07 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Xələfşə kəndinə basqın edirlər. 72 yaşlı Məxmər Hacıyeva kəndarası yolda qətlə yetirilir. 70 yaşlı Sura Mustafayevanı yatağında güllələyirlər. Polis əməkdaşları İbrahim Məmmədzadə və Xalıqverdi Əhmədov güllə yarası alır;

**819. *08 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd (Hadrut) rayonunun Axullu kəndinə basqın edirlər. Nəticədə kənd sakini - Mirəstə Quliyeva və polis leytenantı Əli Qarayev güllə yarası alır. Kəndə hücumlar səngimək bilmir;

**820. *11 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli kəndinə basqın edirlər. İki nəfər dinc sakin qətlə yetirilir, bir nəfər isə güllə yarası alır;

**821. *12 noyabr 1991-ci il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Axullu kəndinə basqın edir. Evini tərk etməyənlər qətlə yetirilir. Əhali yurd-yuvasından didərgin salınır;

**822.*12 noyabr 1991-ci il:*** Daşnak terrorçuları saat $16^{00}$ radələrində Xocalı şəhərinin inşaatçılarına basqın edirlər. Nəticədə Xocalıdakı 23 saylı SMD-nin rəisi Tahir Məmmədov qətlə yetirilir;

**823.** ***12 noyabr 1991-ci il:*** Ağdam-Şuşa reysini həyata keçirən sərnişin vertolyotu Bağrıqan dağı ərazisindən keçərkən daşnak terrorçularının atəşinə məruz qalır. Vertolyot zədələnir;

**824.** ***15 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşa rayonunun Zarıslı kəndinin bir sakinini girov götürürlər;

**825.** ***15 noyabr 1991-ci il:*** Daşnak terror qruplaşmaları Xocavənd (Hadrut) rayonunun Şayaq və Zamzur kəndlərinə basqın edirlər. Yeddi polis əməkdaşı, iki mülki şəxs qətlə yetirilir, üç polis əməkdaşı ağır güllə yarası alır, iki qadın terrorçular tərəfindən girov götürülür;

**826.*****15-18 noyabr 1991-ci il:*** Xocavənd rayonunun Xocavənd kəndi Qərvin qəsəbəsində yerləşən daşnak terrorçuları tərəfindən aramsız atəşə tutulur. Noyabrın 15-də kənd sakini Fərzəliyev Fərzəli həyətində qətlə yetirilir. Noyabrın 16-da kənd sovetinin sədri işləyən Vaqif Rzayevin, Hacağa Həsənovun, Məlik və Fərzəli Fərzəliyevlərin evi yandırılır. Kolxoz anbarına od vurulur. Anbardakı taxıl tamamilə yanıb kül olur. Noyabrın 18-də terrorçular 4 ədəd BTR-in müşayiəti ilə kəndə girirlər. Kənddəki 32 yaşayış evi yandırılır. İctimai binalar dağıdılır. Kənd sakini Teymur Babayev və onun qızı, beş övlad anası Adilə Babayeva qətlə yetirilir. 65 yaşlı Dilbər Babayeva və 10 yaşlı Ceyhunə Babayeva ağır güllə yarası alır;

**827.*****15 noyabr 1991-ci il:*** Xocavənd rayonunun Yenikənd yaşayış məntəqəsini mühafizə edən polis postu daşnak terrorçuları tərəfindən hücuma məruz qalır. Basqın nəticəsində 13 nəfər itkin düşür;

**828.** ***17 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Qalayçılar kəndinin qoyun sürüsünə basqın edirlər. Çoban girov götürülür. Sürünü isə çəkilib aparırlar;

**829.** ***19 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavəndin Xocavənd kəndinə yenidən basqın edirlər. Nəticədə dörd nəfər dinc sakin həlak olur. 24 nəfər itkin düşür. Sağ qalan 1460 nəfərlik əhali bir nəfər kimi kəndi tərk edir. Kənd canlı aləmdən tədric olunur;

**830.** ***20 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşanın Malıbəyli kəndinin beş dinc sakinini girov götürürlər;

**831.** ***20 noyabr 1991-ci il:*** Beynəlxalq aləmdə ad çıxarmış peşəkar daşnak terrorçusu Monte Melkonyanın və Zori Balayanın rəhbərlik etdiyi «Zorik» terror qrupu Xocavənd rayonunun Qarakənd yaşayış məntəqəsi yaxınlığında Mİ-8 tipli hərbi vertolyotu «Barret M81-A1» silahları ilə vurub yerə salır. Nəticədə Ağdam şəhərindən Xocavənd qəsəbəsinə sülhməramlı missiya ilə səfərə çıxan 22 nəfər yüksək rütbəli vəzifəli şəxslər - Azərbaycan Respublikasının Dövlət katibi, millət vəkili T.K.İsmayılov, AR Baş nazirinin müavini, millət vəkili Z.S.Hacıyev, sabiq Dİ naziri, Prezidentin dövlət müşaviri M.N.Əsədov, AR-nın Baş prokuroru İ.İ.Qayıbov, millət vəkilləri

V.D.Cəfərov, V.T.Məmmədov, Prezident aparatının şöbə müdiri O.M.Mirzəyev, nazir müavini T.T.Namazəliyev, DQMV-nin prokuroru İ.A.Plavski, MTN-nin DQMV üzrə idarə rəisi S.S.İvanov, DQMV DİI-nin rəisi, general-mayor V.V.Kovalyov, DQMV FV rayonunun komendatı N.V.Jilkin, AR Dövlət katibinin köməkçisi R.M.Məmmədov, Azərbaycan Teleradio Dövlət Şirkətinin əməkdaşları A.M.Mustafayev, A.İ.Hüseynzadə, F.İ.Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər - general-mayor İ.D.Lukasov, podpolkovnik V.M.Koçarov, Qazaxıstan Respublikasının DİN-nin birinci müavini S.D.Serikov və ekipaj üzvləri həlak olurlar. Vertolyotun qara qutusu tapılaraq Moskvaya aparılır və orada məhv edilir. Terrorçular haqqında heç bir əməliyyat tədbiri həyata keçirilmir. Əfsuslar olsun ki, bu günədək Azərbaycan hökuməti tərəfindən bu dəhşətli terror hadisəsinə heç bir hüquqi-siyasi qiymət verilməmişdir;

**832.** ***20 noyabr 1991-ci il:*** Gorusun Xinzirək və Gorınzır yaşayış məntəqələrində möhkəmlənən daşnak terrorçuları iki tərəfdən Laçının Cicimli kəndini atəşə tuturlar;

**833.** ***21 noyabr 1991-ci il:*** Yuxarı Qarabağın Kərkicahan qəsəbəsində iş başında olan «Mayak» radiostansiyasının müxbiri, jurnalist Leonid Lazareviç snayperçi daşnak terrorçusu tərəfindən qətlə yetirilir;

**834.** ***21 noyabr 1991-ci il:*** Daşnak terror qrupu Ağdamın Abdal-Gülablı kəndinə basqın edir. Kəndin bir dinc sakini həlak olur, iki nəfər isə ağır bədən xəsarəti alır;

**835.** ***22 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Axullu kəndinə ikinci dəfə basqın edirlər. Polis kapitanı Hüseynov Aydın Bayram oğlu, polis nəfəri Bəkir Bünyad oğlu Sadıqov ağır güllə yarası, 5 polis nəfəri isə müxtəlif dərəcəli bədən xəsarəti alırlar;

**836.** ***24 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdam rayonunun Papravənd kəndi yaxınlığındakı kövşənə basqın edirlər. Camaata məxsus 200 baş qoyunu sürüb aparırlar;

**837.** ***26 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. İki dinc sakin güllə yarası alır;

**838.** ***28 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Əsgərandan keçən «UAZ» markalı avtomaşını güllәbaran edirlər. 3 nəfər amansız şəkildə qətlə yetirilir. Terrorçular tərəfindən Ağdam-Şuşa avtomobil yolu biryolluq bağlanır;

**839.** ***29 noyabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdam-Cəmilli istiqamətində uçan sərnişin vertolyotunu atəşə tuturlar;

**840.** ***01 dekabr 1991-ci il:*** Ağdam rayonunun Abdal-Gülablı kəndi daşnak terrorçuları tərəfindən güclü şəkildə top və raket atəşinə tutulur. Nəticədə 2 nəfər kənd sakini yaralanır. Bir neçə evə ziyan dəyir;

**841.** ***01 dekabr 1991-ci il:*** Daşnak terror qrupları Kərkicahan qəsəbəsinin aşağı başına həmlə edirlər. Bir polis əməkdaşı həlak olur, üç nəfər qəsəbə sakini itkin düşür, beş nəfər yaralanır, 21 ev yandırılır;

**842.*02 dekabr 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Kərkicahan qəsəbə sakini Elman Həsənov həyatində qətlə yetirilir, dörd uşaq anası S.Sabahova ağır güllə yarası alır;

**843.*02 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərinə həmlə edirlər. 8 ev dağıdılır, iki nəfər dinc şəhər sakini qəlpə yarası alır;

**844.*04 dekabr 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Kərkicahan qəsəbəsinə basqın edilir. Nəticədə qəsəbə sakini Osman Səfərov qətlə yetirilir, üç nəfər ağır güllə yarası alır;

**845.*06 dekabr 1991-ci il:*** Xankəndi şəhərində möhkəmlənən daşnak terrorçuları 366-cı rus alayından rüşvətlə icarəyə götürdükləri BMP-lərdən Kəkicahan qəsəbəsini atəşə tuturlar. Qəsəbədə bir neçə ev yandırılır. Qəsəbə Allahın ümidinə qalır;

**846.*06 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdam-Qaradağlı marşurutu ilə uçan sərnişin vertolyotunu atəşə tuturlar;

**847.*07 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Əmirallar kəndinə basqın edirlər. Nəticədə məktəb binasında və iki fərdi yaşayış evində yanğın törədilir;

**848.*07 dekabr 1991-ci il:*** Əsgəran rayonunun Müxətər və Şüşükəndlərində lövbər salan daşnak terrorçuları tərəfindən Şuşa şəhəri artilleriya atəşinə tutulur. Şəhər əhalisi zirzəmilərdə gecələyir. Şəhər külli miqdarda dağıntılara məruz qalır;

**849.*07 dekabr 1991 -ci il:*** Daşnak terror qrupu Füzuli rayonunun Yuxarı Divanallar kəndinə basqın edir, 17 nəfər mülki şəxs (8 qadın, 4 uşaq) girov götürülür. Kənd dağıdılır, evlər yandırılır. Kəndin dinc, əliyalın, təhlükəsiz əhalisi isti od-ocağından didərgin salınır;

**850.*08 dekabr 1991-ci il:*** Xankəndində məskən salan daşnak terrorçuları Kərkicahan qəsəbəsinə basqın edirlər. Qəsəbə sakini Rizvan Ağalarov həlak olur. Səkkiz nəfər dinc qəsəbə sakini ağır güllə yarası alır;

**851.*09 dekabr 1991-ci il:*** Şuşa rayonunun Malıbəyli kəndi daşnak terrorçularının basqınına məruz qalır. Basqın nəticəsində 2 nəfər dinc sakin güllə yarası alır;

**852.*10 dekabr 1991-ci il:*** Goranboyun Todan kəndi Mənəş və Buzluq kəndlərində məskən salan daşnak terrorçuları tərəfindən atəşə tutulur. 80 ev dağıdılır, beş nəfər yaralanır, bir nəfər həlak olur;

**853.*11 dekabr 1991-ci il:*** Yerli və köklü əhalisinin 40-45%-ni təşkil edən Azərbaycan türklərinin iştirakı olmadan, habelə Azərbaycan vətəndaşı olan erməni əhalisinin öz fikirlərini sərbəst ifadə etmək hüquq və imkanları əllərindən alınmaqla daşnak terror qruplarının silahlı müdaxiləsi altında 10 dekabr 1991-ci ildə DQMV-nin müstəqilliyi barədə saxta referendum

keçirilməsinin qəti əleyhidarı kimi çıxış edən Şuşa rayon İH-nin başçısı Mikayıl Qoca oğlu Gözəlov daşnak muzdlusu tərəfindən iş otağında qətlə yetirilir;

**854.** ***11 dekabr 1991-ci il:*** Daşnak terrorçuları tərəfindən Xocalı şəhəri raket atəşinə tutulur. 50-dən çox raket mərmisi atılır. Çoxlu dağıntılar olduğu qeydə alınır;

**855.*****12 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Kərkicahan qəsəbəsinə həmlə edirlər. Polis əməkdaşı Firdovsi Məmmədov həlak olur;

**856.** ***12 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Əsgəranın Cəmilli kəndinə basqın edir. Nəticədə kənd dağıdılır, evlər yandırılır. 6 nəfər dinc sakin ağır güllə yarası alır;

**857.** ***12 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Əhmədavar, Şelli, Xıdırlı, Çuxurməhlə, Qalayçılar kəndlərini atəşə tuturlar. Nəticədə 2 nəfər həlak olur, 5 nəfər yaralanır;

**858.*****13 dekabr 1991-ci il:*** Əsgəran rayonunun Müxətər və Şüşükənddə məskən salan daşnak terrorçuları tərəfindən Şuşa şəhəri raket və top atəşinə tutulur. Atəşin ardınca həmləyə keçirlər. Müdafiə zamanı polis əməkdaşları Elman Həsənov və Şahin Əmirov ağır güllə yarası alır;

859.***13-14 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Mahbəyli kəndinə basqınlar edirlər. Basqın nəticəsində 16 evə od vurulur, sovxozun ferması yandırılır. Kəndin əliyalın, dinc sakinləri - Gülxar Bayramova, Qəşəm Quliyev, Allahverdi Bəxtiyarov, Bilal Məmmədov, Arzu Şahmanova, Oqtay Mədədov, İsmayıl Abdullayev, Bayram Mədədov yaralanır;

**860.** ***13 dekabr 1991-ci il:*** Əsgəran rayonunun Cəmilli kəndinə məxsus «UAZ» markalı aztonnajlı yük maşını daşnak terrorçularının həmləsinə məruz qalır. Maşının banındakı 17 nəfər Cəmilli kənd sakinlərindən 10 uşaq atası Tahir Sadıqov qətlə yetirilir, 15 nəfər isə ağır güllə yarası alır;

**861.*****14 dekabr 1991-ci il:*** Daşaltıda məskən salan daşnak terrorçuları Şuşa rayonunun Zarıslı kəndi yaxınlığında Laçın-Şuşa yoluna basqın edirlər. Şuşa Avtonəqliyyat İB-nə məxsus «UAZ-469» markalı 72-65-AQL nömrəli maşını atəşə tuturlar. Güllələrdən deşik-deşik edilən maşını idarə edən Mobil Əsgərov yalnız şəxsi sücaəti sayəsində ölümdən xilas ola bilir;

**862.*****14 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərini raket, top, qumbaraatan, avtomat və pulemyotlardan atəşə tuturlar. 4 ev tamamilə dağıdılır. Ağdamdam Şuşaya ucan sərnişin vertolyotu Şüşükənd üzərində atəşə tutulur;

863.***14 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşanın Malıbəyli və Quşçular kəndlərini raket atəşinə tuturlar. 5 ev dağıdılır. Dinc sakinlərdən - Bərsail İbrahimov, Mərziyə İbrahimova, Malik İsfəndiyarov yaralanır;

864.***14 dekabr 1991-ci il:*** Saat $15^{00}$ radələrində Kərkicahan qəsəbəsi yenə də daşnak terrorçularının hücumuna məruz qalır. 3 nəfər dinc sakin - Elxan

Məmmədov, Mütəllim Əhmədov və telerepartyor Seyidağa Mövsümov yaralanır;

865.*14 dekabr 1991-ci il:* Kərkicahan qəsəbəsinə təkrar həmlə edilir. Qəsəbənin dinc sakini A.Nəcəfov daşnak terrorçusu tərəfindən qətlə yetirilir, Elxan Abbasov isə yaralanır;

866. ***15 dekabr 1991-ci il:*** Daşnak terror qruplaşması Əsgəranın Cəmilli kəndinə basqın edir, 9 nəfər dinc, əliyalın kənd sakinini - Xıdır Cabbarov, Vaqif Cavadov, Əhməd Cavadov, Fikrət Mehdiyev, Vaqif Sadıqov, Natiq Salahov, Şakir Salahov, Məmməd Zeynalov və Bəhram İsmayılovu (ümumilikdə 15 nəfər) qətlə yetirirlər. 600 nəfərlik əhali kənddən didərgin salınır, evlər tamamilə yandırılır;

867.***15 dekabr 1991-ci il:*** Daşnak terror qrupu Xocalı hava limanına basqın edir. Atışmada polis əməkdaşı E. Əhmədov qətlə yetirilir, iki əməkdaş isə güllə yarası alır;

868.***15 dekabr 1991-ci il:*** Əsgəranın Ağbulaq kəndinə sığınmış daşnak terrorçuları Ağdam rayonunun Abdal-Gülablı kəndinə basqın edirlər. Kəndin bir dinc sakini güllə yarası alır;

869.***15 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdam rayonunun Qiyaslı kəndinə basqın edirlər. Kənd sakinlərindən Nəsib Əhmədov və Vilayət Mustafayev güllə yarası alır;

870.***15 dekabr 1991-ci il:*** Muğanlı avtomobil dəstəsinə məxsus «KAMAZ» markalı maşın Xocavəndin Əmirallar - Kuropatkino yolunda daşnak terrorçuları tərəfindən saxlanılır, 7 nəfər Əmirallar kənd sakini girov götürülür. Həmin gün Xocavənd rayonunun Əmirallar kəndi ilk dəfə tamamən boşaldılır;

**871.*16 dekabr 1991-ci il:*** Daşnak terrorçularının atdığı raket mərmiləri Şuşanın Quşçular kənd sakini, müəllim Bəhram Teymurovun evinə düşür. Ev tamamilə dağılır. Bəhram müəllimin 16 yaşlı oğlu Zöhrab və Ağdamdan onlara gəlmiş qonaq ağır qəlpə yarası alırlar. Kəndin müdafiəsinə qalxan Fərman Cəfərov və Qorxmaz Musayev yaralanırlar;

872.***17 dekabr 1991-ci il:*** Daşnak terrorçuları yenidən Kərkicahan qəsəbəsinə basqın edirlər. Dinc qəsəbə sakinləri Bəşir Hüsey-nov, Qabil Əhmədov və Fərmail Sahibov yaralanır;

873.***17-18 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşaya gələn qazxəttini partladırlar. Şəhəri «Alazan» raketlərindən atəşə tuturlar. 17 yaşayış evi dağıdılır. Çoxlu sayda ictimai və şəxsi minik avtomobilləri sıradan çıxarılır;

874.***17 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Şelli kəndini atəşə tuturlar. Bir nəfər dinc kənd sakini qəlpə yarası alır;

875.***19 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Ağdamın Şotlanlı kəndini atəşə tuturlar. Bir neçə ev zədələnir. Xocalı-Ağdam reysi ilə uçan sərnişin vertolyotuna da atəş açırlar;

876.*21 dekabr 1991-ci il:* Daşnak terror qrupu Şuşa rayonunun Nəbilər kəndinə basqın edir. Dinc əhalidən itkilər qeydə alınır. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

877.*22 dekabr 1991-ci il:* Daşnakların «Yevangiley» terror qrupu tərəfindən Laçının Qanqışlaq kəndinin bağ və meşə sahələri gecə saat $22^{00}$ radələrində od vurulub yandırılır;

878.*23 dekabr 1991-ci il:* «Qarabağ» adlı daşnak terror qrupu 3 istiqamətdən Əsgəran rayonunun Meşəli kəndinə soxulub qanlı terror aktı törədirlər. 6 nəfəri qadın olmaqla 24 nəfər dinc sakin (ötən illər ərzində ümumilikdə 32 nəfər) qətlə yetirilir. 11 meyit yandırılır. Kənd müdafiəçilərindən Hidayət Rüstəmov, Faiq Ağayev həlak olur. 15-dən çox dinc sakin (ümumilikdə 50-dən çox) yaralanır. 350 nəfərlik əhali ev-eşiyindən didərgin salınır. Kənd tamamilə yandırılır, varlığı yer üstündən silinir;

879.*23 dekabr 1991-ci il:* Daşnak terror qrupları kütləvi şəkildə Füzuli rayonunun DQ-la həmsərhəd kəndlərinə basqınlar edirlər. Qaradağlı kəndi boşaldılır. Bir nəfər qətlə yetirilir, üç nəfər yaralanır, Axullu kəndində 40-dan çox ev yandırılır, bir nəfər yaralanır. Cuvarlı kəndində bir nəfər güllə yarası alır;

880.*23 dekabr 1991 - ci il:* Daşnak terror qrupu Xocavənd rayonunun Daşbaşı kəndinə basqın edir. İki nəfər qətlə yetirilir, iki nəfər ağır güllə yarası alır;

881.*25 dekabr 1991-ci il:* Daşnak terror qrupu Yuxarı Qarabağın Həsənabad kəndində zorakılıq aktına əl atır. Əhali ev-eşiyini tərk edir. Kənd canlı aləmdən təcrid olunur;

**882.***26 dekabr 1991-ci il:* Şuşa şəhər sakini Abbasov Süleyman İsmayıl oğlu, hamilə həyat yoldaşı, yaş yarımda olan oğlu, qayınanası «Moskviç» markalı 93-99 AQD dövlət nömrə nişanlı maşının sürücü ilə Bakıdan Şuşaya qayıdarkən daşnak terror qrupunun yüksək gərginlikli elektrik dirəyini partlatdıqlarının şahidi olurlar. Terrorçular izi itirmək üçün bütün ailəni və onları Şuşaya aparan sürücünü vəhşicəsinə qətlə yetirirlər.

**883.***26 dekabr 1991-ci il:* Harov və Pirəməki kəndlərində sığınacaq tapmış daşnak terrorçuları Şuşanın Quşçular kəndini güclü atəşə tuturlar. Kənddəki evlərin əksəriyyəti ciddi şəkildə zədələnir. Qaz, telefon, elektrik xətləri kəsilir. 1200 nəfərdən çox azərbaycanlının yaşadığı Quşçular kəndi ölüm təhlükəsi ilə üz-üzə qalır;

**884.***26 dekabr 1991-ci il:* Ağdərənin Canyataq kəndində lövbər salan daşnak tcrrorçuları Baş Güney, Otra Güney, Xatınbəyli və Manikli kəndlərini intensiv şəkildə atəşə tuturlar. Böyük strateji əhəmiyyətə malik olan Manikli kəndi avtomat, minamyot, pulemyot və BMP-lərdən sözün əsl mənasında güllәbaran edilir;

**885.*26 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Şuşa-Laçın yolunun 4-cü km-liyində «ZİL-130» markalı yük maşınını güllləbaran edirlər. Sürücü hadisə yerində həlak olur;

**886.*26-27 dekabr 1991-ci il:*** Hadrut və Martuni rayonlarında möhkəmlənmiş daşnak terror birləşmələri Füzuli rayonunun Qaradağlı, Axullu, Hoğa, Arış, Xələfşə, Çəmənli, Qacar, Aşağı Divanallar kəndlərini güclü hücuma məruz qoyurlar. Qaradağlıda üç ev yandırılır, dinc kənd sakini, 77 yaşlı Qəhrəman Vəzirov yaralanır. Bir polis əməkdaşı həlak olur. Axullu kənd sakinləri Oqtay Abdullayev və Cəlal Rəsulov da güllə yarası alır.

**887.*27 dekabr 1991-ci il:*** Daşnak terrorçuları Zarıslıdan Şuşaya gedən daha bir minik maşınını güllləbaran edirlər. Üç mülki şəxs həlak olur;

**888.*28 dekabr 1991-ci il:*** Daşnak terror qruplaşmaları ağır texnikanın köməyi ilə Kərkicahan qəsəbəsinə basqın edirlər. 33 nəfər kənd sakini qətlə yetirilir, 14 nəfər itkin düşür. 1800 nəfərlik qəsəbə əhalisi ev-eşiyindən didərgin salınır, əmlakları qarət olunur, qəsəbə yerlə-yeksan edilir. Kənd sakinlərindən birinin - Fərhad Ağakişiyevin cəsədi geri alınarkən onun üzərində müxtəlif alətlərlə icra edilən 75-dən artıq işgəncə izi aşkar edilir;

**889. *30 dekabr 1991-ci il:*** Daşnak terror qrupu Qazax rayonunun Çaylı kəndindən Əskipara kəndinə yas yerinə gedən üç dinc sakini yolda qətlə yetirir, meyitlərini girov qismində özləri ilə Ermənistan SSR-ə aparırlar;

**890.*1991-1992-ci illər:*** Daşnak terrorçuları öz soydaşlarından əlavə olaraq 1) şovinist çıxışlara öz etirazını bildirdiyinə görə DQMV DTİ-nin əməkdaşı L.Qaraxanyanı; 2) milli ədavət salmağın əleyhinə çıxdığına görə icma başçısı A.Mkrtıçyanı qətlə yetirirlər;

**891.*01 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Ağdamın Çuxurməhəllə kəndinə hücum edir. Dörd nəfər həlak olur, 28 nəfər yaralanır;

**892.*01 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Laçının Təzəkənd yaşayış məntəqəsinə basqın edir. Dinc sakin Orucov Rafiq Həsən oğlu qətlə yetirilir;

893.***02 yanvar 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Xocalı şəhərinə gedən elektrik xətti partladılır. Bununla şəhərin elektrik enerjisi ilə təminatına son qoyulur;

894.***02 yanvar 1992-ci il:*** Daşnak terror qrup və birləşmələri tərəfindən Ağdamın Əhmədavar, Çuxurməhəllə, Xıdırlı, Şelli, Abdal-Gülablı kəndləri atəşə tutulur. Əhmədavar kəndində 2 nəfər yaralanır;

895.***02 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Goranboy rayonunun Todan kəndini atəşə tutur. Bir nəfər həlak olur;

**896.*04 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərini atəşə tuturlar. Bir nəfər dinc sakin ağır qəlpə yarası alır;

**897.*04 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Ağdərənin Bağbanlar kəndinə basqın edirlər. Bir polis əməkdaşı ağır güllə yarası alır;

**898.*05 yanvar 1992-ci il:*** Ağdamın Mərzili kəndi daşnak terrorçuları tərəfindən atəşə tutulur. 1 nəfər yaralanır;

**899.*06 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Goranboy ərazisinə basqın edir. 1 mülki şəxs həlak olur, 7 nəfər yaralanır;

**900.*06 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Axullu kəndinə basqın edirlər. Polis bölməsinin əməkdaşı, 2 qız atası Atakişiyev Qabil qətlə yetirilir;

**901.** ***06 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə basqın edirlər. Dinc kənd sakini Əhəd İsgəndərov qətlə yetirilir. 4 nəfər dinc sakin isə güllə yarası alır;

**902.*07 yanvar 1992-ci il:*** Ağdamdakı 2711 saylı avtomobil dəstəsinə məxsus «Volqa» markalı 61-98 AQD nömrəli avtomobil daşnak terrorçularının basqınına məruz qalır. Sürücü Famil Kazmov qətlə yetirilir, avtomaşın girov götürülür;

**903.** ***07 yanvar 1992-ci il:*** Ağdamdan Qaradağlıya ucan sərnişin vertolyotu daşnak terrorçuları tərəfindən atəşə tutulur. 5-ə qədər güllə zədəsi alan vertolyotu pilotların səyi nəticəsində Ağdama qaytarmaq mümkün olur.

**904.*07 yanvar 1992-ci il:*** Əsgəranda möhkəmlənən daşnak terrorçuları Xocalıya güclü basqın təşkil edirlər. Xocalı şəhər sakini Qanboy Həsənov yaralanır;

**905.** ***08 yanvar 1992-ci il:*** Xocavəndin Kəndxord, Müşgabad, Cəmiyyət, Ağkənd, Qağarza kəndlərində möhkəmlənmiş daşnak terrorçuları Qaradağlı kəndini müxtəlif növ silahlardan və «Alazan» tipli raketlərdən atəşə tuturlar. İki tikili dağdılır. Evlərin xeyli hissəsi zədələnir. İki nəfər yaralanır. Könüllü müdafiəçi Məzahir Gülverdiyev isə müdafiə zamanı həlak olur;

**906.** ***08 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Krasnovodsk-Bakı istiqamətində hərəkət edən sərnişin bərəsində partlayış törədirlər. Terror aktı nəticəsində 25 nəfər həlak olur, 88 nəfər yaralanır;

**907.*09 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Qaradağlı kəndinə basqın edirlər. 5 nəfər - dinc sakinlərdən Yavər İsgəndərov, Bəkir Quliyev, Nəriman Həsənov, polis əməkdaşları - Nazim Quliyev, Faiq Rəfiyev həlak olur. Kənd sakinləri - Mənsimov Ələkbər, Əbdürrəhimov Natiq, Xəlilov Şahin, Hüseynov Şiralı, Məmmədov Nurəddin, Əhmədov Tahir, Hacıyev Natiq güllə yarası alırlar;

**908.*11-12 yanvar 1992-ci il:*** Xocavəndin Qaradağlı kəndi daşnak terrorçularının həmləsinə məruz qalır. Dinc kənd sakini, müharibə və əmək veteranı Qasım Əliyev qətlə yetirilir. Ona məxsus 80 başa yaxın mal-qara və qoyun-quzu terrorçular tərəfindən sürülüb aparılır. Kənd icra nümayəndəsi Cavad Hüseynov və kənd mağazasının müdiri Alov Əzizov ağır güllə yarası alır;

**909.*11-13 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Xocalı rayonunun dəniz səviyyəsindən 2000 m yüksəklikdə, Qırxqız dağının qoynunda yerləşən Qarakov kəndinə həmlələr edirlər. Terrorçular camaata məxsus 16 baş iribuynuzlu mal-qaranı güllələyirlər;

**910.*12 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Şuşanın Malıbəyli kəndinə basqın edirlər. Kənd sakini Sərdar Rzayev ağır güllə yarası alır;

**911.** ***12 yanvar 1992-ci il:*** Daşaltıda yerləşən daşnak terror qrupu Laçın-Şuşa yolunda sərnişin avtobusuna basqın edirlər. Polis əməkdaşı Sənan Aydın oğlu Abdullayev ağır güllə yarası alır;

**912.*13-14 yanvar 1992-ci il:*** Xankəndində möhkəmlənən daşnak terrorçuları Kərkicahan qəsəbəsini zirehli texnikanın köməyi ilə güclü və aramsız surətdə atəşə tuturlar. Qəsəbə sakini İlham Bahadur oğlu Əliyev qətlə yetirilir. Asif Ələkbərov yaralanır. Kənddə salamat qalan evlərdən daha ikisi yandırılır;

**913.** ***13 yanvar 1992-ci il:*** Xocavəndin Məlikcan kəndində yuva quran daşnak terror qrupu Füzuli rayonu ərazisinə basqın edir. Müdafiəçilərdən Mehdi Yusif oğlu Abbasov qəhrəmancasına həlak olur;

**914.*15 yanvar 1992-ci il:*** Daşnak terrorçuları dil tapdıqları rus hərbiçilərinin köməyi ilə Ordubad ərazisində «LAZ» markalı sərnişin avtobusunu atəşə tuturlar. Üç nəfər girov götürülür;

**915.*15 yanvar 1992-ci il:*** Rus hərbçiləri ilə birləşmiş daşnak terrorçuları Əylis kəndi yaxınlığında Culfa şəhər sakinlərini atəşə tuturlar. İki nəfər həlak olur, dörd nəfər yaralanır;

**916.*15 yanvar 1992-ci il:*** Daşnak terrorçuları ilə əlaqəyə girən rus hərbçiləri daşnak muzdluları olaraq Naxçıvan aeroportuna soxulurlar. Naxçıvan Müdafiə Komitəsinin sədri E.Abbasovu, Daxili İşlər naziri M.Məmmədovu girov saxlayaraq iki yük təyyarəsi ilə hərbi sursatı Ermənistana adladırlar;

**917.** ***16 yanvar 1992-ci il:*** Xocavənd ərazisində möhkəmlənən daşnak terrorçuları Əmirallar kəndini intensiv atəşə tuturlar. Xocavənd rayon İcra Hakimiyyəti Başçısının müavini Şahlar İbrahimov həlak olur. 3 nəfər isə müxtəlif dərəcəli güllə yarası alır;

**918.** ***16 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Xələfşə kəndinə basqın edirlər. Müdafiə zamanı polis əməkdaşı Kamil Xələfov ağır güllə yarası alır;

**919.** ***18 yanvar 1992-ci il:*** Daşaltı kəndində məskən salan daşnak terrorçuları Şuşaya gələn elektrik xəttini və su kəmərini yenə də partladırlar;

**920.*18-21 yanvar 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən gecələr Şuşa şəhəri ən müasir silahlardan atəşə tutulur. 2 nəfər dinc şəhər sakini həlak olur. Onlarla ev dağıdılır və ya ciddi zədə alır;

**921.*18 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Şuşanın Qaybalı kəndinə həmlə edir. Kənd müdafiəçisi Əsədov Malik Hamil oğlu qəhrəmancasına həlak olur;

**922.** ***21 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Cinli və Xıdırlı kəndlərinə basqın edirlər. Basqın zamanı 1 nəfər dinc sakin həlak olur;

**923.*21 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Muğanlı kəndini «Alazan» tipli raketlərdən atəşə tuturlar. Nəticədə İsmayıl və Arif İsmayılovlara, Aslan Quliyevə məzsus fərdi yaşayış evləri dağıdılır;

**924.*21 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Şuşanın Qaybalı kəndinə basqın edir. İtkilər qeydə alınır. Əhali yurd-yuvasından didərgin düşür. Lakin kəndə yenidən qayıdış olur;

**925.*22 yanvar 1992-ci il:*** Ağdamın Papravənd kəndinə daşnak terrorçuları tərəfindən vertolyotdan həmlə edilir. Yaralananlar olur;

**926.*22-23 yanvar 1992-ci il:*** Xocavəndin Muğanlı kəndi yenə də daşnak terrorçuları tərəfindən «Alazan» tipli raketlərdən atəşə tutulur. Yaşayış evlərinə, ictimai binalara xeyli ziyan dəyir. Kolxoz həyətindəki qaba yem tayaları yanıb külə dönür. Muğanlı kənd sakinləri İnqilab Qarayevə, Arif İsmayılova, Famil Zeynalova məxsus fərdi minik maşınları sıradan çıxır;

**927.*25 yanvar 1992-ci il:*** Xocavəndin Əmirallar kəndi daşnak terrorçuları tərəfindən müxtəlif çeşidli silah növlərindən atəşə tutulur. Kənd sakinləri Sabir Rəhimov, Elmira Mirzəyeva ağır güllə yarası alır;

**928.** ***26 yanvar 1992-ci il:*** Şuşa şəhərini blokadada saxlayan və Daşaltı kəndinə sığınmış daşnak terrorçularını bu kənddən çıxarmaq məqsədi ilə hərəkətə keçən Azərbaycan milli ordusunun ilk könüllü və sülh məramlı taboru daşnak terror birləşməsi tərəfindən tələyə salınır. Milli ordu əsgərlərindən 33 nəfər qətlə yetirilir, 34 nəfər itkin düşür, 36 nəfər isə ağır güllə yarası alır;

**929.*26 yanvar 1992-ci il:*** Daşnak terror qrupları Şuşa şəhərini və Goranboyun Qara Çinar kəndini atəşə tuturlar. Şuşa şəhər sakini Nəsirov Zahid Rəfayıl oğlu və Goranboy rayon sakini Bayramov Vüqar Zülfüqar oğlu həlak olur;

**930.*28 yanvar 1992-ci il:*** Daşnak terror qrupu Füzuli şəhərini qrad qurğularından atəşə tutur;

**931.*28 yanvar 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan 27127 nömrəli Mİ-8 mülki vertolyot Şuşa şəhəri yaxınlığında «Yer-yer» tipli raketlə vurulur. Əksəriyyəti qadın və uşaqlardan ibarət olan 44 sərnişin və 3 ekipaj üzvü - Mahmudov Ərəstun İsbənd oğlu, Axundov Səfa Fətulla oğlu, Salahov Şakir Şamil oğlu həlak olur. Heç bir istintaq işi aparılmır. Sanki azərbaycanlı qadın və uşaqların qanı qan deyil, adi sudur, göydən yerə axıdılır;

**932.*28 yanvar 1992-ci il:*** Xocavənd rayonunun ermənilər yaşayan hissəsində mövqe tutmuş daşnak terrorçuları Muğanlı kəndini təkrar «Alazan» tipli raketlərdən atəşə tuturlar. Kənd sakini Qalib İsmayılov qəlpə arası alır;

**933.** ***29 yanvar 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini uzaqvuran raketlərdən atəşə tuturlar. Raketlər Ağdamdakı 8 saylı SMD-nin həyətinə düşür. Nəticədə sürücü Nemət Abdullayev həlak olur. 2 nəfər ağır yaralanır, bir nəfər isə qəlpə yarası alır. İdarənin yanacaq çənləri partladılır, 1 ədəd «KAMAZ» markalı maşın yanıb yararsız hala düşür;

**934.** ***30 yanvar 1992-ci il:*** Xocavənd rayonunun Muğanlı kəndi daşnak terrorçuları tərəfindən «Alazan» tipli raketlərdən atəşə tutulur. Kənd sakini Kərəm İmanovun fərdi yaşayış evi dağıdılır;

**935.** ***31 yanvar 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdam rayonunun Şelli, Abdal-Gülablı, Xıdırlı, Cinli, Əliağalı, Əhmədavar kəndlərinə həmlə edirlər. Faiq Həşimov, Xankişi Cəfərov, Azər Abbasov, Mübariz Vətən oğlu, Eldar Həsənov həlak olur. 53 nəfər yaralanır;

**936.** ***01 fevral 1992-ci il:*** Daşnak terror qrupu tərəfindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi aramsız şəkildə atəşə tutulur. 3 uşaq həlak olur;

**937.** ***01 fevral 1992-ci il:*** Daşnak terror birləşmələri Xanabaddan Ağdamın Qarağacı məzarlığı və Xıdırlı kəndləri istiqamətində həmləyə keçirlər. 12 nəfər - Təbriz Xəlilbəyli, Asif Talıbov, Azər Məmmədov və başqaları müdafiə zamanı həlak olur;

**938.** ***01 fevral 1992-ci il:*** Daşnak terror birləşməsi Ağdamın Cinli kəndinə basqın edir. Polis əməkdaşı Zahid Şükürov həlak olur, iki dinc sakin güllə yarası alır;

**939.** ***02 yevral 1992-ci il:*** Daşnak terror qrupu Füzuli rayonunun cənub-qərb ərazisinə basqın edir. Nəticədə İşıqlı kənd sakini Tahir Əmirxan oğlu Rəsulov qətlə yetirilir;

**940.** ***02 fevral 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdərənin Manikli kəndinə basqın edirlər. 1 nəfər həlak olur, 2 nəfər yaralanır;

**941.** ***03 fevral 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Qacar kəndinə həmlə edirlər. Kənd sakini Həmid İbişov yaralanır;

**942.** ***05 fevral 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Günəşli kəndində basqın edirlər. Kənddə dağıdılmamış sonuncu beş evi də yandırırlar;

**943.** ***05 fevral 1992-ci il:*** Daşnak terror birləşmələri Şuşa şəhərinə həmlələr edirlər. Nəticədə Bəhmən Əbiş oğlu Əliyev, Emin Məmməd oğlu Məmmədov, Dayandur Həsən oğlu Salayev, Nəsib Nadir oğlu Kantiyev, Ayaz Zabitov, Bəxtiyar Qurban oğlu Nuriyev, Ayaz Qasımov, Nəsrullah Qasım oğlu Nəcəfov halak olur;

**944.** ***07 fevral 1992-ci il:*** Daşnak terrorçuları Ağdərənin Sırxavənd kəndinə basqın edirlər. Müdafiə zaman Rasim Ərşad oğlu Fərzəliyev şəhid düşür. Kənd sakini İslah kişi mərmi qəlpəsindən həlak olur. 5 nəfər dinc sakin - F. Qasımov, T. Bəşirov, Q. Mehdiyev, B. Məmmədov, Ç. İbrahimov yaralanırlar;

**945.*07 fevral 1992-ci il:*** Daşnak terror qrupu Ağdamın Papravənd kəndi yaxınlığında «Qarabağ» sovxozunun qış otlağına basqın edir, sovxozun 200 başlıq qoyun sürüsünü çəkib özləri ilə aparırlar;

**946.*09 fevral 1992-ci il:*** Daşnak terror qrupu Şuşanın Malıbəyli kəndinə hücum edir, bir nəfər qətlə yetirilir, 16 nəfər isə yaralanır. Kəndin bir hissəsi işğal edilir;

**947.*11 fevral 1992-ci il:*** Daşnak terrorçuları Xankəndində yerləşən rus ordusunun 81-ci alayını daxili razılıqları əsasında tamamilə tərksilah edirlər;

**948. *11 fevral 1992-ci il:*** Daşnak terror qrupu Goranboyun Zeyvə kəndini atəşə tutur. Nəticədə 6 ev dağıdılır və yandırılır;

**949.*11-12 fevral 1992-ci il:*** Daşnak terror birləşmələri Şuşanın Malıbəyli, Yuxarı və Aşağı Quşçular kəndlərinə basqın edirlər. Hər üç kənddə qətliam törədirlər. Dinc, əliyalın sakinlərdən Afiq Abdullayev, Nazim Alıxanov, Əli Allahverdiyev, Aydm, Nicat, Çərkəz və Rafiq Quliyevlər, Gündüz və Möhsüm Əhmədovlar, Haqverdi Kərimov, Ədalət Mehdiyev, Cavid, Cəsarət və Yeganə Mədətovlar, Elşən Fərmanov, Sərdar Xudiyev, İnqilab Hümbətov, Rizvan Teymurov, Qaryağdı, Nübar və Səriyyə Zeynalovlar həlak olur. Hər üç kəndin 2241 nəfərlik sakinləri qətliamdan qaçıb dağlara, meşələrə çəkilirlər. Kəndlər yerlə-yeksan edilir;

**950.*16 fevral 1992-ci il:*** Daşnak terror birləşmələri Xocavəndin Qaradağlı kəndini iki istiqamətdən aramsız atəşə tuturlar. Nəticədə bir dinc kənd sakini və bir kənd müdafiəçisi həlak olur, 6 nəfər dinc sakin isə yaralanır;

**951.*16 fevral 1992-ci il:*** Daşnak terrorçuları Ağdərənin Sırxavənd kəndinə həmlə edirlər. Müdafiə zamanı kənd sakini İntizam Bəşirov həlak olur.

**954.*16 fevral 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini raket və top yağışına tuturlar. Top mərmisi 2 saylı ruhi xəstəxananın həyətinə düşür. İki nəfər həlak oluvr. Sürücü Rasim Yunisovun evi zədələnir, körpə uşağı yaralanır;

**955.*17 fevral 1992-ci il:*** Daşnak terror qruplaşması Xocavənd rayonunun Qaradağlı kəndinə həmlə edir. Kənd yerlə-yeksan edilir. Qətlə yetirilən 77-i nəfərdən 54 dinc sakinin cəsədi «Bəylik bağı» adlanan ərazidəki silos quyusuna atılır. Uşaq, qadın, qoca daxil olmaqla 117 nəfər dinc sakin isə girov götürülür. Girov götürülənlərdən 23 dinc sakin və 20 kənd müdafiəçisi güllələnir. O cümlədən, 10 nəfəri diri-diri yandırırlar. Qətlə yetirilənlərin 13-ü uşaq, 10-u isə qadın olub. Kəndin 1200 nəfərlik əhalisindən sağ qalanlar dədə-baba torpaqlarından didərgin salınır;

**956.*18 fevral 1992-ci il:*** Daşnak terror qrupu Ağdamın Şelli kəndinə həmlə edir. İkisi məktəbli olmaqla (Natiq və Niyaməddin İbadovlar) 3 nəfəri girov götürür, 200 baş qoyunu sürüb aparırlar;

**957.*18 fevral 1992-ci il:*** Daşnak terrorçuları Laçının Hacılar kəndini güclü atəşə tuturlar. Nəticədə dinc kənd sakini Abdullayev Şəfi Səməd oğlu həlak olur;

**958.***19 fevral 1992-ci il:* Gorus şəhərində möhkəmlənən daşnak terrorçuları səhər saat $7^{00}$-da Qubadlı rayonunun Əliquluuşağı kəndinə həmlə edirlər. Müdafiə zamanı Mehman Ağayev, Gülməmməd Məmmədov, Anar Rəsulov həlak olur. 4 nəfər - Xəqani Abbasov, Vəliyar Əbdülov, Bəhlul Ağayev, İdris Cəlilov ağır güllə yarası alır;

**958.***19 fevral 1992-ci il:* Daşnak terrorçuları Şuşa şəhərini top, raket, tank və BMP-lərdən atəşə tuturlar. 35 ev dağıdılır. Şəhər sakini Etibar Qaçay oğlu Əhmədov yaralanır;

**959.***22 fevral 1992-ci il:* Daşnak terrorçuları tərəfindən Xocalı şəhəri atəşə tutulur. Üç nəfər həlak olur, doqquz nəfər yaralanır;

**960.***22 fevral 1992-ci il:* Daşnak terrorçuları Füzulinin Cəmilli kəndinə basqın edirlər. İki polis əməkdaşı həlak olur, dörd nəfər yaralanır;

**960.***22 fevral 1992-ci il:* Daşnak terrorçuları Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə hücum edirlər. Kənd sakinlərindən, səkkiz nəfər qətlə yetirilir, 20 nəfər yaralanır. 16 yaşlı bir oğlan itkin düşür. 100 ev yandırılır, kəndin 1000 nəfərlik əhalisi yurd-yuvasından didərgin salınır. Kənd canlı aləmdən tədric edilir;

**961.***23 fevral 1992-ci il:* Daşnak terrorçuları Şuşa şəhərini top atəşinə tuturlar. Mərmilərdən biri şəhər sakini Cümşüd Bəşirovun evinə düşür. C. Bəşirov həlak olur. Oğlu Vidadi, yeznəsi Səfalı ağır qəlpə yarası alır;

**962.***24 fevral 1992-ci il:* Daşnak terrorçuları Ağdamın Qarağacı qəbiristanlığı yaxınlığında yerləşən müdafiə postunu atəşə tuturlar. Nəticədə 16 nəfər yaralanır;

**964.***26 fevral 1992-ci il:* Daşnak terror qruplaşmaları Rusiyanın Xankəndindəki 366 saylı xüsusi təyinatlı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə həmlə edirlər. Bununla erməni-daşnak faşistləri daşnak düşüncəsinin qanlı tacı hesab olunan Xocalı soyqırımına imza atırlar. Bir gecədə yeddi min türk əhalisi olan Xocalı şəhəri yerlə-yeksan edilir. 1153 nəfər dinc sakin (83 uşaq, 186 qadın və 70 qoca) vəhşicəsinə doğranır, güllələnir, yandırılır, xüsusi qəddarlıqla qətlə yetirilir. Soyulmuş baş dərilərindən, kəsimiş qulaq seyvanlarından kolleksiyalar düzəldirlər. Şəhər əhalisindən 910 nəfər əsir götürülür, 487 nəfər şikəst edilir, onlarla ailə soyqırıma məruz qalır. Beynəlxalq aləmdə ad çıxarmış «ASALA» terrorçusu Vazgen Sislyan öz milli mənliyini ikigünlük körpəni öldürməklə bəyan və nümayiş etdirir;

**965.***26 fevral 1992-ci il:* Daşnak terror qrupları Tərtər rayonunun Qapanlı, Qaradağlı, Seydimli kəndlərinə həmlə edirlər. Nəticədə dörd mülki şəxs həlak olur, doqquz nəfər yaralanır;

**966.***26 fevral 1992-ci il:* Daşnak terrorçuları ölüm təhlükəsi ilə üz-üzə qalan Xocalıların köməyinə can atan Ağdam müdafiəçilərindən Canpolad Yaqub oğlu Rzayev və Hikmət Baba oğlu Nəzərlini qətlə yetirirlər;

**967.***27-29 fevral 1992-ci il:* Şuşa şəhəri Şüşükənd və Müxətər kəndlərində mövqe tutmuş daşnak terror birləşmələri tərəfindən top, raket

atəşinə tutulur. Həmlədə hərbi vertolyotlardan da istifadə edilir. 12 ev tamamilə, 10 ev isə qismən dağıdılır. 15 ev tamamilə yandırılır. Müdafiəçilədən Rasim Saleh oğlu Ağamuradov, Qriqori İvanoviç Karyev, dinc sakinlərdən Minayə Ağəli qızı Qasımova, Azər Əlövsət oğlu Məmmədov yaralanır;

**967.*28 fevral 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini qrad qurğularından atəşə tuturlar. Nəticədə 2 nəfər həlak olur, 2 nəfər yaralanır. Ciddi dağıntılar törədilir;

**968.*01 mart 1992-ci il:*** Daşnak terrorçuları Xocalıdan əsir götürdükləri Azərbaycan türklərindən 120 nəfərini martın 1-nə keçən gecə güllələyirlər;

**969.*04 mart 1992-ci il:*** Daşnak terror qrupu Ağdərənin Sırxavənd kəndinə basqın edir. Yeddi nəfər həlak olur, on nəfər yaralanır, iki nəfər itkin düşür;

**970.*08 mart 1992-ci il:*** Daşnak terror qrupu Ağdam ərazisində yerləşən Qaraqaya adlı hərbi hissə postuna basqın edir. İki nəfər həlak olur. Postdakıların əksəriyyəti güllə yarası alır;

**972.*08-12 mart 1992-ci il:*** Naxçıvanik, Xanabad və Əsgəranda yurd salan daşnak terrorçuları Ağdam şəhərini müntəzəm olaraq bombardman edirlər. «Kristal» raketlərindən, qrad qurğularından atəşə tuturlar. Onlarla yaşayış evi, ticarət pasajı yerlə-yeksan edilir, 28 nəfər həlak olur, 60 nəfər isə yaralanır;

**973.*08 mart 1992-ci il:*** Qazax rayonunun Xeyrimli kəndi daşnak terror birləşməsi tərəfindən işğal olunur. Kənd əhalisi bütünlüklə dədə-baba yurdlarından didərgin salınır;

**974.*10 mart 1992-ci il:*** «Müqəddəs Sultan-Karapet» adlı daşnak terror qrupu Laçının Zabux, Hacılar, Pircahan, Əhmədli, Quşçu kəndlərinə kəşfiyyat reydləri təşkil edir. Zabuxdan 2, Hacılardan 3, Pircahandan 2, Əhmədlidən 3, Quşçudan 1 nəfəri kəndlər ətrafı ərazilərdən oğurlayaraq girov götürürlər;

**975. *12 mart 1992-ci il:*** Daşnak terrorçuları səhər saat $4^{00}$-dan Şuşa şəhərini artilleriya atəşinə tuturlar. On bir nəfər dinc şəhər sakini həlak olur. Otuz nəfərdən çoxu isə yaralanır. Qadın və uşaqlar şəhərdən çıxarılır;

**976.*13 mart 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdam şəhərini təkrar raket mərmilərindən güclü atəşə tuturlar. 3 nəfər olur, 10 nəfər yaralanır;

**977.*13 mart 1992-ci il:*** Daşnak terror qrupu Goranboyun Şəfəq kəndinə basqın edir. 2 nəfər həlak olur, 1 nəfər yaralanır;

**978. *13 mart 1992-ci il:*** Daşnak terror qrupları Goranboyun Zeyvə, Tapqaraqoyunlu kəndlərini güclü atəşə tuturlar. 1 nəfər həlak olur, 2 nəfər yaralanır;

**979.*13 mart 1992-ci il:*** Daşnak terror qrupu Goranboyun Todan kəndinə basqın edir. 4 traktora, 7 sistern yanacağa od vurulur;

**980.*13 mart 1992-ci il:*** Daşnak terrorçuları Füzuli şəhərini artilleriya atəşinə tuturlar. Dinc şəhər sakinlərindən 10 nəfər həlak olur. Xeyli şəhər sakini yaralanır;

**981.*14 mart 1992-ci il:*** Daşaltı kəndində mövqe tutan daşnak terrorçuları Şuşa-Laçın yolunda hərəkət edən «UAZ» markalı maşını partladırlar. 1 nəfər yaralanır. Şuşa şəhərini «Qrad» tipli raketlərdən atəşə tuturlar. 3 ev tamamilə yandırılır, bir mağaza binası dağıdılır. 3 nəfər dinc sakin ağır qəlpə yarası alır;

**982.*14 mart 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdərənin Sırxavənd, Orta Güney, Manikli kəndlərinə basqın edirlər. Qarabağın dağlıq hissəsində yerləşən son azərbaycanlı kəndləri işğala məruz qalır. 100-ədək azərbaycanlı türkü qətlə yetirilir. Sağ qalan əhali doğma od-ocaqlarından didərgin salınır;

**983.*14 mart 1992-ci il:*** Qazax rayonunun Məzəm kəndinə gedən iki avtobus daşnak terrorçularının basqınına məruz qalır. Sərnişinlər yerlərini tərk etdikdən sonra avtobuslardan biri partlayır;

**984.** ***14 mart 1992-ci il:*** Daşnak terror qrupu Şuşa şəhərini artilleriya atəşinə tutur. İyirmiyə yaxın ev dağıdılır, 15 ev tamamilə yanır;

**985.** ***14 mart 1992-ci il:*** Daşnak terror qrupu Ağdərənin Baş Güneypəyə kəndinə basqın edir. On nəfər kənd sakini həlak olur;

**986.** ***15 mart 1992-ci il:*** Daşaltı kəndində mövqe tutmuş daşnak terror qrupu Şuşa-Laçın yolunda hərəkət edən Gəncə-Şuşa, Ağdam-Şuşa sərnişin avtobuslarını BMP, BTR və qumbaraatatanlardan atəşə tuturlar. 1-ci avtobusdan 5 nəfər, 2-ci avtobusdan isə 2 nəfər sərnişin ağır qəlpə yarası alır;

**987.** ***16 mart 1992-ci il:*** Daşnak terror qrupu Füzuli şəhərini raket atəşinə tutur. Hərbi komissarlıq binasının, kolxoz bazarının ətrafında dağıntılar törədirlər. Şəhər sakinləri - Fərid Asif oğlu Ağayev, Mobil Balaca oğlu Kazımov, Saleh Qərib oğlu Qəmbərov və başqaları daxil olmaqla 9 nəfər həlak olur, 15 nəfər yaralanır. Şəhərdə çoxlu dağıntılar qeydə alınır;

**988.** ***16 mart 1992-ci il:*** Daşnak terrorçuları Goranboyun Şəfəq kəndini təkrar atəşə tuturlar. 1 nəfər dinc sakin həlak olur;

**989.** ***18 mart 1992-ci il:*** Daşnak terrorçuları Tərtər rayonunun Qapanlı və Qaradağlı kəndlərini artilleriya atəşinə tuturlar. Üç nəfər dinc kənd sakini həlak olur;

**990.** ***19 mart 1992-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Əmirallar, Ağdam rayonunun Şelli və Abdal-Gülablı kəndlərini atəşə tuturlar. Atəş zamanı Şelli kəndinin bir dinc sakini qəlpə yarası alır;

**991.** ***20 mart 1992-ci il:*** Ağdərənin Sırxavənd kəndində yerləşən daşnak terrorçuları Ağdamın Qalayçılar və Əliağalı kəndlərini top atəşinə tuturlar;

992. ***21 mart 1992-ci il:*** Xocavənd rayonunun ermənilər yaşayan kəndlərində möhkəmlənən daşnak terrorçuları Füzuli rayonunun Cuvarlı, Arış, Xələfşə, Hoğa, Govşad, Qacar və Aşağı Divanallar kəndlərini ağır döyüş

texnikası və raketlərdən atəşə tuturlar. Divanallar kəndinin müdafiəçilərindən 2 nəfər yaralanır;

**993.*21 mart 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Aşağı Əskipara, Məzəm, Sofulu, Cəfərli, Quşçu-Ayrım kəndlərinə basqınlar edirlər. Dörd nəfər həlak olur, altı nəfər yaralanır;

**994.*22 mart 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Muğanlı kəndinə basqın edir, Abdal-Gülablı, Şelli, Qalayçılar kəndlərini isə «Kristal», «Alazan» tipli raketlərdən atəşə tuturlar. Muğanlı kənd sakini Əhəd Cəfərovu qətlə yetirən terrorçular 200 baş qoyunu da sürüb özləri ilə aparırlar. O biri kəndlərdə isə 15-dən artıq ev dağıdılır. Yaralananlar olduğu qeydə almır;

995. ***22 mart 1992-ci il:*** Daşnak terror qrupu Qazax rayonu ərazisində avtomaşın partladır. Üç nəfər həlak olur, iki nəfər yaralanır;

996.***23 mart 1992-ci il:*** Şuşa yol idarəsinə məxsus «QAZ-53» markalı yanacaq maşını Laçın-Şuşa yolunda daşnak terrorçuları tərəfindən vurulur. Sürücü və onu müşayiət edən şəxs cəld tərpənərək maşını tərk edirlər. Maşın və 5 tona yaxın yanacaq yandırılır;

**996.*24 mart 1992-ci il:*** Daşnak terror qrupu Tovuzun Koxa Nəbi kəndinə həmlə edir. Kənd müdafiəçisi Namiq Nəsir oğlu Yusifov həlak olur;

**997.*24 mart 1992-ci il:*** Daşnak terror birləşmələri tərəfindən Ağdam şəhəri, habelə rayonun Şelli, Paqravənd, Abdal-Gülablı, Əhmədavar, Əliağalı, Qalayçılar, Çuxurməhlə kəndləri atəşə tutulur. 3 nəfər yaralanır, çoxlu sayda dağıntılar olduğu qeydə alınır;

**998.*24 mart 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Xocavəndin Hadrut qəsəbəsində yerləşən RF-na məxsus sərhəd qoşunlarının yerləşdiyi şəhərcik mühasirəyə alınır, 7 nəfər hərbi qulluqçu girov götürülür. Dəstə komandirindən tələb edilir ki, döyüş texnikasını ermənilərə təhvil versinlər;

**999.** ***24 mart 1992-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərinə həmlə edirlər. Müdafiəçilərdən iki nəfər itgin düşür. İtgin düşənlər sonradan qətlə yetirilir;

**1000.*26 mart 1992-ci il:*** Daşnak terrorçuları Ağstafanın Köhnə Qışlaq kəndi yaxınlığındakı Qəpənçə meşəsində yaz-tarla işləri aparan altı nəfəri girov götürürlər;

**1001.*27-29 mart 1992-ci il:*** Daşaltı kəndində möhkəmlənən daşnak terrorçuları Şuşa şəhərini, Qaybalı kəndini, şəhər ətrafındakı Quşçular fermasını, Laçın-Şuşa yolunu müntəzəm olaraq atəş altında saxlayırlar, həmlələr edirlər. Laçın-Şuşa elektrik xəttini sıradan çıxarırar. Kürdəmir-Şuşa avtobusunu vururlar. 5 nəfər güllə yarası alır. Şuşaya həkimlər qrupu gətirən avtobusu BMP-dən atəşə tuturlar. 6 həkim ağır qəlpə yarası alır. Şəhər sakini Yaşar Hikmət oğlu Məmmədov Bazarbaşında yaralanır. Müdafiəçilədən daha 3 nəfər yaralanır;

**1002.*28 mart 1992-ci il:*** Daşnak terrorçuları Goranboyun sərhəd kəndlərini atəşə tuturlar. 1 nəfər həlak olur, 1 nəfər yaralanır. Həmçinin

"KAMAZ-5410" markalı 40-53 AQS dövlət nişanlı avtomaşını partladırlar. Nəticədə 3 nəfər həlak olur, 1 nəfər yaralanır;

**1003.*29 mart 1992-ci il:*** Daşnak terrorçuları Şuşanın Kosalar və Qaybalı kəndlərinə basqın edirlər. Qaybalıda dörd dinc sakin yaralanır;

**1004.*30 mart 1992-ci il:*** Daşnak terror qrupu Füzuli rayonunun Hoğa kəndinə basqın edir. Evini tərk etməyənlər qətlə yetirilir. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır. Kənd yerlə-yeksan edilir;

**1006.*31 mart 1992-ci il:*** Daşnak terrorçular Şuşanın Kosalar və Qaybalı kəndlərinə təkrar həmlə edirlər. Həmlələr zamanı bir nəfər dinc sakin həlak olur, yeddi nəfər yaralanır;

**1007.*31 mart 1992-ci il:*** Daşnak terrorçuları Gədəbəyin Mutudərə kəndinə basqın edirlər. Goranboyun Tapqaraqoyunlu kəndini isə top atəşinə tuturlar. Mutudərədə bir dinc sakin yaralanır. Tapqaraqoyunlu kəndində isə 4 uşaq qəlpə yarası alu";

**1008.*03 aprel 1992-ci il:*** Ağdərənin Canyataq kəndində möhkəmlənmiş daşnak terrorçuları Ağdamın Qalayçılar kəndini minamyot və BMP-lərdən atəşə tuturlar. Nəticədə 1 dinc sakin, bir kənd müdafiəçisi qəlpə yarası alır;

**1009.*04 aprel 1992-ci il:*** Daşnak terrorçuları Tovuz rayonunun Əlibəyli kəndinə həmlə edirlər. Bir nəfər kənd sakini ağır güllə yarası alır;

**1010.*04 aprel 1992-ci il:*** Tuğ kəndində yerləşən daşnak terrorçuları tərəfindən Füzuli şəhərinə 5 ədəd top mərmisi atılır, müdafiəçilərdən iki nəfər yaralanıb;

**1011.*06 aprel 1992-ci il:*** Daşaltı kəndində məskən salan daşnak terrorçuları Laçın-Şuşa yolunda hərəkət edən "QAZ-52" markalı yük maşınını PDM-lərlə atəşə tuturlar. Sürücü Xəyyam Əvəz oğlu Mirzəyev həlak olur. Müşayiətçi Yusif Süleymanov ağır yaralanır;

**1012.*07-08 aprel 1992-ci il:*** Daşnak terror qrupları Kəlbəcərin Ağdaban kəndinə şiddətli hücuma keçirlər. 38 nəfər dinc sakin (əksəriyyəti qadın və uşaq) qətlə yetirilir, iki nəfər evində yanıb kül olur. 19 nəfər yaralanır, yeddi nəfər girov götürülür. 50-dən çox adam itkin düşür. Kolxozun 1000 baş mal-qarası, 4000 baş qoyunu, camaatın minlərlə baş mal-qarası və davarı sürülüb aparılır. Əhalinin əmlakı qarət olunur. Kənd başdan-başa oda qalanır;

**1013.*07 aprel 1992-ci il:*** Ağdərənin Canyataq kəndində məskən salan daşnak terrorçuları Ağdamın Papravənd kəndini top və raket atəşinə tuturlar. Nəticədə 2 ev dağıdılır.

**1014.*07 aprel 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Əmirallar və Muğanlı kəndlərini iriçaplı pulemyotlardan və döyüş maşınlarından güclü atəşə tuturlar. Dağıntılar olduğu qeydə alınır;

**1015.*11 aprel 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Cəmilli, Qacar kəndlərinə həmlə edirlər. Cəmillidə 2 nəfər, Qacarda 4 nəfər - dinc kənd sakini Miralım Həşim oğu Əliyev və 3 kənd müdafiəçisi həlak olur;

**1016.*11 aprel 1992-ci il:*** Daşnak terrorçuları Füzulinin Qacar kəndi səmasından keçən mülki vertolyotu atəşə tuturlar. 3 ekipaj üzvü həlak olur.;

**1017.*12 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Papravənd və Boyəhmədli kəndlərini toplardan və raketlərdən intensiv atəşə tuturlar. Papravənddə 8, Boyəhmədlidə 3 yaşayış evi dağıdılır;

**1018.*12 aprel 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Divanallar kəndinə hücum edirlər. Bir dinc kənd sakini yaralanır;

**1019.*13 aprel 1992-ci il:*** Xocavəndin rayon mərkəzində yuva quran daşnak terrorçuları Xocavəndin Əmirallar kəndini qumbaraatanlardan və zirehli texnikadan atəşə tuturlar. Nəticədə kənd sakini Əli Səfərovun evi və mal-qara tövləsi yanır;

**1020.*13 aprel 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Govşad, Qaradağlı, Arış, Çəmən kəndlərinə həmlələr edirlər. Çəməndən iki nəfər girov götürüiür;

**1021.*13 aprel 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Məzəm, Quşçu-Ayrım, Aşağı Əskipara kəndlərinə həmlə edirlər. Bir nəfər həlak olur, doqquz nəfər yaralanır;

**1022.*13 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Güllücə, Boyəhmədli, Şotlanlı, Əhmədavar kəndlərini atəşə tuturlar;

**1023.*14 aprel 1992-ci il:*** Əsgəranda məsgən salan daşnak terrorçuları Ağdam şəhərini döyüş maşınlarından və iriçaplı pulemyotlardan atəşə tuturlar. Şəhər müdafiəçilərindən iki nəfər həlak olur;

**1024.*14 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdam rayonunun Papravənd, Şelli, Qalayçılar kəndlərinə həmlə edirlər. İki nəfər həlak olur;

**1025.*14 aprel 1992-ci il:*** Daşnak terrorçuları Şuşa şəhərini artilleriya atəşinə tuturlar, Səkkiz nəfər yaralanır;

**1026.*15 aprel 1992-ci il:*** Daşnak terror qrupu Xocavəndin Muğanlı kəndinə həmlə edirlər. İdman sarayı, tikiş sexi, 5 yaşayış evi tamamilə dağıdılır. Dinc, əliyalın kənd sakinlərindən 6 nəfər yaralanır;

**1027.*17-18 aprel 1992-ci il:*** Daşnak terrorçuları Laçın-Şuşa yolunun Haçaqaya deyilən yerində Şuşaya yük aparan maşına həmlə edirlər. Nəticədə maşını müşayiət edən Şuşa rayon DİŞ-nin iki əməkdaşı - Allahverdi Qaçay oğlu Hüseynov və Yaşar Seyfulla oğlu Quliyev ağır güllə yarası alır. Habelə "Qazax-Cəfərli" yolunun 10-cu km-də isə "VAZ" markalı maşına basqın edirlər. 2 nəfər ölümcül yaralanır;

**1028.*19 aprel 1992-ci il:*** Xocavəndin rayon mərkəzində at oynadan daşnak terrorçuları Əmirallar kəndini zirehli maşınlardan və iriçaplı pulemyotlardan atəşə tuturlar. Nəticədə bir ev yandırılır, kəndin müdafiəçilərindən Xanoğlan Həsənov və Xanoğlan Salahov qətlə yetirilir;

**1029.*20 aprel 1992-ci il:*** Qafan və Gorus şəhərlərində yurd salan daşnak terrorçuları Qubadlı rayonunun Əliquluuşağı kəndini atəşə tuturlar. Bir nəfər dinc kənd sakini yaralanır, bir neçə ev dağıdılır;

**1030.*22 aprel 1992-ci il:*** Daşnak terrorçuları Zəngilanın Kollu, Günqışlaq, Seyidlər, Pirveyisli, Rəzdərə kəndlərinə həmlələr edirlər. Nəticədə Rəzdərə kənd sakini, kiçik yaşlı Süleymanov Sadıq Baloğlan oğlu qəlpə yarasından həlak olur;

**1031.*24 aprel 1992-ci il:*** Daşnak terror qrupu Ağdamın Şelli, Abdal-Gülablı və Papravənd kəndlərinə həmlə edirlər. İki nəfər həlak olur, on nəfər yaralanır;

**1032.*24 aprel 1992-ci il:*** Daşnak terrorçuları Goranboyun Sarısu kəndinə həmlə edirlər. Bir nəfər yaralanır;

**1033.*24-26 aprel 1992-ci il:*** Xocavəndin rayon mərkəzində isnadgah qurmuş daşnak terrorçuları Əmirallar, Kuropatkino və Muğanlı kəndlərini zirehli maşınlardan və ağır toplardan atəşə tuturlar. Nəticədə Əmirallar kənd sakinləri Vaqif Hüseynovun və Xankişi Həsənovun evi yandırılır;

**1033.*27 aprel 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Ağdamın Əhmədavar, Xıdırlı, Çuxurməhlə və Abdal-Gülablı kəndləri ağır artilleriya atəşinə tutulur. Nəticədə Abdal-Gülablı kəndində xeyli ev dağıdılır, bir nəfər dinc kənd sakini qəlpə yarası alır;

**1034.*27 aprel 1992-ci il:*** Daşnak terror qrupu Qazax rayonunun Sofulu və Bərxudarlı kəndlərinə basqın edir. Nəticədə 7 nəfər dinc sakin şəhid düşür, 3 nəfər isə ağır yaralanır. 200 evin əmlakı qarət olunur. Evlər daşındıqdan sonra tamamilə yandırılır, 4 tarixi abidə məhv edilir. Kəndlərin əhalisi doğma ev-eşiyindən didərgin salınır;

**1035.*28 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdərənin Narınclar kəndinə həmlə edirlər. Altı nəfər həlak olur, iki nəfər yaralanır;

1036.***28 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Əliağalı, Qalayçılar, Şotlanlı kəndlərini atəşə tuturlar. Yaralananlar və zərərçəkənlər olduğu qeydə alınır;

1037.***29 aprel 1992-ci il:*** Daşnak terrorçuları Şuşanın Kosalar kəndinə həmlə edirlər. Beş nəfər - Fəxrəddin Səfərov, Ramiz Qəmbərov, Nəriman Quliyev, Elton Əkbərov və 17 yaşlı Pənah Muxtarov həlak olur, on beş nəfər yaralanır;

**1039.*29 aprel 1992-ci il:*** Daşnak terrorçuları Füzuli şəhərinə və ətraf kəndlərə həmlələr edirlər. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**1040.*30 aprel 1992-ci il:*** Daşnak terrorçuları Ağdərə rayonunun Narınclar kəndinə təkrar həmlələr edirlər. Beş nəfər həlak olur;

**1041.*30 aprel 1992-ci il:*** Daşnak terrorçuları Şuşanın Hacı talası deyilən strateji mövqeyinə həmlə edirlər. Dörd nəfər həlak olur, on iki nəfər yaralanır;

**1042.*02 may 1992-ci il:*** Daşnak terrorçuları Goranboyun - Todan və Şəfəq kəndlərinə basqın edirlər. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**1043.*02 may 1992-ci il:*** Daşnak terrorçuları Tovuzun Əlibəyli, Ağbulaq, Ağdam, Koxa Nəbi, Muncuqlu kəndlərinə həmlə edirlər. Əlibəyli kəndinin iki sakini yaralanır, 5 ev dağıdılır;

1044.***03 may 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Quşçu-Ayrım kəndinə həmlə edirlər. Doqquz nəfər yaralanır;

**1044.*03 may 1992-ci il:*** Daşnak terror qrupu Şərur rayonunun Sədərək qəsəbəsinə basqın edirlər. 2 polis əməkdaşı qətlə yetirilir, 11 nəfər isə yaralanır;

**1045.*05 may 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Çuxurməhlə kəndinə basqın edirlər, iki nəfər qətlə yetirilir;

**1046.*06 may 1992-ci il:*** Füzuli rayonunun Qacar, Divanallar kəndləri daşnak terrorçularının həmləsinə məruz qalır. İki nəfər həlak olur, beş nəfər dinc sakin yaralanır;

**1047.*06 may 1992-ci il:*** Naxçıvanın Sədərək qəsəbəsi, Havış və Günnüt kəndləri daşnak terrorçularının həmləsinə məruz qalır. Üç nəfər həlak olur, 45 nəfər güllə yarası alır;

**1048.*07 may 1992-ci il:*** Daşnak terrorçuları Xocavənd rayonunun Kuropatkino kəndinə basqın edirlər. 10 nəfər dinc sakin güllə yarası alır;

**1049.*07 may 1992-ci il:*** Füzuli rayonunun Hoğa kəndi daşnak terrorçularının həmləsinə məruz qalır, 6 nəfər qətlə yetirilir, çoxsaylı güllə yarası alanlar olur;

**1050.*08 may 1992-ci il:*** Daşnak terror birləşmələri həddi-hüdudu olmayan xəyanətlərdən bəhrələnərək üç istiqamətdən 20.000 nəfərlik əhalisi olan Şuşa şəhərinə həmlə edirlər. 155 nəfər həlak olur, 167 nəfər isə yaralanır. Yüzlərlə maddi-mədəniyyət abidəsi olan, Azərbaycanın tacı, Qarabağın incisi Şuşa şəhəri işğala məruz qalır;

**Qeyd:** Bununla da Şuşa şəhərində və onun 30 ətraf kəndlərində yaşayan 40000-ə yaxın Azərbaycan türkü erməni-daşnak faşistlərinin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilir. Şuşa şəhəri bu savaşda ümumilikdə 193 şəhid verir;

**1051.*08 may 1992-ci il:*** Daşnak terrorçuları Tovuz rayonunun Əsrik-Çırdaxan kəndinə həmlə edirlər. Dörd nəfər yaralanır;

**1052.*08-12 may 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini və Ağdamın Əliağalı, Papravənd, Muğanlı, Abdal-Gülablı, Şelli və Güllücə kəndlərini müntəzəm olaraq güclü şəkildə atəşə tuturlar. Nəticədə Ağdamda bir polis əməkdaşı həlak olur. Əliağalı kəndinin dinc sakini Mehdiyev Behbud qəlpə yarası alır. Ağdam şəhərində, habelə Muğanlı, Əliağalı, Papravənd kəndlərində ciddi dağıntılar törədilir;

**1053.09 may 1992-ci il:** Daşnak terror qruplaşması Kosalar kəndinə basqın edir. 18 nəfər dinc sakin qətlə yeürilir, kənd əhalisi ev-eşiyindən didərgin salınır. Kənd bütövlükdə qarət olunur, evlər yerlə-yeksan edilir;

**1054.** ***09may 1992-ci il:*** Gorus rayonu ərazisində möhkəmlənmiş daşnak terror birləşmələri Laçın şəhərini top atəşinə tuturlar. Dinc şəhər

sakinləri - Seyfəli Əli oğlu Qədirov, Şahin Əhməd oğlu Əhmədov, Ramiz İsmayıl oğlu Heydərov, Mehman Fəxrəddin oğlu Qasımov, Qaçay Surxay oğlu Məhərrəmov, Elməddin İsaq oğlu Musayev və Ardışlı kənd sakini Seyfəli Əli oğlu Qədirov həlak olur;

**1055.** ***10 may 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Böyük Cəfərli, Musagöy kəndlərinə həmlə edirlər. Beş nəfər yaralanır;

**1056.** ***10-11 may 1992-ci il:*** Daşnak terrorçuları Füzuli şəhərini və rayonun Dilağarda kəndini BMP-lərdən atəşə tuturlar. Nəticədə Füzuli şəhərində bir ev yandırılır, 2 ev dağıdılır, şəhərin mərkəzindəki dörd mərtəbəli yaşayış evinə ciddi zərər yetirilir;

**1057.** ***12 may 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini və rayonun Şelli, Əhmədavar, Xıdırlı, Qalayçılar, Abdal-Gülablı kəndlərini atəşə tuturlar. Ciddi dağıntılar olduğu qeydə alınır;

**1058.** ***12 may 1992-ci il:*** Qafan şəhərində məskən salan daşnak terrorçuları Qubadlı şəhərini mərmi atəşinə tuturlar. Şəhərdə ciddi dağıntılar törədilir;

**1059.** ***12 may 1992-ci il:*** Gorus şəhərində məskən salan daşnak terrorçuları Laçın şəhərini «Kristal» tipli raketlərdən atəşə tuturlar. Rayon xəstəxanasını tamamilə dağıdırlar;

**1060.** ***12may 1992-ci il:*** Xocavəndin Əmirallar və Muğanlı kəndləri Martunidə yuva qurmuş daşnak terrorçuları tərəfindən toplardan və PDM-lərdən intensiv şəkildə atəşə tutulur. Nəticədə Kuropatkino kəndindəki şərab zavodu, Muğanlı kənd sakini Kərəm İmanova məxsus yaşayış evi tamamilə dağıdılır;

**1061.** ***13 may 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Tərtər və Bərdə şəhərləri «Qrad» tipli raketlərdən atəşə tutulur. Nəticədə Bərdə şəhərinin C.Cabbarlı küçəsindəki 5 saylı ev tamamilə dağıdılır, 5 nəfər dinc şəhər sakini həlak olur;

**1062.** ***13 may 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdam şəhərini, Abdal-Gülablı kəndini atəşə tutur, Güllücə, Boyəhmədli, Şotlanlı kəndlərinə basqınlar edirlər. Ölən, yaralanan və dağıntılar olduğu qeydə alınır;

**1063.** ***15 may 1992-ci il:*** Əsgəranda isti yuva qurmuş daşnak terrorçuları Ağdam şəhərini «Qrad» və «Kristal» tipli raketlərdən atəşə tuturlar. Nəticədə 8 nəfər dinc şəhər sakini həlak olur. Bir neçə fərdi yaşayış evi və ticarət obyektlərinə ciddi zərər dəyir;

**1064.** ***15 may 1992-ci il:*** Cəbrayıl RPŞ-nin bölmə rəisi Əbdürrəhim Heydərov xidməti maşında daşnak terrorçularının Dolanlar kəndi ərazisində basdırdıqları minaya düşür. Partlayış nəticəsində polis kapitanı Əbdürrəhim Heydərov həlak olur;

**1065.** ***17 may 1992-ci il:*** Daşnak terrorçuları Laçının Qarıqışlaq kəndinə hücum edirlər. Kənd işğala məruz qalır. Kənd sakinlərindən Polad Əsgər oğlu Məmmədov, Tahir Məmməd oğlu Məmmədov həlak olur. Kənddən girov düşən 9-11 yaş arasında olan 8 nəfər qız uşağı (bunlardan 4-ü Hacılar

kəndindən idi) 18 may 1992-ci il tarixdə saat $13^{50}$-də terrorçular tərəfindən güllələnir;

**1066.** ***17-18 may 1992-ci il:*** Daşnak terror birləşmələri iki istiqamətdən Laçın rayonuna həmlə edirlər. Laçın şəhəri və onun 125 kəndi işğal olunur. Rayonun 71 min əhalisi yurd-yuvasından didərgin salınır. Ümumilikdə rayon üzrə 328 nəfər şəhid olur, 36 nəfər girov götürülür, 100 nəfər itkin düşür;

**1067.** ***17 may 1992-ci il:*** Ağdərənin Marquşavan kəndində yuva qurmuş daşnak terrorçuları Tərtər şəhərini və rayonun Seydimli kəndini «Qrad» tipli raketlərdən atəşə tuturlar. Nəticədə Seydimli kəndinin 5 nəfər dinc sakini yaralanır, rayonun asvalt zavodu dağıdılır;

**1068.** ***17-18 may 1992-ci il:*** Daşnak terrorçuları Füzuli şəhərini top atəşinə tuturlar. Dağıtılar olduğu qeydə alınır;

**1069.** ***18 may 1992-ci il:*** Daşnak terror birləşmələri Şərur rayonunun Sədərək qəsəbəsinə həmlə edirlər. 10 nəfər qətlə yetirilir, 50 nəfər dinc sakin yaralanır;

**1070.** ***19 may 1992-ci il:*** Daşnak terrorçuları əsir götürdükləri 7 azərbaycanlını da tez bir zamanda Laçın şəhəri ərazisində təşkil edilən, «Sonasar» adlanan əsir düşərgəsinə göndərirlər. Burada iş başına keçmiş həkim ixtisaslı daşnak terrorçusu Aida Saakyan tərəfindən zəhərli iynə və preparatlar ilə qətlə yetirilən çoxsaylı uşaqlar üçün ayrıca qəbiristanlıq salınır. «Dərə» adlanan qəbiristanlıqda daşnak terrorçuları gündə 36 azərbaycanlını qətlə yetirib basdırdıqları qeydə alınıb;

**Qeyd:** Bu baradə əldə etdiyi ilk məlumatı 27 may 1992-ci il tarixdə BMT-nin Uşaq Fonduna diplomat Françesko Vendrell çatdırmışdır;

**1071.** ***19 may 1992-ci il:*** Daşnak terrorçuları əsir düşən, girov götürülən Azərbaycan türklərini məhv etmək üçün Alxaslı kəndi də daxil olmaqla Laçının altı kəndində dar ağacı qururlar. Laçın sakinləri - 1948-ci il təvəllüdlü Hicrən Əmirova, 1950-ci il təvəllüdlü Rəbiyyə Abdullayeva və neçə-neçə başqaları daşnak terrorçuları tərəfindən bu dar ağaclarından asılaraq qətlə yetirilirlər;

**Qeyd:** İran jurnalisti, fars mənşəli Səyyah Hüseyini «Laçın dəftəri» kitabında göstərir ki, («Morteza qardaşları» nəşriyyatı, 1995., s. 52) Alxaslı kəndindəki dar ağacından bəlkə də ana-bala olan 2 qadın asılmışdı;

**1072.*20 may 1992-ci il:*** Daşnak terror qrupu tərəfindən Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında «UAZ-469» markalı, 80-33 AQD dövlət nömrə nişanlı avtomaşın partladılır. İki nəfər həlak olur, iki nəfər yaralanır;

**1073.*24 may 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Papravənd kəndinə həmlə edirlər. Nəticədə kənd müdafiəçilərindən Sahib Hümbətov həlak olur, bir nəfər isə ağır güllə yarası alır;

**1074.*26 may 1992-ci il:*** Daşnak terrorçuları Goranboyun Todan və Şəfəq kəndlərini atəşə tuturlar. 3 nəfər həlak olur, 8 nəfər yaralanır;

**1075.*28 may 1992-ci il:*** Daşnak terrorçuları tərəfindən Xocavəndin Muğanlı kəndi top və «Kristal» tipli raketlərdən atəşə tutulur. Nəticədə kənd orta məktəbinin binası və kənd sakinlərindən Mətləb Quliyev, Rəhman Hacıyev, İsfəndiyar Qarayev, Zülfüqar Hüseynov və Famil Zeynalova məxsus yaşayış evləri dağıdılır;

**1076.*30 may 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Əliağalı kəndinə hücum edirlər. Kənd sakinlərindən 2 nəfəri yaralayır, 3 nəfəri isə girov götürürlər;

**1077.*31 may 1992-ci il:*** Daşnak terror birləşmələri Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tuturlar. Dağıntılar olduğu qeydə alınır;

**1078.*04 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Papravənd kəndini qrad qurğularından atəşə tuturlar. Nəticədə dinc kənd sakinləri Şükürov Şamil və oğlu Ədalət həlak olur. Bir çox yaşayış evləri ciddi dağıntılara məruz qalır;

**1079.*05-06 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Qalayçılar kəndinə həmlələr edirlər. Kəndin ginc sakini Əsədov Teyyub ağır qəlpə yarası alır;

**1080.*06 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın İlxıçılar kəndinə basqın edirlər. 1979-cu il təvəllüdlü kənd sakini Seyidov Vaqif Barat oğlu güllə yarası alır, üç ev dağıdılır;

**1081.*08 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Güllücə kəndinə və Qarağacı postuna basqın edirlər. Güllücə kənd sakinlərindən bir nəfər və müdafiəçilərdən 5 nəfər həlak olur, 2 nəfər isə yaralanır;

**1082.*08 iyun 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Muğanlı, Kuropatkino və Əmirallar kəndlərinə həmlələr edirlər. Muğanlı kəndində bir dinc sakin yaralanır, kəndin bir sıra yaşayış evləri dağıdılır;

**1083.*08 iyun 1992-ci il:*** Qazax rayonunun Yuxarı Əskipara kəndi daşnak terror birləşməsi tərəfindən işğala məruz qalır;

**1084.*10 iyun 1992-ci il:*** Ermənistanın İcevan rayonunda toplanmış daşnak terror birləşmələri Qazax rayonunun ərazisinə basqınlar edirlər. Nəticədə rayon müdafiəçilərdən 7 nəfər həlak olur, 30 nəfər isə ağır güllə yarası alır;

**1085.*11 iyun 1992-ci il:*** Daşnak terrorçuları Qazağın Qızıl Hacılı kəndinə basqın edirlər. Kənd əhalisini ev-eşiyindən didərgin salırlar;

**1086.*13 iyun 1992-ci il:*** Daşnak terrorçuları Cəbrayıl şəhərini raket atəşinə məruz qoyurlar;

**1087.*14 iyun 1992-ci il:*** Daşnak terror birləşmələri Qazax rayonunun Aşağı Əskipara kəndinə basqın edirlər. Əhali kənddən didərgin salınır;

**1088.*14 iyun 1992-ci il:*** Goranboy ərazilərinin daşnak terrorçularından təmizlənməsi əməliyyatlarında rayon müdafiəçilərindən 16 nəfər həlak olur, 100 nəfər isə yaralanır;

**1089.*14 iyun 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Çaylı kəndini «Kristal» tipli raketlərdən atəşə tuturlar. Kəndin 2 dinc sakini şəhid düşür, 7 ev dağıdılır;

**1090.*16-17 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini və ətraf kəndləri atəşə tuturlar. Ölənlər olduğu və xeyli tələfata yol verildiyi qeydə alınır;

**1091.*19 iyun 1992-ci il:*** Tabor komandiri Şahin Mirzəyevin əyləşdiyi maşın daşnak terrorçularının Ağdamın Yeni Qaralar yoluna basdırdığı minaya düşür. Nəticədə maşında əyləşmiş Şirin Vəli oğlu, Mübariz Fariz oğlu, Araz Cavanşir oğlu Mirzəyevlər həlak olur;

**1092.*21 iyun 1992-ci il:*** Ağdam şəhəri və ətraf kəndlər daşnak terrorçularının atəşinə məruz qalır. Əliağalı kəndində 4 nəfər həlak olur, bir nəfər yaralanır. Əlimədədli kənd sakini Aybəniz Hüseynova yaralanır, onun körpə uşağı həlak olur. Şıxbabalı kəndində X sinif şagirdi Mehman Şirinov və Telman Quliyev həlak olur. Ağdam DAM-ın rəisi Vaqif Rzayev, şərab zavodunun gözətçisi Rəsul Hüseynov yaralanır;

**1093.*28 iyun 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Qacar kəndini qrad qurğularından atəşə tuturlar. 4 nəfər dinc sakin həlak olur, 14 nəfər isə qəlpə yarası alır;

**1094.*28 iyun 1992-ci il:*** Daşnak terrorçuları Cəbrayıl şəhərini atəşə tuturlar. Tanınmış ziyalı Əliyev Məhəmməd Hüseyn oğlu, evdar qadın Əhmədova Qızbəst Topuş qızı və yay tətilində xalası Səmayəgilə qonaq gəlmiş Sumqayıt şəhərindəki 22 saylı məktəbin V sinif şagirdi Xanəliyev Pünhan Bəyiş oğlu həlak olur. 30 nəfər dinc sakin qəlpə yarası alır;

**1095.*28 iyun 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Papravənd kəndinə hücum edirlər. Kənddə yerləşən islah-əmək müəssisəsinə soxulan terrorçular dustaqlardan və buranın işçilərindən bir neçə nəfəri girov götürürlər. Kənd müdafiəçilərindən 8 nəfər həlak olur. Onlarla dinc sakin yaralanır;

**1096.*28 iyun 1992-ci il:*** Daşnak terror birləşmələri Cəbrayıl-Füzuli rayonunun sərhəd boyu zəbt etdikləri ərazilərdə möhkəmlənirlər. Cəbrayıl müdafiəçilərindən 30, Füzuli müdafiəçilərindən 11 nəfər həlak olur. İtgin düşənlərin olduğu qeydə alınır. Peşəkar hərbiçilərdən Mübariz Qasımov həlak olur, Sahib Hüseynov isə kəllə-beyin travması alır. Təkcə Cəbrayıl müdafiəçilərindən 80 nəfər yaralanır;

**1097.*29 iyun 1992-ci il:*** Daşnak terrorçuları Tərtər rayonunun Həsənqaya kəndinə hücum edirlər. Kəndin müdafiəçilərindən bir nəfər həlak olur, 5 nəfər yaralanır;

**1098.*29 iyun 1992-ci il:*** Xocavəndin Hadrut qəsəbəsində yuva qurmuş daşnak terrorçuları Cəbrayıl rayonunun Süleymanlı kəndini «Kristal» tipli raketlərdən atəşə tuturlar. Üç nəfər dinc sakin yaralanır. Kəndin taxıl zəmiləri yandırılır;

**1099.***29-30 iyun 1992-ci il:* Füzuli şəhəri və ətraf kəndləri - Şəhərcik, Aybasanlı, Qarakollu, Qaradağlı, Pirəhmədli, Rəfədinli kəndləri toplardan və raketlərdən atəşə tutulur. Dağıntılar olduğu qeydə alınır;

**1100.***01 iyul 1992-ci il:* Daşnak terrorçuları Ağdamın Çuxurməhlə və Şelli kəndlərini atəşə tuturlar. Şellidə 4 ev dağıdılır, 3 dinc kənd sakini qəlpə yarası alır;

**1101.***05 iyul 1992-ci il:* Daşnak terrorçuları Ağdamın Abdal-Gülablı və Şelli kəndlərini «Qrad» tipli raketlərdən atəşə tuturlar. Kəndlərdə dağıntılar və yanğınlar olduğu qeydə alınır;

**1102.***07 iyul 1992-ci il:* Daşnak terror birləşməsi Ağdamın Papravənd kəndinə basqın edir. Kənd sakinlərindən Taleh Məmmədov, Qabil Məmmədov, Rizvan Quliyev, Mütalib Abbasov, Əli Kərimov, Tohid Hüseynov, Fuad Cəfərov qətlə yetirilir;

**1103.***11 iyul 1992-ci il:* Daşnak terrorçuları Ağdamın Qalayçılar kəndinə basqın edirlər. Basqın zamanı dinc kənd sakinləri - Rafiq, Natiq, Yasin qardaşları, Şahin Məmmədov, Bəşir və Yusif Əhmədovlar vəhşicəsinə qətlə yetirilir;

**1104.***12 iyul 1992-ci il:* Daşnak terrorçuları Ağdamın Bağbanlar, Saybalı, Novruzlu, Əlimədədli kəndlərini qrad qurğularından atəşə tuturlar. Nəticədə 5 nəfər dinc sakin yaralanır;

**1106.***13 iyul 1992-ci il:* Daşnak terrorçuları Xocavəndin Sur və Muğanlı kəndlərini top atəşinə tuturlar. Nəticədə Muğanlıda Azərbaycan Texniki Universitetinin II kurs tələbəsi Fariz Quliyev başından qəlpə yarası alır. Kənd sakini Sabir Kərimova məxsus fərdi yaşayış evi dağıdılır. Sur kəndində isə bir nəfər yaralanır;

**1107.***15 iyul 1992-ci il:* Daşnak terrorçusu sinayper gülləsi ilə Əsgəranın Naxçıvanik kəndi ərazisində xidməti borcunu yerinə yetirən telerepartyor Çingiz Fərəc oğlu Mustafayevi qətlə yetirir;

**1108.***15 iyul 1992-ci il:* Daşnak terror qrupu Goranboyun Todan kəndinə həmlə edir. Kənd müdafiəçisi Nofəl Zahid oğlu Quliyev həlak olur;

**1109.***21 iyul 1992-ci il:* Daşnak terrorçuları Ağdərənin müdafiə postuna basqın edirlər. Nəticədə müdafiəçilərdən Şahvələd və İbrahim Əvəz oğlu qardaşları həlak olur;

**1110.***26 iyul 1992-ci il:* Xocavəndin Hadrut qəsəbəsində məskən salan daşnak terrorçuları Füzuli rayonunun Qaradağlı kəndini müxtəlif növ silahlardan müntəzəm şəkildə atəşə tuturlar. Bir nəfər dinc kənd sakini həlak olur. Kənd ciddi dağıntılara məruz qalır;

**1111.***27 iyul 1992-ci il:* Qafan şəhərində məskən salan daşnak terror qrupları Qubadlı rayonunun Əyin, Çardaxlı, Tarovlu və Çərəli kəndlərini top atəşinə tuturlar. Ciddi dağıntılar və yanğınlar olduğu qeydə alınır;

**1112.*06 avqust 1992-ci il:*** Daşnak terrorçuları Düzən Qarabağın sərhəd bölgəsində Mİ-24 vertolyotunu zenit raketi ilə vururlar. Ekipaj üzvləri İzzət Cavanşir oğlu Rəhimov və Zakir Nüsrət oğlu Məcidov həlak olur;

**1113.*06 avqust 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdam şəhərini və rayonun Sarıhacılı, Xıdırlı, Əhmədavar kəndlərini atəşə tuturlar. Təlafat və dağıntılar olduğu qeydə alınır;

**1114.*06 avqust 1992-ci il:*** Daşnak terrorçuları Gədəbəy rayonunun Sarataovka və İvanovka kəndlərinə həmlə edərək 5 nəfər dinc kənd sakinini qətlə yetirirlər. Kənd müdafiəçilərindən Məzahir İzzət oğlu Rüstəmov həlak olur;

**1115.*07 avqust 1992-ci il:*** Daşnak terror birləşmələri Laçının Susuzdağ ərazisinə hücuma keçirlər. Rayon müdafiəçilərindən 17 nəfər qətlə yetirilir. Tabor komandiri Aqil Səməd oğlu Məmmədov isə minaya düşərək həlak olur.

**1116.*10 avqust 1992-ci il:*** Daşnak terror birləşmələri Kəlbəcərin Söyüdlü və Dikyurd yaylaqlarındakı müdafiə məntəqələrini ağır artilleriyadan atəşə tuturlar;

**1117.*12 avqust 1992-ci il:*** Daşnak terror qrupu Xocavəndin Sur, Cəbrayılın Doşulu kəndlərini atəşə tuturlar. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**1118.*15 avqust 1992-ci il:*** Cəbrayıl rayonun Şişqaya, Füzuli rayonunun Məngələn-Ata yüksəkliyində, Yuxarı Veysəlli kəndlərində mövqe tutan daşnak terror birləşmələri daha da möhkəmlənirlər. Cəbrayıl müdafiəçilərindən 43 nəfəri qətlə yetirir, 112 nəfəri yaralayırlar. Füzuli müdafiəçilərindən isə 18 nəfəri qətlə yetirir, 15 nəfəri yaralayırlar;

**1119.*18 avqust 1993-cü il:*** Daşnak terrorçuları Cəbrayılın Süleymanlı, Xocavəndin Sur kəndlərini atəşə tuturlar. Dağıntılar olduğu qeydə alınır;

**1120.*18 avqust 1992-ci il:*** Gorus şəhərində yuva qurmuş daşnak terrorçuları Qubadlının Novlu kəndini top atəşinə tuturlar. Kənddə dağıntılar olduğu qeydə alınır. Top mərmisi sahədə taxıl biçən kombayına dəyir və bir nəfər yaralanır;

**1121.*18 avqust 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini və ətraf kəndləri, habelə Laçın və Ordubad rayonlarının sərhəd kəndlərini müxtəlif silahlardan atəşə tuturlar. Dağıntılar olduğu qeydə alınır;

**1122.*22 avqust 1992-ci il:*** Daşnak terror qrupu pusqu quraraq qəflətən Zəngilan rayonunun Şayıflı kəndinə basqın edirlər. Şayıflı dəmiryol stansiyasının rəisi Məhəmməd Qasımovu və oğlu Baloğlan Qasımovu iş yerlərində ələ keçirərək hər ikisini qəddarcasına doğrayırlar;

**1123.*25 avqust 1992-ci il:*** Daşnak terror qrupları Ağdamın Abdal-Güdablı, Qalayçılar kəndlərini, Qubadlı rayonunun mərkəzini, Füzuli şəhərini, Zəngilan şəhərini, habelə rayonun Kollu və

Qazançı kəndlərini «Qrad» tipli raketlərdən atəşə tuturlar. Dağıntılar olduğu qeydə alınır. Zəngilan rayonunda iki nəfər dinc rayon sakini yaralanır;

**1123.** ***30 avqust 1992-ci il:*** Daşnak terrorçuları Cəbrayıl şəhərini və Süleymanlı kəndini atəşə tuturlar. Dinc şəhər sakinləri - şəhər kommunal təsərrüfatı şöbəsinin işçisi - su maşınının sürücüsü Süleymanov Tofiq Mustafa oğlu, evdar qadın Kərimova Səmayə Qiyas qızı, şəhərə iş dalınca gəlmiş Çərəkən kənd sakini Həsənov Ramiz Surxay oğlu və Süleymanlı kənd sakini Kazımova Rəfiqə İsa qızı həlak olur. Nüzgar kənd sakini Fərgüzarov Qafqaz Əli oğlu daxil olmaqla şəhərin 30 dinc sakini yaralanır;

**1124.** ***04 sentyabr 1992-ci il:*** Daşnak terrorçuları Füzulinin Qacar kəndini qrad qurğularından atəşə tuturlar. Ölən və yaralananlar olduğu qeydə alınır;

**1125.** ***04-05 sentyabr 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdamın Abdal-Gülablı kəndinə basqın edirlər. 10 nəfər həlak olur, 2 nəfər girov götürülür, 20 nəfərdən çox kənd müdafiəçisi yaralanır. Kənd əhalisi bütünüklə yurd-yuvalarından didərgin salınır;

**1126.** ***25 sentyabr 1992-ci il:*** Daşnak terrorçuları Qazax rayonunun Fərəhli kəndinə həmlə edirlər. Nəticədə kənd sakini Sayad Allahverdiyev qətlə yetirilir;

**1127.** ***28 sentyabr 1992-ci il:*** Daşnak terrorçuları Ağdam şəhərini və rayonun Əliağalı, Əliməddədli, Kürdlər, Mollalar, Xaçındərbənd kəndlərini atəşə tuturlar. Yaralananlar olur, 20-dən çox ev dağıdılır;

**1128.** ***29 sentyabr 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Quşçular, Sur kəndlərini, habelə Cəbrayıl şəhəri yaxınlığındakı müdafiə postlarını atəşə tuturlar;

**1129.** ***29 sentyabr 1992-ci il:*** Daşnak terror qrupu Laçın rayonunun Səfyan kəndinə basqın edir. Nəticədə 10 nəfər dinc sakin qətlə yetirilir, 16 nəfər isə ağır güllə yarası alır;

**1130.** ***30 sentyabr 1992-ci il:*** Daşnak terrorçuları Zəngilan rayonunun Kolluqışlaq kəndinə həmlə edirlər. Həyət bağlarında təsərrüfat işləri ilə məşğul olan Quliyeva Anuş Mikayıl qızını və oğlu Quliyev Elşad Kamil oğlunu yerlərindəcə avtomat silahdan açılan atəşlə qətlə yetirirlər;

**1131.** ***01 oktyabr 1992-ci il:*** Daşnak terrorçuları Zəngilan rayonunun Saralı Xəştab kəndinə basqın edirlər. Kəndin dinc sakinləri - Vüqar Abasquliyev və Vüqar Babayev odlu silahdan açılan atəşlə qətlə yetirilirlər;

**1132.** ***03 oktyabr 1992-ci il:*** Daşnak terrorçuları Laçının «Turşsu» bulağı yaxınlığında pusqu quraraq Qubadlının qeyrətli oğlu Əliyar Yusif oğlu Əliyevin əyləşdiyi «UAZ» markalı maşını güllələbaran edirlər. Nəticədə Ə.Əliyev və sürücüsü Əlisəadət Ağayevi qətlə yetirirlər;

**1133.** ***08 oktyabr 1992-ci il:*** Daşnak terror birləşmələri Füzuli şəhərini bombalayır, Qacar kəndinə isə basqın edirlər. Nəticədə Füzuli şəhərində 8 nəfər həlak olur, 10 nəfər yaralanır. Qacar kəndində isə 17 nəfər kənd müdafiəçisi həlak olur;

**1134.** ***08 oktyabr 1992-ci il:*** Daşnak terror qrupu Laçının Qazıdərəsi kəndinə basqın edir. Nəticədə Cavanşir və Fazil Cəmil oğlu Ağayev qardaşları həlak olur;

**1135.** ***14 oktyabr 1992-ci il:*** Daşnak terror qrupları Ağdam şəhərini və rayonun bir çox kəndlərini müxtəli növ silahlardan atəşə tuturlar;

**1136.** ***22 oktyabr 1992-ci il:*** Hadrut rayonunun Xozabert kəndində yuva qurmuş daşnak terror birləşməsi Qubadlı rayonunun Başarat və Milanlı kəndlərinə həmə edirlər. Topağac və Qantəpərli yüksəkliklərini ələ keçirirlər. Ölən və yaralananlar olduğu qeydə alınır;

**1137.** ***22 oktyabr 1992-ci il:*** Daşnak terrorçuları Füzuli rayonunun Qərvənd kəndini güclü artilleriya atəşə tuturlar. Bir nəfər qadın yaralanır;

**1138.** ***22 oktyabr 1992-ci il:*** Daşnak terror qrupları Ağdam şəhərini və rayonun Xıdırlı, Əlimədədli, Mollalar, Qalayçılar kəndlərini minamyot və qrad qurğularından atəşə tuturlar;

**1139.** ***04 noyabr 1992-ci il:*** Daşnak terror birləşmələri Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının yaşayış məntəqələrini atəşə tuturlar;

**1140.** ***05 noyabr 1992-ci il:*** Daşnak terrorçuları Zəngilan rayonunun Qaragöl kəndinə həmlə edirlər. Əliyalın, dinc kənd sakinləri Qərib və Pərviz Nəcəfovları amansızcasına qətlə yetirirlər;

**1141.** ***05 noyabr 1992-ci il:*** Daşnak terror qrupu Ağdərənin polis əməkdaşlarını aparan avtobusa Qozlu yer adlanan sahədə həmlə edirlər. Nəticədə 5 polis əməkdaşı həlak olur, 10 nəfər isə yaralanır;

**1142.** ***06 noyabr 1992-ci il:*** Daşnak terror birləşmələri Ağdam şəhərini və ətraf kəndlərini qrad qurğularından atəşə tuturlar. Ağdamda tanınmış xanəndə, «Rast» muğamının mahir ifaçısı Şahmalı Kürdoğlu və 7 yaşlı oğlu Şahıməli həlak olur;

**1143.** ***08-09 noyabr 1992-ci il:*** Daşnak terrorçuları Cəbrayıl şəhərini, həmsərhəd kəndləri və müdafiə postlarını artilleriya atəşinə tuturlar. Dağıntılar olduğu qeydə alınır;

**1144.** ***10 noyabr 1992-ci il:*** Daşnak terrorçuları Ağdamın Ergi düzündəki qışlaqlara basqın edirlər. 1000 baş qoyun, 15 baş iribuynuzlu mal-qaranı sürüb aparırlar. Mərzili kənd sakini Sarıgül Şirinovanı, Mürsəl Babayevi, Avşar Yolçuyevi və Novruzlu kənd sakini Əbil Bayramovu girov götürürlər;

**1145.** ***14 noyabr 1992-ci il:*** Xocavənd rayonu ərazisində möhkəmlənmiş daşnak terrorçuları Füzulinin həmsərhəd kəndlərini artilleriya atəşinə tuturlar;

**1146.** ***22 noyabr 1992-ci il:*** Daşnak terrorçuları Xocavəndin Sur və Dolanlar yaşayış məntəqələrini atəşə tuturlar. 1 nəfər mülki şəxs yaralanır;

**1147.** ***27 noyabr 1992-ci il:*** Daşnak terror birləşmələri Füzuli, Cəbrayıl, Ağdam rayonlarının həmsərhəd kəndlərini müxtəlif növ silahlardan atəşə tuturlar;

**1148.** ***10 dekabr 1992-ci il:*** Daşnak terror birləşmələri Zəngilan rayonunun «Dardan yuxarı» adlanan Şayıflı və Şərikan kənd sovetliklərinin əhatə etdiyi oymaqlara basqınlar edirlər. Şayıflı kənd sakini Həsən İsmayılovu palaza büküb diri-diri yandırırlar. Şayıflı kənd sakini Müseyib Ələkbərovu, Aşağı Göəli kənd sakinləri Vəli Abbasovu, Nabat Nəsirovanı, Telman Abbasovu, Nüsrət Şirinovu, Şərikan kənd sakinləri İsmayıl İsmayılovu, Töhfə Məmmədovanı, Musa Məmmədovu, Səkinə Qədimquliyevanı, Bürünlü kənd sakini Zülfüqar Məmmədovu, Canbar kənd sakini Ağa Səfiyarovu qəddarcasına döyərək öldürürlər. Qətlə yetirilənlər əliyalın və dinc sakinlər olmaqla 60-80 yaş həddində olmuşlardı. Həmin ərazidə ələ keçən Zəngilan kənd sovetinin sakini Əsgərov Seymur Əsgər oğlunun əl-ayağını bağlayıb xüsusi amansızlıqla, üstündə siqaret kötükləri yandırıb-söndürməklə, əzab verə-verə faciəli şəkildə qətlə yetirirlər;

**1149.** ***11 dekabr 1992-ci il:*** Gorus şəhərində möhkəmlənən daşnak terror birləşməsi güclü hücum və artilleriya atəşləri altında Qubadlı rayonunun Cibikli kəndinə daxil olurlar. Kənd zəbt olunur, əhalisi ata-baba ocağından didərgin salınır;

**1150.** ***11 dekabr 1992-ci il:*** Zəngilan rayonunun Qaçaq Müslan kənd sakini, IX sinif şagirdi Hüseynova Könül İmanqulu qızı məktəbdən çıxıb evə gedərkən daşnak terrorçularının atdığı qrad mərmisinin hədəfinə çevrilir;

**1151.** ***13 dekabr 1992-ci il:*** Tərtər və Ağdam rayonlarının DQ-la həmsərhəd əraziləri, habelə Füzuli şəhəri, rayonun Arış, Xələfşə, Cuvarlı, Qoçəhmədli kəndləri daşnak terror qrupları tərəfindən atəşə tutulur. İtki və dağıntılar olduğu qeydə alınır;

**1152.** ***04-05 yanvar 1993-cü il:*** Daşnak terrorçuları Füzuli rayonunun Dördlər və Aşağı Veysəlli kəndlərinə həmlə edirlər. İnsan tələfatı və dağıntılar olduğu qeydə alınır;

**1153.** ***19 yanvar 1993-cü il:*** Daşnak terrorçuları Ağdam şəhərini qrad qurğularından, minamyot və toplardan atəşə tuturlar. Dağıntı və yaralananlar olduğu qeydə alınır;

**1154.** ***25 yanvar 1993-cü il:*** Daşnak muzdlusu Ağdamdakı hərbi hissədə partlayış törədir. Partlayış əsgərlər daha çox olduğu binada baş verdiyindən çox sayda ölən və yaralananlar olur;

**1155.** ***25 yanvar 1993-cü il:*** Daşnak terrorçuları Ağdam şəhərini qrad qurğularından və toplardan atəşə tuturlar. Dağıntı və yaralananlar olduğu qeydə alınır;

**1156.** ***04 fevral 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdərənin Narınclar və Çıraqlı kəndlərini işğal edirlər. Hər iki kəndin əhalisi dədə-baba torpaqlarından didərgin salınır;

**1157.** ***09 fevral 1993-cü il:*** Ağdam şəhərini və ətraf kəndlərini daşnak terrorçuları qrad qurğularından, minamyotlardan, toplardan güclü atəşə tuturlar. Şəhər və kəndlərdə çoxlu dağıntılar törədilir. Papravənd kənd otra məktəbinin

binası tamamilə dağıdılır. Papravənd, Şahbulaq və Boyəhmədli kənd sakinləri arasında çox sayda yaralananlar olduğu qeydə alınır;

**1158.** ***28 fevral 1993-cü il:*** Daşnak terror qrupu tərəfindən Kislovodsk-Bakı istiqamətində hərəkət edən sərnişin qatarı Qudermes (Çeçenistan) dayanacağı yaxınlığında partladılır. 11 nəfər həlak olur, 18 nəfər yaralanır;

**1159.** ***24 mart 1993-cü il:*** Daşnak terrorçuları Zəngilan şəhərini qrad yağışına tuturlar. Nəticədə Zəngilan şəbəkə rayonunun rəisi Dadaş Zeynalov, şəhər sakini Elman Quliyev qəlpə yarasından yerlərindəcə həlak olur. Elektrik şəbəkəsinin sürücüsü Yaqubun sağ qolunu qəlpə aparır;

**1160.** ***27 mart 1993-cü il:*** Daşnak terror qruplaşmaları ikinci dəfə Kəlbəcər rayonunun Ağdaban kəndinə basqın edirlər. 49 nəfər (ötən illərlə birlikdə 87 nəfər) dinc kənd sakini qətlə yetirilir. Evlər yerlə-yeksan edilir. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**1161.** ***27 mart 1993-cü il:*** Daşnak terror birləşmələri Ermənistanın Vardenis rayonundan, Laçın dəhlizindən və Yuxarı Qarabağın şimal-şərq sektorundan Kəlbəcər ərazisinə hücumu genişləndiririər. Kəlbəcərin Taxtabaşı, Bağlıpəyə, Çərəkdar kəndləri işğal olunur. Hər üç kəndin sağ qalan əhalisi isti od-ocağından didərgin salınır;

**1162.** ***30 mart 1993-cü il:*** Daşnak terror birləşmələri Kəlbəcər şəhərini və ona yaxın yaşayış məntəqələrini top və qrad qurğularından atəşə tuturlar. Təlafat və dağıntılar olduğu qeydə alınır;

**1163.** ***30 mart 1993-cü il:*** Daşnak terror birləşmələri Kəlbəcərin Başlıbel kəndinə basqın edir, Kənd sakini Əmiralıyev Çingiz Məhəmməd oğlu bacısının-Əmiralıyeva Aygün Məhəmməd qızının ermənilərin əlinə keçməməsi üçün onu boğaraq öldürür, özü isə terrorçularla əlbəyaxa döyüşə atılır. Bu zaman o, terrorçular tərəfindən güllələnir;

**1164.** ***31 mart 1993-cü il:*** Daşnak terror birləşmələri Kəlbəcərin Milli kəndinə basqın edir. Bu zaman terrorçuların əlinə keçməmək üçün kənd sakini Camalova Zərnişan Kazım qızı özünü Qamışlı körpüsündən çaya ataraq həlak edir;

**1165.*****31 mart 1993-cü il:*** Daşnak terror qrupu Kəlbəcər rayonu ərazisindəki tunel ağzında 21-91 dövlət nişanlı «KAMAZ» markalı maşına basqın edir. 1979-cu il təvəllüdlü Quliyeva Nəsibə Qara qızı, 1980-ci il təvəllüdlü Azər Qara oğlu, 1983-cü il təvəllüdlü Yaşar və Məzahir Qara oğlu, 1985-ci il təvəllüdlü Aygün Qara qızı da daxil olmaqla 25 nəfər girov götürülür;

**1166.** ***31 mart 1993-cü il:*** Daşnak terror qrupu Füzuli rayonunun Üçbulaq (Hoğa) kəndinə həmlə edir. Şəhid düşənlər olur. Kənd yerlə-yeksan edilir;

**1167.** ***01 aprel 1993-cü il:*** Daşnak terror qruplaşmaları Kəlbəcərin İstisu qəsəbəsinə həmlə edirlər. Şəhər tipli qəsəbə işğal altında qalır. Əhalisi erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilir;

**1168.** ***02 aprel 1993-cü il:*** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Qacar, Aşağı Divanallar, Govşad kəndlərinə basqın edirlər;

**1169.** ***02 aprel 1993-cü il:*** Daşnak terror qruplaşması Kəlbəcər rayonunun cənub hissəsini şimal əraziləri ilə birləşdirən tunel ağzında pusqu qururlar. Əsasən Başlıbel, Taxtabaşı, Əsrik kəndlərinin canlarını təhlükədən qurtarmaq istəyən dinc əhalisinin yığışdığı üç yük maşını tunel ağzında gülləbaran edilir. Taxtabaşı kənd sakinləri - Qəzənfər, Sərxan, Habil, Mehman, Qafar, Yusif və başqalarının daxil olduğu yüzə yaxın kişi, qadın gülləbaran edilir, cəsədləri yandırılır. 8 qadın, 15 kişi isə girov götürülür;

**1170.** ***02 aprel 1993-cü il:*** Daşnak terror birləşmələri Ermənistandakı VII rus ordusunun köməyi ilə Kəlbəcər rayonuna qərb istiqamətindən həmlə edirlər. Kəlbəcər şəhəri və rayonun 129 yaşayış məntəqəsi işğal olunur. Ümumilikdə 511 nəfər dinc sakin şəhid, 125 nəfər itkin düşür. 321 nəfər girov götürülür. Girovların böyük bir qismi sonradan qətlə yetirilir, 74 minlik rayon əhalisi yurd-yuvasından didərgin salınır;

**1171.** ***02 aprel 1993-cü il:*** Daşnak terrorçuları Kəlbəcərin Çaykənd sakini Həşimov Etibar Xansuvar oğlunu Meydan çayı ətrafında girov götürürlər. Ələ salma təmrinlərini yerinə yetirmədiyinə görə terrorçular avtomat atəşləri ilə onun bədənini şaqqalayıb iki hissəyə bölürlər;

**1172. 02 aprel 1993-cü il:** Daşnak terror qrupu Goranboy rayonunun Gülüstan-Xarzarut yolu yaxınlığındakı keşikçi məntəqəsinə basqın edir. 5 müdafiəçi həlak olur, 10 nəfər isə yaralanır;

**1173.** ***04 aprel 1993-cü il:*** Daşqak terrorçuları Kəlbəcərin işğalı zamanı girov götürdükləri 30 yaşlı rayon sakini İmarət Məmmədovanın gözləri qarşısında 8 mülki şəxsi, o cümlədən İmarətin 8 yaşlı oğlu Talehi güllələyirlər. Sonra isə mərhumların cəsədlərini yandırırlar;

**1174.** ***05 aprcl 1993-cü il:*** Daşnak terrorçuları Goranboyun Gülüstan-Xarzarut yolu yaxınlığındakı keşikçi məntəqəsinə növbə dəyişməsinə nıüdafiəçilər gətirən sərnişin avtobusunu gülləbaran edirlər. 8 nəfər ağır güllə yarası alır;

**1175.** ***05 aprel 1993-cü il:*** Daşnak terror birləşmələri Füzulinin Govşad kəndinə basqın edirlər. Füzuli şəhərini isə qrad qurğularından atəşə tuturlar. Govşad kəndi işğal edilir. Rayonun 20 nəfər dinc sakini həlak olur;

**1176.** ***14 aprel 1993-cü il:*** Daşnak terror birləşmələri Xocavənd rayonu ərazisindən Ağdamın həmsərhəd kəndlərinə basqın edirlər. Rayon müdafiəçilərindən 4 nəfər həlak olur, 7 nəfər yaralanır;

**1177.** ***16 aprel 1993-cü il:*** Daşnak terrorçuları ağdamın Abdal-Gülablı, Şelli kəndlərini atəşə tutur, Əliağalı kəndinə isə basqın edirlər. 2 nəfər dinc sakin həlak olur, 7 nəfər isə yaralanır;

**1178.** ***18 aprel 1993-cü il:*** Erməni daşnak faşistləri Kəlbəcərdən girov götürdükləri Əmrəliyeva Arzu Binnət qızının gözləri qırşısında 30 nəfər

girovdan onun həyat yoldaşı, anası, bacısı, qayınatası, qaynı, baldızı və əmisi arvadı da daxil olmaqla 19 nəfəri güllələyirlər;

**1179.** ***22 aprel 1993-cü il:*** Daşnak terror qrupları Goranboyun Gülüstan yaşayış məntəqəsinə basqın edirlər. 4 nəfər kənd müdafiəçisi yaralanır;

**1180.** ***24 aprel 1993-cü il:*** Xocavəndin sərhəd kəndlərində möhkəmlənmiş daşnak terrorçuları Füzuli və Cəbrayılın həmsərhəd kəndlərini atəşə məruz qoyurlar;

**1181.** ***04 may 1993-cü il:*** Cəbrayıl şəhər sakini, buldozerçi Məmmədov Musa Maqsud oğlu Xocavənd rayonunun Mülkədərə kəndinin yolunda təmir işi apararkən daşnak terrorçularının bastırdıqları minaya düşür. Buldozer tam sıradan çıxır, özü isə həlak olur;

**1182.** ***02 iyun 1993-cü il:*** Daşnak muzdlusu, Rusiya vətəndaşı İqor Anatoliyeviç Xatkov tərəfindən Bakı dəmiryol vağzalında ehtiyat yolda dayanan sərnişin qatarında partlayış törədilir. Daşnak muzdlusu həbs olunur. İstintaq zamanı məlum olur ki, o, ER MTN-nin əks-kəşfiyyat idarəsinin rəisi, polkovnik Can Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilib. AR MTN və RF Əks-kəşfiyyat xidmətinin birgə keçirdiyi əməliyyat nəticəsində 1994-cü il may ayının 13-də Can Ohanesyan, onun müavini mayor Aşot Qalayan, Rusiya əks-kəşfiyyat xidmətinin əməkdaşı mayor Boris Simonyan və V.S.Petrosyan tutulur. İstintaq sübut edir ki, həmin daşnak terror qrupu tərəfindən 1991- 1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında partlayışlar törədilir. Nəticədə 47 günahsız insan həlak olur, 83 nəfər yaralanır. Əfsuslar olsun ki, bu daşnak terrorçularının məhkəmə araşdırması Ermənistan prezidenti L.Ter-Petrosyanın şəxsi xahişi və erməni lobbisinin təzyiqi ilə Moskvanın əyalət şəhəri olan Tambova köçürülür. Burada terrorçular həbsdən buraxılır. Cinayətkarlar Ermənistana gələrək daha yüksək vəzifələrə təyinat alırlar;

**1183.** ***03 iyun 1993-cü il:*** Ağdamın Qalayçılar, Cinli, Xaçın-Dərbənd, Muğanlı kəndləri daşnak terror qrupları tərəfindən aramsız olaraq PDM-lərdən, minamyot və pulemyotlardan atəşə tutulur. Qalayçılar kənd sakini Adil Əliyev həlak olur, bir nəfər dinc sakin isə yaralanır. Kəndlərin xeyli mal-qarası tələf edilir;

**1184.** ***06 iyun 1993-cü il:*** Daşnak terror qrupları Cəbrayıl rayonunun güney kəndlərinə həmlə edirlər. İmişlidən qohumlarını yoluxmağa gəlmiş Cəfərov Nail Fehruz oğlu Süleymanlı kəndində odlu silahla qətlə yetirilir;

**1185.** ***07 iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Tərtər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam rayonlarının sərhəd yaşayış məntəqələrini top və qrad qurğularından atəşə tuturlar. Tələfat və dağıntılar olduğu qeydə alınır;

**1186.** ***12 iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdamın Yusifcanlı, Mərzili, Hümbətdərin, Şelli, Cinli kəndlərinə həmlələr edirlər. Bir andaca kəndlərə doluşan terrorçular günahsız adamları qırır, evləri yandırır, mal-qaranı, camaatın şəxsi əmlakını maşınlara yığıb aparırlar.

Yusifcanlı kənd sakini Xanış Abdullayevi, Fizzə adlı qadını qətlə yetirir, Şükür Cəfərovu maşını ilə birgə yandırırlar. Ümumiyyətlə, Yusifcanlıda 5 nəfəri qətlə yetirir, 50 evi qismən yandırırlar. Mərzilidə 3 nəfər dinc sakin qətlə yetirilir, 300 baş qoyun və xeyli miqdarda mal-qaranı sürüb aparırlar. Cinli kəndi də işğal altında qalır;

**1187.** ***14 iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Tərtər, Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının yaşayış məntəqələrini atəşə tuturlar;

**1188.** ***15iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdam rayonunun Çullu, Əlimədədli, Qalayçılar, Xaçındərbənd, Kürdlər, Mollalar kəndlərini işğal etməyə müvəffəq olurlar. Kəndlərin əhalisi bütünlüklə dədə-baba ocaqlarından didərgin salınır;

**1189.** ***15 iyun 1993-cü il:*** Daşnak terrorçularının təlim mərkəzində hazırlanmış sadvalçıların terror qrupu Qusar rayonunun Zuxul kəndindəki sərhəd məntəqəsinə basqın edir. Nəticədə bir polis zabiti qətlə yetirilir, iki nəfər hərbçi güllə yarası alır. Qrup üzvləri həbsə alınır, istintaq zamanı cinayətkarların erməni daşnak faşistləri ilə əlaqələri tam sübuta yetirilir;

**1190.** ***16iyun 1993-cü il:*** Daşnak terrorçuları Goranboyun Başqışlaq, Todan və Buzluq kəndlərini atəşə tuturlar;

**1191.** ***16 iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdamın Qaralar, Əliağalı, Mollalar, Əlimədədli, Kürdlər, Qalayçılar kəndlərinə həmlə edirlər. Kəndlərdəki evlər bir-bir boşaldılır, sonra isə yandırır. Qalayçılar kənd sakinləri Məmməd Nəsirov, Ziyad Bayramov evlərini tərk etdiklərinə görə qətlə yetirilir;

**1192.** ***28-29 iyun 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdam-Ağdərə yolunu bağlayır. Həmin istiqamətdə olan kəndlərin əksəriyyəti terrorçular tərəfindən işğal edilir. Ağdam şəhəri güclü artilleriya atəşinə tutulur;

**1193.** ***02 iyul 1993-cü il:*** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Gorazıllı, Yuxarı Güzdək, Qaradağlı kəndlərinə basqın edirlər. Gorazıllı kəndində toyxanaya soxulan daşnak terrorçuları qadınlı-kişili ondan artıq şənlik iştirakçısını girov götürürlər. Hər üç kənd işğal altında qalır;

**1194.** ***02 iyul 1993-cü il:*** Daşnak muzdluğu tərəfindən Bakı Dəmiryolu vağzalında sərnişin qatarı partladılır. Ciddi zərər dəysə də, xoşbəxtlikdən xəsarət alan olmur;

**1195.** ***02 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Xocavənd rayonunun Günəşli, Xətai kəndlərinə basqın edirlər. Günəşlinin 366, Xətainin 190 nəfərlik əhalisi daşnakların etnik təmizləmə siyasətinin qurbanlarına çevrilirlər;

**1196.** ***02 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Füzuli şəhərini və rayonun Dövlətyarlı, Xələfşə, Cuvarlı kəndlərini atəşə tuturlar.

**1197.** ***10 iyul 1993-cü il:*** Daşnak terrorçuları Ağdam şəhərini raket atəşinə tuturlar. Dəmiryol xətlərini partladıb tamamilə sıradan çıxarırlar. Şəhərin 2-3 km-liyinə yaxınlaşırlar;

**1198.** ***19 iyul 1993-cü il:*** Daşnak terrorçuları ələ keçirdikləri Ağdamın Xıdırlı, Qiyaslı, Seyidli kəndlərini qarət etdikdən sonra evləri birər-birər yandırırlar;

**1199.** ***19 iyul 1993-cü il:*** Daşnak terrorçuları Xocavəndin Quşçular kəndini iri çaplı silahlardan atəşə tuturlar;

**1200.** ***21 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdamın Muğanlı, Şıxbabalı kəndlərini ələ keçirirlər, Ağdam şəhərini isə raket və toplardan atəşə tuturlar. Ardınca da 3 istiqamətdən Ağdam şəhəri üzərinə irimiqyaslı hücuma keçirlər;

**1201.** ***22 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Füzulinin Cuvarlı, Qocəhmədli kəndlərini ələ keçirirlər. Cəbrayıl-Füzuli avtomagistralını bağlamağa cəhd göstərirlər;

**1202.** ***22 iyul 1993-cü il:*** Daşnak terrorçuları Ağdam şəhərinin qərb hissəsini ələ keçirirlər. 40 nəfər dinc şəhər sakini, 20 nəfər şəhər müdafiəçisi həlak olur, 100-dən çox adam yaralanır. Xıdırlı, Qiyaslı, Muradbəyli, Çuxurməhlə, Sarıcalı kəndləri işğal edilir. Zəbt edilmiş Mərzili, Novruzlu, Yusifcanlı kəndləri istiqamətindən də Ağdam şəhərinə soxulmağa can atırlar;

**1203.** ***22 iyul 1993-cü il:*** Daşnak terror qrupları Tərtər və Qazax rayonlarında partlayışlar törədirlər. Nəticədə 11 nəfər dinc sakin həlak olur, 28 nəfər isə yaralanır;

**1204.** ***23iyul 1993-cü il:*** Daşnak terror qruplaşmaları tərəfindən Ağdam şəhəri zəbt olunur. Həmin günədək 1500-ə qədər övladını şəhid verən 165.000 nəfərlik rayon əhalisi, həm də erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilirlər. Ağdamın 80 yaşayış məntəqəsi yerlə-yeksan edilir;

**1205.** ***24 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Füzuli və Cəbrayıl istiqamətində ələ keçirdikləri kənd və yüksəkliklərdən həmin rayonların digər yaşayış məntəqələrini müxtəlif növ silahların atəşə tuturlar;

**1206.** ***26 iyul 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdamın Maqsudlu, Tərnöyüt, Şahbulaq kəndlərini bütünlüklə işğal edirlər;

**1207.** ***07 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri Füzuli və Cəbrayıl rayonlarının bir çox yaşayış məntəqələrini atəşə tuturlar. Partlayışlar törədirlər. Dağıntılar olduğu qeydə alınır;

**1208.** ***15 avqust 1993-cü il:*** Daşnak terror qrupları Cəbrayıl rayonunun Qaracallı və Balyand kəndlərinə həmlə edirlər. Balyand kənd sakinləri Vəliyeva Səkinə Heydər qızı, Hüseynov İsa Surxay oğlu və kənd orta məktəbinin müəllimi Babaşov Oruc Həmzə oğlunu qətlə yetirirlər. Qaracallı kənd sakini Alışov Nizami Cümşüd oğlunu girov götürürlər;

**1209.** ***15 avqust 1993-cü il:*** Daşnak terror qrupları Cəbrayıl şəhərini və Xocavənd rayonunun Hərəkül kəndini atəşə tuturlar. Hərəkül kəndi ərazisində Hovuslu kənd sakinləri Həsrətov Səxavət Möhübbət oğlu, Həsrətov Məhəmmədəli Səməd oğlu, Sofulu kənd sakini Mirimov Qərib Mehdi oğlu qətlə

yetirilir. Cəbrayılda isə şəhər sakini Əliyev Nizami Fili oğlu həlak olur. Xeyli şəhər sakini yaralanır;

**1210.** ***15 avqust 1993-cü il:*** Daşnak terror qrupu Xocavənd rayonunun Daşbaşı kəndində yerləşən hərbi hissə postuna qəflətən basqın edir. Milli ordu əsgərləri Əliyev Etibar, Ağayev Ramiz, Fətullayev Nurəddin və başqaları da daxil olmaqla 17 nəfər əsgəri xüsusi qəddarlıqla, əksəriyyətinin başını kəsməklə qətlə yetirirlər;

**1211.** ***16 avqust 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Süleymanlı kəndinə həmlə edir. Dinc kənd sakinləri Cəbrayılov Saday Misirxan oğlu, Xudiyev Əyyub Şərif oğlu və kənd icra nümayəndəsi Əsgərov Müzəffər Qəzənfər oğlu qətlə yetirilir. Şükür Yaşar oğlu, Camal Soltan oğlu və Azər Zabit oğlunu girov götürürlər;

**1212.** ***17avqust 1993-cü il:*** Daşnak terror birləşməsi Füzuli rayonunun Qacar kəndinə basqın edir. Ev-eşiyini tərk etmək istəməyən 25 dinc sakin güllələnir. Əhalinin əmlakını qarət və talan edirlər. Kənd dağıdılır;

**1213.** ***18avqust 1993-cü il:*** Daşnak terror birləşmələri rus ordusuna məxsus 35 ədəd T-72 tankını mövqe döyüşlərinə çıxararaq Cəbrayıl və Füzuli şəhərləri istiqamətində güclü hücumlar təşkil edirlər. İlk növbədə daşnak terrorçuları Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinə basqın edirlər. Ümumiyyətlə, Əbdürrəhmanlı kəndində 30-a yaxın dinc, təhlükəsiz sakin qətlə yetirilir;

**1214.** ***18 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri Cəbrayıl rayonunun Yuxarı Məzrə və Daşkəsən kəndlərinə həmlə edirlər. Yuxarı Məzrə kənd sakini, 1928-ci il təvəllüdlü Təhməzova Qönçə Səfəralı qızı həyətyanı sahədə işləyərkən güllələnir. Həmkəndlisi Mehdiyev Nurəddin güllə yarası alır. Daşkəsən kəndinə sığınmış Qışlaq kənd sakini, kolxoz mühasibi İbişov Baxış Zeynal oğlu mərmi atəşiylə qətlə yetirilir. Daşkəsən kənd sakini Bəbirova Manya Məmmədalı qızı itkin düşür;

**1215.** ***20 avqust 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Çərəkən və Papı kəndlərinə həmlə edir. Papı kənd sakini Həsənov Xəlil Balaca oğlu mərmi atəşi ilə qətlə yetirilir. Çərəkən kənd sakinləri Musayev Eldar Musa oğlu, Şükürov Seyilxan Salman oğlu itkin düşür;

**1216.** ***22 avqust 1993-cü il:*** Zərdab rayonunun xalq hakimi Məmmədov Məhərrəm Fehruz oğlu Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində yaşayan anası Məmmədova Səfurə Mirsəlim qızının, yaxın qohumları İbrahimov Rəsul Bəyqulu oğlunun və Hüseynova Aminə Ədil qızının olduğu şəxsi minik maşınında Beyləqan istiqamətində hərəkət edərkən Füzuli rayonunun Əhmədbəyli kəndi ərazisində, «Gültəpə» adlanan yerdə daşnak terror qrupunun raket atəşinə tuş gəlir. Hər dörd sərnişin bir anm içində od alan maşında yanıb külə dönürlər;

**1217.** ***23 avqust 1993-cü il:*** Daşnak terror qrupları Füzuli şəhərini işğal edirlər. Bu terror müharibəsində rayon üzrə ümumilikdə 733 nəfər qətlə yetirilir,

1209 nəfər şikəst olur, 181 nəfər itkin düşür, 60 yaşayış məntəqəsi dağıdılır. 146000 nəfərlik rayon əhalisi yurd-yuvasından didərgin salınır;

**1218.** ***23 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri Cəbrayıl şəhərinə həmlə edirlər. Şəhər sakinlərindən Verdiyev Famil qətlə yetirilir, Hüseynov Maqsud Oruc oğlu itkin düşür. Şəhər Sovetinin sədri İlqar Mehdiyev, tədarükçü Üzeyir Rüstəmov və Beyləqandan qohumlarını yoluxmağa gəlmiş həkim Yusif Səfiyev girov düşür. Şəhər erməni faşistlərinin işğalına məruz qalır. Hal-hazırda Cəbrayıl rayonunun 66000 nəfər sakini məcburi köçkündür. Rayon Qarabağ savaşında ümumilikdə 371 şəhid verir, 105 yaşayış məntəqəsi yerlə-yeksan edilir;

**1219.** ***25 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri Cəbrayıl rayonunun Dağtumas kəndinə, habelə bölgənin digər oymaqlarına basqınlar edirlər. Dədə-baba yurdunu tərk etməyən 22 nəfəri, o cümlədən kənd xəstəxanasının baş həkimi Əli Mahmudovu, kənd ağsaqqalı Əli Quliyevi, kəndin baytar həkimi Qüdrət Rüstəmovu, 1916-cı il təvəllüdlü Osmanova Bənövşə İbrahim qızını, 1918-ci il təvəllüdlü Mehrəliyev Əziz Salman oğlunu, 1930-cu il təvəllüdlü Məmmədov Məhəmməd Əvəz oğlunu və oğlu Səxavəti, 1930-cu il təvəllüdlü Hacıyev Məhəmmədəli Ədil oğlunu, həyat yoldaşı Nəcəfova Gülarə İsmayıl qızını və başqalarını güllələyirlər. Girov düşən qadınların zinət əşyaları, kişilərin var-dövləti əlindən alınır. Daşınan və daşınmaz əmlakları talan və qarət edilir, evlərə od vurulur. Evsiz-eşiksiz qalan 5 mindən çox əliyalın, dinc bölgə əhalisi yurd-yuvasından didərgin salınır;

**1220.** ***25 avqust 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Hovuslu kəndinə həmlə edir. İsti ocağını tərk etmədiklərinə görə dinc sakinlər Cavadov Aydın Adışirin oğlu, həyat yoldaşı Məmmədova Şövkət Məmməd qızı, 87 yaşlı Piralıyeva Nənəxanım Məmməd qızı, Məmmədova Narxanım Məmməd qızı və Əmrahova Mahnisə Şıxəli qızı qətlə yetirilir;

**1221.** ***25 avqust 1993-cü il:*** Daşnak terrorçuları Cəbrayıl rayonunun Daşveysəlli kəndinə basqın edirlər. Doğma yurd-yuvasını tərk etmədiklərinə görə 1923-cü il təvəllüdlü, Böyük Vətən müharibəsi veteranı, el ağsaqqalı Hüseynov Hüseyn Ataş oğlu, Əliyev Şakir Məhəmməd oğlu və Yunisova Şura Şəmil qızını qətlə yetirirlər;

**1222.** ***30 avqust 1993-cü il:*** Cəbrayıl avtonəqliyyat müəssisəsinə məxsus sərnişin avtobusu Cəbrayıl-Qubadlı sərhədində, «Xanlığın qaşı» adlanan ərazidə daşnak terrorçularının həmləsinə məruz qalır. Mərmi atəşi ilə avtobus partladılır. Dağtumas kənd sakinləri Abbas Rüstəmov, Həsən Məmmədov, İlham Rüstəmov, Pənah Rüstəmov həlak olur, Çaytumas kənd sakini Mövlanverdi İbrahim oğlu ağır qəlpə yarası alır;

**1223.** ***30 avqust 1993-cü il:*** Daşnak terror qrupu tərəfindən Xocavənd rayonu ərazisində «Zil» markalı maşın partladılır. İki nəfər həlak olur. Bu terror aktından bir neçə gün sonra isə həmin ərazidə sərnişin avtobusu partladılır. Dörd nəfər həlak olur, səkkiz nəfər yaralanır;

**1224.** ***30-31 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri həm işğal etdikləri Cəbrayıl ərazisindən, həm də Ermənistan istiqamətindən Qubadlı şəhəri üzərinə basqınlar edirlər. Rayonun 94 yaşayış məntəqəsi dağıdılır. 140 nəfər qətlə yetirilir (ümumilikdə 240 nəfər), 100 nəfərdən artıq dinc sakin girov götürülür. 37 min nəfərlik rayon əhalisi erməni-daşnak faşistlərinin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilirlər;

**1225.** ***31 avqust 1993-cü il:*** Daşnak terror birləşmələri Füzuli rayonunun Kürdmahmudlu kəndinə həmlə edir. 17 nəfər dinc kənd sakini qətlə yetirilir. O cümlədən girov götürülən kənd sakini Ağayev Mürvət Fətiş oğlunu döyərək qulağını kəsir, əllərini məftillə arxadan bağlayaraq ağacdan asır, ayaqlarının altında ocaq qalayaraq diri-diri yandırırlar. Sağ qalan əhali doğma ev-eşiyndən didərgin salınır;

**1226.** ***01 sentyabr 1993-cü il:*** Rayon mərkəzi Qubadlını və Bərgüşad-Həkəri boyu kəndləri otaylı-butaylı ələ keçirən daşnak terror birləşmələri rayonun Mahruzlu, Ulaşlı, Çərəli, Qaralar kəndlərinə hücum edirlər. İtkilər və dağıntılar olduğu qeydə alınır;

**1227.** ***09 sentyabr 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Şahvəlli kəndinə basqın edir. Doğma yurd-yuvalarını tərk etmədiklərinə görə dinc sakinlər - İsmayılov Məhəmməd Yunis oğlunu və oğlu Ramazanı, yeznəsi Qurbanov Mürvət Əmrah oğlunu və həmkəndlisi Maqsudov Əhməd Abbas oğlunu girov götürürlər;

**1228.** ***14 sentyabr 1993-cü il:*** Atası ilə birgə Beyləqan istiqamətində mal-qara qovan Cəbrayıl rayonunun Xələfli kənd sakini 11 yaşlı Hüseynov İsa Musa oğlu Füzuli rayonunun Bəhmənli kəndi ərazisində daşnak terrorçularının mərmi atəşinə tuş gəlir. Yeniyetmə yerindəcə həlak olur;

**1229.** ***10 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Zəngilan rayonunun sərhəd kəndlərini atəşə tuturlar;

**1230.** ***15-23 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Füzuli rayonunun Horadiz kəndini ələ keçirirlər. Horadiz qəsəbəsi istiqamətində hücuma hazırlıq işləri görürlər. Horadiz qəsəbəsinə basqın edirlər. 26 dinc sakin güllələnir, 14 nəfər girov götürülür. Qəsəbə canlı aləmdən təcrid edilir. Habelə aşğınlaşmış başqa bir daşnak terror qrupu Füzuli rayonunun Yağlıvənd kəndinin qəbiristanlığına həmlə edir, daha doğrusu, mərmi atəşinə tuturlar. Dəfn mərasiminin iştirakçılarından 13 nəfər öldürülür, sağ qalanlar isə qəlpə yarası alır;

**1231.** ***18 oktyabr 1993-cü il:*** Daşnak terror birdəşmələri Cəbrayılın Quycaq və Safarşa kəndlərini işğal edirlər;

**1232.** ***23 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Ağdamın Qərvənd kəndini qrad mərmilərindən atəşə tuturlar. Bir qadın və 2 yaşlı uşaq həlak olur;

**1233.** ***23 oktyabr 1993-cü il:*** İrəvandan xüsusi məqsədlə təşkil edilib göndərilmiş daşnak terror qruplaşması Füzuli rayonunun «Almalı bağı» adlanan

ərazisində pusqu quraraq Qaradiz-Daşburun istiqamətində və əksinə hərəkət edən «Jiquli» markalı minik maşınlarından və digər nəqliyyat vasitələrindən Sabirabad rayonunun Telmankənd sakini Türk Əhmədin həyat yoldaşı, qızı və oğlu da daxil olmaqla 40-a yaxın sərnişini girov götürürlər. Girovları «QAZ-66» markalı tentli hərbi hissə maşınında Füzuli şəhəri istiqamətində aparırlar. Bu günə kimi həmin 40 nəfər girovun heç birindən səs-soraq çıxmamışdır. Görünür, sağlam və gənc yaşda olan bu insanların müxtəlif əzalarından və daxili orqanlarından transplantasiya məqsədi ilə Qərb bazarlarında istifadə edilməsinə dair gəzən söz-söhbətlər həqiqətə uyğundur. Axı, həmin dövrlərdə insan əzalarının satışına görə Ermənistan dünya ölkələri arasında birinci yerdə gedirdi;

**1234.***23 oktyabr 1993-cü il:* Daşnak terror birləşmələri Cəbrayıl rayonunun Araz boyu kəndlərinə basqınlar edirlər. Doğma od-ocaqlarını tərk etmədiklərinə görə Mahmudlu kənd sakinləri Əhmədov Yurik Bəhlul oğlu, 1912-ci il təvəllüdlü Əliyev Bilal Həsənəli oğlu, 1912-ci il təvəllüdlü Yəhyayev Şamil Səlim oğlu, Aşağı Maralyan kənd sakinləri - 1898-ci il təvəllüdlü Məmmədov Məşi Məmmədalı oğlu, 1904-cü il təvəllüdlü Abbasov Cəfər Dadaş oğlu, 1918-ci il təvəllüdlü Səfərov Bəxtiyar Zülfüqar oğlu, Böyük Mərcanlı kənd sakinləri - 1920-ci il təvəllüdlü Əzizov Baha Ağamməd oğlu, 1925-ci il təvəllüdlü Quliyev Məhəmməd İbrahim oğlu və 1902-ci il təvəllüdlü Məmmədzamanova Lalə Ağahüseyn qızı daşnak terrorçuları tərəfindən qətlə yetirilirlər;

**1235.** *23 oktyabr 1993-cü il:* Daşnak terror qruplaşmalarının Cəbrayıl rayonunun Arazboyu kəndlərinə basqını zamanı sərhəd kəndlərinə sığınmış Safarşa kənd sakinləri Həsənquliyev Sabir Hüseyn oğlu və həyat yoldaşı Əkbərova Cəmilə Yaqub qızı İrana adlayarkən Arazda boğulurlar. Nüzgar kənd sakini, Zəngilan rayonunda fizika-riyaziyyat müəllimi işləyən Məmmədov Məmməd Yunis oğlu isə Stansı Mahmudlu kəndində, Horovlu kənd orta məktəbinin müəllimi Quliyev Əkbər Məhəmməd oğlu Füzuli rayonunun Arayatlı kəndi ətrafında daşnak terrorçuları tərəfindən güllələnərək qətlə yetirilirlər;

**1236.** *23 oktyabr 1993-cü il:* Daşnak terror birləşmələri Füzuli rayonunun Arazboyu kəndlərinə basqın edirlər. Cəbrayıl rayonunun Doşulu kənd sakinləri Şirinov Şirin Bilal oğlu, oğlanları Nazim və Tahir, həmkəndliləri Hüseynov Cavanşir Ərşad oğlu və onlarla bir maşında olan Məzrə kənd sakini Əliyeva Nisə Xanlar qızı Qaradiz-Daşburun avtomagistralının Şükürbəyli kəndi ərazisində daşnak terrorçuları tərəfindən girov götürülürlər. Hələ də bu günədək onların hər hansı birinin öldüsündən və ya qaldısından xəbər-ətər yoxdur;

**1237.** *23 oktyabr 1993-cü il:* Daşnak terror qrupu Cəbrayıl rayonunun Arazboyu kəndlərindən olan Şıxalıağalıya basqın edir. Dinc kənd sakinlərindən doğma ocağını tərk etməyən Zalova Zabitə Əhməd qızını qətlə yetirirlər, oğlunu - İsgəndərov Təbriz Novruz oğlunu isə girov götürürlər. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**1238.** ***23 oktyabr 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayılın Sarıcallı kəndinə həmlə edir. Kəndin dinc sakinlərindən Əliyev Pili Dilavər oğlu həyətində qətlə yetirilir, Hacıyev Ramiz Əyyub oğlu isə girov götürülür. O da terrorçular tərəfindən 1994-cü il avqust ayının 8-də Xankəndində güllələnərək qətlə yetirilir;

**1239.** ***23 oktyabr 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Mehdili kəndinə basqın edirlər. 16 yaşlı Rəşad Əhliman oğlu girov götürülür. 500 baş qoyun sürüsünü, onlarca nəqliyyat vasitəsini ələ keçirirlər. Həmin kəndə sığınmış Daşveysəlli kənd sakini Xudiyev Ayaz Vəli oğlu İrana adlayarkən Arazda boğulur;

**1240.** ***23 oktyabr 1993-cü il:*** Füzuli rayon sakini Vaqif Sədri oğlu Rəhimov «VAZ - 2106» markalı, dövlət nişanı 58-54 AQL olan şəxsi-minik maşınında Zəngilan rayonundan qayıdarkən Araz boyunda daşnak terror qprupunun həmləsinə məruz qalır. Özü və atası Sədri Rəhim oğlu, anası Şərqiyyə Mirəzim qızı, qardaşları Müsəddin və Bəhlul terrorçular tərəfindən girov götürülür;

**1241.** ***23 oktyabr 1993-cü il:*** Cəbrayıl rayonunun Niyazqulular kənd sakini Quliyev Mehdiqulu Mədəd oğlu sürücüsü olduğu yük maşınında ailə üzvləri - həyat yoldaşı Quliyeva Ofelya Məmiş qızı, oğlanları -13 yaşlı Ceyhun və 11 yaşlı Xürrəm, 6 yaşlı qızı Ceyhunə ilə birlikdə Füzuli rayonunun Horadiz qəsəbəsi ərazisində daşnak terror qruplaşmasının təcavüzünə məruz qalır. Bu günədək girov götürülən Quliyevlər ailəsinin heç bir üzvündən xəbər-ətər yoxdur;

**1242.** ***24 oktyabr 1993-cü il:*** Daşnak terror qrupları Cəbrayıl rayonunun Arazboyu kəndlərinə basqınları zamanı sərhəd kəndlərinə sığınmış Şəybəy kənd sakinləri Məmmədov Vəliş Allahverdi oğlu, həyat yoldaşı Məmmədova Fatma Adış qızı və Quycaq kənd sakini Paşayev Oruc Əziz oğlu şəxsi minik maşınında Füzuli rayonunun Qazaxlar kəndi ərazisində - sərhəd xəttindəki keçid məntəqəsinin qapısı ağzında daşnak terrorçularının mərmi atəşinə tuş gəlirlər. Hər üç binəsib həlak olur;

**1243.** ***24 oktyabr 1993-cü il:*** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Qazaxlar kəndi ərazisinə basqın edirlər. Dinc əhalini işğal zonasından çıxarmağa çalışan Mərcanlı kənd sakini Fazil Seyidəliyevin təkərli traktoru terrorçuların aramsız güllələbaranına tuş gəlir. Lafetə yığılanlardan 1920-ci il təvəllüdlü Seyidəliyeva Göyçək Xəlil qızı, İmanova Gözəl Mehdi qızı, Əmrahova Xanım Qərib qızı, 7 yaşlı Seyidəliyev Faiq Fazil oğlu, 11 yaşlı Məmmədov Seyidəli İsmayıl oğlu, 13 yaşlı Məmmədov Mübariz Fərmayıl oğlu, 13 yaşlı Məmmədova Tamella Fərmayıl qızı, Məmmədova Təranə İsmayıl qızı qətlə yetirilir. Sərnişinlərdən Quliyev Elvin və Elgün Hüseyn oğlu qardaşlarının və İsgəndərov Rasim Yolçu oğlunun sağ tikələri ələ gəlmir. Arazı İrana adlamaq istəyən Həsənov Allahyar İsrafil oğlu isə çayda boğulur. Fazil Seyidəliyev və Aminə Qarayeva ağır qəlpə yarası alırlar;

**1244.** ***24 oktyabr 1993-cü il:*** Daşnak terror qrupu Füzuli rayonunun Qazaxlar kəndi ərazisində rezin təkərli "K700" markalı traktora həmlə edirlər. Terrorçular Böyük Mərcanlı kənd sakinləri - sürücü Mehdiyev İsmayıl Şükür oğlunu və oğlu Şükürov İlyas İsmayıl oğlunu qətlə yetirirlər;

**1245.** ***25 oktyabr 1993-cü il:*** Daşnak terror qrupu Cəbrayıl rayonunun Qumlaq kəndi yaxınlığında «UAZ-469» markalı minik maşınını gülləbaran edir. Mincivan qəsəbə sakinləri Bəhram Adıgözəlov və Emin Nəsibov qətlə yetirilirlər;

**1246.** ***26 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Zəngilanın Ağbənd-Vejnəli, Qubadlının sonuncu işğal olunmamış kəndlərindən olan Mahruzu istiqamətində tanklarla, piyadalarla hücuma keçirlər. Ağbənddə 4 kənd müdafiəçisi yaralanır. Mahruzlu kəndi tamamən yandırılır. Kənd sakini, seyid nəslindən olan Qəfəs nənə və bacısı evləri ilə birgə oda qalanır;

**1247.** ***27 oktyabr 1993-cü il:*** Zəngilanın Ağalı kəndini yandıran daşnak terror birləşmələri Şərifan kəndinə basqın edirlər;

**1248. 28 oktyabr 1993-cü il:** Daşnak terror birləşmələri Zəngilanın Genlik, Malatkeş kəndlərini yandırırlar, Havalı kəndi işğal olunur. Vejnəli, Kollu Qışlaq kəndlərinə, Şükürataz yüksəkliyinə basqın edirlər;

**1249.** ***29 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Zəngilanın Məmmədbəyli, Babaylı, Rəbənd, Alıbəyli, Xumarlı, Sarıl, Şərifan, Hacallı, Muğanlı, Ağbənd, Vejnəli, Əmirxanlı, Xurama, Bartaz, Şayıflı, Nəcəflər, Yusiflər, Cahangirbəyli, Saralı Xəştab, Şamlı, Aladin, İsgəndərbəyli, Kolluqışlaq, Rəzdərə, Qaragöl, Vənətli kəndlərini və Mincivan qəsəbəsini işğal edirlər. Ölən və yaralananlar olduğu qeydə alınır. Təkcə 10 nəfərdən çox dinc sakin Arazın sularında boğulur;

**1250.** ***29-30 oktyabr 1993-cü il:*** Daşnak terror birləşmələri Zəngilan şəhərinə həmlə edirlər. Nəticədə rayonun 83 yaşayış məntəqəsinin, o cümlədən, bir şəhər və bir qəsəbənin 39 minlik dinc, əliyalın əhalisi erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilir. Rayon üzrə ümumilikdə 182 nəfər qətlə yetirilir, 44 nəfər itkin düşür; 110 nəfər şikəst olur, 200 uşaq yetim qalır;

**Qeyd:** Ümumiyyətlə, 22 fevral 1988-ci ildən 01 noyabr 1993-cü ilədək erməni-daşnak faşistləri Qarabağda 10 şəhəri və 890 yaşayış məntəqəsini (ümumilikdə 900) dağıdır, 735 mindən çox dinc əhalini yurd-yuvasından didərgin salırlar. Nəticədə 30 min Azərbaycan türkü qətlə yetirilir, 50 min nəfər şikəst edilir, 100 mindən çoxu yaralanır, 4959 nəfər girov götürülür. Qəsbkarlar əhalinin 100 milyard ABŞ dolları dəyərində daşınan və daşınmaz əmlakını talan və qarət edir, mənimsəyirlər. Bütün bunlarla yanaşı işğal prosesində 6.000-ə yaxın sənaye və kənd təsərrüfatı müəssisələri, 4366 sosial-mədəni obyekt, o cümlədən 690 orta məktəb, 490 səhiyyə obyekti, 982 kitabxana, 22 muzey, 6 dövlət teatrı və başqa obyektlər qarət olunur, yandırılır və ya dağıdılır. 100 mindən çox maddi-mədəniyyət nümunəsi, memarlıq və tarixi, arxeoloji abidə

qəsbkarların əlinə keçir. Bu gün 5 dövlət qoruğu, 261 min hektar qiymətli meşə sahəsi, zəngin ehtiyatlara malik 3 qızıl mədəni, yüzlərlə faytalı qazıntı yataqları, minlərlə mineral su mənbələri erməni-daşnak faşistləri tərəfindən amansızcasına istismar edilir. Qiymətli ağac növləri olan yüzlərlə hektar meşə zolaqları vəhşicəsinə doğranaraq xarici şirkətlərə satılır;

**1251.** ***01 fevral 1994-cü il:*** Daşnak terrorçusu tərəfindən Bakı dəmiryol vağzalında Kislovodsk-Bakı sərnişin qatarından ayrılıb Bakı-Astara qatarına qoşulan 3-cü vaqonda partlayış törədilir. Nəticədə 5 nəfər həlak olur, 20 nəfər yaralanır;

**1252.** ***06 fevral 1994-cü il:*** Daşnak terror birləşmələri Füzulinin Şükürbəyli kəndi istiqamətində həmləyə keçirlər. Üçbulaq kənd sakini Müseyib Qubad oğlu Abbasov, Qarğabazar kənd sakini Vaqif Əlqəmə oğlu Eminov həlak olur, 5 nəfər ərazi müdafiəçiləri isə yaralanır;

**1253.** ***09 fevral 1994-cü il:*** Daşnak terrorçusu tərəfindən Azərbaycan dəmiryolunun Xudat stansiyasının ehtiyat yolunda dayanmış yük qatan partladılır. Dövlətə külli miqdarda maddi ziyan dəyir;

1254. ***18 mart 1994-cü il:*** Daşnak terrorçuları tərəfindən İran hərbi hava qüvvələrinə məxsus «Herkules» təyyarəsi Xankəndi yaxınlığında vurulur. 34 nəfər həlak olur. Terrorçular cəzadan yayınırlar;

**1255.** ***19 mart 1994-cü il:*** Daşnaksütyun partiyasının hərbi cinahının nəzarəti altında olan Sadval terrorçuları tərəfindən Bakı metropoliteninin «20 yanvar» stansiyasında qatar partladılır. 14 nəfər həlak olur, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alır. Sadvalın üzvü, terrorçu Qurbanov Oqtay Sədrə oğlu həlak olur. Terror qrupunun digər 5 üzvü həbs edilir. İstintaq zamanı məlum olur ki, 1992-ci ildə Ermənistandan Dağıstanın Axtı rayonunun Miqrax kəndinə Sadvalın yaraqlıları üçün vertolyotla külli miqdarda silah, döyüş sursatı, partlayıcı maddələr daşınıb. Oradan isə təşkilatın Azərbaycan Respublikasının şimal rayonlarındakı fəallarına paylanıb. 1992-ci ilin aprel-may aylarında Sadvalın 17 üzvü (Oqtay Qurbanov da onların arasında olub) Ermənistanın Nairi rayonunun Lusoker qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi hərbi və terror-təxribat hazırlığı keçiblər. 1993-cü ilin yay aylarında Ermənistanın Arzni rayonunda və Dağıstanın Məhərrəmkənd rayonunun Darquş kəndində və Bilici qəsəbəsində daşnak təlimatçılarının rəhbərliyi altında sadvalçılardan terror qrupları hazırlanıb;

**1256.** ***13 aprel 1994-cü il:*** Daşnak terrorçuları «Dağıstan alovları» dayanacağında Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarında partlayış törədirlər. 6 nəfər həlak olur, 3 nəfər yaralanır;

**1257.** ***17 aprel 1994-cü il:*** Daşnak terror qrupu Goranboyun Tapqaraqoyunlu kəndinə həmlə edirlər;

**1258.** ***18 aprel 1994-cü il:*** Daşnak terror qrupu Ağdamın Cəvahirli kəndi istiqamətində hücuma keçir. Kənd müdafiəçisi Nazim İbrahim oğlu Cəbrayılov həlak olur;

**1259.** ***28 aprel 1994-cü il:*** Daşnak terrorçuları Ağdamın Baş Qərvənd kəndinə basqın edirlər. Kənd müdafiəçisi Yaşar Eldar oğlu Hüseynov həlak olur;

**1260.** ***3 iyul 1994-cü il:*** Daşnak muzdlusu və sadvalçı Aslanov Azər Salman oğlu tərəfindən Bakı metropoliteninin «28 may» və «Gənclik» stansiyaları arasında elektrik qatarında partlayış törədilir. 13 nəfər həlak olur, 54 nəfər yaralanır, müxtəlif dərəcəli bədən xəsarəti alırlar. Aslanov Azər Salman oğlu erməni əsirliyində olarkən Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları - polkovnik Karen Baqdasaryan, Ağvan ləqəbli polkovnik və kapitan Seyran Sarkisyan, Moskvada yaşayan əlaqələndirici agent Artur Şmavonoviç Akopyanın vasitəsi ilə ələ alınır. Onun ələ alınmasında Zori Balayan və qondarma DQR-nm o vaxtkı prezidenti R.Köçəryanın xüsusi rolu olur. O, məxfi əməkdaşlığa cəlb olunduqdan sonra iyulun 3-də gizli yolla Bakıya gəlir və terror aktını həyata keçirir;

**1261.** ***26 iyul 1995-ci il:*** Daşnak terrorçuları işğal zonasında ələ keçirdikləri 10 yaşlı azərbaycanlı uşağını qətlə yetirib Dağtumas kəndi ərazisində torpağa basdırırlar;

**1262.** ***02 oktyabr 1995-ci il:*** Daşnak terrorçularının yetirməsi olan sadval terrorçuları Balakənin Qabaqçöl kəndində vəzifə borcunu yerinə yetirən Milli Qəhrəman Ramazan Qeybullah oğlunu qətlə yetirirlər;

**1263.** ***28 oktyabr 1995-ci il:*** Daşnak terrorçuları tərəfindən Bakı metropoliteninin «Ulduz» və «Nərimanov» stansiyaları arasında elektrik qatarında terror aktı törədilir. 289 nəfər (137 qadın, 28 uşaq) həlak olur, 269 nəfər yaralanır;

**Qeyd:** Çoxsaylı insan tələfatı ilə nəticələnən bu terror aktına heç bir təhlil və ekspertiza aparılmadan elə həmin gün dövlət nümayəndələri «texniki səbəbdir» deyə, yanğın hadisəsi kimi boz don geydirirlər. Lakin zaman keçdikcə hadisənin terror aktı olması faktını gizlətmək mümkün olmur. Nəhayət, ermənilər tərəfindən törədilən terror aktı kimi qiymətləndirilir;

**1264.** ***1995-ci ilin ortaları:*** Erməni-daşnak faşizmindən qorunmanın simvolu, rəmzi kimi Bakı-Qazax yolunun Şəmkir rayonu ərazisindən keçən hissəsi üstə qoyulmuş Boz qurd heykəli daşnak muzdlusu tərəfindən partladılır;

**1265.** ***21 fevral 1997-ci il:*** Erməni-daşnak hökumətinin əməkdaşlıq etdikləri Hüzübullah terror təşkilatının vasitəçiliyi ilə ələ alınan daşnak muzdluları Azərbaycanın görkəmli ziyalısı, dövlət xadimi, Sovet İttifaqı Qəhrəmam, akademik, tarixçi-alim, saxta erməni tarixçilərini daim ifşa edən Ziya Musa oğlu Bünyadova sui-qəsd edərək qətlə yetirirlər;

**1266.** ***27 oktyabr 1999-cu il:*** Dörd nəfərdən ibarət daşnak terror qrupu Ermənistan parlamentinə soxularaq parlamentin sədri Karen Dəmirçiyan və Baş nazir Vazgen Sarkisyan başda olmaqla bir neçə deputatı qətlə yetirir;

**1267.** ***30 iyun 2001-ci il:*** Erməni-daşnak faşizminin rəhbərliyi altında fəaliyyət göstərən sadvalçı Hacı Maqamedovun terror qrupu Daxili Qoşunların Zaqatalada yerləşən hərbi hissəsinə basqın edir;

**1268.** ***18avqust 2001-ci il:*** Erməni-daşnak faşizminin yetirməsi olan sadvalçı Murad Qurbanovun terror qrupu Rusiya işğalına qarşı Qafqaz xalqlarının azadlıq simvolu olan Şeyx Şamilin Zaqatala şəhərində qoyulmuş büstünü partladır;

**1269.** ***19avqust 2001-ci il:*** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu Zaqatala rayon polis şöbəsinə basqın edir. Altı polis əməkdaşı güllə yarası alır;

**1270.** ***20 sentyabr 2001-ci il:*** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu Katex kəndi ərazisində yerləşən yol polisi məntəqəsinə basqın edir. Bir mülki şəxs qətlə yetirilir;

**1271.** ***10 iyul 2002-ci il:*** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu «Şabalıdlı» restoranına basqın edir. Mülki şəxs - İsmayılov Anar həlak olur. İki sərhədçi yaralanır. Atışma zamanı Hacı Maqamedov öldürülür;

**1272.** ***30 oktyabr 2003-cü il:*** Erməni-daşnak faşizminin yetirməsi, sadvalçı Qurban Muradovun terror qrupu Azərbaycanın şimal bölgəsində iki evə və bir mağazaya basqın edir. Bir mülki şəxs qətlə yetirilir;

**1273.** ***Oktyabr 2003-mart 2002-ci il:*** Əvvəl Hacı Maqamedovun, sonra isə Murad Qurbanovun rəhbərlik etdiyi terror qrupu ötən müddət ərzində Azərbaycanın Şimal bölgəsində və Bakı şəhərində ayrı-ayrı iaşə və ticarət müəssisələrinə, evlərə çoxsaylı basqınlar təşkil edirlər. Qarət və soyğunçuluqla məşğul olurlar. Azərbaycanda siyasi sabitliyi pozmağa çalışsalar da buna nail ola bilmirlər;

**1274.** ***18 mart 2006-cı il:*** Daşnak terror birləşmələri Tərtərin «Torpaqtəpə» postuna basqın edirlər. Azərbaycan MO-nun 2 əsgəri həlak olur, bir nəfər isə güllə yarası alır;

**Qeyd:** 12 may 1994-cü ildə atəşkəs elan edilməsinə baxmayaraq demək olar ki, hər gün cəbhə xətlərindən atəş səsləri eşidilir. Azərbaycan MO əsgərləri snayper gülləsinə tuş gəlir, əsir götürülür, mülki şəxslərimiz minalara düşür, cəbhə boyu kəndlərimizin əhalisinə təsərrüfat işləri görmələrinə, mövsümi məhsul yığımını yerinə yetirmələrinə imkan verilmir, mal-qara örüş, otlaq sahələrində gülləbaran edilir. Hər il işğal zonasında qalmış torpaqlarımız alçaqcasına odlanır. Yanğınlar törədilir. Qazağın Məzəm, Ağstafanın Köhnə Qışlaq, Tovuzun Koxa Nəbi, Ağdam, Gədəbəyin adzıs yüksəklikləri, Goranboyun Tapqaraqoyunlu, Tərtərin Qapanlı, Çaylı, Xocavəndin Kropatkino, adsız yüksəklikləri, Ağdamın Yusifcanlı, Cavahirli, Füzulinin Aşağı Əbdürrəhmanlı, Qaraxanbəyli, Cəbrayılın Mehdili və s. cəbhə boyu sərhəd kəndlərimizin yaxınlığında yerləşən mövqelərdən Azərbaycan Silahlı Qüvvələrinin üzbəüz mövqeləri daim avtomat, pulemyot və qumbaraatanlardan atəşə tutulur;

**1275.** ***30 aprel 2009-cu il:*** Daşnak muzdlusu, Gürcüstan vətəndaşı Fərda Qədirov Bakı şəhərində, Dövlət Neft Akademiyasında terror aktı törədir.

17 nəfərin həyatına sui-qəsd edərək onları xüsusi amansızlıqla qətlə yetirir. 9 nəfər isə baş-kəllə nahiyəsindən güllə yarası alır;

**Qeyd:** Bu gün Dağlıq Qarabağ əhalisinin 40-50%-ni xaricdən bu regiona idxal edilən terrorçular, muzdlular və onların ailə üzvləri təşkil edir. Unutmayın ki, bu gün biz nizami Ermənistan ordusu ilə deyil, hərbiləşdirilmiş terror birləşmələri ilə üz-üzəyik!!!

## Söz ardı

Əziz oxucu, mənim burada haqlarında bəhs etdiyim terror aktlarının sayı və məzmunu erməni-daşnak faşistlərinin Azərbaycanın tarixi coğrafiyasında törətdikləri terror aktlarını tam miqyası və öz dəhşətləri ilə əks etdirmir. Mən sadəcə olaraq bu terror aktlarının tarixi baxımdan məlum sxemini cızmağa, bir çox hallarda ümumi mənzərəsini, mərhələlər üzrə başvermə dövrlərini, qabarıq şəkildə özünü göstərən hadisə və vəhşətlərin adını və qısa şərhini verməyə çalışmışam. Onun mükəmməl şəkildə işlənməsi, əhatə dairəsinin tamamlanması ayrıca bir institutun tədqiqat predmeti və təhqiqat obyekti ola bilər. Təkcə bir faktı burada qeyd edə bilərəm ki, 1988-1993-cü illərdə Qərbi Azərbaycan (Ermənistan), DQ və ətraf rayonlarda etnik təmizləmə siyasətini həyata keçirən erməni-daşnak faşistləri ötən yüz ildə Qərbi Azərbaycanda Azərbaycan türklərinin məskun olduğu 930 yaşayış məntəqəsini canlı aləmdən tədric edib, siyasi xəritədən adlarını silib çıxarıblar. Son mərhələdə isə Ulu Oğuz torpağında türksüz Ermənistan Respublikası qurublar. Azərbaycan Respublikasının 20% torpaqlarını bu gün işğal altında saxlayırlar. Düzən və Yuxarı Qarabağın 900 şəhər, kənd və qəsəbələrinin dinc, əliyalın əhalisini məcburi köçkünlük həyatı yaşamağa məhkum ediblər. Evini, doğma yurd-yuvasını tərk etməyən əhalini isə qətlə yetirib, türk soyqırımına məruz qoyublar. Bu isə elə ən azı 900 terror aktı deməkdir. Halbuki çar Rusiyasının Azərbaycanı işğal etmək məqsədi ilə apardığı 32 illik müharibə dövründə, habelə XIX əsrin II yarısında rus-türk müharibələri dövrlərində, ermənilərin Azərbaycan ərazisinə köçürülməsi prosesləri zamanı, 1905-1907, 1918-1920, 1948-53, 1988-1994-cü illərdə erməni-daşnak faşistlərinin türk soyqırımları, deportasiyalar törətdikləri dövrlərdə yüzlərlə yaşayış məntəqəsi bu sayaq canlı aləmdən təcrid edilib, insanları dədə-baba torpaqlarından, isti od-ocaqlarından didərgin salmaq üçün birər-birər yüzlərlə, bəlkə də minlərlə bu sayaq terror aktları törədilibdir. Bu baxımdan ermənilər və erməni-daşnak faşistlərinin törətdikləri terror aktlarının sırası saya gəlməzdir. Odur ki, Azərbaycanda erməni-daşnak faşistlərinin törətdikləri terror aktlarının xronologiyasının dəqiqləşdirilməsinə, onun dünya ictimaiyyətinə olduğu kimi, öz görüntüsü ilə təsvir edilməsinə, icmal şəklində çatdırılmasına ciddi ehtiyac vardır. Erməni-daşnak faşistlərinin Azərbaycan türklərinə qarşı törətdikləri vəhşiliklər, etnik təmizləmə və soyqırımı siyasəti Azərbaycan tarixinin tədqiq olunmamış sahələrindəndir. Bu kitabda başı min bir bəla çəkmiş Azərbaycan xalqının əsasən XX əsrdə ermənilər tərəfindən üzləşdiyi faciə və fəlakətlərin az-çox xronoloji təqvim tarixləri toplanmışdır. Vətənpərvərlik ruhu ilə yazdığım bu kitab gərgin axtarışlar və böyük zəhmət hesabına araya-ərsəyə gəlmişdir.Bu tarixin hələ çox vərəqləri açılmamış, ən müdhiş neçə-neçə səhifələri öz tədqiqatçılarını gözləyir. Çünki erməni-daşnak faşitlərinin gözlərimizlə gördüyümüz, qulaqlarımızla eşitdiyimiz, kitablardan oxuduğumuz, qəzetlərdən

məlumat aldığımız amansız, vəhşi, yırtıcı, əxlaqsız, insan nəslinə yaraşmayan hansı işgəncələrdən, iyrəncliklərdən istifadə etdiklərini, nədən istifadə etmədiklərini söyləməyə, birər-birər yazmağa qələmin gücü çatmır. Söz ardına əlavə edəcəyim son sözümə oxuculara xitabən müraciət edəcəyim və deyəcəyim son cümləmlə son vermək istəyirəm:

- Erməni-daşnak faşizminin, onun terror şəbəkəsinin cinayətlərini müdafiə edənlərə və bilib gizlədən kəslərə Allahın lənətləri olsun! - deyirəm.

**Əlavə 1**

## ERMƏNİ - DAŞNAK FAŞİZMİNİN BEYNƏLXALQ ALƏMDƏ TANINAN TERROR TƏŞKİLATI VƏ QRUPLARININ SİYAHISI

**1. «Erməni Milli Ordusu»** - 1988-1990-cı illərdə daşnak terror qruplarının bazasında yaradılan hərbi birləşmə;

**2. «David Sasunski»** - terror qrupu;

**3. «Vretarunet» (Qisasçılar)** - terror qrupu;

Bu qrup 1973-cü ildə Daşnaksütyun tərəfindən yaradılıb. 1980-1982-ci illərdə Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib;

**4. «Haydat» (Erməni məhkəməsi)** - terror təşkilatı;

**5. «Neytral dəstələr»** - terror təşkilatı;

**6. «Respublika «Nart» partiyasının müstəqil ordusu»** - həmin partiyanın öz bayrağı altında terror aktları və təxribatlar törədən silahlı terror qruplaşması;

**7. «MUŞ milli ittifaqı»** - terror təşkilatı;

**8. «Andronik terrorçular dəstəsi»** - terror qrupu;

**9. «Amaras» xeyriyyə cəmiyyəti** - terror qrupu;

**10. «Novaya Armeniya» partiyasının silahlı dəstəsi** - terror qrupu;

**11. «İnqilabçı daşnaklar»** - terror təşkilatı;

**12. «İnqilabçı ermənilər ittifaqı»** - terror qrupu;

**13. «Kəndli azadlığı»** - terror təşkilatı;

**14. «BirIəşir Ştatların şərq erməniləri»** - terror qruplaşması;

**15. «Kilikiya» -** terror qrupu;

**16. «Jirair»** - terror qrupu;

**17. «Ermənistanın müdafiəçisi»** - terror təşkilatı;

**18. «Gənc erməni daşnakları»** - terror təşkilatı;

**19. ASALA (Ermənistanın azadlığı uğrunda mübarizə aparan gizli erməni ordusu)** - terror təşkilatı;

**ASALA -** Beynəlxalq aləmdə ən çox səs salan, ad çıxaran və türk diplomatlarına qarşı sui-qəsdlər təşkil edən erməni-daşnak faşistləri tərəfindən yaradılan, SSRİ keqebesindən xeyir-dua alan və müdafiə edilən Beynəlxalq terror təşkilatıdır. 1975-ci il yanvar ayının 20-də Livan erməniləri Hakop Hakopyan və Bedros Ovanesyan tərəfindən təsis edilib. «Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu» ifadəsinin ingiliscə yazılışının abreviaturasıdır (Armenian secret army for liberation of Armenia). «Arminfo» Ermənistan xəbər agentliyi özünün 10 sentyabr 2003-cü il tarixli məlumatında xəbər verir ki, Ermənistan Jurnalistlər İttifaqında mətbuat konfransı keçirən ASALA rəhbərləri bildiriblər ki, ASALA indiyə kimi Livanda fəaliyyət göstərib. Guya onun fəaliyyəti sırf siyasi xarakter daşıyır. İndisə ASALA Ermənistan hökuməti tərəfindən rəsmən qeydə alınıb və siyasi təşkilat olması bəyan edilib. Daha bir

erməni məkri öz iç üzünü açır. Xüsusi bir iyrəncliklə beynəlxalq terror təşkilatının fəaliyyəti qanuniləşir. ER tərəfindən beynəlxalq terror müdafiə edilir;

**20. MAQ** - terror təşkilatı;

**21. «Erməni İttifaqı»** - terror qruplaşması;

Bu qrub 1988-ci ildə Moskvada yaradılıb. ASALA ilə sıx əlaqəsi var. Bu qrup Dağlıq Qarabağa silah və muzdluların ötürülməsini təmin edir.

**22. «Erməni Azadlıq Cəbhəsi»** - terror qruplaşması;

Bu qrup 1979-cu ildə yaradılıb. ASALA-nın tərkib hissəsidir.

**23. «Kazis assosiasiyası»** - bu ad altında Pyatiqorsk şəhərində fəaliyyət göstərən terror mərkəzi;

**24. «Vrej» (İntiqam)** - terror qruplaşması;

**«Vrej»** - I Dünya müharibəsindən sonra Daşnaksütyun tərəfindən yaradılıb. İlkin olaraq bu terror qrupu öz fəaliyyətində Türkiyənin «gənc türklər» və AXC hökumət başçılarının adlarının daxil edildiyi siyahı üzrə 200 nəfər ictimai xadimin məhv edilməsi planını qarşısına məqsəd qoyub;

**25. «Dro (I)»** - terror qrupu;

Bu qrup Daşnaksütyun tərəfindən yaradılıb. Qrupun DRO-8, DRO-88, DRO-888, DRO-8888 kimi bölmələri vardı;

**26. «Cavakx»ın fədainləri»** - terror təşkilatı;

**27. «Erməni soyqırımı ədalət komandosları»** - terror qruplaşması;

Bu qrup "YCAQ" kimi də adlanır, Qrup 1972-ci ildə Vyanada Daşnaksütyun partiyasının qurultayında yaradılıb. Məqsədi erməni əsilli livanlı gəncləri hərbi birləşmələrdə cəmləməkdir.

**28. «Erməni inqilab ordusu»** - terror təşkilatı;

**29. «Erməni xalq hərəkatı»** - terror təşkilatı; **«Erməni xalq hərəkatı»** - Yunanıstan hökumətinin köməyi ilə yaradılan erməni-daşnak mənşəli terrorçuları birləşdirən təşkilatdır;

**30. «Yanikyan dəstəsi»** - terror qrupu;

**31. «Mets Tiqran»** - terror qrupu;

**«Mets Tiqran»** - Ermənistan SSP-lə Kəlbəcər və Laçın rayonunun həmsərhəd ərazilərində ən güclü və intensiv şəkildə fəaliyyət göstərən terror qrupu olub. 21 iyun 1991-ci il tarixdə Laçının Əriməz dağı yaylağındakı terror aktını da məhz bu qrup törətmişdir;

**32. «Zorik»** - terror qrupu;

**«Zorik»** - İnsanlıq simasını itirmiş, türk olana qarşı zooloji nifrət bəsləməsini gizlətməyən, daşnak manyakı Zori Balayanın təşəbbüsü ilə yaradılan və bu məlunun şərəfsiz adıyla adlandırılan terror qrupudur. Bu qrup ən çox bu məlunun anadan doğulduğu Xocavənd rayonu ərazisində çox saylı terror aktları törədilibdi;

**33. DQ MO** - Beynəlxalq aləmdə tanınan erməni terror təşkilatlarının və yerli daşnak terror qruplarının bazasında yaradılan hərbiləşmiş terror birləşməsi;

**34. «Yeni erməni dirənişi»** - terror təşkilatı;

Bu təşkilatın abbreviaturası "NAR"-dır. 1977-ci ildə yaradılıb.

**35. AİKA** - terror təşkilatı;

**36. «Qarabağ»** - terror qrupu;

1991-ci il dekabrın 23-də məhz bu qrup tərəfindən Yuxarı Qarabağda Meşəli qətliamı törədilmiş, kəndin varlığı yer üzündən silinmişdir;

**37. «Qaflan»** - terror qrupu;

Bu terror qrupunun Özülü Suriyada qoyulub. Fəaliyyətini ən çox Xocalı soyqırımında göstəribdi;

**38. «Erməni milli azadlıq hərəkatı»** -terror qrupu;

Bu qrup 1991-ci ildə Fransada yaradılıb. Terror aktlarını ASALA ilə sıx və əlaqəli şəkildə həyat keçirir;

**39. «Yevangiley»-** terror qrupu;

Qrup snayperçi qadınlardan təşkil olunub. Qrupun 14 nəfərdən ibarət üzvü var. Adını qrupa başçılıq edən Yevangiley Abramovna Voskanyanın adından götürüb;

**40. «Laura» - terror qrupu;**

Qrup snayperçi qadınlardan təşkil edilib. Adını qrupa başçılıq edən Laura Gevorkovna Lalayanın adından götürüb;

**41. «Müqəddəs Sultan-Karapet»-terror** qrupu;

**42. «Vartan cangavərləri»-terror** qrupu;

Bu qrup Xocalı soyqırımında fəal iştirak edib;

**43.** «Xaç gəzdirənlər» - terror qrupu;

Başçısı Noyenberyan sakini Ohanes Davidoviç Bəyləryandır. Qazax rayonunun Boğanis-Ayrım kəndindəki terror aktını məhz bu qrup törədib;

**44.** «Çeqakron-terror qrupu;

Qrup Şuşanın Malıbəyli kəndində fəaliyyət göstərir. Başçısı Vartan Aruşanyandır. Bu qrup 2001-ci ilin fevralında ASALA tərəfində yaradılıb. Məqsədi Cənubi Qafqazda və Orta Asiyada türk mənşəli siyasi liderləri, diplomatları və biznesmenləri terror aktları ilə aradan götürməkdir;

**45. «Yevkrapa»** - terror qrupu;

Qrup 12 iyun 1992-ci ildə formalaşıb. Əl-Qaidənin «055» saylı briqadasının üzvləri ilə iş birliyi yaradıb;

**46. «Müqəddəs erməni vətən birliyi»** - terror təşkilatı; Təşkilat 3 dekabr 1989-cu ildə daşnak Emin Aydınyan tərəfindən Xartumda yaradılıb. 19 aprel 1992-ci ildən Laçının Hacılar kəndində müstəqil fəaliyyət göstərir;

**47. «13-lər»** - terror təşkilatı;

Təşkilat daşnak Sirus Badamçıyan tərəfindən 24 may 1989-cu ildə ABŞ-ın Koliforniya və Nyu-Cersi ştatlarında yaradılaraq DQ-a göndərilib;

**48.** «CSAQ» - terror təşkilatı;

Bu təşkilat 20 yanvar 1981-ci ildə açıq fəaliyyətə keçib. Los-Ancelesdəki türk konsulluğuna basqın edib;

**49. «Çöl quşları»** - terror qrupu;

Qrup Argentinadan gətirilmiş, muzdla tutulmuş sinayperçi qızlardan təşkil olunub;

**50. «Vahan Ovanesyan+31»** - terror qrupu;

**51. «Qayıdan qəhrəmanlar»** - terror qrupu;

Qrupa Beyrut ermənisi Orlik Andrianoviç Ter-Qriqoryants başçılıq edir;

**52. «Milli dirçəliş təşkilatı»** - terror qrupu;

Qrupa daxil olan terroçular günü bu gün də təmas xəttində qızğın fəaliyyət göstərir. Qrupun rəhbəri sinayperçi qadın Elvira Qalustyandır;

**53. «Qara Qartalın Akopu»** - terror qrupu;

**54. «Qızıl xaç - 2»** - terror təşkilatı;

**55. «Şimali Ərsak»** - terror təşkilatı;

**56. «Apostol»** - terror təşkilatı;

Bu terror təşkilatı 2001-ci il aprelin 29-da Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılıb. Məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir;

**57. «Orli qrupu»** - terror təşkilatı;

Bu terror təşkilatı 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. 1980-ci illərdə dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı törədib;

**58. «Demokratik cəbhə»** - terror təşkilatı;

Bu terror təşkilatı ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi Türkiyə Respublikasını parçalamaqdan ibarətdir;

**59. «Erməni azadlıq hərəkatı»** - terror qrupu;

Bu qrup "AOD" da adlanır. 1991-ci ildə yaradılıb:

**60. «Klukin erməni cəbhəsi»** - terror qrupu:

Bu qrup snayperçilərdən təşkil edilib;

**61. «Şuşanik»** - terror qrupıı;

Bu qrup snaypercilərdən təşkil edilib;

**Əlavə 2**

## ERMƏNİ-DAŞNAK FAŞİZMİNİN BEYNƏLXALQ ALƏMDƏ AD ÇIXARMIŞ TERRORÇULARININ SİYAHISI

1. **Vazgen Sislyan** - Fransa vətəndaşı, ASALA terrorçusudur. 1981-ci ildə Parisdə Türkiyə səfirliyinin tutulmasında, Parisin Usman məhəlləsində 1991-ci ilin sentyabr ayında 60 girovu ələ keçirmək aksiyasında, 1991-ci ilin dekabr ayında Budapeştdə Türkiyə səfiri Bədrəddin Tünbaşa qəsddə iştirak edən qatildir. 34 yaşlı bu terrorçu Livandan turist adıyla İrəvana gəlib. 1992-ci ilin yanvar ayında oradan vertolyotla Xankəndinə göndərilib. Xocalı soyqırımında iştirak etməsi, burada ikigünlük türk çağalarını öldürməsiylə fəxr edir. «Moskovskiye novosti» qəzetinə verdiyi müsahibəsində bəyan edir ki, beynəlxalq diqqəti «erməni məsələsi»nə cəlb etmək üçün zorakılıq siyasəti aparmağın (əsl daşnak xisləti) böyük əhəmiyyəti var. Ermənistan prezidenti R.Köçəryan tərəfindən Vazgen Sislyan Xocalı soyqırımında törətdiyi vəhşiliklərə görə Qarabağ müharibəsinin «qəhrəmanı» elan edilib;
2. **Monte Melkonyan** - ABŞ vətəndaşı, 1975-ci ildən fəaliyyətdə olan ASALA terror təşkilatının yaradıcısı Hakop Hakopyanın ölümündən sonra həmin beynəlxalq terror təşkilatına başçılıq edib. Peşəkar terrorçu olub. Məşhur beynəlxalq İspan terrorçusu Karlosun şagirdi sayılır. Livanda terrorçular hazırlayan məktəbdə təlim keçib. Həmkarları arasında partlayıcı qurğuların hazırlanması və ondan istifadə üzrə mütəxəssis kimi ad çıxarıb. 1990-cı ildə İrəvana gəlib, Dərhal gizli yolla İrəvandan Qarbağa göndərilib. Məlun Z.Balayanın dəstəyi ilə yaradılan və onun şərəfinə «Zorik» adlanan terror qrupu ilə Azərbaycan Respublikasının ali hakimiyyət nümayəndələrinin uçduğu vertolyotun Qarakənd səmasında vurulması kimi terror aksiyasını həyata keçirənlərdən biri olub. Sonra isə DQ-da səhra komandiri kimi fəaliyyətini davam etdirib. O, 1993-cü ildə Azərbaycan MO-nun hərbi hissələri ilə döyüş zamanı cəhənnəmə vasil edilibdi. Meyiti İrəvana aparılıb. Onun dəfn mərasimində R.Köçəryan başda olmaqla bütün rəsmi şəxslər iştirak edib. M.Melkonyan ER-nın milli qəhrəmanı adına layiq görülüb. Ermənistan Respublikası MN-nin nəznindəki təxribatçılıq məktəblərindən birinə onun adı verilib;
3. **Varujan Karapetyan** - Suriya vətəndaşı, ASALA terrorçusudur. 1983-cü ilin iyun ayında Fransanın Orli aeroportunda partlayış törədib. 1988-ci ildə Ermənistan SSR hökumətinin və erməni diasporunun dəstəyi ilə Fransa hükuməti tərəfindən əfv olunub. O, həbsdən azad edilərək İrəvana göndərilib. V.Karapetyanın təşkilatçılığı və rəhbərliyi altında yaradılan daşnak terror qrupları onun rəhbərliyi və bilavasitə özünün iştirakı ilə Ermənistan ərazisində azərbaycanlılara qarşı çoxsaylı təxribat aksiyaları planlaşdırılıb və həyata

keçirilibdi. Monoetnik Ermənistan Respublikasının yaradılmasında fəal iştirak edib. Dinc, əliyalın, təhlükəsiz Azərbaycan türklərinin yurd-yuvalarından didərgin salınmalarında, Qərbi Azərbaycandan qovulmalarında əvəzsiz xidmətlər göstərib. 1989-cu ildə isə İrəvandan DQ-a ötürülüb. Burada da Azərbaycan türklərinin zorakılıqlara düçar edilmələrində, qətlə yetirilmələrində, etnik təmizləmə siyasətinin həyata keçirilməsində yaxından iştirak edib;

**4. Qrant Markaryan** - İran vətəndaşı, «Dro (1)» terror təşkilatının fəalı, ARFD - nin büro üzvü. Saxta sənətlərlə əvvəl İravana, oradan isə 1991-ci ildə DQ-a göndərilib. Burada dinc, təhlükəsiz, əliyalın azərbaycanlılara qarşı çoxsaylı terror aktları həyata keçirib. O, R.Köçəryan tərəfindən Qarabağ müharibəsinin «qəhrəmanı» elan edilib;

**5. Davityan** - Livan vətəndaşı, ASALA terrorçusudur. R.Köçəryan tərəfindən Qarabağda səhra komandiri vəzifəsinə təyin edilib. Xocalı soyqırımının fəal iştirakçısı olub. Habelə Şuşa və Laçında bir sıra terror aktları həyata keçirib. Bu bölgələrdə dinc, əliyalın əhalinin isti od-ocağından zorakılıqla məcburi köçkün düşmələri üçün aparılan qətliamların və təxribatların fəal iştirakçılarından, terror aktlarının törədicilərindən biri olub;

**6. Hilbert Minasyan** - Yaxın Şərq mənşəli terrorçudur. DQ-da dinc, əliyalın Azərbaycan türklərinin bir çox yaşayış məntəqələrində qətliamlar törədib. Azərcaycanlılar yaşayan kəndlərin dağıdılmasında, yerlə-yeksan edilməsində bilavasitə iştirak edib;

7. **Əbu Əli** - Yaxın Şərq mənşəli terrorçu; DQ-dakı Azərbaycan türkləri yaşayan kəndlərin dağıdılması, əhalisinin zorakılıqlara məruz qoyulması və qətlə yetirilməsində öz amansızlığı iə fərqlənib. Binəsiblərin isti od-ocağından didərgin salınması aksiyalarında fəal iştirak edib;

**8. Vahan Ohanesyan** - «DRO (1)» terrorçusudur. ARFD - nin lideri olub. DQ döyüşlərində bilavasitə iştirak edib. Sonra isə Ermənistan Respublikası prezidentinin müşaviri vəzifəsinə irəli çəkilib. R. Köçəryanın əlaltısı olub;

9. **Asin Simonyan** - ASALA terrorçusudur. Məlum Qarabağ hadisələri başlayan zaman rəhbəri olduğu 16 nəfərlik ASALA üzvü olan terrorçulardan ibarət öz qrupu ilə birgə Xankəndinə gəlib. Ən fəal terror qrupunun üzvü kimi terrorçuları döyüşlərə qatılıb;

**10. K. Marselyan** - ASALA terrorçusu, öz terror qrupu ilə 1990-cı ildə İrəvana gəlir. 1991-ci ildə öz qrupu ilə birgə «Qarabağ komitəsi»nin sərəncamında olan vertolyotla Dağlıq Qarabağa ötürülür. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin canlı aləmdən təcrid edilməsi kimi terror aktlarının həyata keçirilməsində fəal iştirak edib;

**11. İllarion Allahverdiyan** - «ASALA» terrorçusu; Xocalı soyqırımının təşkilində və törədilməsində xüsusi fəallığı ilə seçilib;

**12. Suren Paşayan** - «Haydat» terrorçusu; Fransa vətəndaşıdır; Qeyd etmək lazımdır ki, təkcə Fransadan 400 daşnak terrorçusu DQ döyüşlərində iştirak edib;

**13. Qabriel İşxanyan** - «Vartan cəngavərləri» qrupunun terrorçusu, Fransa vətəndaşıdır. Qrupun Vyana bölməsinin rəhbəri olub;

**14. Orlik Andrianoviç Ter-Qriqoryants** - «Qayıdan qəhrəmanlar» terror qrupuna başçılıq edir. Livan vətəndaşıdır;

**15. Romb Qalakçiyan** - Livan vətəndaşı, Xocalını bombalayan 39 saylı vertolyotun pilotu olub;

**16. Razdan Minoyan** - Suriya vətəndaşı, Xocalını bombalayan 40 saylı vertolyotun pilotu olub;

**17. S.Primyan** - Yaxın Şərq mənşəli terrorçu, Qarabağ döyüşlərindəki fəallığına görə «Qızıl xaç» ordeninə layiq görülüb;

**18. Z.Əl-Məhəmməd** - Yaxın Şərq mənşəli terrorçu, Qarabağ döyüşlərindəki fəallığına görə «Qızıl xaç» ordeninə layiq görülüb;

**19. Qriqori Əsriyan** - Beynəlxalq axtarışda olan terrorçu, Qarabağda və bir sıra ölkələrdə terror aktları həyata keçirib. 16 aprel 2002 - ci ildə RF - da saxlansa da, qeyri-müəyyən səbəblərdən azadlığa buraxılıb;

**20. Jirair Səfilyan** - Livan vətəndaşı, ASALA terrorçusudur;

**21. Q. Sərkisyan** - Livan vətəndaşı, ASALA terrorçusudur;

**22. X. İvanyan** - Gürcüstan vətəndaşı, "Cavakx" terrorçusudur;

**23. M. Qəribyan** - Gürcüstan vətəndaşı, "Cavakx" terrorçusudur;

**24. P. Gevondyan** - Rusiya vətəndaşı, "Erməni ittfaqı" təşkilatının terrorçusudur;

**Qeyd:** Nə qədər ki, beynəlxalq aləmdə tanınan bu terrorçular Azərbaycan torpaqlarında meydan sulayır, biz heç vaxt sülh və əmin-amanlıqdan danışa bilmərik!!!

**Əlavə 3**

## ERMƏNİ-DAŞNAK FAŞİSTLƏRİNİN TERROR AKTLARINI FOTOLAR İTTİHAM EDİR:

**Qeyd:** "böyük Ermənistan" deyilən bir qurum sözün əsl mənasında saxta erməni tarixçilərinin uydurduqları kimi deyil, yəni o, böyük bir ərazini əhatə etmirdi, yalnız kiçik bir yarımmüstəqil çarlıqdan və yaxut da vassal asılılığında olan bir vilayətdən ibarət olmuşdur. Bu ad siyasi məna kəsb etməmiş, yalnız coğrafi termin anlamında işlənmişdir. "böyük Ermənistan" adı altında üç dəniz arası ərazilərin nəzərdə tutulması ideyası isə XIX əsrin son rübündən başlayaraq bəzi erməni kilsə nümayəndələrinin və sonra isə siyasi meydana atılan Daşnaksütyun faşist partiyasının tədricən milli ideologiya səviyyəsinə qaldırdığı və psixoz erməni şüuruna yeritməyə çalışdığı demaqogiyadan başqa biv şey deyildir.

## ƏLİSAHİB ƏROĞULUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI

**1.** Əlisahib İsrafilzadə. "At oğrusu" (povest və hekayələr). Bakı, "Gənclik", 1992-ci il. 88 səh., tirajı 4000;

**2.** Əlisahib İsrafilzadə. "Sızıntılarım və sızıltılarım" (bədii publisistika). Bakı, "Ekologiya", 1996-ci il. 148 səh., tirajı 1000;

**3.** Əlisahib İsrafilzadə. "Leyləklər yuvasına qayıdacaqmı" (Qarabağ hekayələri). Bakı, "Ekologiya",1996 -cı il. 128 səh., tirajı 1000;

**4.** Əlisahib İsrafilzadə. "Boğanaq" (povest və hekayələr). Bakı, "Ekologiya",1997 -cı il. 151 səh., tirajı 500;

**5.** Əlisahib İsrafilzadə. "Gürzə gözü" (roman). Bakı, "Ekologiya", 1998-ci il. 232 səh., tirajı 1000;

**6.** Əlisahib ƏROĞUL. "Torpaq ətirli insan" (bədii publisistika). Bakı, "Ekologiya", 2002-ci il. 192 səh., tirajı 200;

**7.** Əlisahib ƏROĞUL. "Yəhya çələbi-haqq dünyamızın işığı" (bədii publisistika). Bakı, "Ekologiya", 2002-ci il. 164 səh., tirajı 500;

**8.** Əlisahib ƏROĞUL. "Tiqana" (hekayələr toplusu). Bakı, "Ekologiya", 2002-ci il. 392 səh., tirajı 300;

**9.** Əlisahib ƏROĞUL. "İki gövhər-iki inci" (bədii publisistika). Bakı, "Ekologiya", 2003-ci il.488 səh., tirajı 1000;

**10.** Əlisahib ƏROĞUL. "Böyük Nazar" (roman). Bakı, "Ekologiya", 2005-ci il. 307 səh., tirajı 300;

**11.** Əlisahib ƏROĞUL. "Cəbrayılım-müqəddəs torpaq" (bədii publisistika). Bakı, "Ekologiya", 2006-ci il. 412 səh., tirajı 300;

**12.** Əlisahib ƏROĞUL. "Erməni-daşnak faşizmi və Azərbaycan" (bədii publisistika). Bakı, "Təhsil", 2007-ci il. 410 səh., tirajı 500;

**13.** Ali Sahip EROĞUL. "Kemik dökülen Dere" (Karabağ hikayeleri). İstanbul, Ufuk Ötesi Yayınları, 2007-ci il. 242 səh., tirajı 1000;

**14.** Əlisahib ƏROĞUL. «Boz adam» (seçilmiş əsərləri). Bakı, «Təknur», 2008-ci il. 535 səh., tirajı 500;

**15.** Əlisahib ƏROĞUL. "Cəbrayıl ziyarətgahları" (bəddi publisistika). Bakı, «Təknur», 2009-cu il. 100 səh., tirajı 500;

**16.** Əlisahib ƏROĞUL. "Qazanxan yurdu Qazanzəmi" (bədii tədqiqat əsəri). Bakı, «Təknur», 2009-cu il. 260 səh., tirajı 500;

**17.** Əlisahib ƏROĞUL. "Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası" (bədii, tarixi publisistika). Bakı, «Təknur», 2009-cu il. 200 səh., tirajı 500;

**İnternet ünvanı: www.alisahib.com**

# KİTABIN İÇİNDƏKİLƏR

QARABAĞ HARAYI!!! ....................................................................... 3
AÇIQLAMA ....................................................................................... 5
AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASl ...................................................... 6
Söz ardı ........................................................................................ 132
Əlavə 1 ......................................................................................... 134
Əlavə 2 ......................................................................................... 138
Əlavə 3 ......................................................................................... 141
ƏLİSAHİB ƏROĞULUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI 142

Mətbəənin direktoru: Ələkbər Məmmədov
Dizayner: Rza Səttarov
Kompüter tərtibatçısı və operatoru: Günel Asif qızı

Təknur

Çapa imzalanmışdır: 10.11.2009
Kağız formatı: 60x84 1/16
Həcmi: 12,5 ç.v.
Tirajı: 500

Təknur MMC-nin mətbəəsində çap edilmişdir
Ünvan: H.Cavid 31



Erməni məktəblərində tədris edilən saxta "böyük Ermənistan" xəritəsi





Qubada aşkar edilmiş toplu məzarlar (may 1918-ci il Quba qətliamı)



Erməni-daşnak faşistlərinin 1918-ci ildə Qubada törətdikləri
azərbaycanlıların soyqırımına əks etdirən canlı xəritə muzeyi





Erməni-daşnak faşistlərinin qurbanına
çevrilmiş Ağadədə qəbiristanlığı (1988-ci il)





Daşnak terrorçuları tərəfindən partladılmış Tiflis-Bakı sərnişin avtobusu,
həlak olmuş 3 yaşlı Azər Musayev (16.09.1989)



Daşnak terrorçuları tərəfindən Qaradağlı kəndinin fermasında qətlə yetirilib yandırılan malabaxanların cəsədləri (28.06.1991)



Daşnak terrorçuları tərəfindən Şuşa-Ağdam magistralında partladılmış Ağa körpüsü (30.11.1990)

Daşnak terrorçuları tərəfindən Dağıstan ərazisində partladılmış Bakı-Moskva sərnişin qatarı (31.07.1990)







Qatarda həlak olmuş 7 aylıq amilə məmmədova və vaqonda yanmış sərnişinin cəsədi





Xocalı soyqırımı insan ağlının qəbul etmədiyi vəhşilikdir (26.02.1992)
Uşaqlar, qocalar, qadınlar məhv edilir.

# AZƏRBAYCAN TORPAQLARININ 20%-İ ERMƏNİ-DAŞNAK FAŞİSTLƏRİNİN İŞĞALI ALTINDADIR:

